

*Biz döyüş meydanında gücümüzü göstərdik,*
*həm düşmənə, həm də bütün dünyaya.*
*Döyüş meydanında göstərdiyimiz güc və onun*
*mənbəyi Azərbaycan xalqının iradəsidir,*
*Azərbaycan xalqının istedadıdır və*
*bizim əldə etdiyimiz uğurlardır.*

*Yaşasın Azərbaycan Ordusu!*

*Yaşasın Azərbaycan xalqı!*

*Qarabağ Azərbaycandır!*

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2020**
**3 (71)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2020**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*


**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova***



*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2020, №3(71).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2020, 336s.*



*© Dövlət İdarəçilik Akademiyası, 2020*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2020
3 (71)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2020

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2020, №3(71)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2020, 336p.*

*© Academy of Public Administration, 2020*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*İyul – avqust – sentyabr 2020-ci il*

## İyul

**1 iyul**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampı təbrik etmişdir.

**2 iyul**

- Əfqanıstan Prezidentinin təşəbbüsü ilə təşkil olunan Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə videokonfrans vasitəsilə keçirilən birgə görüşdə iştirak və çıxış etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, Rusiyada vətəndaşların böyük əksəriyyətinin Konstitusiyaya dəyişikliklərin lehinə səs verməsi münasibətilə ona təbriklərini çatdırmış və iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı ilə bağlı məsələləri onunla müzakirə etmişdir.
- Rusiya Federasiyasının Konstitusiyasına dəyişikliklərin bəyənilməsi məsələsinə dair ümumrusiya səsverməsinin uğurla başa çatması münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putini təbrik etmişdir.

**6 iyul**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak etmişdir.
- Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və «Xəzər» Televiziyasına müsahibə vermişdir.
- Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevə telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona möhkəm cansağlığı və Qazaxıstanın inkişafı naminə fəaliyyətində yeni uğurlar arzulamışdır.

**8 iyul**

- BMT-nin Baş katibi Antonio Quterreşə telefonla zəng edərək, Azərbaycanın COVID-19 pandemiyasına qarşı mübarizədə Baş katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəkləyidiyini bildirmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Monqolustanın Prezidenti Xaltmaa Battulqanı təbrik etmişdir.

**9 iyul**

- Bakının Nizami rayonunda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/10 kilovoltluq «8-ci km» yarımstansiyasının açılışında iştirak etmişdir.

**10 iyul**

- Monteneqronun milli bayramı münasibətilə Prezident Milo Cukanoviçi təbrik etmişdir.
- Fransa Respublikasının milli bayramı münasibətilə Prezident Emmanuel Makronu təbrik etmişdir.

**13 iyul**

- Onun sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında çıxış etmişdir.

**15 iyul**

- Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına iclasına sədrlik etmişdir. İclasda giriş və yekun nitqi söyləmişdir.
- Döyüş zamanı müdafiənin ön xəttində olarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimovun anası Səmayə xanımla və polkovnik İlqar Mirzəyevin oğlu Elvinlə telefonla danışmış, şəhidlərin ailə üzvlərinə dərin hüznlə başsağlığı vermiş, onlara Allahdan rəhmət və səbir diləmişdir.
- Qardaş Pakistanın Azərbaycanın haqq işində daim göstərdiyi həmrəyliyə görə Pakistan İslam Respublikasının Prezidenti Arif Alviyə təşəkkürünü bildirmişdir.
- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Türk Şurasının 2020-ci il 14 iyul tarixli bəyanatına görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür etmişdir.
- İslam Əməkdaşlıq Təşkilatının 2020-ci il 14 iyul tarixli bəyanatında Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələr nəticəsində həlak olan Azərbaycan vətəndaşları ilə bağlı göndərdiyi başsağlığına və Ermənistanın təcavüzkar siyasətinə verilən obyektiv qiymətə görə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osayminə təşəkkür etmişdir.
- Azərbaycan və Ermənistanın dövlət sərhədində baş vermiş hadisələr zamanı ordumuzun hərbçiləri və mülki vətəndaşımızın həlak olması ilə bağlı göndərdiyi başsağlığına və Türk Şurasının məsələ ilə bağlı

obyektiv mövqeyinə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevə təşəkkür etmişdir.

- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Türk Şurasının 2020-ci il 14 iyul tarixli bəyanatına görə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə təşəkkür etmişdir.

**16 iyul**

- Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Sabunçu rayonunda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin (ASC) yeni tikilən «Böyükşor» yarımstansiyasının açılışında iştirak etmişdir.

**18 iyul**

- Polşa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Polşa Respublikasının Prezidenti Andjey Dudanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Belçikanın Kralı Əlahəzrət Filipi təbrik etmişdir.

**21 iyul**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşmüş, görüşdə çıxış etmişdir.

**23 iyul**

- Onun yanında keçirilən su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirədə giriş və yekun nitqi söyləmişdir.

**24 iyul**

- Ermənistanın qəfil və xain hücumu nəticəsində ordumuzun hərbçiləri və mülki vətəndaşımızın həlak olması ilə bağlı göndərdiyi başsağlığına və ölkəsinin son hadisələrlə bağlı obyektiv mövqeyinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçə minnətdarlığını bildirmişdir.

**26 iyul**

- Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.

**27 iyul**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Peru Respublikasının Prezidenti Martin Vizkarra Kornexonu təbrik etmişdir.

**28 iyul**

- Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**29 iyul**

- Qobustan rayonuna səfərə gəlmişdir.
- Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Qobustanda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışında iştirak etmişdir.
- Bakı-Şamaxı-Muğanlı-İsmayıllı–Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı–Qəbələ hissəsinin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.
- İsmayıllı rayonuna səfəri zamanı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- İsmayıllının Basqal kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «DOST Evi» Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- İsmayıllı rayonunda Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- İsmayıllıda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışında iştirak etmişdir.
- Balakən rayonuna səfərə gəlmişdir.
- Balakən şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Balakən şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışında iştirak etmişdir.
- Balakən regional «ASAN xidmət» mərkəzinin açılışında iştirak etmişdir.
- Sonra mərkəzdə yaradılan şəraitlə tanış olmuşdur.
- Mərkəzlə tanışlıqdan sonra ASAN könüllüləri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Daha sonra «ASAN xidmət» mərkəzi üçün alınan və Gəncə avtomobil zavodunun istehsalı olan «MAZ» markalı avtobuslara baxmışdır.
- «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin açılışında iştirak etmişdir.
- Sonra Prezident İlham Əliyev şəhərin kommunal təsərrüfatı üçün alınan texnikaya baxmışdır.
- Yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak etmişdir.
- Tədbir çərçivəsində Balakən rayonunun Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun yenidən qurulması layihəsi barədə görülən işlərlə də tanış olmuşdur.
- Balakən rayonunda «Bal meyvə» bağçılıq təsərrüfatı ilə tanış olmuşdur.
- Şəkidə səfərdə olmuşdur.
- Xalqımızın Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

- Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxanada yaradılan şəraitlə tanış olmuşdur.
- Xəstəxana ilə tanışlıqdan sonra həkimlərlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Qəbələ rayonunda da səfərdə olmuşdur.
- Xalqımızın Ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində Qəbələdə də quraşdırılan modul tipli xəstəxana kompleksində yaradılan şəraitlə tanış olmuşdur.
- Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Sonra Vəndam kəndində doğulmuş general Polad Həşimovun xatirəsinin əbədiləşdirilməsi üçün Qəbələnin küçələrinin birinə onun adının verilməsi və digər müvafiq tədbirlər görülməsi barədə tapşırıqlar vetmişdir.

**30 iyul**

- Onun tapşırığı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Azərbaycana gətirilən yeni təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.
- Ölkəsinin milli bayramı – Taxt-tac günü münasibətilə Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədi təbrik edtmişdir.

**31 iyul**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, Müqəddəs Qurban bayramı münasibətilə ona möhkəm cansağlığı və Türkiyə xalqına firavanlıq arzularını çatdırmış, eyni zamanda ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə uğurlu inkişafının perspektivləri ilə bağlı məsələləri müzakirə etmişdir.
- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ona telefonla zəng edərək, onu və Azərbaycan xalqını Müqəddəs Qurban bayramı münasibətilə təbrik etmiş, eyni zamanda nəqliyyat, logistika, telekommunikasiya sahələrində uğurlu münasibətlərin perspektivlərini müzakirə edərək Lapis-Lazuli nəqliyyat dəhlizinin Azərbaycanın nəqliyyat infrastrukturuna birləşdirilməsinin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğulamışdır.
- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqanı təbrik edtmişdir.
- Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevə telefonla zəng edərək, Müqəddəs Qurban bayramı münasibətilə ona möhkəm cansağlığı, Qazaxıstan xalqına firavanlıq arzulamış, eyni zamanda Ermənistan-Azərbaycan sərhədində Ermənistanın təxribatı nəticəsində baş vermiş hadisələrlə bağlı Nursultan Nazarbayevin fəxri sədr olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Azərbaycana dəstək ifadə edən bəyanatını yüksək qiymətləndirmiş, bunu türkdilli dövlətlərin bir-birinə qarşılıqlı dəstəyinin növbəti təzahürü kimi dəyərləndirmişdir.
- Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ona telefonla zəng edərək, Müqəddəs Qurban bayramı münasibətilə onu və Azərbaycan xalqını Müqəddəs Qurban bayramı münasibətilə təbrik etmiş, eyni zamanda Ermənistan-Azərbaycan sərhədində Ermənistanın təxribatı nəticəsində baş vermiş toqquşmalarda Azərbaycan hərbçilərinin və mülki şəxsin həlak olması ilə bağlı başsağlığı vermiş, Əfqanıstanın bu məsələdə Azərbaycanın yanında olduğunu vurğulamışdır.

## Avqust

**4 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Yasamal rayonunda salınacaq meşə tipli yeni parkda görüləcək işlərlə tanış olmuşdur.

**6 avqust**

- Ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirmişdir. Müşavirədə giriş və yekun nitqi söyləmişdir.

**8 avqust**

- Ölkəsinin milli bayramı münasibətilə Sinqapur Respublikasının Prezidenti xanım Həlimə Yaqubu təbrik etmişdir.

**10 avqust**

- Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda «Qarabağ» yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etmişdir.
- Dayaq bloku ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibə vermişdir.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya telefonla zəng edərək, onu prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etmiş, ona Belarus xalqının firavanlığı və ölkənin inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulamışdır.
- Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Aleksandr Lukaşenkonu təbrik etmişdir.

**12 avqust**

- Bakıya gətirilmiş TX modelli yeni «London taksi»ləri ilə tanış olmuşdur.

**13 avqust**

- Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah

rəisi, ordu generalı Yaşar Güleri, Türkiyə Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Ümit Dündarı, Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri komandanı, ordu generalı Hasan Küçükakyüzü, Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı, donanma admiralı Adnan Özbalı və hərbi nümayəndə heyətinin digər üzvlərini qəbul etmişdir.

**14 avqust**

- İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Coko Vidodonu təbrik etmişdir.

**15 avqust**

- Əfqanıstan İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Məhəmməd Əşrəf Qanini təbrik etmişdir

**18 avqust**

- Özbəkistan Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun etimadnaməsini qəbul etmişdir.

**21 avqust**

- 1000 meqavat yükötürmə gücü olan 330/220/110 kilovoltluq «Qobu» yarımstansiyasının tikintisi ilə tanış olmuşdur.
- Sonra 385 meqavatlıq «Qobu» Elektrik Stansiyasının təməlini qoymuşdur.
- Daha sonra energetiklərlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Dost Ukraynanın milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Vladimir Zelenskini təbrik etmişdir.

**22 avqust**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, Türkiyənin Qara dənizdə böyük təbii qaz yatağı kəşf etməsi münasibətilə təbriklərini çatdırmış, bu önəmli hadisənin dost və qardaş Türkiyə xalqının rifah halının daha da yaxşılaşdırılması və ölkənin iqtisadi gücünün daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirmişdir.
- Türkiyə tarixinin ən böyük təbii qaz yatağının kəşf olunması münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**24 avqust**

- Faiq Qürbətovu Biləsuvar Rayon İcra Hakimiyyətinin, Elmir Bağırovu isə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.
- Xalq şairi Fikrət Qocaya telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamış, eyni zamanda onun «İstiqlal» ordeni ilə təltif olunduğunu bildirərək və bu münasibətlə də təbriklərini çatdırmışdır.
- 85 illik yubileyi münasibətilə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Fikrət Qocanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Moldova Respublikasının Prezidenti İqor Dodonu təbrik etmişdir.

**25 avqust**

- Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- 70 illik yubileyi münasibətilə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) rektoru akademik Anatoli Torkunovu təbrik etmişdir.

**26 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə binada yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Xəzər rayonunun Qala qəsəbəsində yeni inşa olunan 216 nömrəli tam orta məktəb binasının açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə yeni təhsil ocağında yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Suraxanı rayonunda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan Mədəniyyət Evinin açılışında iştirak etmişdir.

**27 avqust**

- Rusiyanın «Rossiya-24» və «Rossiya-1» televiziya kanallarında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyinə həsr olunmuş verilişlərdə müsahibəsi yayımlanmışdır.

**28 avqust**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahı təbrik etmişdir.

**29 avqust**

- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti xanım Zuzana Çaputovanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.

**30 avqust**

- Rusiya Federasiyasının Rostov vilayətində «Sambek yüksəklikləri» – Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı münasibətilə Rusiyanın «Rossiya-24» və «Rossiya-1» televiziya kanallarında əsasən azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasının qəhrəmanlıqları barədə geniş

məlumat verilən reportajlarda müsahibəsi təqdim olunmuşdur.

**31 avqust**

- Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak etmişdir.
- Sonra tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşmüş, görüşdə çıxış etmişdir.
- Əlamətdar yubileyi – anadan olmasının 70 illiyi münasibətilə «LUKOYL» neft şirkətinin prezidenti Vahid Ələkbərovu təbrik etmişdir.
- Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Nquyen Fu Çonqu təbrik edtmişdir.

## Sentyabr

**2 sentyabr**

- Yaponiyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın etimadnaməsini qəbul etmişdir.
- Yunanıstanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul etmişdir.

**3 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əsaslı təmirdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı yenidən inşa olunan 3 saylı tədris korpusunun açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.

**4 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olmuşdur.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Braziliya Federativ Respublikasının Prezidenti Jair Bolsonarunu təbrik etmişdir.
- Şimali Makedoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Stevo Pendarovskini təbrik etmişdir.

**5 sentyabr**

- Əlamətdar tarix – anadan olmasının 60 illiyi münasibətilə «Rosneft» Neft Şirkəti Publik Səhmdar Cəmiyyətinin baş icraçı direktoru, İdarə Heyətinin sədri cənab İqor Seçini təbrik etmişdir.

**7 sentyabr**

- İran İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul etmişdir.
- Paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olmuş, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak etmişdir.
- Tacikistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Emoməli Rəhmonu təbrik vetmişdir.

**9 sentyabr**

- Mərdəkan-Zuğulba avtomobil yolunda yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.

**11 sentyabr**

- Əlamətdar tarix – anadan olmasının 85 illiyi münasibətilə Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, Rusiya Uşaq Fondunun sədri, yazıçı Albert Lixanovu təbrik etmişdir.

**14 sentyabr**

- Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak etmişdir.
- Sonra Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoymuşdur.
- Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına parkın açılışında iştirak etmişdir.
- Məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoymuşdur.
- «Sumqayıt Kimya Sənaye Parkı» Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışında iştirak etmişdir.
- Sonra mərkəzdə yaradılan şəraitlə tanış olmuşdur.

**15 sentyabr**

- Yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, 15 sentyabr Bakının işğaldan azad olunmasının 102-ci ildönümü münasibətilə təbriklərini çatdırmış, Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakını erməni və bolşevik işğalından azad edərkən bu yolda canlarını qurban verən şəhidlərin dərin hörmət və ehtiramla yad edildiyini, onların əziz xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını bildirmişdir.

**16 sentyabr**

- Çili Respublikasının müstəqilliyinin 210-cu ildönümü münasibətilə Prezident Sebastian Pinyera Eçenikeni təbrik etmişdir.
- Yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik etmişdir.

**17 sentyabr**

- Ölkəsinin Baş Naziri vəzifəsinə seçilməsi münasibətilə Yaponiyanın Baş Naziri Yoşihide Suqanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Nepal Federativ Demokratik Respublikasının Prezidenti xanım Bidhya Devi Bhandarini təbrik etmişdir.

**19 sentyabr**

- Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda «Abşeron» yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibə vermişdir.

**21 sentyabr**

- BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində keçirilən BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda iştirak etmişdir.
- İclasda hər iki hissədə – Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi videoformatda çıxış etmişdir.
- Ölkəsinin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**22 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.

**23 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Balaxanı sakinləri ilə görüşmüşdür.

**24 sentyabr**

- İsveç Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristian Kamillin etimadnaməsini qəbul etmişdir.
- BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış etmişdir.

**25 sentyabr**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.

**26 sentyabr**

- Ölkəsinin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

**27 sentyabr**

- Azərbaycan xalqına müraciət etmişdir.
- Onun sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək, 27 sentyabr tarixində Ermənistanın hərbi təxribatı nəticəsində mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə əlaqədar Azərbaycanın dövlət başçısına və xalqına başsağlığı vermış, onlara Allahdan rəhmət diləmişdir.
- Fransa Respublikasının Prezidenti Emmanuel Makron ona telefonla zəng edərək, Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd etmiş və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulamışdır.

**28 sentyabr**

- BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla videokonfrans formatında görüşü olmuşdur.
- Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Gününün 30-cu ildönümü münasibətilə Prezident Frank-Valter Ştaynmayeri təbrik etmişdir.
- Nigeriya Federativ Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Prezident Muhammadu Buharini təbrik etmişdir.

**29 sentyabr**

- Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul etmişdir.
- «COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi» mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış etmişdir.
- «Rossiya-1» telekanalında yayımlanan «60 dəqiqə» proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə aparıcıların suallarını cavablandırmışdır.

**30 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ona telefonla zəng edərək, təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə etmiş və münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Koreya Respublikasının Prezidenti Mun Ce-ini təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Ceyhun Bayramovun Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlət başçısı qəbulda çıxış edərək dedi:

- Bu gün mən sizi Xarici İşlər naziri vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız. Bu sahə sizin üçün yeni olsa da, idarəetmə təcrübəniz kifayət qədər böyükdür, müxtəlif vəzifələrdə işləmisiniz, o cümlədən nazir vəzifəsində.

Bununla bərabər, Azərbaycanın xarici siyasəti ilə bağlı mənim tərəfimdən dəfələrlə əsas istiqamətlər müəyyən edilmişdir və bu haqda açıqlamalar verilmişdir. Bizim xarici siyasətimiz açıqdır. Biz xarici siyasət prioritetlərimizi açıq şəkildə bəyan edirik və məqsədlərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması bizim əsas prinsiplərimizdən biridir. Hesab edirəm ki, son illərdə Azərbaycan bu sahədə böyük uğurlar əldə edib. Azərbaycan dünya birliyinin ləyaqətli üzvüdür. Dünyada bizə olan hörmət artmaqdadır. Bunu müxtəlif vaxtlarda Azərbaycana beynəlxalq aləm tərəfindən göstərilən dəstək əyani şəkildə sübut edir. Bizim dünyadakı rolumuz artır, bölgədə ölkəmizin iştirakı olmadan, maraqları təmin edilmədən hər hansı bir layihənin icrası qeyri-mümkündür. Bizim siyasətimiz Azərbaycana illər boyu daha çox dostlar qazandırıbdır. Təsadüfi deyil ki, bu gün bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür.

Əlbəttə ki, xarici siyasətlə bağlı əsas istiqamətləri mən bu gün bir daha qeyd edəcəyəm. Amma ondan əvvəl demək istəyirəm ki, ilk növbədə, nazirlik sistemində vəziyyət sağlamlaşdırılmalıdır. İlk növbədə, təhlil aparılmalıdır, nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görülməlidir. Kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir. Nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işləri lazımi səviyyədə təmin edilməlidir. Nazirliyin fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi haqqında sizdən təkliflər gözləyəcəyəm.

Bizim xarici nümayəndəliklərdə görülən işlər ciddi təhlil olunmalıdır, səfirliklərin işinin səmərəlilik əmsalı müəyyən edilməlidir. Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqlarını lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Vaxtaşırı Azərbaycana qarşı ünvanlanan şər-böhtan xarakterli iradlara lazımi cavab verə bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Ona görə bütün bu məsələlər əlbəttə ki, sizin gündəlik fəaliyyətinizdə önəmli yer tutmalıdır. Bizim xarici nümayəndələrimiz, diplomatlarımız ölkəmizin maraqlarını tam təmin etməlidirlər. Mən deyə bilərəm ki, bizim xaricdə fəaliyyət göstərən diplomatlarımızın əksəriyyəti yüksək meyarlara cavab verir. Ancaq vəziyyət təhlil edilərkən, ilk növbədə, nöqsanlara fikir vermək lazımdır. Səfirliklərimiz xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqədə olmalıdırlar. Onlar diaspor təşkilatlarının koordinasiya işinə öz töhfəsini verməlidir ki, həm diaspor təşkilatları, həm səfirliklər Azərbaycanın maraqlarını təmin etsinlər və Azərbaycan reallıqlarını çatdırsınlar.

Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar olmalıdır. Azərbaycan haqqında bəzi hallarda gedən yanlış məlumata dərhal adekvat reaksiya verilməlidir, formal yox. Çünki bir çox hallarda biz bunu görmürük. Ölkəmiz haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələr əgər mən müdaxilə etməsəm təkzib olunmur. Ya bu işlə məşğul olmaq istəmirlər, ya başqa göstərişlər alırlar. Bu gün sirr deyil ki, Azərbaycana qarşı təşkil edilmiş və koordinasiya olunmuş çirkin kampaniya aparılır. Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, bu kampaniyanın mənbəyi və səbəbi nədir. Bir çox səbəblər var, onların arasında bizim milli maraqlara söykənən müstəqil siyasətimizdir və özümüzü ləyaqətli aparmağımızdır. Bəs bu kampaniyaya adekvat cavab verilir, yoxsa yox? Verilmir. Xaricdə bəzi anti-Azərbaycan ünsürlər öz fəaliyyətində, öz çirkin əməllərində, bəyanatlarında yaşadıqları ölkələrin qanunlarını kobudcasına pozurlar, terrora çağırışlar edirlər, konstitusiya quruluşunun dəyişdirilməsinə çalışırlar. Bütün bunlar nəinki Azərbaycanın, bir çox ölkələrin qanunvericiliyində, o cümlədən cinayət məcəlləsində təsbit edilmiş məsələlərdir və ona görə bu cinayəti törətmiş insanlar cinayət məsuliyyətinə cəlb edilməlidir.

Amma bizim xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklər bu məsələyə diqqət yetirirlər? Deyə

bilərəm ki, yox. Baş qoşmaq, heç kimlə pis olmaq istəmirlər. Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksək vəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər.

Mən bir daha demək istəyirəm ki, biz bütün ölkələrlə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında əməli addımlar atırıq. Amma bu, o demək deyil ki, öz ölkənin, öz xalqının maraqları kənarda qalsın. Bizim xaricdəki bəzi diplomatlarımız fəaliyyət göstərdikləri ölkələrin elçilərinə çevrilirlər. Buna son qoyulmalıdır. Bu da yanlış kadr siyasətinin təzahürüdür. Bəzi diplomatlar dövlətə xəyanət ediblər, satqınlıq ediblər və bunu gizlətmirlər. Yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədirlər. Bizdə kifayət qədər məlumatlar var. Bu gün Azərbaycana qarşı çirkin kampaniya aparan, özünü azərbaycanlı kimi təqdim edən, əslində, ermənilərdən də pis olan ünsürlərin mütləq əksəriyyəti yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədir. Onlardan pul və təlimatlar alırlar. Bizdə bu məsələ ilə bağlı kifayət qədər məlumatlar var. Bizim xüsusi xidmət orqanlarımız tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarına dəfələrlə bu haqda məlumatlar vermişlər. Demişlər ki, biz bilirik, filan adamı siz istiqamətləndirirsiz, filan adama siz ev vermisiniz, filan adamın çirkin çıxışları sizin idarənizdə yazılır. Biz bütün bunları bilirik. Bir daha demək istəyirəm ki, bu, o ölkələrin riyakarlığını göstərir. Çünki mən bu haqda dəfələrlə demişəm. Bir tərəfdən bizə dostluq siqnalları göndərilir, üzdə tərəfdaşlıq haqqında sözlər deyilir, amma, əslində, bizə qarşı kampaniya aparılır. Bunun da məqsədi Azərbaycanı zəiflətmək, Azərbaycanı sarsıtmaq, Azərbaycanı ləkələmək, Azərbaycan rəhbərləri haqqında olmayan yalanları yaymaqdır. Ancaq həyat artıq göstərir ki, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan xalqı hər şeyi yaxşı bilir. Bilir ki, bu gün bizim fəaliyyətimizdə Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Çox güman ki, məhz buna görə bizə qarşı bəzi hallarda belə çirkin üsullardan istifadə edilir. Bilirsiniz, müxtəlif vaxtlarda bu üsulların məzmunu və formaları dəyişirdi. Vaxtilə dırnaqarası "müstəqil" qeyri-hökumət təşkilatları vasitəsilə bizə hücumlar edilirdi. Halbuki hər kəs yaxşı bilir ki, bu qeyri-hökumət təşkilatları hansı mənbələrdən maliyyələşir - böyük dövlətlərin xarici siyasət orqanları tərəfindən maliyyələşir. Bir müddət xarici ölkələrin kütləvi informasiya vasitələri bizə qarşı çirkin kampaniya aparırdı - həm elektron, həm yazılı kütləvi informasiya vasitələri. Biz bu kütləvi informasiya vasitələrinin hansı mənbələrdən maliyyələşdiyini də bilirik. Bunun heç bir faydası olmadı, əksinə, Azərbaycan ictimaiyyəti çox yaxşı dərk edirdi, başa düşürdü ki, bunun məqsədi nədir - Azərbaycanı zəiflətmək, Azərbaycanda xaos yaratmaq, Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq və ondan sonra bu imkanlardan istifadə edib öz maraqlarını təmin etmək. Bu keçməyəndə isə növbəti çirkin üsullara əl atıldı. Özlərini azərbaycanlı kimi təqdim etməyə çalışan, ancaq mənəvi cəhətdən eybəcərliyin rəmzinə çevrilmiş antimilli ünsürlər indi xarici xüsusi xidmət orqanlarının rəhbərliyi altında Azərbaycana qarşı çirkin kampaniya aparırlar. Bu, düşünülmüş siyasətdir və əslində, bu siyasətin məqsədi Azərbaycan xalqının əsrlərboyu qoruduğu milli dəyərləri sarsıtmaqdır, bizim mənəvi sütunlarımızı dağıtmaqdır. Çünki Azərbaycan xalqının mentaliteti bunu inkar edir. Heç vaxt bizim tariximizdə belə çirkin üsullardan, yalanlardan, böhtanlardan istifadə edilmirdi. Bu, bizə xaricdən idxal edilir. Ona görə bizim diplomatlarımız buna qarşı fəaliyyət göstərməlidirlər. Yoxsa ki, "dəymə mənə, dəyməyim sənə" prinsipi ilə işləmək olmaz. Əfsuslar olsun ki, bizim Xarici İşlər Nazirliyində son vaxtlar bu prinsip əsas rol oynayır.

Mən demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir. Ancaq bir çox hallarda bunun əksini görürük. Görürük ki, razılaşma prinsipi əsas tutulur, milli maraqları kənara qoyub kiminsə xoşuna gəlmək üçün səylər göstərilir. Bu haqda bir çox məlumatlarım var. Ona görə siz bu məsələləri nəzərdə saxlayın. Bizə elə diplomatik kadrlar lazımdır ki, peşəkar, milli ruhda, milli dəyərlərə bağlı olsunlar, ölkəmizi müdafiə edə bilsinlər.

O ki qaldı, bizim xarici siyasətlə əlaqədar əsas prioritetlərimizə, qeyd etməliyəm ki, mən bu prioritetlər haqqında ictimaiyyətə kifayət qədər geniş açıqlama vermişəm. Bu gün bir daha demək istəyirəm, siz yeni nazir kimi bunu bir daha məndən eşitməlisiniz və Azərbaycan ictimaiyyəti də bunu bir daha eşitməlidir. Qonşu ölkələrlə münasibətlərimiz bizim üçün prioritetdir. Bu münasibətlər çox sağlam zəmində qurulubdur. Artıq həyat və hadisələrin gedişatı onu göstərir ki, bu, çox düzgün siyasətdir. Qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Biz bu siyasəti dostluq, mehriban qonşuluq prinsipləri əsasında qurmuşuq. Beləliklə, heç bir qonşu dövlətlə, təbii ki, Ermənistan istisna olmaqla, bizim heç bir problemimiz yoxdur. Keçmişdən qalan problemlər həll olunub. Bəzi hallarda bəzi ölkələrin dairələri süni şəkildə bəzi problemlər ortaya atmaq istəyirlər. Ancaq bunun da heç bir səmərəsi yoxdur.

Qonşu dövlətlərlə bizim münasibətlərimiz strateji xarakter daşıyır. Biz bir bölgədə yaşayırıq, biz qonşuyuq və bu qonşuluq əbədi olacaqdır. Eyni zamanda, qonşu ölkələrdə yaşayan azərbaycanlılar, əlbəttə, bu münasibətlərdə xüsusi yer tutur və onların rahat yaşaması təbii ki, bizim üçün çox önəmlidir. Bu baxımdan da qonşu

ölkələrlə münasibətlər xüsusi əhəmiyyət daşıyır. Həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, mədəniyyət - bütün sahələrdə bu münasibətləri yüksək qiymətləndirmək olar. Mən deyə bilərəm ki, bizim qonşularımızla münasibətlərimiz nümunəvi xarakter daşıyır. Çünki dünyada gedən proseslər onu göstərir ki, bəzi hallarda qonşular arasında münasibətlər problemli olur.

Bildiyiniz kimi, biz qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatında da fəaliyyət göstəririk. Onu da bildirməliyəm ki, bu üçtərəfli formatların təşəbbüskarı da biz olmuşuq. Bu gün bütün qonşularla müxtəlif konfiqurasiyada üçtərəfli əməkdaşlıq formatı icra edilir və bu, həm regional təhlükəsizliyə müsbət təsir göstərir, həm də iqtisadi, enerji, nəqliyyat layihələrinin icrasına gözəl zəmin yaradır. Ona görə, Xarici İşlər Nazirliyinin fəaliyyətində qonşu ölkələrlə münasibətlər bundan sonra da prioritet kimi qalacaq.

Bizim İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə də münasibətlərimiz çox yaxşıdır. Azərbaycan müsəlman aləminin bir parçasıdır və beynəlxalq təşkilatlarda biz tərəfdən ən çox dəstək alan ölkələr müsəlman ölkələridir və bizə də müsəlman ölkələrindən ən çox dəstək gəlir. Bu yaxınlarda Ermənistanın növbəti hərbi təxribatı ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı bəyanatla çıxış edib, Azərbaycanın haqlı mövqeyini müdafiə edib və biz bunu yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə Azərbaycanda bir çox tədbirlər keçirilmişdir. Mən bir çox Zirvə görüşlərində iştirak etmişəm, həmişə öz çıxışlarımda və öz fəaliyyətimdə İslam aləmində əməkdaşlığın, həmrəyliyin inkişafına fikir vermişəm, səylər göstərmişəm. Bəzi müsəlman ölkələri arasında mövcud olan ixtilafların yumşaldılması, ya da ki, aradan qaldırılması üçün Azərbaycan öz səylərini əsirgəmir və bəzi hallarda bu səylər yaxşı nəticələrə gətirib çıxarır. Çünki, ilk növbədə, müsəlman aləmində həmrəylik olmalıdır ki, biz ənənəvi dostlarımızla öz gələcəyimizi sağlam zəmində qura bilək.

Türkdilli dövlətlər bizim üçün qardaş ölkələrdir və bütün türkdilli dövlətlərlə çox gözəl münasibətlərimiz var. Bildiyiniz kimi, hazırda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Onu da bildirməliyəm ki, türkdilli ölkələrin Zirvə görüşləri uzun illərdir keçirilir. Azərbaycan və digər postsovet ölkələri müstəqilliyə qovuşduqdan sonra dərhal belə Zirvə görüşləri keçirilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təşkilat olaraq Naxçıvan şəhərində yaradılıbdır. Azərbaycanda, Naxçıvan şəhərində keçirilmiş Zirvə görüşlərinin birində belə bir təşkilat yarandı və hazırda təşkilat öz potensialını gücləndirir. Onu da bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da bu yaxınlarda baş vermiş sərhəd münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləyən açıqlama yaymışdır.

Bizim Avropa İttifaqı ilə əlaqələrimiz də çox möhkəm zəmində qurulub. Avropa İttifaqına üzv doqquz dövlətlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb. Siz dərhal bu məsələ ilə məşğul olun və bu gün hələ ki, razılaşdırılmamış məsələlərə fikir verin. Hesab edirəm ki, Azərbaycan maksimum dərəcədə konstruktivlik göstəribdir və bu gün hələ də razılaşdırılmamış məsələlər var. Bizim üçün indiki formada onları qəbul etmək deyə bilərəm ki, çox çətin və əhəmiyyətsiz olacaqdır. Çünki mən demişəm, biz ona görə yeni saziş imzalamalıyıq ki, öz maraqlarımızı daha böyük dərəcədə müdafiə edək, təmin edək və qarşı tərəf də həmçinin. Onlar ona görə Azərbaycanla bu sazişi imzalamaq istəyirlər ki, öz maraqlarını müdafiə və təmin etsinlər. Bu da təbiidir. Ancaq gərək bu maraqların uzlaşması olsun. Yəni, biz heç vaxt bizi qane etməyən, yaxud da ki, bizə hansısa problem yarada biləcək sazişə imza atmarıq. Bu, əhəmiyyətsizdir, mənasızdır. Biz Azərbaycan xalqına məlumat verməliyik ki, bunu nə üçün edirik. Biz edirik ki, daha yaxşı şərait olsun, əməkdaşlıq üçün daha yaxşı imkanlar yaransın, xalqımız üçün daha geniş imkanlar açılsın. Yoxsa elə saziş imzalansın deyə sazişə qol çəkmək düzgün olmaz. Bizim mövqeyimiz tam açıqdır. Mən bunu bu gün bütün ictimaiyyətə bildirirəm.

Hesab edirəm ki, kompromis üçün yer var. Ancaq gərək xoş niyyət və qarşılıqlı iradə olsun. Azərbaycan tərəfində bu iradə var. Ümid edirəm ki, bu danışıqlar uğurla davam edəcək. Onu da nəzərə almalıyıq ki, hazırda Avropa Komissiyasının yeni tərkibi formalaşıbdır və biz, əlbəttə, Avropa İttifaqının Azərbaycana münasibətinin statusunu özümüz üçün daha dəqiq müəyyən etməliyik. Biz bəri başdan o mövqedə idik ki, qarşımıza real olmayan hədəflər qoymayaq. Çünki sonra bu hədəflərə çatmayanda məyusluq, qarşılıqlı inamsızlıq yarana bilər. Ona görə qarşıya elə məqsədlər qoymalıyıq ki, biz ona çata bilək və bu məqsədlər bizim maraqlarımıza uyğun olsun. Hesab edirəm ki, bu istiqamətdə gələcək fəaliyyət də uğurlu olacaqdır.

Təbii ki, Amerika Birləşmiş Ştatları ilə bizim münasibətlərimiz çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var. Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyalarda göstərdiyi səylər Amerika tərəfindən yüksək qiymətləndirilir. Bildiyiniz kimi, Azərbaycan üzərindən çox önəmli nəqliyyat dəhlizi keçir və buna Şimal Nəqliyyat Dəhlizi deyilir. Əslində, bu, hava nəqliyyatıdır və yüklərin təhlükəsiz şəkildə nəql edilməsi bu gün hər bir ölkə üçün çox önəmlidir.

Bizim siyasi münasibətlərimizin inkişafına gəldikdə, hesab edirəm ki, bu gün bu münasibətlər çox yaxşı səviyyədədir. Prezident Trampın mənə göndərdiyi bir çox məktublarda Amerika Birləşmiş Ştatlarının Azərbaycana xoş münasibəti öz əksini tapıb. Son məktubunda qeyd etmişdi ki, bizim iki böyük dövlətimiz birlikdə bundan sonra da çalışacaqdır.

Mənim də Prezident Trampa göndərdiyim məktublarda bizim münasibətlərimizin əhəmiyyəti qeyd olunur və əminəm ki, bundan sonra da bu əlaqələr uğurla inkişaf edəcək. Hesab edirəm ki, bu əlaqələrin gələcəyi çox müsbət olacaqdır.

Bizim strateji investorumuz Böyük Britaniyadır. Böyük Britaniya ilə də bizim çox sıx tərəfdaşlıq münasibətlərimiz var. Əvvəlki dövrdə biz bu münasibətləri, eyni zamanda, Avropa İttifaqı prizmasından təhlil edirdik, dəyərləndirirdik. Amma artıq Böyük Britaniya Avropa İttifaqının üzvü deyil və həm bizim, həm də onların qarşılıqlı marağı gündən-günə artır. Böyük Britaniyanın BP şirkəti bizim strateji tərəfdaşımızdır. Biz keçən il bu tərəfdaşlığın artıq 25 illiyini qeyd etmişdik və bundan sonra ən azı 25-30 il birlikdə çalışacağıq. Əlbəttə ki, bu, ikitərəfli münasibətlərə də müsbət təsir göstərdi. Ancaq hər iki tərəfin fikri ondan ibarətdir ki, biz qeyri-neft sektorunda daha böyük işlər görməliyik. Bir sözlə, bu əlaqələr də bizim üçün çox önəmlidir.

Bildiyiniz kimi, biz hazırda Qoşulmama Hərəkatının sədriyik və bu sədrliyi 120 ölkənin yekdil qərarı ilə qazanmışıq. Bu sədrliyi öz üzərimizə götürəndə mən demişdim ki, bu, formal sədrlik olmayacaqdır. Biz beynəlxalq təşkilatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını, eyni zamanda, beynəlxalq hüququ, ədaləti dəstəkləyəcəyik və bunu əməli işlərdə göstərdik. Pandemiya dövründə bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirildi. Biz Qoşulmama Hərəkatına üzv ölkələrə həm birbaşa, həm də Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə humanitar yardım göstərdik. Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı biz olmuşuq və bu təşəbbüsə bildiyiniz kimi, 130-dan çox ölkə qoşuldu. Hesab edirəm ki, bu, bizim növbəti siyasi uğurumuzdur.

Əlbəttə, fəaliyyətinizin əsas hissəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Bu, bizim üçün əsas məsələdir, bu, milli məsələdir. Son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, NATO və digər təşkilatlar. İki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi bənd var. Yəni, hüquqi baza tam təmin edilib.

O ki qaldı, münaqişənin həllinə, bizim mövqeyimizdə, qeyd etdiyim kimi, heç bir dəyişiklik ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, birmənalıdır və heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Orada bu yaxınlarda keçirilmiş qondarma "seçkilər" bunu bir daha təsdiqlədi. Çünki bütün aparıcı dövlətlər, qonşu dövlətlər, aparıcı beynəlxalq təşkilatlar bu "seçkilərin" tanınmaması ilə əlaqədar bəyanatlar vermişlər.

Bu layihələr regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı xətti ilə icra olunur və hər il bu proqrama əlavələr edilir. Balakən "ASAN xidmət" mərkəzi də məhz proqrama əlavə üzrə inşa edilibdir. Əvvəlki mərhələdə burada "ASAN xidmət" mərkəzinin tikintisi nəzərdə tutulmurdu. Çünki şimal-qərb zonasında artıq bir neçə mərkəz var. Adətən birinci mərhələdə hər bir mərkəz dörd, beş, altı rayonun əhalisini əhatə edir. Bu mərkəzdə isə cəmi üç rayon əhatə olunur - Balakən, Zaqatala və Qax. Bir daha demək istəyirəm ki, bu mərkəz mənim xüsusi tapşırığım əsasında inşa edilib. Artıq balakənlilərin sərəncamına gözəl bir mərkəz verilibdir.

Mən bu mərkəzlə tanış olarkən əlavə tapşırıqlar verdim. Hesab edirəm ki, bu ərazidə mərkəzin fəaliyyətinə uyğun əlavə sahələr yaradılmalıdır, ilk növbədə, kinoteatr. Mən maraqlandım, icra başçısı dedi ki, Balakəndə kinoteatr yoxdur. Ona görə burada mütləq kinoteatr olmalıdır. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün sahə, təlim mərkəzi olmalıdır. Mən indi tapşırıq verirəm ki, bu mərkəzin yanında yeni bir mərkəz yaradılsın, bütün lazımi sahələr burada öz həllini tapsın. O ki qaldı, burada göstərilən xidmətlərə, onların sayı 320-dir. Bu gün mənə verilən məlumata görə, "ASAN xidmət" mərkəzlərində yeni xidmətlərin mövcudluğu haqqında təkliflər irəli sürülüb və gələcəkdə bu da həll olunacaqdır.

Balakən rayonunda infrastruktur layihələri ilə bağlı olan digər önəmli məsələlər də həll edilir. Qazlaşdırma demək olar ki, 100 faizə yaxındır. Yol-nəqliyyat infrastrukturu yenilənir, həm kənd yolları, eyni zamanda, Bakı-Balakən yolu faktiki olaraq yenidən qurulub. Mən bu gün Bakıdan avtomobillə gəlmişəm və yolboyu görülən işlər məni sevindirir. Bir neçə yol layihəsi qalıb ki, bizim ümumi inkişaf templərimizə uyğun gəlmir, ilk növbədə, İsmayıllı rayonu ərazisində. Orada yeni bir körpü tikiləcək və yol çəkiləcək, beləliklə, daha təhlükəsiz və rahat şərait yaradılacaq. Bu zonanın hələ icra edilməyən bir yol layihəsi qalıb. Düzdür, yol var, amma lazımi səviyyədə deyil. Bu da Şəki-Oğuz yoludur. Bu yolun yenidən qurulması ilə bağlı müvafiq göstərişlər veriləcək. Əvvəlki dövrlərdə verilmiş bütün tapşırıqlar yerinə yetirilib. Bakı, Şamaxı, Qəbələ, Şəki, Qax, Zaqatala, Balakən, ta Gürcüstan sərhədinə qədər yolun tikintisi təmin edilibdir.

Balakəndə mövcud problemlər arasında içməli su məsələsi çox ciddi problemdir. Bu məsələ ilə bağlı artıq təkliflər hazırlanıb, müvafiq göstərişlər verilib və biz tezliklə Balakən şəhərində içməli su-kanalizasiya layihəsinin icrasına başlamalıyıq. Bu günə qədər biz içməli su və suvarma problemlərinin həlli üçün daha çox artezian quyularından istifadə edirik. Balakən rayonunda 24 quyu qazılıb və 10 quyunun qazılması nəzərdə tutulur. Ancaq içməli su və kanalizasiya layihəsi mütləq icra edilməlidir və icra ediləcəkdir. Son vaxtlar elektrik enerjisinin təchizatı ilə bağlı önəmli addımlar atılıb. Bu gün "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yeni mərkəzinin açılışı da nəzərdə tutulur. Vaxtilə Balakən rayonunda su elektrik stansiyaları tikilmişdir və elektriklə təchizat böyük dərəcədə yaxşılaşmışdır.

Bir sözlə, rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülür. Dövlət proqramları xətti ilə investisiyalar qoyulur, özəl sektor da bu işlərə fəal qoşulur. Kənd təsərrüfatı sahəsində yaxşı nəticələr var. Bildiyiniz kimi, şimal-qərb zonasında ənənəvi kənd təsərrüfatı sahəsi olan fındıqçılığın inkişafı ilə bağlı mənim təşəbbüsümlə konkret addımlar atılır. Mən fındıqçılıq üzrə xüsusi müşavirə keçirmişdim. Bir neçə il bundan əvvəl mövcud bağların sahəsi 32 min hektar idi. Biz bir neçə il ərzində

bunu 80 min hektara çatdırmışıq. Balakən rayonunda 5 min hektarda fındıq bağları mövcud idi, indi onların sahəsi 10 min hektara çatıb. Siz yaxşı bilirsiniz ki, burada yaşayan bir çox insanlar üçün əsas qazanc mənbəyi fındıqçılıqdır. Biz bu bağları salmaqla, fermerlərə kömək göstərməklə Balakən və qonşu rayonların əhalisinin maddi rifahını təmin etmiş oluruq. Bu gün Azərbaycan dünyada fındıq ixrac edən ölkələr arasında üçüncü yerdədir. Bu, çox gəlirli, perspektivli bir sahədir. Bizim iqlimimiz buna uyğundur. İsmayıllı rayonundan ta Balakənə qədər, eyni zamanda, cənub zonasında, həmçinin Xaçmazda, Qusarda fındıqçılığın çox böyük perspektivləri var. Hər bir rayonun öz ixtisaslaşması olmalıdır. Burada da ənənəvi olaraq fındıqçılıq, tütünçülük inkişaf edib. Bu gün də bu sahələrə böyük diqqət göstərilir. Əsas məsələ odur ki, insanlar daha da yaxşı yaşasınlar, öz maddi vəziyyətlərini yaxşılaşdırsınlar. O insanlar ki, hələ öz maddi vəziyyətlərini tam təmin edə bilmirlər, onların köməyinə dövlət gəlir. Bu gün Azərbaycanda 84 min ailə ünvanlı sosial yardım alır. Bu il 90 min insan üçün ictimai ödənişli iş yerləri açılır. ABAD mərkəzlərinin yaradılması, əslində, özünüməşğulluq proqramının tərkib hissəsidir. İlk ABAD-çılar məhz Balakən rayonunun sakinləridir. Onların istehsal etdikləri məhsullar indi ölkəmizin müxtəlif yerlərində satılır, ixrac edilir.

Məhz bu kompleks yanaşma imkan verir ki, ölkəmiz bu gün sürətlə inkişaf edir. İnkişafımız dayanıqlıdır və perspektivlərimiz də çox gözəldir. Çünki biz öz addımlarımızı plan üzrə və yerlərdən gələn təkliflər əsasında atırıq. Hazırda ən ciddi problem suvarma ilə bağlıdır. İki ildir ki, quraqlıq bizə çox böyük əziyyət verir. Mənim sədrliyimlə bu məsələ ilə bağlı xüsusi müşavirə keçirilib. Üç ay bundan əvvəl yaradılmış komissiya, o cümlədən su təsərrüfatının elektronlaşdırılması ilə məşğuldur və bu vacib sahəni “ASAN xidmət“ə həvalə ediblər. Bu gün təqdimat zamanı mənə məlumat verildi ki, artıq qısa müddət ərzində, - komissiya aprelin 15-də yaradılmışdır, - elektron su təsərrüfatı sistemi hazırdır. Biz buna nəyin hesabına nail olmuşuq? Məhz intellektual potensialın hesabına. “ASAN xidmət” mərkəzlərinin ən vacib amillərindən biri də innovasiyalar, intellektual məhsul, müasir təlim prosesi və gənclərin bu işlərə cəlb edilməsidir.

Təbii ki, biz “ASAN xidmət” konsepsiyasını işləyəndə, ilk növbədə, mənim əsas məqsədim o idi ki, ictimai xidmətlər sahəsində korrupsiyanı, rüşvətxorluğu, bürokratiyanı aradan qaldıraq. Yəni, elə bir institusional intellektual məhsul yaradaq ki, xoşagəlməz işlərlə məşğul olmaq istəyənlərə imkan verilməsin. Artıq biz buna nail olmuşuq. Amma bununla paralel olaraq, bu gün “ASAN xidmət” sistemi ölkəmizdə elektronlaşma, rəqəmsallaşma, intellektual məhsulların istehsalı sahəsində çox önəmli bir amildir. Təsadüfi deyil ki, bu gün bizim üçün ən vacib məsələlərdən biri olan içməli su və suvarma ilə bağlı problemlərin vacib hissəsi artıq “ASAN xidmət” tərəfindən tənzimlənir.

O ki qaldı, “ASAN xidmət” mərkəzlərinin coğrafiyasının genişlənməsinə, bu da planlı şəkildə həyata keçirilir. Bu mərkəz sayca 20-cidir. Hazırda yeddi mərkəzin tikintisi davam edir. Hesab edirəm ki, maksimum gələn ilin sonuna qədər Azərbaycanda 27 “ASAN xidmət” mərkəzi olacaqdır. Sirr deyil ki, bu, ictimai xidmətlər sahəsində bir inqilabi dəyişiklik idi. Eyni zamanda, bu, yeni davranış qaydalarının tətbiq edilməsidir. Xidmət sektoru sovet vaxtında həmişə çox problemli sahə olubdur. Həm pozuntular olub, həm diqqətsizlik, vətəndaşlara bir çox hallarda hörmətsizlik edilirdi, laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da ki, onlardan nə isə tələb olunurdu, qanunsuz tələblər irəli sürülürdü. Ona görə ictimai xidmətlər sahəsində “ASAN xidmət“in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi sahəyə çevirib, eyni zamanda, cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərdi.

Burada mən “ASAN xidmət” mərkəzlərinin işçilərini xüsusilə qeyd etmək istəyirəm. Onların hamısı gəncdir. Bu, Azərbaycan gəncliyinin simasıdır. Azərbaycan gəncləri məhz belə olmalıdır - bilikli, savadlı, mədəni, yaşlı nəslə həmişə hörmət göstərən, öz doğma torpağına bağlı olan insanlar olmalıdır. “ASAN xidmət“in ordusu artıq kifayət qədər böyükdür. Minlərlə gənc “ASAN xidmət“də çalışıb, təcrübə qazanıb. Bu gün onların nümayəndələri çox önəmli vəzifələrdə çalışırlar, o cümlədən könüllülər. Bizdə, əslində, könüllülər hərəkatı “ASAN xidmət” mərkəzlərində başlamışdır. O vaxta qədər könüllülər hərəkatı yox idi. İndi Azərbaycanda artıq minlərlə könüllü fəaliyyət göstərir. Ölkəmiz üçün vacib olan sahələrdə onlar mühüm rol oynayırlar. Böyük, mötəbər idman yarışlarında könüllülər fəal iştirak ediblər. Misal üçün, Şamaxı rayonunda baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında könüllülər fəal iştirak ediblər. Bir neçə il bundan əvvəl bu zonada - Balakən, Zaqatala, Qax rayonlarında da zəlzələ baş vermişdir. Onu da bildirməliyəm ki, dövlət xətti ilə minlərlə ev tikildi. Ancaq o vaxt bizdə könüllülər yox idi ki, vətəndaşlara xidmət göstərsinlər. Şamaxıda zəlzələ baş verən kimi, ilk növbədə, könüllülər oraya gəldilər, vətəndaşlara əl tutdular, əlbəttə ki, dövlət dəstəyi də göstərildi. Ona görə “ASAN xidmət“in bir çox müsbət əlamətləri var. Ölkəmizin imici üçün bu mərkəzlərin fəaliyyəti çox önəmlidir. “ASAN xidmət” beynəlxalq müstəviyə çıxıb, BMT tərəfindən mükafatla təltif edilib. Bir neçə ölkə bu təcrübəni bizdən öyrənib və artıq bəzi ölkələrdə “ASAN xidmət” adı altında oxşar xidmətlər göstərilir. Bu, bizim intellektual məhsulumuzdur, milli brendimizdir. Bu gün Azərbaycan o ölkələrdəndir ki, intellektual məhsul yaradır və ixrac edir. Bu gün 20 mərkəz demək olar ki, ölkəmizin bütün bölgələrini əhatə edir. Əgər avtobusları əlavə etsək, onda artıq

hər bir yerdə "ASAN xidmət" var. Amma əlbəttə ki, növbəti illərdə yeni mərkəzlərin yaradılması da nəzərdə tutulur.

"ASAN xidmət" artıq bir neçə ildir ki, fəaliyyət göstərir, ancaq göstərilən xidmətlərin səviyyəsi düşmür. Mən bunu nə üçün deyirəm? Çünki bəzən hansısa yeni müəssisə, yaxud da yeni xidmət sahəsi açılanda əlbəttə ki, ilkin mərhələdə bütün məsələlər yüksək səviyyədə həll olunur. Amma sonra vaxt keçdikcə və əgər müştərilərin sayı kifayətdirsə, onda bəzi hallarda xidmətin keyfiyyəti aşağı düşür. "ASAN xidmət" isə yüksək səviyyəni saxlayır. Bu gün xidmətin əhali tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Mən bilmirəm 0,6 faiz kimlərdir? Kim "ASAN xidmət"i bəyənməyə bilər? Yəqin ki, elələri də var. Ancaq mən hesab edirəm ki, burada bütün ən mütərəqqi texnologiyalar, eyni zamanda, insan kapitalına qoyulan investisiyalar özünü büruzə verir. Çünki bizim inkişafımızı, gücümüzü, ölkəmizin qüdrətini insan kapitalı müəyyənləşdirir. Təbii resurslar, sadəcə olaraq, bir vasitə kimi bizə kömək göstərir. Ancaq inkişaf etmiş hər bir ölkənin tarixinə baxsaq görərik ki, harada elmdə, təhsildə inkişaf var, o ölkələr problemləri uğurla həll edir.

Əlbəttə, bu gün mən çox sevinirəm ki, bizim gənclərimiz biliklidir, savadlıdır, vətənpərvərdir. Bu yaxınlarda Ermənistan-Azərbaycan sərhədində erməni silahlı təxribatının qarşısını alarkən Azərbaycan əsgərləri, zabitləri, - onların mütləq əksəriyyəti gənclərdir, - öz peşəkarlığını, cəsarətini göstərdilər, düşməni yerinə oturtdular. İmkan vermədilər ki, düşmən öz mövqelərini yaxşılaşdırsın. İmkan vermədilər ki, bizim torpaqlarımıza onların ayağı dəysin.

Bildiyiniz kimi, Azərbaycanın düşmənə layiqli cavab verməsi və beynəlxalq ekspertlərin ümumi rəyinə görə qələbənin qazanılması cəmiyyətdə ruh yüksəkliyini daha da artırdı. Yenə də ön sıralarda gənclər olub. Mən bu ayın ortasında Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bir həftə keçməmiş 50 mindən çox Azərbaycan gənci Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə üz tutdu və özlərini könüllü olaraq Vətəni qorumaq istəyən insanlar kimi orada qeydiyyata aldırdılar. Bir həftə ərzində 50 mindən çox insan.

Mən demişəm ki, Azərbaycan Ordusu tam komplektləşdirilib və bu gün əlavə canlı qüvvəyə ehtiyac yoxdur. Ancaq əgər ehtiyac olarsa, bir həftə ərzində qeydiyyata alınmış 50 mindən çox insan Vətən uğrunda, torpaq uğrunda vuruşmağa hazırdır.

Bilirsiniz, bu hadisələr Ermənistanın faşist mahiyyətini, onların qorxaq xislətini bir daha göstərdi. Çünki birinci dəfə deyil ki, təcavüzkar döyüş meydanında məğlubiyyətə uğrayandan sonra dinc əhaliyə qarşı hərəkətə keçir. Bizim kəndlərimiz atəşə tutulmuşdur. Namərdlərin bu atəşi nəticəsində 76 yaşlı ağsaqqal həlak olmuşdur. Bu, vəhşilikdir. Müharibəni ordular, əsgərlər, könüllülər aparır. Ancaq bizim mənfur qonşumuz müharibəni dinc əhaliyə qarşı aparır, necə ki, Xocalıda soyqırımı törətmişdir, günahsız işanları - uşaqları, qadınları qətlə yetirmişdir. Xocalıda 613 insan düşmən tərəfindən öldürülmüşdür, mindən çox insan itkin düşmüşdür. Bu insanların "günahı" o idi ki, onlar azərbaycanlı idi. Bu amil erməni millətçilərinə kifayətdir. Bu insanlar əliyalın mülki vətəndaşlar idi. Erməni quldur dəstələri bundan və o vaxt hakimiyyətin zəif olmasından istifadə edərək xalqımıza qarşı vəhşi cinayət, soyqırımı törətmişlər. Eyni addımları bu dəfə də atmaq istəyirdilər. Yoxsa dinc əhalini bombalamağın, artilleriya ilə, minomyotlarla atəşə tutmağın səbəbi nədir? Yenə də deyirəm, onlar döyüş meydanında acizliyini görərək ən çirkin əməllərə əl atırlar. 2016-cı ilin Aprel döyüşləri də məhz bu ssenari əsasında təşkil edilmişdir. O vaxt da Ermənistan tərəfindən zəbt edilmiş mövqelərdən kəndlərimiz müntəzəm olaraq atəşə tutulurdu. Azərbaycan Ordusu çox böyük peşəkarlıqla əks-hücum əməliyyatı keçirərək zəbt olunmuş strateji yüksəklikləri geri qaytardı və düşməni qaçmağa məcbur etdi. Tovuz rayonunda baş vermiş hadisələr də həmin ssenarinin təkrarıdır. Biz bunu bilməliyik. Bilməliyik ki, hansı xislətə malik olan qonşu ilə üz-üzəyik. Heç vaxt bunu yaddan çıxarmamalıyıq! Heç vaxt Xocalı soyqırımını yaddan çıxarmamalıyıq və çıxarmayacağıq! Biz düşmənə növbəti dəfə sarsıdıcı zərbə vurandan sonra yenə də gördük ki, onlar nə qədər acizdirlər və heç özləri-özlərinə hörmət etmirlər. Dərhal üzv olduqları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına – KTMT-yə üz tutdular, onlardan yardım istədilər. Mən demişəm, bir daha demək istəyirəm ki, KTMT-nin bu işlərə heç bir aidiyyəti yoxdur, ola da bilməz. Çünki Ermənistan təcavüzkardır. Onların əsas məqsədi məhz bu idi - dövlət sərhədində münaqişə yaratmaq, sonra bu münaqişədə Azərbaycanı günahlandırmaq, daha sonra KTMT-yə müraciət edib hərbi yardım istəmək. Onların çirkin məqsədləri bundan ibarət idi və bu çirkin oyunlara KTMT-nin üzvlərini cəlb etmək istədilər, amma alınmadı. KTMT heç bir bəyanat vermədi, məsələ ilə bağlı ümumi sözlərdən ibarət şərh verdi. Ancaq baxın, Azərbaycanı neçə ölkə dəstəklədi. Birincisi, hər kəs yaxşı bilir və mütəxəssislər bilirlər ki, bu münaqişəni törədən Ermənistandır. Bir daha demək istəyirəm ki, bizim Ermənistan ərazisində hər hansı bir marağımız yoxdur. Orada bizim hərbi hədəflərimiz yoxdur və beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir. Məhz buna görə və təkcə buna görə yox, ümumiyyətlə Azərbaycanın artan nüfuzuna görə bir neçə beynəlxalq təşkilat açıq şəkildə bizi dəstəklədi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası beş ölkədən ibarətdir. İslam Əməkdaşlıq Təşkilatı 57 ölkədən ibarətdir. Qoşulmama Hərəkatı 120 ölkədən ibarətdir. Bir sıra ölkələr, ilk növbədə, qardaş Türkiyə Azərbaycana birmənalı dəstək verdi. Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan artıq bir neçə dəfə bu məsələ ilə bağlı çox açıq, kəskin və prinsipial mövqe nümayiş etdirdi. Bu, bir daha göstərir ki, Türkiyə və Azərbaycan

hər zaman olduğu kimi, bir yerdədir, yaxşı günlərdə də, çətin günlərdə də. Biz bir-birimizə arxalana bilərik və bizim gücümüz birliyimizdədir. Bax, bu beynəlxalq təşkilatlar və bir neçə ölkə, onların rəsmi şəxsləri bəyanatlar verərək Azərbaycana dəstək göstərdilər.

O ki qaldı, KTMT-yə onu da bildirməliyəm ki, bu təşkilatın altı üzvündən dördü beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı qəbul edilmiş bəyanatlar vasitəsilə Azərbaycanı dəstəklədi. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvüdür. Qazaxıstan və Qırğızıstan, eyni zamanda, KTMT-nin üzvüdür. Deməli, KTMT-nin iki üzvü Azərbaycanı bu təşkilat vasitəsilə dəstəkləyir. Belarus Qoşulmama Hərəkatının üzvüdür. Qoşulmama Hərəkatının bəyanatı, o cümlədən Belarusun mövqeyidir. Tacikistan İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. İslam Əməkdaşlıq Təşkilatı bu sərhəd münaqişəsi ilə bağlı açıq mövqe ortaya qoyub. Yəni, dörd ölkə artıq Azərbaycanın yanındadır və Ermənistanı kim dəstəklədi? Mən görmədim, gözümə sataşmadı. Bir də ki KTMT-nin üzvləri Ermənistanın indiki rəhbərliyini necə dəstəkləyə bilər?

Heç kəs üçün sirr deyil ki, Ermənistanın bugünkü rəhbərliyi Soros fondunun təsiri altında olan adamlardan ibarətdir. Onların tərcümeyi-halına baxmaq kifayətdir. Bu gün Ermənistanda hökumətdə, parlamentdə, məhkəmə hakimiyyətində, digər önəmli vəzifələrdə çalışanların bir çoxu Soros fondunun və ona yaxın təşkilatların əməkdaşları olub.

Aydın məsələdir ki, Ermənistanda baş vermiş “inqilab” Sorosun və ona yaxın dairələrin növbəti təxribatı olub. Düzdür, erməni xalqı əvvəlki hakimiyyətə nifrət edirdi, bunu gizlətmirdi. Ermənistanın əvvəlki hakimiyyəti nifrətə layiqdir. Ancaq onun yerinə gələn qruplaşma əvvəlki hakimiyyətdən o qədər də fərqlənmir. Təsadüfi deyil ki, Soros fondu pandemiya ilə əlaqədar bu yaxınlarda Ermənistana 600 min dollar maliyyə yardımı göstərib. Başqa hansı ölkəyə göstərib? Postsovet məkanında heç bir ölkəyə göstərməyib. Azərbaycana göstərib? Yox. Azərbaycanda Soros fondunun izi-tozu da qalmayıb. Çünki onlar burada təxribatla məşğul idilər, gənclərin beyinlərini zəhərləyirdilər. Gəncləri öz dövlətinə qarşı qaldırmaq istəyirdilər. Ona görə onların ayağı kəsildi. Amma onlar Ermənistanda geniş qolqanad açıblar və gizlətmirlər, bu, açıq bir ianədir. Biz bilirik ki, Ermənistanın indiki rəhbərliyi Soros fondundan altdan-altdan da pul alır, onların agentləridir, onların sifarişini icra edir. Ona görə bu gün Soros fondu açıq-aydın Ermənistan rəhbərliyinə 600 min dollar ianə verib. Bu, KTMT-yə üzv olan ölkələri düşündürməməlidir? Əlbəttə ki, düşündürməlidir. Bir də Ermənistan qorxa-qorxa gedib KTMT-nin ətəyindən yapışarkən yadına salsın ki, KTMT-ni necə diskreditasiya etmişdi, təşkilatın baş katibini həbs etmişdi. Sonra təzyiq nəticəsində onu buraxdı. Ancaq cinayət işi bağlanmadı. KTMT-yə bir il ərzində yeni baş katibin təyin olunmasına imkan vermirdi.

Bir də ki, Ermənistanın indiki baş nazirinin partiyasının adı nədir? Bunu KTMT-də yaxşı bilirlər. Onu əgər Azərbaycan dilinə tərcümə etsən, bunun adı “çıxış“dır. Çünki bu adamlar hakimiyyətə bu şüarla gəliblər. “Çıxış!“, haradan çıxış? İki təşkilatdan – KTMT-dən və Avrasiya İqtisadi Birliyindən. Budur onların məramı, budur onların əsl sifəti!

Əlbəttə, indi müxtəlif riyakar addımlarla, bəyanatarla sübut etməyə çalışırlar ki, onlar bu təşkilatlara sadiqdirlər. Amma bu, yalandır. Onların əsl niyyəti hər kəsə bəllidir. Sorosun tör-töküntüləri KTMT-nin müttəfiqləri ola bilməz. Bu, birmənalıdır. Ona görə indi Ermənistan elə vəziyyətdədir ki, özünü itirib, səhv addımlar atır. Sərhəddəki təxribat hesab edirəm ki, onlar tərəfindən bir sınama cəhdi idi ki, baxsınlar, görsünlər buna kim nə reaksiya verəcək. Gördülər ki, onların müttəfiq saydıqları bütün ölkələr ya bizi dəstəklədilər, ya da neytral qaldılar. Gördülər ki, Azərbaycanın beynəlxalq dəstəyi nə qədər güclüdür. Ona görə bu, onlar üçün dərs olmalıdır. Erməni xalqı nəhayət başa düşməlidir ki, əgər onlar normal ölkədə yaşamaq istəyirlərsə, erməni silahlı qüvvələri mütləq bizim torpaqlarımızdan çıxmalıdır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Biz heç vaxt işğalla barışmayacağıq. Ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli məsələdir. Digər tərəfdən, Ermənistan bütün regional layihələrdən təcrid edilib. Biz onları təcrid etmişik. Bizim bölgəmizin yeni enerji, yeni nəqliyyat, yeni telekommunikasiya xəritəsinə baxın, orada Ermənistan yoxdur. Bütün bu xətlər, o cümlədən bizim təşəbbüsümüzlə reallaşdırılan layihələr Ermənistandan yan keçib. Artıq onlar regional əməkdaşlıqdan tamamilə kənardadırlar. Bunu biz etmişik və gizlətmirik. Bütün imkanlarımızı səfərbər edib bundan sonra da onları təcrid vəziyyətində saxlayacağıq. Onlar bu imkanlardan məhrum olunublar. Ancaq biz öz torpaqlarımıza qayıdacağıq, mütləq qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Mənə bu yaxınlarda məlumat verildi ki, Ermənistanın baş naziri Azərbaycana yeddi şərt irəli sürüb. Hesab edirəm, ağlı başında olan hər bir adam açıq-aydın görə bilər ki, bu şərtlərin heç biri qəbuledilən deyil. Bu şərtlərdən biri odur ki, Azərbaycan qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparsın. Bu, mümkün deyil. Biz bunu dəfələrlə bildirmişik. Çünki “Dağlıq Qarabağ respublikası” yoxdur. Belə bir “respublikanı” heç kim tanımır. Ermənistanın hünəri varsa, tanısın “Dağlıq Qarabağ respublikası“nı. Bax, mən deyirəm, Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın! Quldur, kriminal rejimlə heç bir danışıqlar aparılmayacaq. Ona görə, bəri başdan onlar bilməlidirlər ki, bu, tamamilə qəbuledilməzdir. Digər şərtlər də buna bənzər şərtlərdir. Qəbuledilməz şərtlər irəli sürməklə Ermənistan faktiki olaraq danışıqlar prosesini məhv edir və danışıqlar formatını dəyişdirmək istəyir. Çünki danışıqlar Azərbaycanla Ermənistan

arasında aparılır. Bu, Minsk qrupunun və onun həmsədrlərinin açıq mövqeyidir. Dəfələrlə bu mövqe onlara çatdırılıb, həm rəsmi qaydada, həm də bağlı qapılar arxasında. Amma bunların hikkəsinə baxın, yenə də bu şərti irəli sürürlər ki, Azərbaycan dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil vedrəsinə atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar. Erməni xalqı 1998-2018-ci illərdə Ermənistanda cinayətkar, kriminal rejimin girovu idi. İndi isə Soros rejiminin girovudur.

Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bunu tarixi həqiqət tələb edir. Çünki Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Ermənistanın baş naziri deyir ki, "Dağlıq Qarabağ Ermənistandır" və ondan sonra hansı danışıqlardan söhbət gedə bilər. Çünki danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar azad olunsun. Biz bunun ətrafında danışıqlar aparmalıyıq. Yoxsa, nəyin ətrafında? Biz dırnaqarası "Dağlıq Qarabağ respublikası"na müstəqilliyin verilməsi haqqında heç vaxt danışıqlar aparmamışıq, heç vaxt! Bu, heç vaxt danışıqlar predmeti olmayıb. Mən bu haqda ümumiyyətlə heç vaxt danışmamışam və danışmaq fikrim də yoxdur. Biz onun ətrafında danışıqlar aparırıq ki, işğal edilmiş torpaqlar nə vaxt, hansı ardıcıllıqla azad edilsin. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, "biz qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik", deməli o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar! Budur, mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər.

Biz öz doğma torpaqlarımıza qayıdacağıq və bu gün işğal altında olan şəhərlərimizdə "ASAN xidmət" mərkəzləri yaradacağıq. Bu mərkəzlərdə bizim gənclərimiz çalışacaqlar. Erməni vandalları tərəfindən dağıdılmış şəhərlərimizi, tarixi, dini abidələrimizi bərpa edəcəyik və öz torpağımızda yaşayacağıq. Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik.

Biz Qurban bayramı ərəfəsindəyik. Mən Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdim, bir daha təbrik etmək istəyirəm. Sizi, Balakən rayonunun bütün sakinlərini, bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

Balakən "ASAN xidmət" mərkəzinin əməkdaşı Aytac Balagözova dedi:

- Möhtərəm cənab Prezident, mən də Sizi salamlayıram. Sizi doğma Balakənimizdə görməyimizə çox şad olduq. Təhsil aldığım dövrdə ASAN könüllüsü olmuşam və hazırda Sizin Sərəncamınızla açılmış Balakən "ASAN xidmət" mərkəzinin əməkdaşı kimi qarşınızda çıxış etmək mənim üçün qürurverici bir hissdir.

Möhtərəm Prezident, çox təəssüf ki, bir müddətdir dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də insanlar koronavirusla mübarizə şəraitindədirlər. Hətta ən inkişaf etmiş ölkələrdə belə kütləvi insan ölümləri və yoluxmalar baş verdi. Təəssüflər olsun ki, hazırda da bu virus dünyada davam edir. Sizin rəhbərliyinizlə dövlətimiz qlobal səviyyədə çox fəal və təşəbbüskar rol oynayır. Dəfələrlə Sizin təşəbbüsünüzlə həm xarici dövlət və hökumət başçılarının, həm də transmilli şirkətlərin rəhbərlərinin iştirakı ilə pandemiya ilə mübarizəyə həsr olunan onlayn Zirvə görüşləri və konfranslar təşkil edilmiş, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına pandemiya ilə mübarizə üçün müəyyən maddi yardımlar göstərilmişdir.

Cənab Prezident, Sizin Qoşulmama Hərəkatının sədri statusu ilə BMT-nin Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunan xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünüzü xüsusilə vurğulamaq istəyirəm. Sizin bu təşəbbüsünüzü BMT-yə üzv olan 130-dək ölkə təsdiqlədi, yalnız mənfur qonşumuz Ermənistan belə bir humanist addımın əleyhinə çıxdı. Bu, bir daha beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan etimadın növbəti göstəricisidir və bizi çox qürurlandırır.

Onu da qeyd etmək istərdim ki, bir müddət əvvəl çoxsaylı digər vətəndaşlarımız kimi, mən də Sizə bütün dünyanı aciz vəziyyətdə qoyan koronavirusla mübarizədə böyük əzmlə çalışmağınızla bağlı təşəkkür məktubu ünvanlamışdım. Düzünü desəm, Sizə minnətdarlığımı ünvanlayarkən bunları nə vaxtsa, canlı şəkildə deyəcəyimi heç düşünməmişdim. Bu gün mənim Prezidentim heç bir təhlükəyə baxmayaraq bizimlədir və yenə də bizi düşünür.

Cənab Prezident, biz dövlətimizin və xalqımızın güc birliyi sayəsində bu bəlanı da minimum itki ilə dəf edəcəyimizə inanırıq. Bu gün Balakən "ASAN xidmət" mərkəzinin açılmasına sakinlərimiz çox sevinirlər. Artıq onlar yeni mərkəzimizdə şəffaf və operativ şəkildə xidmət ala biləcəklər.

Cənab Prezident, biz növbəti "ASAN xidmət" mərkəzinin Qarabağımızda, düşmən tapdağı altında olan rayonlarımızda açılmasını böyük səbirsizliklə gözləyirik. Bu gün həm ASAN könüllüsü, həm də "ASAN

xidmət" mərkəzinin əməkdaşı kimi Sizə söz verirəm ki, dövlətimizin inkişafı naminə qazandığımız təcrübədən yararlanaraq əlimizdən gələnin ən yaxşısını etməyə çalışacağıq və vətəndaşlarımıza layiqincə xidmət göstərəcəyik. Bir daha bizə yaratdığınız bütün şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk, cənab Prezident. Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ ol. Təşəkkür edirəm.

ASAN könüllüsü Şölə Tanrıverdiyeva dedi:

-Möhtərəm cənab Prezident, Sizi region gəncləri adından salamlayıram. Çox sevincliyəm ki, bu gün Balakən "ASAN xidmət" mərkəzinin ilk könüllülərindənəm.

Cənab Prezident, ilk könüllülük fəaliyyətimi "ASAN xidmət"dən başlamaq istəyim heç də təsadüfi deyil. Çünki bilirəm ki, həm vətənpərvər bir gənc, həm də məsuliyyətini dərk edən vətəndaş olaraq ölkəmə öz dəstəyimi verə bilərəm. Çünki burada vahid bir ideologiya var. Yaşından və vəzifəsindən asılı olmayaraq hər kəs dövlət üçün, ümumi rifah üçün çalışır.

Cənab Prezident, yaşım az olsa da, dərk edirəm ki, bu Vətənin övladlarıyıqsa, son nəfəsimizədək dövlətimizin və xalqımızın mənafeyi üçün çalışmalıyıq. Elə bu günlərdə cəbhə xəttində ermənilərin növbəti təxribatı zamanı əsgərlərimiz öz canları bahasına mübarizə apararaq mövqelərimizi qorudular. Düşmən isə çoxlu itki verərək geri çəkilməyə məcbur oldu. Cəmiyyətimizin də bu məsələyə münasibəti birmənalıdır. Biz bunu ASAN könüllülərinin "Əsgərə məktub" layihəsində də gördük. Xalqımız öz ordusuna güvənir, hər zaman öz ordusunun yanındadır və Sizin rəhbərliyinizlə də ordumuzun qələbə çalacağına əmindir. Biz gənclər könüllü olaraq cəbhəyə də yollanmağa hazırıq.

Cənab Prezident, Siz hər zaman öz çıxışlarınızda bizə olan etimadınızı və güvəninizi dilə gətirirsiniz. Bu isə bizi gələcəkdə öz məqsədlərimizə doğru daha qətiyyətli addımlar atmağa ruhlandırır. Belə bir deyim var: "Yolu ağıl seçir, iradə hərəkətə gətirir, inam isə yola işıq saçır". Öz ağlımız və sərbəst iradəmizlə seçdiyimiz bu yolda bizə olan inamınız üçün təşəkkürlər. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ ol, təşəkkür edirəm. Sağ olun, uşaqlar, bir daha sizi təbrik edirəm, uğurlar arzulayıram.

Sonra Prezident İlham Əliyevə ASAN xidmət mərkəzi üçün alınan və Gəncə avtomobil zavodunun istehsalı olan "MAZ" markalı avtobuslara baxdı. Qeyd olundu ki, bu avtobuslarla sərnişindaşıma həyata keçiriləcək.

* * *

İyulun 29-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verdi ki, bu şəbəkə tərəfindən 21353 əhali, 1806 qeyri-əhali abonenti olmaqla, ümumilikdə 23159 abonentə xidmət göstərilir. Rayonun elektrik təchizatının yaxşılaşdırılması, abonentlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması məqsədilə Katex kəndindəki 110/6 kV-luq "Qafqaz" yarımstansiyasında əsaslı yenidənqurma işləri aparılıb, 35/6 kV-luq "Kortala" yarımstansiyası tikilib, 35 kV-luq "Kortala" hava xətti çəkilib. Rayon ərazisində köhnə tipli 36 komplekt transformator məntəqələri müasirləri ilə əvəz olunub, yeni hava və kabel xətləri çəkilib və 1872 müxtəlif gərginlikli dayaq quraşdırılıb. 6 kəndin açıq naqillərdən ibarət olan 0,4 kV-luq şəbəkələrində yenidənqurma işləri aparılıb.

Bildirildi ki, Ağıllı Şəbəkələr konsepsiyasına uyğun olaraq Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi yaradılıb və xüsusi proqram təminatı vasitəsilə elektrik enerjisinin alış nöqtəsindən istehlak nöqtəsinə qədər bütün mərhələlərdə şəbəkənin idarə olunması, balansın real-vaxt rejimində və texnoloji itkilər müəyyənləşdirilərək təhlil edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, xətlər üzrə yük parametrlərinin virtual arxivləşdirilməsi, elektron xəritə vasitəsilə abonentlərin müraciətlərinə əsasən texniki şərtlərin verilməsi, istehlakçıların elektrik şəbəkəsinə qoşulması barədə sənədlərin hazırlanması işləri həyata keçiriləcək. Mərkəz, həmçinin yüksək və aşağı gərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsində, sərfiyyat göstəricilərinin monitorinqinin aparılmasında, elektrik şəbəkələrində açılma və qoşulmaların real-vaxt rejimində qeydiyyatında xüsusi rol oynayacaq.

Qeyd edildi ki, görülmüş tədbirlər və qoyulmuş investisiyalar nəticəsində Balakən elektrik şəbəkəsində itkilər 5,2 faiz azalıb, 10,0 milyon kilovat-saat elektrik enerjisinə qənaət olunub. Faydalı elektrik enerjisinə görə yığım göstəriciləri 87 faizə çatdırılıb.

Sonra Prezident İlham Əliyev şəhərin kommunal təsərrüfatı üçün alınan texnikaya baxdı.

Bildirildi ki, bu məqsədlə Gəncə avtomobil zavodunun istehsalı olan iki traktor, bir traktor qoşqusu və küçə süpürən texnika Balakənə gətirilib.

* * *

İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak edib.

Tədbir çərçivəsində Balakən–Hənifə–Gülüzanbinə avtomobil yolunun da təqdimatı olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, uzunluğu 29 kilometr olan üçüncü və dördüncü texniki dərəcəli yol iki hərəkət zolaqlıdır.

Dövlətimizin başçısının müvafiq sərəncamları ilə tikilən Balakən-Qazbinə-İtitala avtomobil yolu 18 min

nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirir. Yol üzərində 123 yol nişanı və göstərici lövhələr quraşdırılıb. 8,7 min kvadratmetr yol cizgi xətləri çəkilib və suvarma kanalı üzərindəki körpü əsaslı təmir olunub.

Prezident İlham Əliyev Balakən rayonunun Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun yenidən qurulması layihəsi barədə görülən işlərlə də tanış oldu.

Diqqətə çatdırıldı ki, 9 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 25 kilometrdir. Dördüncü texniki dərəcəli yolda 2 hərəkət zolağı var.

Dövlətimizin başçısına Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun layihəsi çərçivəsində görülən işlər barədə də məlumat verildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən rayonunda “Bal meyvə” bağçılıq təsərrüfatı ilə tanış olub.

Dövlətimizin başçısına təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, 2012-ci ildə Katex və Beretbinə kəndlərində yaradılan “Bal meyvə” bağçılıq təsərrüfatında 9 növ olmaqla 95 min alma və 4 növdə 3 min armud tingləri əkilib. Bundan əlavə, Beretbinə kəndində 15 hektar ərazidə 5 növdə 6500 gavalı və 2 növdə 2 min nektarin tinglərinin əkildiyi bağlara aqrotexniki, aqrokimyəvi xidmətlər göstərilir və bu bağlarda müasir “damcı” suvarma sistemi qurulub.

Məlumat verildi ki, 2020-ci ilin əvvəlində meyvələrin xüsusi şəraitdə saxlanılması üçün tutumu 1300 ton olan soyuducu anbarın tikintisinə başlanıb və sentyabrda onun istifadəyə verilməsi nəzərdə tutulub. Bağın 6 hektar ərazisində balıqçılıq təsərrüfatı üçün göl yaradılıb və burada 3 növ balıq bəslənilir.

Diqqətə çatdırıldı ki, təsərrüfatda daimi olaraq 80 nəfər işçi çalışır, yığım vaxtı isə 200-dən çox rayon sakini mövsümi işlərə cəlb olunur.

Qeyd edək ki, ötən il təsərrüfatda 1200 ton meyvə istehsal edilib, bu il 1400 ton, 2023-2024-cü illərdə isə 2000 tondan çox meyvə istehsalı nəzərdə tutulub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Şəkidə səfərdə olub.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Prezident İlham Əliyevin Şəkiyə çoxsaylı səfərləri rayonun inkişafında əsaslı rol oynayıb. Nəticədə 2003-cü ilə nisbətdə 2019-cu ildə məhsul buraxılışı 4,8 dəfə, sənaye 9,1 dəfə, kənd təsərrüfatı 2,3 dəfə, əsas kapitala yönəldilmiş vəsait 74,7 dəfə artıb. 2003-cü ildən indiyədək rayonda 24 758 yeni iş yeri açılıb, cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 640, pandemiya ilə əlaqədar əlavə 477 ictimai iş yeri yaradılıb.

* * *

İyulun 29-da Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, uzunluğu 33 kilometr olan dördüncü texniki dərəcəli bu yol 2 hərəkət zolaqlıdır. Azərbaycan Prezidentinin ötən il imzaladığı müvafiq Sərəncamla yenidən qurulan Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolu 11 min əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Avtomobil yolunun 17-ci kilometrliyində Əyriçay çayı üzərində uzunluğu 59 metr, qabariti 7,4 metr olan dəmir-beton körpü təmir edilib.

Prezident İlham Əliyevə Şəki rayonunun ərazisində yerləşən Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun 134 kilometrliyindən ayrılan Şirinbulaq avtomobil yolunun tikinti layihəsi barədə də məlumat verildi. Qeyd olundu ki, 4 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 28,1 kilometrdir.

* * *

İyulun 29-da Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxana istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xəstəxanada yaradılan şəraitlə də tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi burada da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün lazımi şərait yaradılıb. Bu komplekslərin rayon mərkəzi xəstəxanalarının yaxınlığında quraşdırılması vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməyə imkan verir. Digər tərəfdən, koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunmasına geniş imkanlar açır.

Bildirildi ki, sahəsi 3 min kvadratmetr olan üç korpuslu bu xəstəxana 100 palata və 200 çarpayı yerindən ibarətdir. Xəstəxana mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə təchiz olunub. Burada quraşdırılan xüsusi havalandırma sistemi havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürür.

Bir daha xatırladaq ki, modul tipli yardımçı xəstəxana korpusları qısa müddət ərzində sadə beton bünövrə üzərində quraşdırılıb və zərurət olmadıqda onların digər sahələrə köçürülməsi və başqa məqsədlər üçün istifadə edilməsi mümkündür.

Xəstəxana ilə tanışlıqdan sonra Prezident İlham Əliyev həkimlərlə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Bu gün ölkəmizin dörd şəhərində modul tipli xəstəxanalar açılır. Bu, çox əlamətdar hadisədir. Onlardan biri Şəki şəhərində, digərləri Qobustan, İsmayıllı, Qəbələ şəhərlərində. Beləliklə, bir gündə biz əlavə 800 çarpayı əldə edirik, koronavirusla bağlı mübarizədə əlavə imkanlar yaradılır.

Mən təqribən üç ay bundan əvvəl modul tipli xəstəxanaların alınması ilə bağlı göstəriş vermişdim. Bildirmişdim ki, qısa müddət ərzində 10 xəstəxana ölkəmizə gətirilməlidir. Artıq 9-u hazır vəziyyətdədir. Onuncu xəstəxana isə yəqin ki, avqust ayında istifadəyə veriləcək. Beləliklə, bu proqram tam icra edilir. Bu günə qədər beş xəstəxana açılıb və 10 xəstəxananın fəaliyyəti nəticəsində bizim əlavə 2 min çarpayılıq xəstəxanalarımız olacaq.

Bunun xüsusi əhəmiyyəti var. Çünki hazırda koronavirus xəstəliyi Azərbaycanda və bütün dünyada daha geniş vüsət alır. Hər gün Azərbaycanda yüzlərlə insan xəstələnir. Belə olan halda, çarpayıların çatışmazlığı çox böyük problem yarada bilərdi. Necə ki, inkişaf etmiş bəzi ölkələrdə biz bu problemləri görürük. Bu ölkələrdə, hətta inkişaf etmiş ölkələrin səhiyyə sistemi buna davam gətirə bilmir. Bunu nəzərə alaraq biz operativ qaydada bu məsələləri həll etməyə çalışırıq və buna nail oluruq. Onu da bildirməliyəm ki, hər biri 200 çarpayılıq modul tipli əlavə 6 xəstəxananın ölkəmizə gətirilməsi məsələsi həll olunur. Yaxın gələcəkdə onlar da gətiriləcək.

Bununla paralel olaraq, artıq Fövqəladə Hallar Nazirliyinin 800 çarpayılıq xəstəxanası açılıb. Həmçinin 1300 çarpayılıq ikinci xəstəxana da açılacaq. Beləliklə, orada 2100 çarpayı olacaq. Artıq iki min çarpayı fondu vardır. Bu, 4100 çarpayı edir. Altı əlavə modul tipli xəstəxananın fəaliyyəti nəticəsində bizdə təqribən 6 minə yaxın çarpayı fondu yaranır. Əlbəttə ki, əgər bu məsələlər öz həllini tapmasaydı, biz bu gün koronavirusla bağlı çox böyük problemlərlə üzləşə bilərdik.

Bildirməliyəm ki, hazırda ölkəmizin 46 xəstəxanasında koronavirus xəstələri müalicə alır. Bu xəstəxanaların 41-i son 16 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. İndi təsəvvür edin, əgər biz vaxtilə bu işlərlə məşğul olmasaydıq, bu gün bizim imkanlarımız çox məhdud ola bilərdi. Bir neçə il bundan əvvəl Şəki şəhərində, bax, bu modul tipli xəstəxananın qarşısında təqribən 200 çarpayılıq böyük xəstəxana açılmışdır. Bu gün bizim bütün şəhərlərimizdə müasir xəstəxanalar fəaliyyət göstərir, yaxud da ki, yaxın bir il ərzində fəaliyyət göstərəcək. Biz səhiyyə sistemimizin infrastruktur bazasını yaratmışıq. Bu xəstəxanada reanimasiya şöbəsi də var, süni tənəffüs cihazları gətirilib. Bildiyiniz kimi, koronavirusla bağlı mübarizəni səmərəli aparmaq üçün çox böyük vəsait ayrılıb. Bu vəsait tibbi avadanlığın, dərmanların alınmasına, digər məsələlərə istiqamətləndirilir. Mən demişəm ki, nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq. Təki insanlar tezliklə sağalsınlar və biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.

Pandemiyaya qədər ölkə ərazisində bizim cəmi altı laboratoriyamız var idi. Ola bilər ki, adi rejim üçün bu, kifayət idi. Ancaq indiyədək Azərbaycanda 700 min test keçirilib. Adambaşına keçirilmiş testlərin sayına görə biz dünyada qabaqcıl yerlərdəyik. Məhz bu testlərin kütləvi şəkildə keçirilməsi nəticəsində biz xəstələri aşkar edirik və onları müalicəyə cəlb edirik. Operativ tədbirlər nəticəsində bu gün laboratoriyaların sayı 31-ə çatıb. Bizim planımız bu laboratoriyaların sayını 45-ə çatdırmaqdır. Bu məsələ də öz həllini tapır. Çarpayı fondu artır, koronavirus xəstələri ən müasir xəstəxanalarda müalicə alır, o cümlədən bizim ən gözəl xəstəxanamız "Yeni klinika"da. Orada hazırda 360 xəstə yerləşib. Bildiyiniz kimi, bu klinikanın fəaliyyəti mərhələli şəkildə təşkil edilir.

İndi baxın, əgər bu klinika yaradılmasaydı, əgər bundan başqa 41 xəstəxana, - hansı ki, indi koronavirus xəstələrinə xidmət göstərir, - tikilməsəydi, bu gün biz çox ağır bir vəziyyətlə üz-üzə qalardıq. Bu, bir daha onu göstərir ki, biz gərək hər şeyi vaxtında edək. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsi olan yeni xəstəxanaların tikintisi və köhnə xəstəxanaların əsaslı təmiri proqramı demək olar ki, tam təmin edilib. Hətta pandemiyaya qədər bunun böyük faydası haqqında insanlar da artıq öz fikirlərini bildirirdilər. Çünki biz pandemiyaya qədər hər il kütləvi surətdə müayinədənkeçmə proqramı icra edirdik. Bu proqram 5 milyon insanı əhatə edir. Beş milyon insan dövlət tərəfindən yaradılmış imkanlar hesabına öz sağlamlığını müəyyən edir və xəstəliklər üzə çıxdıqda dərhal müalicə alır. Məhz bunun nəticəsində bizdə insanların ömrünün uzunluğu artır. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatlar da keçirilir.

Bir sözlə, biz qısa müddət ərzində bütün imkanlarımızı səfərbər edib COVID-lə mübarizə sahəsində daha hazırlıqlı olduğumuzu nümayiş etdiririk. Heç bir ölkə buna hazır deyil, heç bir ölkə. Xüsusilə pandemiyanın ilk günlərində inkişaf etmiş ölkələrdəki vəziyyət bizim və dünyanın gözü qarşısında cərəyan edirdi. Ən inkişaf etmiş ölkələr bu xəstəliklə bağlı lazımi tibbi xidməti göstərə bilmirdilər. Bu da yəqin ki, təbiidir. Çünki heç kim buna hazır deyildi.

Ona görə bizim əsas vəzifəmiz qısa müddət ərzində bütün səfərbərlik işlərini düzgün təşkil edərək, pandemiyadan minimum itkilərlə çıxmaq üçün infrastruktur və maddi-texniki bazanın yaradılmasından ibarət idi. Laboratoriyalar, xəstəxanalar, çox böyük təşkilati məsələlər öz həllini tapdı. Logistik məsələlər də həmçinin. Eyni zamanda, həkimlərin maddi vəziyyətinin yaxşılaşdırılması üçün əməli addımlar atıldı. COVID xəstələrinə xidmət göstərən həkimlərin maaşları 3-5 dəfə artırılıb. Ən vacib və ciddi problemlərdən biri də həkimlərin çatışmazlığıdır. Çünki bizim həkimlərimizin sayı adi rejimə hesablanıb. Ona görə xəstələrin kəskin artması, əlbəttə ki, bu problemi də üzə çıxarıb. Bundan çıxış yolunu biz xaricdən həkimləri Azərbaycana dəvət etməkdə gördük.

Əlbəttə ki, bütün bu məsələləri həm təşkil etmək, həm də maliyyələşdirmək üçün gərək ölkədə imkanlar olsun. Ona görə, hazırda bir neçə xarici ölkədən həkimlər Azərbaycandadırlar. Onlar xəstələrə xidmət göstərirlər. Hesab edirəm ki, əgər ehtiyac yaranarsa, biz gələcəkdə də bu praktikanı tətbiq edəcəyik.

Pandemiya ilə mübarizə sahəsində bütün lazımi addımlar atılır. Hətta qısa müddət ərzində ölkəmizdə tibbi maskaların, dezinfeksiya vasitələrinin, həkimlər üçün kombinezonların istehsalına başlanmışdır. Bütün bunların istehsalı bizdə yox idi, heç lazım da deyildi. Təbii ki, hər bir ölkə istehlak etdiyi bütün malları istehsal etməməlidir. Ancaq biz gördük ki, xaricdən bəzi avadanlıqları, ləvazimatları gətirmək çətindir. Bəzən imzalanmış kontraktlar icra edilmirdi, vəsait də ödənilmişdi, yenə də biz lazımi avadanlığı gətirə bilmirdik. xüsusilə pandemiyanın ilk mərhələsində ki, dünyada çox böyük ajiotaj var idi.

Bütün bu işlərin nəticəsində biz ilk günlərdən xəstəliyi nəzarət altında saxlayırıq. İlk günlərdən həm Azərbaycan vətəndaşları, həm də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bizim işlərimizə çox yüksək qiymət verildi. Mən bu günə qədər yerlərdən təşəkkür məktubları alıram ki, Azərbaycan dövləti bütün bu işləri operativ qaydada təşkil edib və insanların sağlamlığını təmin edib. Beynəlxalq təşkilatların mövqeyi də müsbətdir. Ümumdünya Səhiyyə Təşkilatı bizim fəaliyyətimizi nümunəvi fəaliyyət kimi dəyərləndirmişdir. Hesab edirəm ki, may ayının əvvəlində bizim yumşalma siyasətimiz düzgün addım idi. Çünki o vaxt xəstəliklə bağlı dinamika müsbət idi. Sağalanlar yoluxanlardan çox idi. Ona görə biz yumşalmaya getdik. Çünki bilirik ki, bu, insanları narahat edir, incidir. İnsanlar öz adi həyat tərzindən məhrum ediliblər. Ona görə yumşalmaya getdik. Amma nə gördük?! Gördük ki, xəstələrin sayı dərhal artmağa başladı, müsbət dinamika pozuldu və biz mənfi dinamika fazasına daxil olduq. Yenə sərtəşdirmə qaçılmaz oldu. Yenə sərt məhdudlaşdırıcı tədbirlər görülməyə başlandı. Bu tədbirlər görülməyə başlayandan təqribən bir ay sonra biz yenə də müsbət dinamikanı görürük. Artıq iki həftədir ki, ölkəmizdə sağalanların sayı yoluxanların sayından çoxdur. Müsbət dinamika budur. Biz hamımız çox istəyirik ki, bu karantin rejimi tezliklə başa çatsın, tezliklə öyrəşdiyimiz həyat tərzinə qayıdaq. Ancaq biz görürük ki, bir balaca yumşalma olan kimi, xəstəliyin vüsəti dərhal genişlənir, yayılması sürətlə gedir və insanların həyatı təhlükə altına düşür.

Bu, elə xəstəlikdir ki, heç yaş da tanımır. Hər kəs-yaşlı, orta yaşlı, cavan insanlar təhlükə altındadır. Birinci mərhələdə hesab olunurdu ki, bu, yaşlı insanlar üçün daha təhlükəlidir, gənclər bundan o qədər də əziyyət çəkmirlər. Amma, baxın, indi gənc insanlar da, orta yaşlı insanlar da, sağlam insanlar da vəfat edir. Hesab edilirdi ki, xroniki xəstəlikləri olan insanlar risk zonasındadır. Bu, belədir. Amma tam sağlam insanlar, idmançılar xəstələnir və ağır xəstələnir. Ona görə, bu xəstəliyin tədqiqatı hələ gələcəyin işidir. Mən hesab edirəm ki, hələ alimlər dəqiq bilmirlər bu xəstəliyin mənşəyi nədir. Müxtəlif fərziyyələr irəli sürülür. Mən bu haqda danışmaq istəməzdim, bu işin mütəxəssisi deyiləm. Amma fakt odur ki, xəstəliyin mənşəyi və səbəbi tam aşkar ediləndən sonra yəqin ki, onun müalicəsi də daha asan olacaqdır.

Əlbəttə, bilməliyik ki, peyvənd tapılana qədər biz bu vəziyyətlə barışmalı olacağıq. Onu da bilməliyik ki, baxmayaraq, vəziyyət nəzarət altındadır, - həkimlər bunu yaxşı bilirlər, - ancaq koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu virusla yaşamalı olacağıq. Ona görə, bizim ənənəvi həyat tərzimizə əlavə olunan məqamlar gərək müəyyən müddət qüvvədə olsun: məsafə saxlamaq, şəxsi gigiyena məsələləri və əlbəttə ki, məsuliyyət. Hesab edirəm ki, biz birgə səylərlə bu vəziyyətdən az itkilərlə çıxacağıq. Yenə də deyirəm, bu günə qədər gördüyümüz işlər nəticəsində vəziyyət tam nəzarət altındadır. Biz bundan sonra da xəstəliklə mübarizə aparmaq üçün nə lazımdırsa, onu da edəcəyik. Biz istənilən iqtisadi məhrumiyyətlərə dözərək əsas məsələni həll edəcəyik.

Bu gün bizim altı aylıq yekunlarımız bütün başqa ölkələr kimi, o qədər də müsbət deyil. İqtisadiyyat tənəzzülə uğrayıb. Düzdür, tənəzzül o qədər də böyük deyil - 2,7 faizdir. Amma bu il üçün bizim planlarımız çox böyük idi. Buna baxmayaraq, heç bir sosial layihə ixtisar edilmir və edilməyəcək. Əksinə, həm xəstəliklə mübarizəyə, eyni zamanda, xəstəlikdən əziyyət çəkən insanların maddi vəziyyətinin yaxşılaşmasına bu qədər vəsait xərclənib və xərclənəcək. Yüz minlərlə insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Biz xərclərimizi artırmalı oluruq və büdcə xərclərimizə yenidən baxmalıyıq. Çünki bu məqsədlər üçün əlavə vəsaitin cəlb edilməsi qaçılmaz olacaq. Bu vəsait, əlbəttə, büdcədə nəzərdə tutulmamışdır. Ona görə yəqin ki, büdcəyə dəyişiklik ediləcək və hesab edirəm, bu, düzgün addımdır. Çünki hazırda bizim üçün birinci dərəcəli məsələ insanların sağlamlığı, onların həyatıdır.

Əlbəttə ki, dövlətin səyləri ilə bərabər, həkimlərin fəaliyyətindən çox şey asılıdır, onların rolu həlledicidir. Siz daim xəstələrlə təmasdasınız, öz sağlamlığınızı, həyatınızı risk altına qoyursunuz. Əfsuslar olsun ki, həkimlər arasında ölənlərin sayı artır. Biz bu vəziyyətdən ancaq birgə səylərlə çıxa bilərik - dövlət orqanlarının məsuliyyəti, həkimlərin peşəkarlığı, onların öz andına sadiqliyi və vətəndaşların məsuliyyəti. Biz bu vəziyyətdən birgə səylərlə çıxmalıyıq. Əminəm ki, belə də olacaq. Sizə uğurlar arzulayıram. Xəstələrə yaxşı baxın. Özünüzü, yaxınlarınızı yaxşı qoruyun. Çalışın, xəstələnməyin. Sizə cansağlığı, uğurlar arzulayıram. Sizi bir daha təbrik edirəm.

Həkim Nəzakət Kərimova dedi:

-Möhtərəm cənab Prezident, Sizi bütün şəkililər və xüsusən də Şəki Mərkəzi Rayon Xəstəxanasının kollektivi adından salamlayırıq. Bildiyimiz kimi, bu gün bütün dünyada yeni növ koronavirus infeksiyası böyük pandemiya olaraq yayılmış və bütün dünya səhiyyəsi, eləcə də dünya iqtisadiyyatı üçün böyük bir problemə çevrilmiş-

dir. Əfsuslar olsun ki, bu pandemiya bizim ölkəmizdən də yan keçmədi. Ona görə də, mövcud pandemiya vəziyyətində əhaliyə yüksək tibbi xidmət göstərəcək və hər cür lazımi avadanlıqla təchiz olunmuş müasir modul tipli xəstəxanaların yaradılması günümüzün vacib və zəruri şərtlərindən biri idi. Sizin dəstəyiniz və təşəbbüsünüzlə bu gün Azərbaycanın bir çox bölgələrində, o cümlədən artıq Şəkidə belə bir xəstəxana inşa edildi və əhalinin istifadəsinə verildi. Biz də tibb işçiləri olaraq, Sizi əmin edirik ki, bütün bilik və bacarığımızı ortaya qoyacaq və xalqımıza yüksək səviyyədə tibbi xidmət göstərəcəyik, bizə olan etimadınızı doğruldacağıq.

Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni, nədir, biz Ermənistanla əməkdaşlığamı başladıq?!

Mən demişəm və bütün beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupunun həmsədrləri bunu bilirlər. Baxmayaraq, təxminən son 17 il ərzində dəfələrlə mənə təkliflər edilib ki, Ermənistanla hansısa formada əməkdaşlığa başlayın, - humanitar, etimad tədbirlərinin gücləndirilməsi və digər. Mən demişəm, biz buna hazır ola bilərik, ancaq biz danışıqlar prosesində tərəqqi görməliyik. Görməliyik ki, biz artıq addım-addım sülh razılaşmasına yaxınlaşırıq. Əgər bu yoxdursa, onda bu əməkdaşlığın nə mənası var? Bu əməkdaşlıq ancaq bizim ziyanımıza ola bilər. Bu gün də bu mövqedəyəm. Gedin, işğalçı dövlətə təzyiq edin, başına ağıl qoyun, nəhayət, sözünüzü deyin ki, onlar bizim torpağımızdan çıxmalıdırlar. Əgər bu baş tutacaqsa və belə bir perspektiv real görünəcəksə, bəli, biz ondan sonra hansısa addımların atılmasını təmin edə bilərik. Ancaq indiki şəraitdə Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən buna cavab verirəm. Xarici İşlər Nazirliyi hansısa səviyyədə buna cavab verib, yoxsa yox? Mən eşitməmişəm, Azərbaycan xalqı da eşitməyib. Bunu, ilk növbədə, kim etməlidir? Xarici İşlər Nazirliyi, susur. Mən demişəm ki, danışıqlar prosesində tərəqqi olmayana qədər Ermənistan ilə hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz. Sən demə, COVID müzakirə olunur. Yəni, biz COVID-lə bağlı erməni işğalçılara köməklikmi göstərməliyik?!

Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə, bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir. Ona görə mən bütün bu sualları çılpaqlığı ilə ictimaiyyətə təqdim edirəm. Bu son bir neçə gün ərzində ancaq mənim göstərişlərim əsasında addımlar atılıb. Mənim köməkçim Hikmət Hacıyevlə gündə bəlkə də on dəfə təmasdayam, - onu belə elə, bunu belə elə, onu buna de, o təlimatı buraya de.

Xarici İşlər Nazirliyi nə ilə məşğul idi? Harada idi? Ayın 12-də hadisələr baş verəndən sonra biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır. Sənə nə dedi? De.

Baş Nazir Əli Əsədov: Cənab Prezident, soruşdum, dedi ki, mən evdən işləyirəm.

Prezident İlham Əliyev: Necə, evdən işləyirəm?

Baş Nazir Əli Əsədov: Bəli, dedi ki, evdən işləyirəm. Mən Elmar Məmmədyarova zəng etdim. Sizin dediklərinizi ona dedim, soruşdum ki, bu hadisəni sən nə vaxt eşitmisən və harada olmusan? Dedi, evdən işləmişəm. Dedim, saatbasaat mənə de, harada olmusan?

Yenə dedi ki, evdən işləmişəm. Günorta saat 3-də eşitmişəm. Daha sonra dedi ki, təqribən saat 6-da, 7-də Hikmət Hacıyevlə telefonla danışıb. İndi Siz dediniz, Hikmət Hacıyev Sizin təlimatları ona çatdırandan sonra deyib ki, bizim BMT-dəki nümayəndəmiz Yaşar Əliyevlə danışıb. Bax, bu qədər. Mən Sizin verdiyiniz tapşırıqları ona çatdırdım, dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et - Sizin dediyiniz tapşırıqları. Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s. Tapşırıq belə oldu. Ondan sonra hadisələr məlumdur.

Prezident İlham Əliyev: Aydındır. Daha dərinə getmək istəmirəm. Bir çox şey deyə bilərəm. Hesab edirəm bu, kifayətdir. Ancaq biz hamımız – həm rəhbər vəzifələrdə olanlar və ictimaiyyət bilməliyik real mənzərə nədən ibarətdir ki, düzgün addımlar ataq. Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq.

Bir məsələni də demək istərdim, bu beynəlxalq təşkilatların reaksiyası ilə əlaqədardır. İlk növbədə, qardaş Türkiyəyə və onun Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirirəm. Biz bu günlərdə Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük. İlk saatlardan Türkiyənin rəsmi qurumları bu məsələ ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdilər, açıqlamalar verdilər. Dünən Prezident tərəfindən çox önəmli açıqlama verildi. Ondan əvvəl Müdafiə naziri, Xarici İşlər naziri, Prezident Administrasiyasının nümayəndələri, deputatlar, ictimai fəallar. Bir daha bütün dünya, Türkiyə və Azərbaycan xalqları gördü ki, biz əsl qardaşıq. Yaxşı günlərdə və ağır günlərdə bir-birimizin yanındayıq. Yəqin ki, həm Türkiyə vətəndaşları, həm Azərbaycan vətəndaşları mənim dəfələrlə dediyim sözləri xatırlayırlar və görürlər ki, mən nə qədər haqlı idim deyəndə ki, dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Bu yaşanan vəziyyət bir daha onu göstərir. Ona görə bir daha qardaş Türkiyə xalqına, onun Prezidentinə Azərbaycan xalqı adından və öz adımdan dərin təşəkkürümü bildirmək istəyirəm.

Bizim digər dost, qardaş ölkəmiz Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib. Fürsətdən istifadə edərək, Pakistan İslam Respublikasının rəhbərliyinə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ölkələrinin rəhbərlərinə - Qazaxıstan, Qırğızıstan, Türkiyə təbii ki, Özbəkistan rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, yəqin ki, Azərbaycan ictimaiyyəti bunu bilir, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatla çıxış edib. Bu təşkilatda 57 dövlət birləşir. Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Bizim ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, əlbəttə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bayaq dediyim kimi, mənə ünvanlanan məktublarda gördüyümüz işlərə tam dəstək ifadə olunur. Dünən bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi. Ancaq əfsuslar olsun ki, bu insanlar Şəhidlər xiyabanına gələndən sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil olub. İndi onların şəxsiyyəti araşdırılır. Bu təxribatçı qruplar orada xuliqanlıq törətdilər, ictimai asayişi pozmağa cəhd etdilər və polisə müqavimət göstərdilər. Mən daxili işlər orqanlarına göstəriş vermişdim ki, insanların Şəhidlər xiyabanına gəlişini, onların təhlükəsizliyini təmin etsin, yol hərəkətini tənzimləsin. Çünki insanlar bir çox hallarda avtomobil yolu ilə gedirdilər. Bütün bu göstərişləri dünən axşam mən Daxili İşlər naziri Vilayət Eyvazova verdim. Eyni zamanda, dedim ki, siz ayıq olun, çünki istisna edilmir, hansısa təxribatçı qüvvələr və bizi istəməyənlər, "beşinci kolon"un nümayəndələri, satqınlar orada hansısa təxribat törədə bilərlər. Çünki belə kütləvi tədbirlərdə, o cümlədən əvvəlcədən təşkil olunmamış kütləvi tədbirlərdə bəzən xoşagəlməz hallar da baş verir. Ona görə Şəhidlər xiyabanına qədər bütün yol boyunca polis əməkdaşları öz vəzifə borclarını ləyaqətlə icra ediblər. Şəhidlər xiyabanında da insanlar yığışanda asayiş tam təmin edilirdi. Ancaq bir daha demək istəyirəm ki, bir qrup təxribatçı bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdı. Təbii ki, daxili işlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu. Artıq onların şəxsiyyəti müəyyənləşdirilir. Onların hamısı məsuliyyətə cəlb ediləcək, bir nəfər də, - mən bu gün səhər dedim, - məsuliyyətdən boyun qaçıra bilməyəcək. Əlbəttə ki, ancaq qanun çərçivəsində onlara layiqli cəza verilə-

cəkdir, əgər onlar məhkəmə tərəfindən bu cəzaya layiq görüləcəklərsə. Onların şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün biz ictimaiyyətdən də yardım istəyirik. O təxribatçıları tam müəyyən etmək üçün dünən oraya toplaşan vətənpərvər insanlardan da mən xahiş edirəm, əgər o videokadrlarda kimisə, iğtişaş törətmək istəyənləri tanıyırlarsa, məlumat versinlər, biz hamısını tapaq və cəzasını verək.

Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar - gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin. Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi də ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı. O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax, bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək.

Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər.

Bir məsələyə də mən toxunmaq istəyirəm. Dünən həmin təxribatçıların bir çox şüarları olubdur. İnsanları bəzi işlərə təhrik edirdilər. Mən demək istəyirəm, bu gün Azərbaycan Ordusu tam komplektləşdirilib, müasir silahlarla təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib. Hətta 2016-cı ilin Aprel döyüşlərində Ermənistanın təxribatına elə cavab verib, elə əlverişsiz mövqedən gedib o torpaqları boşaldıb, azad edib ki, bu günə qədər bəzi hərbi ekspertlər buna məəttəl qalırlar. Son günlərin hadisələri onu bir daha göstərir. Ona görə ordumuz üçün nə lazımsa, biz edirik və edəcəyik. Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram. Çünki bizdə müddətdən artıq

xidmət edənlərin sayı artır, bu da mənim göstərişim idi. Onlar yaxşı maaş alırlar. Onlar artıq təlim keçmiş, orduda xidmət etmiş insanlardır. Biz onları cəlb edirik və əgər belə təşəbbüs olacaqsa, bunu ancaq alqışlayacağıq. Amma bu gün meydanda səslənən və ola bilər yaxşı niyyətlə “mən gedim Qarabağda vuruşum” sözlərinə son qoymaq lazımdır. Populizmin vaxtı deyil. Sən gedib necə vuruşacaqsan? Gedib nə ilə vuruşacaqsan? Sən vuruşmaq üçün gərək təlim keçəsən. Gərək sən nizamlı orduda xidmət edəsən. Səni gərək hazırlasınlar, səni gərək öyrətsinlər.

Mən bu gün səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri ilə danışmışam və maraqlanmışam. Dedim, mənə de, bu günlər ərzində sizin rayon şöbələrinə nə qədər adam müraciət edib ki, gedib vuruşmaq istəyir. Mən bu rəqəmi deyəcəyəm, hər kəs onu eşitsin və özü təhlil aparsın. Dedi təqribən 150 nəfər. Dünən Şəhidlər xiyabanının qabağında nə qədər adam var idi? Minlərlə. Müraciət edənlərin sayı 150. Soruşdum daha çox haradan? Dedi ki, 60-ı Tovuzdandır ki, indi orada döyüşlər gedir. Qalanları da Azərbaycanın müxtəlif yerlərindən. Ona görə, mən deyirəm, dünən “Qarabağda vuruşmaq istəyirəm” deyənlər hamısı getsin öz anket məlumatını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə versin. Öz ünvanını versin, orduda xidmət etmə haqqında öz arzusunu ifadə etsin və biz lazım olan vaxtda onları cəlb edəcəyik. Yoxsa kimsə gedib qışqıracaq, insanları qanunsuz əməllərə sövq edəcək, müqəddəs Qarabağ şüarı altında özünə siyasi kapital qazanacaq və sonra nə olacaq. Necə ki, vaxtilə olub, onumu istəyirlər? Bax, real vəziyyət bundan ibarətdir. Bir daha demək istəyirəm ki, bu gün buna ehtiyac yoxdur, bu gün səfərbərliyə ehtiyac yoxdur. Lazım olarsa, bizim qurumumuz var, dövlət xidməti var, ondan sonra Müdafiə Nazirliyi var. Biz bilirik nə etmək lazımdır, nə vaxt lazımdır, hansı məsələlərin həlli üçün bizə nə qədər canlı qüvvə lazımdır. Yoxsa kimsə özündən burada küçə qəhrəmanı düzəltmək istəyirsə, bu, pis yoldur. Mən yenə də deyirəm, dünən Şəhidlər xiyabanına yığışanların mütləq əksəriyyəti vətənpərvər insanlardır. Amma onların arasına bu ünsürlər - Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib. Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur. Görmürdünüz ki, neftin qiyməti 14 dollara düşəndə necə sevinirdilər. Buna kim sevinir - ermənilər, bir də bunlar. Bir-birinə muştuluq verirdilər, bayram edirdilər, təbrik edirdilər. O Amerikada oturan deyir ki, hələ gözləyin sürüşə-sürüşə gələcək sıfıra. Heç olmasa, ağlın olsun, neftin qiyməti sıfır ola bilər? Hələ deyir tələsməyin sevinməyə, hələ gələcəkdə sevinəcəyik ki, neft 14 dollardan da düşsün, ondan sonra nə olacaq. Sual verin, 2 ildir Amerikada oturub. Birincisi hansı pulla sən orada oturursan, kim səni orada saxlayır, kim sənə pul verir, kim sənə təlimat verir. De ki, Azərbaycan xalqı bunu bilsin. İndi oturub orada, xarici pullarla vəziyyəti qarışdırmaq istəyir. Ona görə bunlara son qoyulacaq. Heç kimdə bu haqda şübhə olmasın. Biz dövlətimizi qoruyuruq, qoruyacağıq. Azərbaycan xalqı dəfələrlə vətənpərvərlik göstəribdir. Bu, bizim növbəti şanlı qələbəmizdir. Bu mövzunu yekunlaşdırmaq üçün bir daha demək istəyirəm ki, biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır. Bu günə qədər bizim bütün addımlarımız uğurlu olub - istər döyüş meydanında, istər siyasi müstəvidə, istər daxili vəziyyətlə bağlı, iqtisadi və digər sahələrdə.

## *Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi*

Əminəm ki, ilin sonuna qədər görüləcək bütün tədbirlər sayəsində həm gömrük, həm vergi orqanlarında yaxşı nəticələr olacaq. Mən bir rəqəmi bir daha qeyd etmək istərdim. Siz bunu gətirdiniz. Hesab edirəm ki, ictimaiyyətin diqqətini də buna cəlb etməliyik. 2015-ci ildə və bu ilin altı ayında idxalın həcmi eyni idi. Ancaq 2015-ci ildə gömrük orqanları 7 yüz milyon manat vəsait toplamışlar, bu il 2 milyard manatdan çox. Yəni, təxminən 3 dəfə çox. Nəyin hesabına? Şəffaflığın hesabına, qaçaqmalçılığa qarşı mübarizə hesabına, düzgün yanaşma nəticəsində. Əgər bu sahədə və vergilər sahəsində ciddi islahatlar aparılmasaydı, biz bu vəsaitdən məhrum olacaqdıq. Onda biz öz büdcəmizi nəyin hesabına təmin edə bilərdik? Ona görə bu sahədə aparılan islahatlar və real nəticələr bizim büdcə planlarımızın da tam şəkildə həyata keçirilməsinə imkan yaradır. Ona görə mən dəfələrlə demişəm ki, dövlət gəlirləri sahəsində tam şəffaflıq təmin edilməlidir. Sahibkarlar üçün elə bir şərait yaradılmalıdır ki, onlar artıq ağ iqtisadiyyata tam keçid edə bilsinlər. Onlar üçün artıq güzəştli dövr də təmin edilmişdir. Onlarla həm gömrük, həm vergi orqanları məsləhətləşmələr aparıblar, görüşlər keçiriblər, onlara izah edilib ki, dövləti aldatmayın və rahat yaşayın, gecənizi rahat yatın. Ona görə mən bu sahələrdə görülmüş işləri qiymətləndirirəm. Hesab edirəm ki, bütövlükdə, ilin altı ayında görülmüş işlərə müsbət qiymət vermək olar. Bu il çox çətin ildir, təkcə bizim üçün yox, bütün dünya üçün. Təsadüfi deyil ki, aparıcı beynəlxalq maliyyə qurumlarının verdiyi açıqlamaya görə, dünyanın 150 ölkəsindən çoxu maliyyə

yardımı üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Azərbaycan öz inkişafını öz hesabına təmin edir.

Bir rəqəmi də gətirmək istərdim. Bu yaxınlarda BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatı işıq üzü görüb. Bu hesabatda Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Onu da bildirməliyəm ki, bu göstəriciyə görə Azərbaycan regionda liderdir. Baxmayaraq ki, ümumi daxili məhsul bir qədər aşağı düşüb, bu da təbii səbəblər üzündən baş verib. Bütövlükdə ilin altı ayını müsbət qiymətləndirmək olar. İlin sonuna qədər qarşıda duran bütün vəzifələr icra edilməlidir. Hesab edirəm ki, investisiya proqramı tam icra ediləcəkdir. Məndə olan məlumata görə, altı ayda investisiya proqramı 40 faiz səviyyəsində icra edilib. Bunun əsas səbəbi odur ki, bu sahədə də şəffaflıq təmin edilir, satınalmalarla bağlı islahatlar aparılır, tender prosedurları gözlənilir. Buna mən göstəriş vermişəm. Amma, eyni zamanda, hamımız yaxşı başa düşürük ki, investisiya proqramı həm ölkə üçün lazımi infrastrukturun yaradılmasına xidmət göstərir, eyni zamanda, məşğulluq üçün də önəmli amildir. Ona görə çalışın, investisiya proqramı ilin sonunadək tam icra edilsin.

Bölgədə gedən prosesləri və son hadisələri nəzərə alaraq biz öz hərbi xərclərimizə də yenidən baxmalıyıq. İstisna edilmir ki, Ermənistan onlara vurulmuş böyük zərbədən və məruz qaldığı vəziyyətdən istifadə edərək, bundan bəhanə düzəldərək növbəti təxribata əl atsın. Onu da bildirməliyəm ki, mənə verilən operativ məlumata görə, Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində Ermənistan tərəfindən fəallaşma müşahidə olunur. Azərbaycan Ordusu vəziyyətə tam nəzarət edir və bundan sonra da nəzarət edəcək. İstisna edilmir ki, yeni təxribatlar törədilə bilər. Ona görə biz həm hərbi xərclərimizə yenidən baxmalıyıq və xüsusilə, gələn ilin büdcəsində orduya nəzərdə tutulan xərclər ordumuzun təminatını tam görməlidir. Mən demişəm, ordumuzun inkişafı üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq. Beləliklə, bugünkü iclas bağlı elan olunur. Verilən bütün tapşırıqlar yerinə yetirilməlidir. Əminəm ki, ilin sonuna qədər biz öz məqsədimizə çatıb bu ili də uğurla başa vuracağıq. Sağ olun.

## *Şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində İlham Əliyevin nitqi*

Əziz dostlar, bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz dövlət tərəfindən mənzillərlə təmin edilirsiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Mən indi sizin yeni yaşayış yerinizlə tanış olmuşam. Çox gözəl təəssürat bağışlayır, müasir standartlara cavab verən ev tikilibdir, mənzillər də çox genişdir və tam təmirlidir. Yəni, sadəcə olaraq, mebeli gətirib yaşamaq mümkün olacaqdır. Bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür.

Bilirsiniz ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir. Eyni zamanda, sizin üçün 400 avtomobil də nəzərdə tutulur və beləliklə, biz bu il bu sahədə ən böyük göstəriciyə nail ola bilmişik.

Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq. Sirr deyil ki, bu məqsədlər üçün böyük vəsait nəzərdə tutulur və bildiyiniz kimi, dövlət büdcəsinin böyük hissəsi sosial məsələlərin həllinə xərclənir. Bu sosial xərclərin içində şəhid ailələrini, müharibə əlillərini, müharibə veteranlarını, məcburi köçkünləri əhatə edən çox böyük proqramlar icra olunur.

Məcburi köçkünlərin məişət problemlərinin həllinə gəldikdə, bu il bu sahədə də rekord göstərici gözlənilir. Bu il 7 mindən çox məcburi köçkün ailəsi mənzillərlə təmin ediləcək. Bu, bir daha onu göstərir ki, biz bu məqsədlər üçün istənilən xərclərə gedirik, bunu təmin edirik və şadam ki, mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Bildiyiniz kimi, özəl şirkət – "Paşa Holdinq" tərəfindən onun vəsaiti hesabına Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa edilibdir və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb. Eyni zamanda, şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il "Kapital Bank" 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu, həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və

özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda, ölkəmizin gücünü göstərir. Çünki siyasət düz, niyyət xoş ola bilər, amma əgər bunu icra etmək üçün imkan yoxdursa, onda niyyət elə niyyət kimi qalacaq.

Biz son illər ərzində iqtisadi sahədə o qədər böyük potensial yaratmışıq ki, bu gün bu işləri görə bilirik. Əgər bu potensial olmasaydı, biz bu işləri nəyin hesabına görə bilərdik, kim bizə kömək göstərərdi? Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində bizim belə imkanlarımız yox idi və məhz buna görə köçkünlər çadırlarda yaşayırdı, şəhid ailələri üçün evlərin təqdim edilməsi, ümumiyyətlə, mümkün deyildi. Bununla paralel olaraq, bizim güclü sosial siyasətimiz var. Çünki iqtisadi güc, ilk növbədə, ona görə lazımdır ki, ölkə daha da qüdrətli olsun, öz maraqlarını təmin etsin və insanlar daha da yaxşı yaşasınlar.

Bu gün mənə təqdim edilən məlumat onu göstərir ki, sosial sahədə çox böyük işlər görülür. Keçən il çox böyük işlər görülübdür və bildiyiniz kimi, şəhid ailələrinin müavinəti 20 faiz artırılıb - 250 manatdan 300 manata çatdırılıb. Köçkünlər üçün müavinətlər 50 faiz artırılıb, bəzi müavinətlər 100 faiz artırılıb. Keçən il insanların sosial problemlərinin həlli üçün bir neçə milyard manat vəsait xərclənib. Bu il pandemiya dövründə təqribən 5 milyona yaxın insan dövlət tərəfindən maddi dəstəklə əhatə olunub. Bütün bunlar üçün bizim resurslarımız, vəsaitimiz gedir. Bizim iqtisadi potensialımız olmasa, bunu necə təmin edə bilərik? Pandemi-yadan əziyyət çəkən insanlara dövlət tərəfindən çox böyük dəstək göstərilir, yeni xəstəxanalar, modul tipli xəstəxanalar tikilir. Xəstələr dərmanlarla təchiz edilir. Biz bir neçə xarici ölkədən mütəxəssislər, həkimlər cəlb etmişik. Hər belə addım pul tələb edir. Biz bunu edirik, çünki bu, bizim borcumuzdur. Ona görə edə bilirik ki, bizim imkanımız var. İmkanı da biz öz işimizlə, məqsədyönlü fəaliyyətimizlə yaradırıq. Həm xarici siyasətimiz, həm daxili siyasətimiz bir məqsədi güdməlidir ki, ölkə daha da qüdrətli olsun, insanlar daha da yaxşı yaşasınlar.

Pensiyaların artırılması - bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb. Bütün bunlar bizim siyasətimizi göstərir. Əlbəttə ki, sosial sahədə digər önəmli layihələr də icra edilir. Özünüməşğulluq proqramı - insanlara imkanlar yaradılır ki, onlar öz ailələrini dolandıra bilsinlər və dövlətin yardımından asılı olmasınlar. Bu il bu işlərə 12 min insan cəlb olunacaq, 90 min insan ödənişli ictimai iş yerləri ilə təmin ediləcək. Mən açıq deyirəm ki, ictimai iş yerləri o iş yerləridir ki, onlarsız da ölkə inkişaf edə bilər. Biz, sadəcə olaraq, insanlar üçün şərait yaradırıq ki, pul qazansınlar və heç olmasa, aztəminatlı təbəqə minimum əməkhaqqı səviyyəsində vəsait əldə etsin.

Beləliklə, bütün bu və digər sosial layihələr, DOST xidmətinin fəaliyyətə başlaması həm ideya, innovasiya, siyasət, eyni zamanda, vəsait tələb edir. Sirr deyil ki, bizim vəsaitimizin əsas hissəsi enerji sektorundan gəlir. Bu da Heydər Əliyev neft siyasətinin uğurlu icrası nəticəsində mümkün olubdur. Təsəvvür edin, əgər bizim neft-qaz kəmərlərimiz olmasaydı və xarici şirkətlər Azərbaycan neft-qaz sənayesinə milyardlarla dollar pul qoymasaydılar, biz indi nəyin hesabına yaşayacaqdıq? Bu səviyyədə yaşaya bilərdikmi? Əlbəttə ki, yox. Öz haqlı işimizi beynəlxalq arenada bu dərəcədə müdafiə edə bilərdikmi? Əlbəttə ki, yox. Ona görə Ulu Öndərin xalq qarşısında xidmətləri arasında bu sahə xüsusi yer tutur. Biz məhz bunun hesabına bu gün valyuta ehtiyatları yaratmışıq, iqtisadiyyatın digər sektorlarına, infrastruktura investisiya qoyuruq. Biznes, özəl sektor buna görə inkişaf edir. Hər kəs bunu bilməlidir ki, bu gün və bundan sonrakı illərdə qeyri-neft sektoru nə qədər inkişaf edirsə-etsin, bizim əsas gəlir mənbəyimiz enerji sektorudur – neft və bu gün qaz. Ona görə bu, bizim üçün strateji əhəmiyyətli sahədir. Əlbəttə, mən çalışıram və bundan sonra da çalışacağam ki, bu sahə inkişaf etsin. Biz yeni neft kontraktlarının, yeni layihələrin işə düşməsi nəticəsində uzunmüddətli inkişafımızı təmin edəcəyik.

Ona görə neft hasilatı, qaz hasilatı, dünya bazarlarında neftin qiyməti bizim üçün xüsusi əhəmiyyət daşıyan bir məsələdir. Təkcə bizim üçün yox, neft, qaz hasil edən, ixrac edən bütün ölkələr üçün əhəmiyyətlidir. Çünki bu ölkələrin iqtisadiyyatı, artıq oturuşmuş iqtisadiyyatlar bunun üzərində qurulubdur. Ona görə neftin qiymətinin bir dollar aşağı düşməsi milyonlarla dollar itki deməkdir. Baxın, bu il neftin qiyməti bir neçə dəfə düşüb və bizim gəlirlərimiz buna uyğun olaraq azalıb, ancaq bir dənə də olsun sosial layihə ixtisar edilməyib. Əksinə, pandemiya dövründə maksimum nə mümkünsə etmişik, edirik və edəcəyik.

Bu çətin pandemiya dövründə dünyada böhran davam edir. Dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Onu da bildirməliyəm ki, Azərbaycan bu siyahıda yoxdur, biz öz hesabımıza yaşayırıq. Neftin qiyməti kəskin aşağı düşür, buna baxmayaraq, biz bu işləri görürük. Budur siyasət. Bu, bizim şəhid ailələrinə, şəhidlərin ruhuna olan hörmətimizdir. Amma əfsuslar olsun, ölkə daxilində elələri tapılır ki, neftin qiymətinin düşməsinə sevinirlər. Buna kim sevinir? Mən demişəm, bir daha demək istəyirəm ki, qoy, Azərbaycan xalqı bunu bilsin və unutmasın. Birincisi, Ermənistan sevinir, çünki başa düşürlər ki, əgər bu tənəzzül davamlı olarsa, Azərbaycanın gəlirləri azalacaq, ona görə öz xərclərini azaldacaq, lazımi həcmdə silah-sursat ala bilməyəcək və beləliklə, zəifləyəcək və Ermənistan da bundan faydalanacaq. Buna Ermənistan sevinir, bu, təbiidir. Amma başadüşülən deyil ki, buna Azərbaycanın bəzi vətəndaşları, yaxud da ki, özlərini Azərbaycan vətəndaşı sayanlar sevinir. Bu məlumat artıq ictimailəşib. Özünü milli şura adlandıran, əslində, antimilli qruplaşma kimi fəaliyyət göstərən

dəstə görün necə sevinirdi ki, neftin qiyməti 14 dollara düşüb. Bir-birinə "şad xəbər" verirlər, təbrik edirlər və bəziləri deyir ki, hələ tələsməyin, hələ düşəcək, o vaxt sevinəcəyik. Bu, nə deməkdir?! O deməkdir ki, bizim gəlirlərimiz azalacaq, lazımi sayda, həcmdə silah ala bilməyəcəyik. Özü də bu gün artıq dünya silah bazarı çox bahalı bir sahədir və hər bir silahın alınması çox böyük vəsait tələb edir, xüsusilə müasir dövrdə. Bu gün, əgər belə demək mümkündürsə, ağıllı silahlar üstünlüyü təmin edir. O silahlar ki, onların qiyməti çox bahadır və biz onları alırıq, alacağıq. Bizim imkanımız olmasa, onları ala biləcəyikmi? Yəni, bu gün özünü müxalifət adlandıran bu mənfur dəstə nə istəyir? İstəyir ki, Azərbaycan onların dövründəki kimi Ermənistan qarşısında aciz qalsın, gücsüz qalsın, silahsız qalsın. Azərbaycanı torpaqlar əldən gedən dövrdəki hala salmaq istəyirlər. Ona görə Azərbaycan xalqı hər şeyi bilməlidir. Mən deyəndə ki, bu, düşmənçilikdir, bu, müxalifətçilik deyil, - müxalifətçilik dövlətə qarşı ola bilməz, - mən tam haqlıyam. Bizi yenə də o qara günlərə qaytarmaq istəyirlər. O günlərə ki, biz o vaxt torpaqlarımızı itirmişik, məhz Azərbaycan Xalq Cəbhəsinin mənfur hakimiyyətinin yarıtmaz fəaliyyəti, satqınlığı nəticəsində torpaqlarımızı itirmişik. Onların hakimiyyət uğrunda gedən mübarizəsi nəticəsində torpaqlarımızı itirmişik. O vaxt torpaqlar əldən gedirdi, amma Azərbaycan Xalq Cəbhəsi burada vətəndaş müharibəsinə start vermişdi, qardaş qanı axıdılırdı. Ermənilər bizim şəhərlərimizi bombalayırdılar, şəhərlərimizi tuturdular, Kəlbəcəri işğal etmişdilər, onlar isə Gəncəni bombalayırdılar, öz şəhərlərini bombalayırdılar, Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu, xəyanət deyil, bəs nədir?! Şuşa kimi alınmaz qalanı ermənilərə satan satqınlar xəyanətkar deyil, bəs nədir?! Siz bunları yaxşı bilirsiniz. Məhz o dövrdə siz yaxınlarınızı itirmisiniz, öz sağlamlığınızı itirmisiniz, hər şeyi yaxşı xatırlayırsınız, o qara günləri xatırlayırsınız. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan müstəqil ölkə kimi qalacaqdı-qalmayacaqdı, bu, hələ böyük sualdır. Amma bizi yenə də o dövrə qaytarmaq istəyirlər. Bax, budur neftin qiymətinin düşməsinə sevinənlər. Mən demişəm, onlar ermənilərdən də pisdirlər.

Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın hərbi təxribatı nəticəsində şəhidlərimiz olubdur, qan tökülüb, o cümlədən mülki vətəndaş həlak olub. Ermənistan ordusu Tovuz istiqamətində bizim mövqelərimizi, torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya silahlarında hücum təşkil edib və bunun nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb. Dərhal lazımi tədbirlər görülüb və qisas əməliyyatı keçirilib. Qisas əməliyyatı nəticəsində onlarla düşmən, onların texnikası məhv edilib. Yəqin ki, siz də o videogörüntüləri internetdə görmüsünüz, Azərbaycan Ordusu sərrast atəşlə, dəqiqliklə Ermənistanın dayaq məntəqələrini, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturunu necə məhv edir. Biz bunu nəyin hesabına edirik? Müasir silahlar hesabına. Bu silahlar Azərbaycanda istehsal olunmur. Bu silahların qiyməti çox yüksəkdir. Bizim maddi imkanlarımız olmasa, biz onu edə bilməzdik. Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin.

Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. İnsanların coşqusu və ehtirasları çox müsbət istiqamətdə gedirdi. Mən dərhal göstəriş verdim ki, hüquq-mühafizə orqanları, ilk növbədə, Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün bütün tədbirləri görsün. Yəqin, internetdə görmüsünüz ki, insanlarla bərabər, polis əməkdaşları da gedirdilər. Çünki insanlar avtomobil yolu ilə gedirdilər, orada hansısa qəza baş verə bilərdi. Çox nizamlı şəkildə hara gəldilər? Şəhidlər xiyabanına, ora da gəlməli idilər. Orada öz dəstəklərini ifadə etdilər. Ancaq bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar etdilər. Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu, qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni, xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim.

Öz xalqına, öz Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu edər? İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəmirəm. Heç müdaxilə etmək fikrim də yoxdur. Amma hər şey göz qabağındadır. İndi bəzi görüntülər də ictimailəşdirilib. Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların "hünəri", hanı bunların "qəhrəmanlığı"? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar. Bu, nəyi xatırladır? Yəqin ki, siz də xatırlayırsınız, 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan

hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı. Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək. İndi istintaq materialları bunu artıq göstərir. Yenə də deyirəm, qabaqlamaq istəmirəm, Azərbaycan xalqı hər şeyi biləcək. Faktiki olaraq hakimiyyəti qanunsuz yollarla zəbt etmək istəyirdilər. Amma mən dedim, onların fikri o illərə getməsin. İndi Azərbaycan o Azərbaycan deyil. Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var. Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram. O məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəyik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya. O gün cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdir. Amma mənim sözlərimdən sonra heç bir həftə keçməyib, artıq əlli minə yaxın insan yazılıb. Əlli minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci.

Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Azərbaycan Ordusu tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, biz bundan istifadə edəcəyik.

Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq. Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq.

Mən bir məsələyə də toxunmaq istəyirəm. İstəyirəm ki, Azərbaycan xalqı bunu bilsin. İndi, əlbəttə ki, məlumat məkanı çox genişdir. Biz bu günlərdə heç vaxt olmadığı qədər, - nə 1990-cı illərin əvvəllərində ki, müharibə gedirdi, nə də başqa dövrdə, - çox güclü beynəlxalq dəstək gördük. Təbii ki, ilk dəstək, ilk qardaşlıq addımı qardaş Türkiyədən gəldi. Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəklədi, bildirdi ki, Azərbaycanın yanındadır. Bildirdi ki, Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaqlar. Bu dəstəyə görə mən öz qardaşıma dərin təşəkkürümü bildirmək istəyirəm. Bu günlərdə biz daim təmasdayıq. Mənə telefonla zəng edib, dəstək ifadə edib, şəhidlərimizin həlak olması ilə əlaqədar başsağlığı verib. Deyib ki, biz sona qədər bir yerdəyik.

Mən də hər zaman dostum, qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana böyük hörmət göstərmişəm. Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil. Dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkələr yoxdur. Bu, həm tarixə, bizim ortaq, etnik köklərə, həm də bugünkü siyasətə əsaslanır. Eyni zamanda, Türkiyənin digər yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən Müdafiə naziri, Xarici İşlər naziri, parlament üzvləri, ictimai xadimlər Azərbaycana birmənalı dəstək göstərmişlər.

Bir çox ölkələr fərdi qaydada rəsmi şəxslər səviyyəsində dəstək göstərmişlər. Ona görə də mən onlara minnətdaram. Beynəlxalq təşkilatlar, ilk növbədə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Azərbaycana dəstək göstərmişdir. Bu təşkilatda beş ölkə fəaliyyət göstərir - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan. Onlar bu təşkilatın üzvləridir və Azərbaycana birmənalı dəstək göstərmişlər. Mən də cavab məktublarımda bu ölkələrin dövlət başçılarına öz təşəkkürümü bildirmişəm. Bu məktublar mətbuatda dərc edilib.

İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu. Orada 57 ölkə birləşir. Bu, həm haqq-ədalətə verilən, həm də Azərbaycana verilən dəstəkdir. Çünki siz də bilirsiniz, mən İslam həmrəyliyinin gücləndirilməsi üçün nə qədər səylər göstərirəm. Azərbaycan nə qədər çalışır ki, bəzi İslam ölkələri arasında olan hansısa ixtilaflar aradan qaldırılsın, yaxud da yumşalsın ki, ilk növbədə, biz öz evimizdə qayda-qanun, həmrəylik, dostluq yaradaq. Biz gərək, ilk növbədə, müsəlman aləmində birlik yaradaq. Çünki əgər burada birlik olmasa, onda bizim taleyimiz necə olacaq? Müsəlman ölkələri bunu qiymətləndirir. Bütün ölkələr - 57 müsəlman ölkəsi bizi dəstəklədi. Baxmayaraq ki, bu ölkələrin bəzilərində erməni icmaları kifayət qədər böyük imkanlara malikdir. Baxmayaraq, bu ölkələrdə erməni rəsmi orqanları, onların səfirlikləri gecə-gündüz çalışırlar ki, bəzi müsəlman ölkələrini öz tərəfinə çəksinlər. Biz bunu görürük. Bəzən səfərlər edirlər. Bəzən dövlət başçısı səviyyəsində müsəlman ölkələrinə gedirlər. Biz hər şeyi izləyirik, baxırıq, baxmalıyıq. Bəzən, bəzi müsəlman ölkələrinin dövlət başçıları Ermənistana rəsmi səfərlər edirlər. Əlbəttə ki, bu, bizi haqlı olaraq narahat edir. Bunu açıq şəkildə deyirik, həmrəylik sözdə yox, əməldə olmalıdır.

Müsəlman məscidlərini dağıdan Ermənistanla hansı əlaqələr ola bilər? Açın baxın internetdə, görün Ağdam

məscidi nə gündədir, Şuşa məscidi nə gündədir, digər şəhərlərdəki məscidlər nə gündədir, onları söküblər. Bu azmış kimi, ermənilər orada heyvan saxlayırlar, hətta bizim müqəddəs ocaqlarımızı təhqir edirlər. Kim edir bunu? Ermənistan. Bu məscidlər təkcə bizim deyil, bütün müsəlman aləminə məxsusdur. Mən sual verirəm, necə ola bilər ki, belə çirkin əməllər törədən bir ölkə ilə hansısa əlaqələr olsun, hansısa dostluq haqqında danışsınlar? Hansı dostluq ola bilər? Ona görə, mən bir daha demək istəyirəm, Ermənistan çalışır ki, onları öz tərəfinə çəksin. Ancaq, ilk növbədə, o ölkələrin xalqları buna imkan verməyəcəklər və verməməlidirlər. Əgər görsələr ki, bu ölkələrin hakimiyyəti öz dini mənsubiyyətini ancaq dildə ifadə edir, o ölkələrin vətəndaşları öz sözünü deməlidir, Azərbaycanla həmrəy olmalıdır. Necə ki, biz bütün müsəlman ölkələri ilə həmrəyik, onlardan da eyni münasibət gözləyirik. Xüsusilə belə həssas günlərdə, həssas məsələdə ki, Ermənistan bizə hücum edib, bizim mövqelərimizi zəbt etmək istəyir, bizim hərbçilərimizi, mülki vətəndaşları öldürüb, kəndlərimizi dağıdıb. Mən dünən Sərəncam imzaladım, Tovuz rayonunda zərər çəkmiş bütün binalar, – indi komissiya təşkil olunub, - inventarlaşdırılacaq və qısa müddət ərzində biz bütün evləri bərpa edəcəyik. Amma insanların həyatını bərpa etmək olarmı? 76 yaşlı ağsaqqalın həyatını bərpa etmək olarmı? Bunu kim edib? Ermənistan edib. Əfsuslar olsun ki, özünü bizə dost kimi təqdim etmək istəyən bəzi ölkələr onlara bu mərmiləri veriblər ki, Azərbaycan əsgərini, Azərbaycan vətəndaşını, uşağı, qocanı Xocalıdakı kimi öldürsünlər. O vaxt bizim gücümüz yox idi. Bizim deyəndə, əvvəlki iqtidarın, hansı ki, bu faciə vaxtı Azərbaycana rəhbərlik edirdi. Açıq danışmalıyıq, bu, belədir. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları hər şeyi bilməlidir. Ona görə İslam Əməkdaşlıq Təşkilatının bu qərarını biz çox yüksək qiymətləndiririk. Qoşulmama Hərəkatı da, - burada 120 ölkə cəmləşir, - birmənalı şəkildə Azərbaycanı dəstəklədi.

Mən sizin və Azərbaycan xalqının diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. Yəqin siz eşitmişiniz ki, biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-nı necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-ya yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq.

Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar.

Mənim fikrim nədən ibarətdir, siz hamınız yaxşı bilirsiniz. Azərbaycan öz tarixi keçmişinə sadiq olan ölkədir və tarixi yaxşı bilirik. Gələcəyi necə görmək istəyirik, onu da bilirik və Azərbaycan xalqı da bilir. Ona görə, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq. İnşallah, ondan sonra orada sizinlə bir yerdə görüşüb bu günləri də xatırlayacağıq. Bir daha sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

***Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə İlham Əliyevin giriş nitqi***

Bu gün biz su təsərrüfatında mövcud olan problemləri müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. İnfrastruktur layihələri arasında su layihələrinin xüsusi yeri vardır. Biz ölkəmizdə bütün infrastruktur layihələrini ardıcıl şəkildə icra edirik. Bu layihələrin icrası nəticəsində ölkəmiz sürətlə inkişaf edib. Əgər biz bu layihələri icra etməsəydik, bu gün ölkəmizin dayanıqlı inkişafı mümkün ola bilməzdi. Təbii ki, infrastruktur layihələri arasında prioritetlər müəyyən edilməli idi və 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı qəbul olunanda bu prioritetlər çox açıq şəkildə ortaya qoyuldu.

Ermənistanın işğalının səbəb olduğu çətinliklərə baxmayaraq, Azərbaycan sabit, müasir, demokratik və multikultural dövlət yaratmağa müvəffəq olmuşdur. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay əvvəl biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafına xidmət edəcək.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul 3 dəfə artmışdır. Ötən 17 il ərzində Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Son 17 ildə ölkəmizdə 3700-dən artıq məktəb yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkəmizdə savadlılıq səviyyəsi 100 faizə yaxındır. “Dayanıqlı İnkişaf Məqsədləri“nin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. “2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı“nda

yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə, Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir, Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı-Tbilisi-Qars dəmir yolu və 25 milyon ton yükaşırma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə vermişik. Davos İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi "Qlobal Rəqabətlilik İndeksi"nə görə Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 141 ölkə arasında 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanı xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yerdədir.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bizim 3 peykimiz var – ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Biz iqlim dəyişikliyi səbəbindən yaranmış içməli su qıtlığı probleminin həlli üçün səmərəli tədbirlər həyata keçiririk. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Azərbaycanda elektrik enerjisinin istehsalı üçün ekoloji cəhətdən təmiz təbii qaz və hidroelektrik enerji stansiyalarından istifadə olunur.

Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Biz dünyaya dözümlülük və birgəyaşayış nümunəsini təqdim edirik. 2008-ci ildə Azərbaycan tərəfindən başladılmış "Bakı Prosesi" müsəlman dünyası və Avropa arasında dialoq və əməkdaşlığın möhkəmləndirilməsi məqsədini daşıyır, həmçinin BMT tərəfindən dəstəklənir. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə "mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma" kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur.

2016-cı ildə Roma Papası Azərbaycana səfər etmişdir. Bu ilin fevral ayında mənim Vatikana səfərim baş tutmuş və orada Papa Fransisklə görüşüm olmuşdur. Görüş zamanı Papa Fransisk Azərbaycanı "əsl tolerantlıq nümunəsi" adlandırmışdır.

Azərbaycan dini abidələrin – məscid, kilsə və sinaqoqların bərpasına çox böyük önəm verir. Biz müxtəlif ölkələrdə belə dini və tarixi abidələrin bərpası ilə bağlı birgə layihələr həyata keçirmişik.

Koronavirus pandemiyası dünyadakı vəziyyəti kökündən dəyişmiş, nəticədə yeni reallıqlar meydana gəlmişdir. İlkin olaraq virusun inkişafda olan ölkələrə təsir edəcəyi gözlənilirdi. Lakin pandemiya inkişaf etmiş ölkələrə də ciddi təsir etmişdir. Bu, virusun sərhəd tanımadığını bir daha sübut edir. Biz pandemiyanın öhdəsindən yalnız qarşılıqlı dəstək və birgə səylərlə gələ bilərik.

Azərbaycan virusun yayılmasının qarşısını almaq üçün zamanında zəruri addımlar atmışdır. Azərbaycan tərəfindən "Minilliyin İnkişaf Məqsədləri"nə nail olunması və "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində əldə edilmiş tərəqqi ona pandemiya ilə səmərəli mübarizə aparmağa imkan vermişdir. Azərbaycanda səhiyyə infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmiş və yenidən qurulmuşdur, son 17 ildə 700-ə yaxın xəstəxana yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir.

Görülmüş tədbirlər nəticəsində ölkədə COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Pandemiyanın iqtisadi çətinliklərinə baxmayaraq, vətəndaşlarımızın həyatı və sağlamlığı bizim üçün prioritet təşkil edir. İqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlılığının təmin olunması, habelə işsizliklə bağlı məsələlərin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz iki bərabər tranşla Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. İkinci tranş Qoşulmama Hərəkatına üzv dövlətlər üçün nəzərdə tutulub. Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan Respublikası 2016-cı ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş XVIII Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür. Zirvə toplantısındakı çıxışımda qeyd etdiyim kimi, Azərbaycan Qoşulmama Hərəkatının üzvlərinin mənafelərinin qorunması naminə əlindən gələni edəcəkdir. Azərbaycan ədaləti və beynəlxalq hüququ müdafiə edəcəkdir.

Təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusa qarşı videoformatda Fövqəladə Zirvə görüşü keçirildi. Mən Zirvə görüşündə Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

Hesab edirəm ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir.

Beynəlxalq sülh və təhlükəsizlik, pandemiyanın dünya dövlətlərinə təsiri ölkələr arasında həmrəylik tələb edir. Bu mənada mən bir neçə təklif irəli sürmək istəyirəm:

- Pandemiyadan sonrakı dövrdə beynəlxalq təşkilatlar çərçivəsində islahatların aparılması vacibdir

və bu, zamanın tələbədir. Bu baxımdan BMT-nin qlobal səviyyədə rolunun və nüfuzunun artırılmasına, onun müasir dövrün çağırışlarına daha adekvat cavab vermək imkanına xüsusi diqqət yetirilməlidir.

- Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması BMT-nin nüfuzunu sarsıdır. Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizmləri yaradılmalıdır.

- Pandemiya dövründə qaçqın və məcburi köçkünlər ən həssas qrupa çevrilmişlər. Həmin həssas qrupa daxil olanların təhlükəsiz qaydada və ləyaqətli şəkildə doğma torpaqlarına qaytarılması məsələsinin aktuallığı artır.

- Vaksinin əlçatanlığı və ədalətli paylanılmasının təmin edilməsi əhəmiyyətli məsələdir və ən az inkişaf etmiş ölkələr onu pulsuz əldə etməlidir. Bu baxımdan burada əlavə nəzarət mexanizmləri yaradılmalıdır.

- Müxtəlif ölkələr tərəfindən "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasına pandemiyanın mənfi təsirinin əhatə dairəsi diqqətlə təhlil edilməli və həll yolları müəyyən olunmalıdır.

Diqqətinizə görə sağ olun.

## *Təhlükəsizlik Şurasının iclasında İlham Əliyevin nitqi*

Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır.

Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar.

Bu gün mən Azərbaycan xalqına müraciət etdim. Müraciətdə bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verdim, fikirlərimi bölüşdüm, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bir daha bildirirəm ki, bu gün səhər tezdən bizə qarşı edilən hərbi hücum planlaşdırılmış hərbi təxribat idi. Çünki bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz atəşə tutuldu və eyni zamanda, yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutuldu. Qeyd etdiyim kimi, mülki əhali arasında itkilərimiz var. Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəhbəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər.

Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Prezident Administrasiyasına, eyni zamanda, Müdafiə Nazirliyinə göstəriş verildi ki, əhali müntəzəm olaraq hadisələrin gedişatı ilə bağlı məlumatlandırılsın. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!

Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.

Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir.

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var. Ancaq münaqişənin ilk illərində bu, belə deyildi. Münaqişənin ilk illərində dünya erməniliyi Azərbaycanı işğalçı kimi, təcavüzkar kimi təqdim edirdi. Əfsuslar ki, o vaxt Azərbaycan rəhbərliyində olmuş şəxslər bu təbliğata qarşı öz sözünü deyə bilmədilər. Azərbaycan elə bir ağır vəziyyətdə idi ki, torpaqlarımız əldən gedirdi, amma dünyada elə bilirdilər ki, Azərbaycan təcavüzkardır. Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır.

Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır.

Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.

## *“COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi” mövzusunda dövlət və hökumət başçılarının toplantısında İlham Əliyevin nitqi*

Cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Azərbaycan “Dayanıqlı İnkişaf Məqsədləri“nin icrasına mühüm əhəmiyyət verir.

Biz 2016-cı ildə əsas vəzifəsi milli prioritetlərin müəyyən edilməsindən, müxtəlif dövlət proqram və strategiyalarının “Dayanıqlı İnkişaf Məqsədləri” ilə uzlaşdırılmasından ibarət olan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası təsis etmişik.

Azərbaycan “Minilliyin İnkişaf Məqsədləri“nə nail olmuş, “Dayanıqlı İnkişaf Məqsədləri“nin icrasında isə ciddi irəliləyiş əldə etmişdir.

Bizim nailiyyətimiz “2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı“nda əks olunmuşdur. Belə ki, oradakı “Dayanıqlı İnkişaf Hədəfləri İndeksi“nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşmışdır.

Azərbaycan BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son 17 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enmişdir.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyələrdədir, ümumi daxili məhsulun təqribən 20 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır.

Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 6 dəfə çoxdur.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılmışdır. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Yaranma vaxtı aktivlərinin 270 milyon dollar təşkil etdiyi Fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ölkə ərazisinin 20 faizinin işğalı ilə nəticələnmişdir. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan qaçqın və məcburi köçkünlərin həyat və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görmüşdür. Bu həssas qrupdan olan şəxslərin ehtiyaclarının təmin edilməsi üçün bu günədək 8 milyard manata yaxın və ya təqribən 5 milyard dollar həcmində vəsait sərf edilmişdir. 300 mindən artıq məcburi köçkün pulsuz ev və mənzillərlə təmin olunmuşdur.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində meydana gəlmiş çətinliklər səbəbindən Azərbaycan müstəqilliyinin ilk illərində beynəlxalq ictimaiyyətdən humanitar yardım qəbul edirdi. Daha sonra isə Azərbaycan özü donor ölkəyə çevrildi. Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir.

COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir göstərmişdir. Milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyi gözləniləndir.

Pandemiya bizim iqtisadiyyata da təsir etmişdir. Pandemiya dövründə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumət iş yerlərinin və səhiyyənin qorunması, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırmışdır.

Pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz – iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir.

Bəşəriyyət pandemiyaya qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir. Sağ olun!

## *İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb*

Sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib.

Verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

Verilişin aparıcıları birinci olaraq sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayıblar.

*Aparıcı: Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.*

Prezident İlham Əliyev: Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

*Aparıcı: İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək.*

Prezident İlham Əliyev: Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın

Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

*Aparıcı: İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.*

Prezident İlham Əliyev: Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

*Aparıcı: İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?*

Prezident İlham Əliyev: Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, “Qarabağ Ermənistandır və nöqtə“. Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

*Aparıcı: Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?*

Prezident İlham Əliyev: Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra

qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

*Aparıcı: Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?*

Prezident İlham Əliyev: Yoxdur. Bu, növbəti feyknyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

*Aparıcı: Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.*

Prezident İlham Əliyev: Sağ olun. Görüşənədək.

## *Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşdə İlham Əliyevin nitqi*

Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.

Bildiyiniz kimi, şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir.

Eyni zamanda, Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında – Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat

keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir.

Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş həbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Hələ ki gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma “Dağlıq Qarabağ respublikası“nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda, qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək

deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. Bilirsiniz, danışıqlarla məşğul olan beynəlxalq format var. Əfsuslar olsun ki, bu format, heç bir nəticə hasil etməyib. Ona görə indiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırış hesab edirəm ki, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa, düşmənin? Həqiqət anıdır-mənim üçün, xalqımız üçün, hamımız üçün.

Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq. Bilirsiniz ki, Azərbaycan dünyada güclü mövqelərə malikdir. Son illər ərzində biz beynəlxalq təşkilatlarda kifayət qədər səmərəli fəaliyyət göstərmişik və haqlı olduğumuzu sübut edə bilmişik. Biz bunu sübut etməli idik ki, biz haqlıyıq. Artıq demək olar ki, bütün əsas beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT – bütün bu təşkilatlar bizim mövqeyimizi dəstəkləyən bəyanatlar veriblər. Biz buna görə minnətdarıq. Bu, məsələnin hüquqi tərəfidir. Tarixi tərəfinə gəldikdə isə, tarixi həqiqət bizim tərəfimizdədir. Hər kəs internetə girib oxuya bilər. Qarabağ xanlığının tarixi ilə əlaqədar materiallar var. Qarabağ xanlığının Rusiya imperiyasına daxil edilməsi ilə əlaqədar məlumatlar var. Kürəkçay sülh müqaviləsi haqqında məlumatlar var. Kürəkçay sülh müqaviləsini bir tərəfdən bağlayan İbrahim Xəlil Xan şuşalı və qarabağlı, - müqavilədə belə də yazılmışdır, - şuşalı və qarabağlı İbrahim Xəlil Xan. Digər tərəfdən çar Rusiyasının generalı imzalamışdır. Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlmə də yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, o vaxt orada erməni əhalisi olmayıb, ondan sonra köçürülüb. Ondan sonra onlar artıq orada yerləşiblər və sonra bizə qarşı ərazi iddiaları qaldırıblar. Ona görə biz tamamilə haqlıyıq. Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.

Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülk şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Mən sizi həm təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Mayor Etibar Camalov: Cənab Ali Baş Komandan, cənab Prezident, çox sağ olun. Həqiqətən də Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi. Bu gün də, hər bir insan yenə ön xəttə qayıtmağa hazırdır. Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Hər zaman torpağımız, dövlətimiz üçün şam kimi yanmağa hazırıq. Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq. Çox sağ olun.

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 32:316.37; 242.7

**ELMAN NƏSİROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor**
*e-mail: elmannasirov@yahoo.co.uk*

## MEHRİBAN ƏLİYEVA: ADI İMZASI OLAN ŞƏXSİYYƏT

"Gecə və ya gündüz" seçimi qarşısında qalacağı təqdirdə "düşüncəsiz vəziyyəti sevmirəm" deyərək aydın və işıqlı gündüzü bəyənən, "istənilən vəziyyətdə ləyaqəti qorumağı" dəyişməz həyat prinsipi kimi qəbul edən, "son dərəcə təbii olmağı" mütləq davranış qaydasına çevirən, "Əgər uca Tanrı Sizə imkan versəydi, keçmişinizdə nəyi dəyişərdiniz?" kimi olduqca duyğusal və həssas sualın qarşılığında "Mənə ən əziz insan olan anamın xəstəliyini və bu dünyadan gedişini" cavabını verməklə şəxsi ləyaqət hissini paklıq zirvəsinə yüksəldən ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri hörmətli Mehriban xanım Əliyeva sözün həqiqi mənasında insanlıq, mərhəmət, nəciblik və şəfqət kimi ali insani dəyərlərin unikal harmoniyasını xarizmatik davranış norması ilə tamamlamağı bacaran bənzərsiz şəxsiyyətdir.

İnsanlarda ləyaqət, intellekt və mehribanlıq kimi 3 vacib keyfiyyəti xüsusi olaraq dəyərləndirən ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyeva özü həmin uca insani dəyərlərin daşıyıcısı olaraq ölkə və beynəlxalq ictimai fikirdə olduqca yüksək reytinqə malikdir. Bu xüsusda Mehriban xanım Rusiyanın nüfuzlu "Rossiya-24" kanalına müsahibəsində haqlı olaraq vurğulayır ki, "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam." Hörmətli Mehriban xanım Əliyeva bu gün xoşbəxtdir ki, xalqın ümidini və inamını şərəflə doğruldur, öz misilsiz fəaliyyəti ilə Prezident İlham Əliyevin gücünə güc qatır. Bu həqiqəti Xalqımız və Prezidentimiz görür və dəyərləndirir. Bu baxımdan cənab İlham Əliyevin 2019-cu il dekabrın 20-də Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşündə hörmətli Mehriban xanım Əliyevanın dövlətçiliyimiz qarşısında, xüsusən də Azərbaycan-Rusiya əlaqələrinin inkişafı sahəsində göstərdiyi müstəsna xidmətlərinə verdiyi yüksək qiymət təsadüfi sayılmamalıdır: "Bu il Mehriban xanımın Rusiyaya çox uğurlu rəsmi səfəri baş tutdu. Səfər çox yüksək səviyyədə təşkil edildi. Prezident Vladimir Vladimiroviç Putin ilə görüşü, Prezident tərəfindən Mehriban Əliyevaya "Dostluq" ordeninin təqdim edilməsi, əlbəttə ki, böyük hadisədir. Biz bilirik ki, Rusiyanın Prezidenti prezident olmayan şəxsləri çox nadir hallarda qəbul edir. Bu istisna hal Rusiya Prezidentinin Azərbaycana münasibətinin təzahürüdür. Azərbaycanda da Rusiya Prezidentinə böyük hörmət var. İkitərəfli əlaqələrin inkişafında prezidentlərin, əlbəttə ki, xüsusi rolu vardır. Mehriban xanımın səfər çərçivəsində həm Baş Nazirlə, həm də Federasiya Şurasının sədri ilə görüşləri olubdur. Əlbəttə ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun yenidən açılması tarixi hadisədir." (1).

“Bilirsiniz, düşünürəm ki, rəhbərin mütləq quru insan olması ideyası da müəyyən dərəcədə stereotipdir. Məsuliyyətli-bəli, prinsipialbəli, iradəli-bəli. Quruluq, sərtlik vacib keyfiyyət deyil. Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görürlər, hər şeyi anlayırlar“, - deyən Mehriban xanım Əliyeva öz çoxtərəfli fəaliiyyəti ilə üzərinə düşən olduqca mühüm vəzifələrin öhdəsindən məhz böyük məsuliyyəti, prinsipiallığı və iradəsi hesabına layiqincə gəlir (2).

Heç şübhəsiz, sadalalan keyfiyyətlər ilə yanaşı, burada 2 mühüm amilin də rolu danılmazdır. Bunlardan birincisi, genetika ilə bağlıdırsa, ikincisi, zəngin təcrübə amili ilə əlaqədardır. Müasir genetika elmi sübut edir ki, nəsilli-köklü, böyük elmi və zehni potensiallı ailələrin övladlarının genetik kodun daşıyıcısı olaraq böyük uğurlara imza atma şansı kifayət qədər böyükdür. Münbit şəraitin olacağı təqdirdə həmin övladların valideynlərindən miras qalmış irsi potensialı zənginləşdirərək daha böyük uğurları əldə etməsi sırf zaman məsələsidir. Məsələyə bu kontekstdə yanaşdıqda xüsusi olaraq qeyd edək ki, hörmətli Mehriban xanım Əliyeva böyük genetik irsin varisidir. Babası Mir Cəlal Paşayev Azərbaycanın mütəfəkkir ədibi, atası Arif Paşayev və anası Aida İmanquliyeva Azərbaycan və dünya elmində öz izini qoymuş böyük şəxsiyyətlərdir. Bu unikal ailənin övladı olan Mehriban xanım Əliyevanın dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi və sistemli analiz qabiliyyətinə malik olması, hadisə və proselərə münasibətdə prinsipial və qətiyyətli davranış tərzi nümayiş etdirməsi bilavasitə genetik irsin və bu xüsusda fitrətən istedadın, eləcə də fədakar zəhmətin nəticəsidir.

Yerli və xarici auditoriya qarşısında çıxışları zamanı problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, dinləyicilər ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti və nəhayət ecazkar cəzbetmə potensialı və bənzərsiz xarizması yuxarıda sadaladığımız amillərlə birbaşa bağlıdır.

Mehriban xanım Əliyeva böyük idarəçilik məktəbi keçərək, zəngin təcrübəyə malik olması qarşısında duran müxtəlif istiqamətli və mürəkkəb vəzifələrin ləyaqətlə yerinə yetirməsi üçün unikal imkanlar pəncərəsi açmışdır. Fikrimizi əsaslandırmağa çalışaq.

Birincisi, fəal ictimai fəaliyyətə 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayan Mehriban xanım. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan “Azərbaycan-İrs” jurnalını təsis etməklə perspektiv və peşəkar fəaliyyəti üçün zəngin təcrübə qazanmaq imkanı əldə etmişdir. Bu amilləri nəzərə alaraq möhtərəm Prezidentimiz İlham Əliyev vurğulamışdır ki, “Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır.” Başqa sözlə, üzvlərinin sayı 760-mindən artıq olan nəhəng siyasi partiyanın idarə edilməsində və qazandığı uğurlarda hörmətli Mehriban xanım Əliyevanın müstəsna yeri və rolu vardır.

İkincisi, Mehriban xanım Əliyeva 3 dəfə (2005, 2010, 2015) seçicilərinin böyük etimadını qazanaraq Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. “Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz,” – deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir

problem yoxdur. Vədi ilə əməli eyniyyət təşkil edən Mehriban xanım deputatlıq müddətində təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atmış və seçicilərinin hüsn-rəğbətini qazanmışdır. Parlament fəaliyyəti çərçivəsində Mehriban xanım Əliyeva 4 dəfə-2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktının qəbulu ilə bağlı qanunvericilik təşəbbüsləri ilə çıxış etmiş və nəticədə 40 mindən artıq məhkumun cəzası tam və qismən ləğv edilmişdir. "...səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk",-deyən Mehriban xanım Əliyevanın bu qanunvericilik təşəbbüsləri həm mənəvi-əxlaqi, həm də siyasi əhəmiyyət kəsb edir.

Eyni zamanda, Mehriban xanımın deputat kimi çox geniş beynəlxalq fəaliyyət göstərərək Azərbaycan həqiqətlərini dünyaya çatdırmışdır. Bu fəaliyyətin nəticəsində ölkəmizə olan beynəlxalq etimad daha möhkəmlənmiş, dost və tərəfdaşlarımızın sayı artmışdır.

Üçüncüsü, demokratik dövlət quruculuğu istiqamətində Ümummilli lider Heydər Əliyevin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, Ulu öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Mərhəmətli Mehriban xanımın rəhbərliyi altında qeyd edilən sahələr ilə yanaşı, milli musiqinin inkişafı, mədəni irsin qorunması, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətlərdə də misilsiz addımlar atılır.

Dördüncüsü, Mehriban xanım Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və bu istiqamətdə fəaliyyəti də həm yerli, həm də beynəlxalq ictimaiyyət tərəfindən ən yüksək qiymətə layiq görülmüşdür. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban xanım Əliyeva xüsusi rol oynamışdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz Mehriban Əliyevanın təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır." Təsadüfi deyildir ki, 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

2017-ci ildə İV İslam Həmrəylik Oyunlarının təşkili də hörmətli Mehriban xanım Əliyevaya həvalə olunmuş və bu mötəbər idman tədbiri də təşkilatçılıq nöqteyi-nəzərindən ən yüksək qiymətə layiq görülmüşdür.

Beşincisi, Mehriban xanım Əliyevanın beynəlxalq fəaliyyəti ilk növbədə ölkəmizin milli maraqlarının müdafiəsi və təminatı mənafeyinə xidmət etməklə yanaşı, eyni zamanda

beynəlxalq sülh, təhlükəsizlik, əmin-amanlıq, tarixi mədəni irsin qorunması, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi kimi olduqca vacib missiyanın yerinə yetirilməsi işinə böyük töhfə verir. Bu baxımdan təsadüfi deyildir ki, 2004-cü ildə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və təbliği sahəsindəki aktiv fəaliyyətinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. Mehriban Əliyeva türkdilli ölkələrin bu yüksək ada layiq görülən ilk qadın təmsilçisidir. 2006-cı ildə Azərbaycanın birinci xanımına ISESCO-nun xoşməramlı səfiri titulu verilmişdir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun.

Qeyd edilən reallıqlar fonunda 2017-ci il fevralın 21-də hörmətli Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın unikal genetik irsə, zəngin təcrübəyə, böyük intellektə və geniş təşkilatçılıq qabiliyyətinə əsaslanan misilsiz fəaliyyətinin müxtəlif istiqamətlərinə dair yuxarıda qeyd olunan nəzəri yanaşmalarımızı praktiki xarakterli analizlə davam etdirək.

Bu, bir həqiqətdir ki, ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritet istiqamətləri sırasındadır. 2004-2019-cu illərdə Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 75 fərman və sərəncam imzalamış, bir çox Dövlət Proqramları təsdiqləmişdir. Çadır şəhərciklərinin ləğv edilməsi prosesi 2007-ci ildə başa çatmışdır. Eyni zamanda, hələ də yataqxanalarda, məktəblərdə, uyğun olmayan binalarda ağır şəraitdə yaşayan köçkünlərimiz vardır və onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin qarşısında duran strateji məsələlərdəndir. Hər il Azərbaycanda minimum 6 min köçkün ailəsi evlərlə təmin olunur. Orta hesabla hər bir ailədə 5 nəfərin olduğu faktını əsas götürsək, bu hər il 30 min köçkünün yeni ev və mənzillərlə təmin olunması anlamındadır. Bu il isə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, rekord sayda-7 mindən çox köçkün ailəsi yeni mənzillər alacaqdır. Həyata keçirilən tədbirlər nəticəsində bu günədək 315 min məcburi köçkünün, yəni, 62 min 494 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.

Olduqca xeyirxah missiya-məcburi köçkün və qaçqınlara xüsusi həssaslıq və qayğı ilə yanaşılması siyasəti Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı Mehriban xanım Əliyeva tərəfindən də uğurla həyata keçirilir. Onun Birinci vitse-prezident təyin edildikdən sonra ilk görüşünün 2017-ci il martın 9-da məcburi köçkünlərlə keçirməsi də bu qəbildən olan insanlara həssas yanaşmanın bariz nümunəsidir. “Qaçqınlara və məcburi köçkünlərə qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən prioritet istiqamətlərindən biridir. Müstəqilliyimiz bərpa olunandan sonra ən ağır dövrlərdə, ölkəmizin inkişafının bütün mərhələlərində bu sahəyə dövlət tərəfindən böyük qayğı göstərilib. Amma, eyni zamanda, əfsuslar olsun ki, bu sahədə hələ də problemlər var. Ona görə bizim qarşımızda məqsəd durur ki, çox qısa zamanda bu problemləri aradan qaldıraq və yararsız vəziyyətdə olan bütün təhlükəli binalarda yaşayan soydaşlarımızı yeni mənzillərlə təmin edək” (3) ,-deyən hörmətli Mehriban xanım Əliyeva müvafiq dövlət qurumu qarşısında konkret vəzifə də müəyyən etdi: “Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Bu məqsədlə əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün

ərazi müəyyənləşdirilməlidir və tezliklə binaların inşası başlamalıdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınmalıdır. Qarşımızda duran məqsəd qəzalı binalarda yaşayan bütün köçkünləri bu il və gələn il ərzində yeni mənzillərlə təmin etməkdir.” (4) Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa dəstəyi sayəsində sözügedən istiqamətdə ciddi uğurlara imza atılmışdır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həllinə olduqca həssaslıqla yanaşması, bu qəbildən olan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, sosial rifahının daha da yüksəldilməsi məsələsinə xüsusi qayğı göstərməsi özünü yeni inşa olunan “Qobu Park-1“, “Qobu Park-2” və “Qobu Park-3” yaşayış komplekslərində də aydın nümayiş etdirmişdir. Bütün bu yaşayış komplekslərinin inşası hörmətli Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir.

Onu da qeyd edək ki, ölkəmizdə sosial layihələrin icrasına, o cümlədən məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına özəl sektorun öz töhfəsini verməsi təqdirəlayiq haldır. Belə layihələrin investisiyalaşdırılması barədə Prezident İlham Əliyevin çağırışına cavab olaraq, bir sıra sahibkarlıq subyektləri öz vəsaitləri hesabına məcburi köçkünlər üçün yeni yaşayış kompleksləri inşa edirlər. “Qobu park-3” də həmin komplekslərdən biridir. Bu davranış sahibkarların sosial məsuliyyətinin ifadəsi olaraq olduqca müsbət hadisədir. Məsələyə bu kontekstdə yanaşdıqda sahibkarlıq fəaliyyətini realizə olunmasında və bu istiqamətdə stimulverici şəraitin təmin edilməsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin qayğı və dəstəyi olduqca təqdirəlayiqdir. Xüsusilə də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci ildən fəaliyyətə başlayan İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sözün həqiqi mənasında hər bir sahibkarın yanındadır. Onun yaxın dostudur. Hər zaman sahibkarlara maliyyə resurslarına çıxış imkanları yaradır, institusional dəstək verir, üzləşdikləri problemlərin həlli istiqamətində operativ addımlar atır, eyni zamanda dövlət və ozəl qurumlar arasında əlaqələndirməni təmin etməklə sahibkarların fəaliyyətinin səmərəlilik əmsalının yüksəlməsi üçün münbit şərait yaradır.

Azərbaycanın birinci xanımının genişmiqyaslı proqram və layihələrinin sırasında təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək hədəfi xüsusi yer tutur. Heydər Əliyev Fondunun layihələri çərçivəsində minlərlə məktəb, uşaq bağçaları və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilmiş və təmir olunmuşdur. Yüksək standartlar səviyyəsində təhciz olunmuşdur. Təhsili dövlətin strateji və prioritet sahəsi kimi dəyərləndirən hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi altında 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsinə start verilmişdir və bu layihə çox uğurla icra olunmuşdur: “Biz o zaman orta məktəblərdə olan problemləri cəmiyyətimizin diqqətinə çatdırdıq və qısa bir zamanda vətəndaş cəmiyyətinin müxtəlif strukturları, özəl sektor, iş adamları bu proqramı dəstəkləməyə başladılar“. “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı və “Təhsilə dəstək” layihəsi təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və onun məzmununun zənginləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Birinci proqram çərçivəsində ölkəmizdə 100 mindən çox şagirdin təhsil aldığı 500-dək məktəb əsaslı təmir olunmuş və ya yenidən tikilmişdir (5).

Heydər Əliyev Fondu hər il “Təhsilə dəstək” layihəsi çərçivəsində Qarabağ müharibəsi nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə,

həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir.

"Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2007-ci ildə zəlzələdən zərər çəkmiş Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikilmişdir. 2012-ci ildə isə həmin məktəbdə əsaslı yenidənqurma və təmir işləri aparıldıqdan sonra Pakistan hökumətini qərarı ilə bu təhsil ocağına xeyirxahlıq mücəssəməsi olan Mehriban Əliyevanın adı verilmişdir.

Bundan savayı, hörmətli Mehriban xanımın dəstəyi ilə Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Rumıniyada məktəblər tikilmiş və ya əsaslı təmir edilmişdir.

2013-cü ildə ABŞ-ın Merilend ştatında yerləşən məktəblərə interaktiv lövhələrin və əlil uşaqlar üçün müvafiq avadanlığın alınmasına maliyyə yardımı edilmiş, Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kor və zəif görən uşaqlar və gənclər üçün mərkəz yenidən qurulmuşdur (5).

Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsinə start vermişdir. Bu layihə çərçivəsində ölkəmizdə 40-a yaxın uşaq evi və internat məktəbi ən müasir standartlara uyğun olaraq təmir edilmişdir. Bu layihənin icrası ölkəmizdəki özəl sektor ilə sıx işbirliyi hesabına reallaşmışdır.

Bundan savayı, 2014-cü ildə hörmətli Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu növbəti böyük bir layihəyə – "Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı"nın icrasına başlamışdır. Bu layihənin xüsusi aktuallığından bəhs edərkən Mehriban xanımın istinad etdiyi arqumentlər kifayıt qədər əsaslıdır: "Bu gün bu sahəyə diqqətimiz artmalıdır. Ölkəmizdə uşaq bağçalarının tikintisinə çox böyük ehtiyac vardır. Uşaqlar demək olar ki, günün yarısını bağçada keçirirlər. Bu təhsil ocaqlarında olan şərait, orada uşaqlarımızın aldıqları tərbiyənin keyfiyyəti, hökm sürən ab-hava çox vacibdir. Uşaqların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məhz bu müəssisələrdə formalaşır. Belə olan halda, əlbəttə, biz təhsilin bu sektoruna daha böyük diqqətlə yanaşmalıyıq" (5).

Fondun təşəbbüsü ilə ölkəmizdə yəhudi təhsil mərkəzi və fransız məktəbi yaradılmışdır.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fond genişmiqyaslı səhiyyə layihələri həyata keçirir. Buraya xəstəxanalar, klinikalar, müasir avadanlıqların alınması, diabet və talassemiya xəstələrinin müalicəsi daxildir. Bu istiqamət üzrə Mehriban xanımın təşəbbüsü ilə "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi olduqca əhəmiyyətli layihələrin həyata vəsiqə alması geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunmuş və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir (5).

2012-2013-cü illərdə Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Pakistanda bir sıra digər sahələrlə yanaşı, səhiyyə sferasında əhəmiyyətli layihələr icra olunmuşdur. "Serebral" iflic klinikası və Lakki Marvat uşaq və qadın xəstəxanasında hepatit B virusuna qarşı peyvəndləşdirmə və müayinələr aparılmışdır. Bundan savayı, mərhəmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanın Peşəvər şəhərində Dünya Donorlar Gününə həsr edilmiş mərasimdə qan xəstəliklərinin müayinəsi ilə məşğul olan "Həmzə" Xeyriyyə Fonduna xüsusi qanköçürmə laboratoriyası ilə

təchiz edilmiş “Suzuki” markalı təcili tibbi yardım avtomobili və minlərlə qanköçürmə paketi hədiyyə edilmişdir. Mehriban xanim Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Xayber Paxtunxva əyalətində həyata keçirdiyi humanitar layihələr çərçivəsində Xayber Göz Fondunun nəzdində fəaliyyət göstərən Göz klinikasının yeni blokunun və gözləmə otaqlarının inşası üçün maddi yardım göstərmişdir (5).

“Sağlam bədəndə sağlam ruh olar” prinsipindən çıxış edərək Prezident İlham Əliyevin birbaşa hamiliyi altında Azərbaycanda idman hərəkatının geniş vüsət almasında Mehriban xanım Əliyeavanın da müstəsna xidmətləri vardır. O, 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra idmanın bu növünün populyarlığı ölkəmizdə kifayət qədər artmış və yüksək nəticələr özünü çox gözlətməmişdir. Beynəlxalq Gimnastika Federasiyası bədii gimnastika üzrə dünya kubokunun “A” kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair müvafiq qərarlar qəbul etmişdir (5). Azərbaycanın birinci xanımının yüksək təşkilatçılıq bacarığı və səriştəsi sayəsində Birinci Avropa Oyunları və İV İslam Həmrəylik Oyunlarının böyük beynəlxalq rezonans doğurması haqqında yuxarıda bəhs etmişik. Həmin siyasət bu gün də uğurla davam etdirilir və bunun sayəsində Azərbaycan dünyanın inkişaf etmiş idman dövlətləri sırasında yer alır.

Mədəniyyətin və mədəni irsin qorunması mərhəmətli Mehriban Əliyevanın rəhbərliyi altında Fondun fəaliyyətinin başqa bir istiqamətidir. Fondun dəstəyi ilə musiqi tədbirləri, ənənəvi muğam festivalı, Qəbələ beynəlxalq musiqi festivalı və Rostropoviç klassik musiqi festivalı keçirilir. Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilmiş, regionlarda yeni muzey və musiqi məktəbləri yaradılmışdır. Beynəlxalq təşkilatlarda, o cümlədən UNESCO, İSESCO və UNİCEF ilə əməkdaşlıq yüksək səviyyədə qurulmuşdur. Məhz bu misilsiz fəaliyyətin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Məhz Mehriban xanım Əliyevanın mədəni irsin qorunması sahəsində yorulmaz fəaliyyəti sayəsində muğam (2008-ci ildə), aşıq sənəti (2009-cu ildə), Novruz bayramı (2009-cu ildə), xalça toxuculuğu (2010-cu ildə), tar ifaçılıq sənəti (2012-ci ildə), kəlağayı (2014-cü ildə), Lahıc misgərlik sənəti (2016-cı ildə), lavaş (2016-cı ildə), dolma (2017-ci ildə), kamança (2017-ci ildə), “Dədə Qorqud” dastan mədənyyəti, nağılları və musiqisi (2018-ci ildə) UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır. Bunlardan savayı, Qarabağ atı ilə oynanılan Çovqan atüstü oyunu (2013-cü ildə) və Naxçıvanın ənənəvi qrup rəqsləri-yallı, köçəri, tənzərə (2018-ci ildə) UNESCO-nun təcili qorunma ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. (6) Bu baxımdan təsadüfi deyildir ki, 2019-cu ilin iyul ayında Mehriban xanımın təşəbbüsü və dəstəyi ilə ölkəmiz UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etmişdir.

“Bütün bunlara baxmayaraq, elə bilirəm ki, Fondun fəaliyyətinin ən böyük nəticəsi Azərbaycanda xeyriyyəçilik ənənələrinin canlandırılması olmuşdur. Ölkəmizdə xeyriyyəçilik fəaliyyətinin uzun tarixi vardır. İlk dəfə neft maqnatları Hacı Zeynalabdin Tağıyev və Musa Nağıyev bu ənənələrin yaranmasına böyük töhfə vermişlər. XX əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyev qızlar üçün ilk dünyəvi məktəb tikintisini, ilk milli teatrın açılmasını maliyyələşdirmişdir. O, Azərbaycan gənclərinin Rusiyada və Avropada təhsil almasına da yardım etmişdir. Musa Nağıyevin tikdirdiyi binalar Bakının memarlıq inciləri sırasındadır,- deyən Mehriban xanım Əliyeva Azərbaycanda xeyriyyəçilik ənnənələrini nəinki bərpa etmiş, ona yeni forma və məzmunla zənginləşdirmişdir. Nəticədə xeyrirxahlıqdan

yoğrulmuş bu ənənə qədim tarixi olan, Şərq və Qərbin kəsişdiyi yerdə qərar tutan tolerant və dünyəvi Azərbaycanda yeni inkişaf mərhələsinə daxil olmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, sərgilər təşkil olunur. Bu məqsədlə 2005-ci ildə Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, 2006-cı ildə Bakının Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir və bərpa işləri aparmışdır. 2006-cı ildə Gəncədəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur. 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadında keramik panno yerləşdirilmişdir (4).

"Tolerantlığın ünvanı-Azərbaycan" layihəsinin digər tərkib hissəsi Bakıda yaşayan yəhudi uşaqları üçün Xabad-Or-Avner Təhsil Mərkəzinin inşasıdır.

Mehriban xanım Əliyevanın "Donmuş tarix" adlanan Azərbaycan memarlıq abidələri ilə fəxr edirik. Tarixi-mədəni irsin mühafizəsi qayğı tələb edir. İtmiş hər hansı maddi dəyər əvəzedilməzdir və inamla deyə bilərəm ki, gələcək nəsillərə qarşı cinayətdir"?- fikirləri imzası qədər güc və dəyərə malikdir. Bu məntiqdən çıxış edərək ölkəmizin birinci xanımının rəhbərliyi altında Fonda təkcə ölkə miqyasında deyil, beynəlxalq aləmdə də bir sıra unikal memarlıq abidələrinə "ikinci həyat" bəxş etmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdə XIV əsr Notr-Dam və Strasburq Kafedral kilsələrinin, Versal sarayında tarixi incəsənət abidələrinin, həmçinin İkinci Dünya müharibəsi nəticəsində dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində saxlanılan Azərbaycanın nadir orta əsr əlyazmalarının və orada yerləşən qədim heykəllərin bərpa işləri həyata keçirilmişdir. Parisdəki məşhur Luvr muzeyində İslam incəsənət bölməsi yaradılmışdır. Bundan savayı, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu Parisdə terror qurbanlarının VII Beynəlxalq konfransının təşkili məqsədilə 2011-ci ilin sentyabr ayında Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı göstərmişdir. Roma şəhərində yerləşən Kapitolini Muzeyində "Filosoflar zalı"nın bərpası Fondun bu sahədə ən mühüm nailiyyətlərindən hesab olunur.

Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun Vatikanda Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası istiqamətində atdığı addımlar sivilizasiyalararası dialoq və harmoniya baxımından misilsiz hadisələrdir. Həmin abidələrin 23 fevral 2016-cı il tarixində bərpadan sonrakı açılış mərasimində Kardinal Ravazinin: "Məhv olmaq təhlükəsi ilə üzləşən katakombaların bərpası ilə bağlı bütün dünya xristianlarına müraciət etdim. Lakin müsbət cavab almadım. Yalnız Heydər Əliyev Fondu bu çağırışa cavab verdi.", - fikri Azərbaycan dövləti və onun ali rəhbərliyinin multikultural siyasətinə verilən yüksək qiymətin ifadəsidir.

Onu da qeyd edək ki, Müqəddəs Roma katakombalarının bərpası Heydər Əliyv Fondu ilə Müqəddəs Taxt-Tac arasında 2012-ci ildə imzalanmış ikitərəfli sazişə əsasən həyata keçirilmişdir. Bu işlər həm də Fondun "Azərbaycan-tolerantlığın ünvanı" layihəsi çərçivəsində icra olunmuşdur. Məlumat üçün onu da qeyd edək ki, ümumən, Roma şəhərinin ətrafında 60-a yaxın katakomba vardır (4).

Heydər Əliyev Fondunun rəhbəri təkcə dünya mədəniyyətinin nadir nümunələrindən olan katakombalrın bərpası işinə maliyyə dəstəyi göstərmir, eyni zamanda onların bərpasından sonrakı açılış mərasimlərində də yaxın-

dan iştirak edir. Belə tədbirlər nəticə etibarilə iki müxtəlif sivilizasiya – İslam və xristian dünyaları arasında birgəyaşayış və harmoniya mühitinin möhkəmlənməsi mənafeyinə xidmət göstərir. 2016-cı il sentyabrın 26-da Mehriban xanım Fondun dəstəyi ilə bərpa olunan Müqəddəs Sebastian katakombalarının bərpasından sonrakı açılış mərasimində iştirak etməsi də eyni mahiyyət və xarakterli addımdır.

Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə dəfələrlə Ramazan ayında Pakistanın bütün əyalətlərində kimsəsiz uşaqlar və ahıllar üçün iftar süfrələri təşkil edilmişdir. Bundan savayı, Lakki Marvat bölgəsində və zəlzələdən zərər çəkmiş Bəlucistanda, Lahor, İslamabad və Fayzalabad şəhərlərində Qurban bayramı münasibətilə yüzlərlə iribuynuzlu qurbanlıq heyvanlar kəsilərək əhalinin kasıb təbəqələrinə paylanılmışdır.

2014-cü ildə hörmətli Mehriban xanımın rəhbərliyi ilə Pakistanın Dera İsmail Xan bölgəsində "Heydər Əliyev Su Təchizatı" layihəsi həyata keçirilmişdir. Bu layihənin icrasının nəticəsi olaraq ərazidə yaşayan on minlərlə insan içməli su əldə etmişdir. Təsadüfi deyildir ki, Mehriban xanımın dost və qardaş Pakistan dövləti və xalqı qarşısındakı müstəsna xidmətləri nəzərə alınaraq bu dövlətin "Hilal-e Pakistan" ali ordeninə, "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı"na, habelə "Daily Times" qəzeti və "Qadın Könüllülər Təşkilatı" tərəfindən "Humanizmin Simvolu-2012-ci ilin adamı" mükafatlarına layiq görülmüşdür (4).

Bundan savayı, Fond Haitidə zəlzələdən, Rumıniyada isə daşqınlardan əziyyət çəkmiş insanlara yardımlar göstərilmişdir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm istiqamətlərindən birini də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasətinin ifşası istiqamətində aparılan sistemli və ardıcıl iş təşkil edir. Fondun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaratdığı portal və müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətinə münaqişənin kökləri və səbəbləri haqqında dürüst və obyektiv məlumat çatdırmaq məqsədi güdür. Bu prosesdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət" beynəlxalq kampaniyası mühüm təbliğat aləti olaraq dünyanın demək olar ki, bütün qitələrində Ermənistanın soyqırım, terror və işğal siyasətini ifşa edir. Bu aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı və digər əyani vəsaitlər beynəlxalq ictimaiyyətə təqdim olunur.

Prezident İlham Əliyev və onun ən yaxın məsləkdaşı olan Birinci vitse-prezident Mehriban Əliyevanın münaqişənin həlli yolları ilə bağlı mövqeyi dəyişməzdir. Həmin mövqeyə görə, Azərbaycan dövləti münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın ermənilərinə respublikamızın hüdudları daxilində ən yüksək muxtariyyət statusu verilməsi yolu ilə həllini dəstəkləyir. Azərbaycan üçün bu çərçivədən kənarda hər hansı bir həll yolu qəbuledilməzdir. Münaqişənin həlli ilə bağlı bu yanaşma tərzi Azərbaycanın prinsipial mövqeyinin ifadəsidir.

Adı imzası olan Mehriban xanım Əliyevanın lokal, regional və beynəlxalq miqyaslı fəaliyyəti həm ölkə, həm də bir çox xarici dövlətlərin ali mükafatları ilə təltif olunmaqla yükəsk qiymətləndirilmişdir. Bunların sırasında "Heydər Əliyev" ordeni və Heydər Əliyev mükafatı (Azərbaycan Respublikası), "Şərəf legionu" ordeni (Fransa Respublikası), "Xidmətlərə görə" Böyük Komandor Xaçı Ordeni (Polşa Respublikası), "Hilal-e Pakistan" ali ordeni (Pakistan İslam Respublikası), "Sreten" ordeni (Serbiya Respublikası), "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni (Macarıstan Respublikası), "Həştərxan vilayəti

qarşısında xidmətlərinə görə” ordeni (Rusiya Federasiyası), UNESCO-nun “Qızıl Motsart” medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, Krans Montana Forumunun qızıl medalı və “Prix de la Fondation” mükafatı, Avropa Olimpiya Komitəsinin Ali Ordeni, Küveyt Dövlətinin Fəxri diplomu, Dünya Səhiyyə Təşkılatı İcraiyyə Komitəsinin “Ana, uşaq və ailənin sağlamlığının qorunması və möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə” mükafatı, “Qızıl ürək” beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının “Olympic Excellence” xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı, Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin Fəxri doktoru adını, habelə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı fərmanla “Dostluq” ordenini göstərmək olar (7). Misilsiz və fədakar zəhmətə verilən bu mükafatlar nə qədər dəyərli olsa da, hörmətli Mehriban xanım üçün ən qiymətli mükafat ümumxalq sevgisi və məhəbbətidir. Elə məhz bu səbəbdəndir ki, birinci xanım xalqa müraciətlərinin sonunu “Sizin Mehriban” ifadəsi ilə yekunlaşdırır. Bu ifadə Mehriban xanımım adı ilə harmoniyada yaşadığını, xalqı ilə səmimi ünsiyyətdə və ülviyyətdə olduğunu təsdiqləyir.

Sonda onu da qeyd edək ki, bütün dünya, o cümlədən Azərbaycan Respublikası COVİD-19 pandemiyası ilə amansız mübarizə dövrünü yaşayır. Azərbaycan xalqı və dövləti də tarixi sınaq qarşısındadır. Möhrərəm Prezidentimiz cənab İlham Əliyevin fors-major vəziyyətdə nümayiş etdirdiyi unikal idarəçilik mədəniyyəti, operativ reaksiya qabiliyyəti, preventiv, ardıcıl və sistemli qərarlar qəbul etmək məharəti “taclı virus müharibəsi“ndə taktiki qələbəmizi təmin etmiş və strateji zəfər üçün münbit şərait yaratmışdır. Bu mübarizədə situativ qərarların qəbulu, mərhələli sərtləşmə və yumşalma tədbirlərinin sinxron yerdəyişməsinin tətbiqi insanlarımızın həyatının qorunması kimi ali məqsədə xidmət etməkdədir.

Eyni zamanda pandemiya dövrü təkcə dövlətlərin və xalqların əsl simasını üzə çıxarmadı. Eyni zamanda liderlərin də simasını-şəxsiyyətini müəyyən etdi. Xalqlar bu situasiyada ya liderləri ilə sonsuz qürur hissi yaşadılar, ya da əksinə. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, elə də böyük olmayan dövlətinə xarizmatik, realist, prinsipial və qətiyyətli, fors-major vəziyyətlərdə isə sadalanan keyfiyyətlərinin unikal yüksəlmə əmsalına malik dünya səviyyəli lider-Prezident İlham Əliyev rəhbərlik edir. Azərbaycan xalqı xoşbəxtdir ki, insanlıq, ləyaqət, səmimiyyət, mərhəmət, nəciblik və şəfqət kimi ali insani dəyərlərin daşıyıcısı olan ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ali rəhbərimizin gücünə güc qatır, onun insanların rifahı naminə gördüyü müstəsna fəaliyyəti misilsiz xidmətləri ilə zənginləşdirir. Mərhəmətli Mehriban xanım Əliyeva dəfələrlə ölkə vətəndaşlarına həm Birinci vitse-prezident, həm də bir ana olaraq müraciət edərək, onların sağlamlığının hər şeydən dəyərli olduğunu vurğulamış, eyni zamanda insanlara mənəvi dəstək olaraq böyük inam hissi ilə bildirmişdir ki, “Əminəm ki, müdrük xalqımızın ən gözəl xüsusiyyətləri, ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə can sağlığı və uzun ömür arzulayıram!“

**Ədəbiyyat:**

1. İlham Əliyev Sankt-Peterburqda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə görüşüb // https://president.az/articles/35272
2. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Rossiya 24" telekanalına müsahibəsi // https://azertag.az/xeber/Azerbaycanin_Birinci_vitse_prezidenti_Mehriban_Aliyevanin_Rossiya_24_telekanalina_musahibesi-1039681
3. Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə müşavirə keçirilib //https://mehriban-aliyeva.az/ceremonies/node/846696
4. Nəsirov E.X. Mərhəmət, şəfqət, nəciblik və dövlətçilik təfəkkürü onu fərqləndirən ali dəyərlərdir// https://mehribanaliyeva.preslib.az/media-5etSUL9orK.html
5. Heydər Əliyev Fondu // https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev_Fondu
6. Azərbaycan irsinin qorunması // https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_irsinin_qorunmas%C4%B1
7. Əvəzolunmaz xidmətlərə verilən yüksək dəyər // https://mehribanaliyeva.preslib.az/media-8Uh6VJg2E4.html

***Açar sözlər:*** *Azərbaycan, Mehriban Əliyeva, şəxsiyyət, intellekt, çoxşaxəli fəaliyyət*

**Elman Nasirov**
*Member of Parliament of the Republic of Azerbaijan,*
*Head of Institute of Political Researches*
*of the Academy of Public Administration*
*Under the President of the Republic of Azerbaijan,*
*Doctor in Political Sciences, Professor*

## MEHRIBAN ALIYEVA:
## THE PERSONALITY WHOSE NAME IS HER SIGNATURE

### SUMMARY

The paper analyzes various aspects of the unparalleled activity of the First Vice-President of our country Mehriban Aliyeva, based on her unique genetic heritage, rich experience, great intellect and extensive organizational skills.

Based on concrete facts and arguments, the author substantiated the exceptional importance of the unique projects implemented by the First Lady of Azerbaijan Mehriban Aliyeva in the field of education, health, sports, music, protection of cultural heritage and promotion of intercultural dialogue.

The paper emphasizes that one of the important directions of Mehriban Aliyeva's multifaceted activity is the systematic and consistent work carried out to convey the realities of Azerbaijan to the world community and to expose the aggressive policy of Armenia against our country.

***Keywords:*** *Azerbaijan, Mehriban Aliyeva, personality, intellect, multifaceted activity*

**Эльман Насиров**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*Директор Института Политических Исследований*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

# МЕХРИБАН АЛИЕВА:
# ЛИЧНОСТЬ, ИМЯ КОТОРОЙ ЯВЛЯЕТСЯ ЕЁ ПОДПИСЬЮ

## РЕЗЮМЕ

В статье анализируются различные направления непревзойденной деятельности Первого Вице-президента Азербайджана Мехрибан ханум Алиевой, основанной на уникальном генетическом наследии, богатом опыте, высоком интеллекте и высоких организаторских способностях.

Автор на основе конкретных факторов и аргументов обосновывает исключительную значимость уникальных проектов, осуществляемых Первой леди Азербайджана Мехрибан Алиевой в сфере образования, здравоохранения, спорта, музыки, сохранения культурного наследия и расширения межкультурного наследия.

В статье особо подчеркивается, что одну из важных направлений многогранной деятельности Мехрибан ханум Алиевой составляют системная и последовательная работа по доведению до мировой обществовенности правды об Азербайджане, разоблачению захватнической политики Армении против нашей страны.

***Ключевые слова:*** *Азербайджан, Мехрибан Алиева, личность, интеллект, многогранная деятельность*

# KONSTİTUSİYA HÜQUQU
# CONSTITUTIONAL LAW

*Azərbaycan Respublikası Konstitusiyasının 25 illiyinə həsr olunub*

UOT 342.7

**CEYHUN QARACAYEV**
**Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin hakimi, hüquq elmləri doktoru**
*e-mail: ceyhun_qaracayev@constcourt.gov.az; jgarajayev@gmail.com*

## MƏHKƏMƏ PROSESİNDƏ KONSTİTUSİYA PRİNSİPLƏRİ VƏ DƏYƏRLƏRİ

Müasir Azərbaycan konstitusionalizmi iqtisadi inkişafı sosial yönümlü, əsas məqsədi isə hər bir insanın layiqli yaşayış səviyyəsinin təmin edilməsi olan güclü dövlətin yaradılması prinsipləri əsasında qurulur. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsi müəyyən edir ki, dövlətin və cəmiyyətin ali məqsədi hər bir insana öz konstitusiya hüququnu həyata keçirmək zəmanətlərini təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikası rəhbərliyinin əsas səyləri iqtisadiyyatın modernləşdirilməsi və bunun nəticəsi kimi onun sosial yönümünün gücləndirilməsi, hər kəsin həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır. Şübhəsiz ki, iqtisadi və ictimai quruluş real dövlət, konstitusiya təsirini öz üzərində hiss edir.

Bu, 2009 və 2016-cı illərdə Azərbaycan Respublikasının iqtisadi inkişafının sosial yönümlüyünü Əsas Qanunda əks etdirən konstitusiya islahatları ilə təsdiqlənir.

Öz növbəsində, konstitusionalizmin əsas kateqoriyalarının təkmilləşdirilməsi prosesləri əhalinin həyat səviyyəsinin yüksəldilməsi və iqtisadi münasibətlərin səmərəli inkişafı ilə sıx bağlıdır ki, bunlardan ən vacibi və əhəmiyyətlisi şəxsin, o cümlədən vətəndaş cəmiyyətinin hüquqi azadlığıdır.

Hüquq və azadlığın qarantiyası insan hüquqlarının konstitusiya prinsiplərinə ciddi əməl olunmasına əsaslanır. Ədalət mühakiməsində konstitusiya prinsiplərinin ədalətin bərqərar olunması prosesinə təsirinin effektivliyi həm də Azərbaycan Respublikasının hüquq sistemində müasir "canlı" konstitusiya hüququnun aktuallığından irəli gəlir.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə Azərbaycanda müasir məhkəmə islahatlarına təkan verildi. Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə islahatları məhkəmə qərarlarının keyfiyyətinin artırılmasına yönəlib. Məhkəmə qərarlarının ədalətliliyi məhkəmələr tərəfindən insan hüquqları sahəsində konstitusiya prinsiplərinə ciddi riayət olunması prosesi ilə birbaşa bağlıdır.

Yuxarıda qeyd edilən Fərmanın birinci maddəsində deyilir: "Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilsin ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, açıqlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər" [3].

Beləliklə, məhkəmə təcrübəsində konstitusiya prinsiplərinə riayət edilməsi oxşar məh-

kəmə təcrübəsinə, ədalət mühakiməsinin ədalətli olmasına, habelə dövlətin və cəmiyyətin konstitusiya quruluşunun əsaslarının möhkəmliyinə və sabitliyinə xidmət edəcəkdir.

Konstitusiya hüququ sahəsinin prinsipləri və Azərbaycan Respublikasının konstitusiya prinsipləri, eləcə də onların məhkəmə prosesində, xüsusən də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində normativ əks olunması və praktiki tətbiqi məsələləri hüququn mahiyyəti haqqında məhşur latın aforizminə əsaslanır – ius est ars boni et aequi [hüquq yaxşılıq və ədalət sənətidir].

Yaxşılıq və ədalətə işarə konstitusiya prinsiplərinin əsasını, sənətə işarə isə, bu prinsiplərin əks olunması və tətbiq edilməsi məsələlərində münasibliyə əməl edilməsinin mürəkkibliyini və zərurətini, "qızıl ortasını" səciyyələndirir.

Sovet hüquq elmində normativizmin üstünlük təşkil etməsi əsrlər boyu "doğruluq yoxlanışından" keçmiş və aforizmin əsasını təşkil edən hüququn sənət olması haqqında ideyanın həyata keçirilməsini praktiki cəhətdən mümkünsüz etməsə də, çox çətinləşdirirdi. Formalist yanaşma ədalətsiz olsa da, bununla hüququn tətbiq edilməsində yaradıcılıq başlanğıcını boğsa da, hüquq normalarının tətbiqində, hüquq problemlərinin tədqiqində aydınlıq, dəqiqlik tələb edir. Lakin, təbii yanaşmaya əsaslanmış hüquq elmi hüquqi problemlərin tədqiqinə yaradıcı bir yanaşmanı nümayiş etdirmiş və etməyə də davam edir. Konstitusiya prinsipləri öz köklərini həm Əsas Qanun kimi konstitusiyadan, həm də konstitusionalizm doktrinasından götürür. Demokratik ölkələrin müasir hüquq sistemlərindəki konstitusionalizm dövlət hakimiyyətinin məhdudlaşdırıcı xarakterinə zəmanət verən siyasi-hüquqi bir fenomen, hadisə kimi başa düşülür.

Permanent inkişaf edən dinamik doktrina olaraq konstitusionalizm öz dəyərlərinin, prinsiplərinin, kateqoriyalarının, konsepsiyalarının hüquqi qabığının daimi təkmilləşdirilməsi ilə yanaşı əhalinin hüquqi şüurunun formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir: publik hakimiyyət orqanları hamı üçün açılır, hüquqi nihilizm tədricən yox olur, konstitusiya normaları isə dinamika əldə edir. Cəmiyyət və dövlət arasındakı qarşılıqlı münasibət dövlət idarəetməsində xalqın iştirakını real edir və konstitusiya institutlarını aktuallaşdırır. Nəticə olaraq, konstitusiya prinsipləri üzərində qurulan siyasi-hüquqi sistem vətəndaş cəmiyyətinin səmərəli fəaliyyət göstərməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edir, müstəqil, peşəkar məhkəmə sisteminin fəaliyyətini təmin edir və ən əsası, konstitusiya quruluşunun sabitliyinə və dövlət müstəqilliyinə qarantiya, zəmanət verir.

Beləliklə, müasir demokratik, hüquqi dövlət üçün konstitusiya prinsipləri, onların məhkəmədə müdafiə olunması şərti ilə, davamlı konstitusiya inkişafı üçün istiqamət rolunda çıxış edir.

Konstitusiya prinsiplərini daha çox konstitusiya dəyərləri ilə əlaqələndirirlər. E.İ.Kloçkonun haqlı olaraq ümumiləşdirdiyi kimi, "konstitusiya dəyərləri... öz təbiətinə görə bir çox cəhətdən konstitusiya prinsiplərinə oxşardır və bu mövqedən ictimai inkişafın əsas göstərişləri, hansısa ümumi fikirləri kimi çıxış edirlər. Fəqr yanlız ondadır ki, prinsiplər lazım olan sahəyə, dəyərlər isə üstünlük verilən sahəyə aiddir» [20, s.117-118].

Konstitusiya dəyərləri ilə konstitusiya prinsipləri arasındakı qarşılıqlı əlaqə aşağıdakı kimi xarakterizə edilə bilər.

Birincisi, insanı özünün ən yüksək dəyəri kimi elan edərək dövlət konstitusiya prinsiplərinin köməyi ilə müəyyən özünüməhdudlaşdırma tədbirlərinə əl atır.

İkincisi, konstitusiya prinsiplərinin hüquqi əks olunması ilə müqayisədə konstitusiya dəyərlərinin əks olunması daha üstün xarakter daşıyır.

Bununla əlaqədar, H.A.Hacıyevin "Kelzenə görə, konkret hüquq sistemində normanın həqiqiliyi struktur düşüncə nöqteyi-nəzərindən müəyyən olunmalıdır, yəni daha yüksək səviyyədə olan normalar daha aşağı səviyyədə olan normaların həqiqiliyini müəyyən edir və deməli, normaların sistemə mənsubiyyətinə qarantiya verir" qeydini ədalətli hesab etmək olar [15, s.8].

Üçüncüsü, konstitusiya prinsipləri konstitusiya dəyərləri ilə müəyyən edilir, buna görə prinsiplərin mənası və məzmunu yalnız bu dəyərlərin mahiyyətinin anlaşılması nəzərə alınmaqla açıqlana bilər. N.S.Bondarın fikrincə, "konstitusiya dəyərləri kateqoriyası bir tərəfdən əxlaq kateqoriyasıdır və bu mənada "Konstitusiya ruhunun kvintessensiyası" kimi göstərilə bilər, digər tərəfdən isə, özünün "siyasi-hüquqi varlığı formasında ümumi hüquq prinsiplərinə, konstitusiya prinsiplərinə, bəyannamələrə, konstitusiya prezumpsiyasına" malik olan normativ cəhətdən müəyyən edilmiş bir kateqoriyadır" [10, s.18-19].

Dördüncüsü, İ.A.Karasevanın haqlı olaraq qeyd etdiyi kimi, "konstitusiya prinsipləri hüquqtətbiqetmə təcrübəsində, ilk növbədə konstitusiya nəzarəti orqanlarının fəaliyyətində daha fəal istifadə olunduqca, aydın oldu ki, norma-prinsiplər də daxil olmaqla konkret vəziyyətlərdə eyni hüquqi qüvvəyə malik olan konstitusiya göstərişləri arasında nisbəti müəyyən etmək heç də asan deyil. Bu və ya digər konstitusiya müddəasına (hüququna, azadlığına və ya prinsipinə) əlavə "çəki" vermək vəzifəsini (işə baxarkən) həll etmə ehtiyacı nəticədə, zərurət yarandığı halda, öz hüquqi qüvvəsinə görə bərabər olan hüquq normalarının birisini "ağırlaşdıran" yeni bir konstitusiya-hüquqi aləti yaratdı. Belə bir alət konstitusiya reseptlərinə konstitusiya dəyərləri statusunun verilməsi nəticəsində ortaya çıxdı" [10, s.18-19].

Beləliklə, "konstitusiya dəyərlərini bütün xalq üçün müsbət əhəmiyyətə malik olan, ictimai və dövlət inkişafının əsası, təməli olan bəzi ideyalar, istiqamətlər, ideallar kimi müəyyən etmək olar" [20, s.120].

Konstitusiya dəyərləri "qanunların mənasını, məzmununu və tətbiqini, qanunvericilik və icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmənin fəaliyyətini müəyyənləşdirir və məhz onların qorunması həm dövlətin və cəmiyyətin təşkilati səyləri ilə, həm də ədalət mühakiməsi tərəfindən təmin edilir" [6, s.24].

"Dəyər" kateqoriyası bir dərketmə halı kimi obyektin subyekt üçün zəruriliyini və müsbət əhəmiyyətini açıqlayır. Dəyər müxtəlif ehtiyacları və maraqları ilə birlikdə subyekt (dəyərin subyektiv zəmini) və immanent xüsusiyyətlərə malik olan obyekt (dəyərin obyektiv zəmini) arasındakı qarşılıqlı fəaliyyət aktının nəticəsidir. Bu cür praktiki qarşılıqlı fəaliyyət prosesində ətraf aləmin obyektləri subyekt üçün dəyərlər kimi qəbul edilə bilər və ya onlar dəyərə münasibətdə xarici, indifferent qalırlar" [14, c.10].

A.İ.Ovçinnikov qeyd edir ki, müasir humanitar elmdə dəyərlər anlayışı altında insan və ya cəmiyyət üçün əhəmiyyətli olan (xoşbəxtlik, yaxşılıq, pislik, gözəllik, ədalətli olan və s.), insan arzularının obyekti kimi çıxış edən və ya onun maraqlarının həyata keçirilməsinə xidmət edən predmetin və ya hadisənin xüsusiyyətləri başa düşülür [26, s.63-67].

Azərbaycan Respublikasının Konstitusiyasında "dəyər" anlayışı aşağıdakı müddəalarda qeyd edilmişdir:

- Azərbaycan xalqının ümumbəşəri dəyərlərə sadiq qalaraq inkişaf etmək niyyətlərini təsdiqləyən "digər xalqlarla dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı faydalı fəaliyyət göstərmək (Preambula);
- mədəniyyət hüququnu əks etdirmək, yəni "Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır" (h. I, m. 40) [1, s.7-47].

Aydındır ki, Azərbaycan Respublikası Konstitusiyasında daha çox sayda dəyərlərdən bəhs olunur, lakin digərləri onda birbaşa deyil, insan və vətəndaşın əsas hüquq və azadlıqları, cəmiyyətin və dövlətin əsas təməlləri mənasında təsbit edilmişdir.

Bu müasir hüquq elmində yayılmış həm dəyərlərin, həm də hüquqi prinsiplərin əks olunmasının (təsbitinin) iki əsas üsulunun mövcud olması haqqında müddəaya tam uyğun gəlir [9, s.7]:

- mətn üzrə (birbaşa);
- məna üzrə (dolayı).

Azərbaycan Respublikasının Əsas Qanununda həm dəyərlərin, həm də prinsiplərin əks olunması məqsədilə hər iki üsuldan istifadə edilmişdir. Müvafiq olaraq, ümumi-

ləşdirmək olar ki, "müasir konstitusionalizmdə dəyərlər fenomeni üç ölçüdə təzahür edir:

a) öz-özlüyündə konstitusiya bir dəyər kimi;

b) konstitusiyanın normalarında və institutlarında birbaşa öz əksini tapan dəyərlər;

c) praktiki konstitusiya-məhkəmə aksiologiyasının nəticəsi kimi dolayısı ilə ifadə olunan konstitusiya dəyərləri" [11, s.2].

V.İ.Krussun fikrincə, müasir konstitusiyaların əksəriyyəti dəyər yanaşmasına əsaslandığı üçün "hüquq elmi konstitusiya hüquq qaydasının təşəkkülü, ictimai münasibətlərə təsir etmə praktikası üçün hüquqi dəyərlərin, onların rolunun və əhəmiyyətinin dərk edilməsinə həm texniki-instrumental (pozitivizm), həm də doktrinal-nisbi yanaşmaların ifratçılığından əl çəkmək imkanını əldə etdi [23, s.31-32].

Hazırda Azərbaycan Respublikasının Konstitusiyası ali hüquq qüvvəsinə malik olan milli hüquq mənbəyidir. Konstitusiya milli dövlətçilik ideyalarını özündə cəmləşdirdi və Preambulada ölkədə ədalət, azadlıq və təhlükəsizliyin bərqərar olması məqsədini bəyan etdi. Həmçinin o, ölkədəki böhranlı siyasi və iqtisadi vəziyyətlərin aradan qaldırılmasında da aparıcı rol oynayır, təbii ki, əgər söhbət bunun üçün hüquqi vasitələrin istifadə edilməsindən gedirsə. Bu müstəvidə E.V.Kleymenova ədalətli olaraq qeyd edir ki, "konstitusiyanın rolu birinci dərəcəlidir, lakin keçid dövrlərində söhbət yalnız cəmiyyətin siyasi sistemində deyil, həm də onun iqtisadi infrastrukturunda konkret dəyişikliklər haqqında getdikdə, o daha da artır" [19, s.4]. Öz növbəsində, F.Abdullayev yazır: "Hüququn bütün sahələrinin inkişafı üçün hüquqi baza qismində çıxış edərək qüvvədə olan Konstitusiya cəmiyyətdə siyasi, mədəni və sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsini təmin edən hüquq normaları və aktlarının yaradılması prosesini əks etdirir və tənzimləyir" [5, s.36].

1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyası dəyərlərə tamamilə yeni bir yanaşmanı əks etdirən ilk postsovet ölkə Konstitusiyası oldu.

İ.A.Kravetsin düzgün qeyd etdiyi kimi, "bir çox cəhətdən xəyali, nominal xarakter daşıyan sovet konstitusionalizmi üçün aşağıdakı əlamətlər səciyyəvi idi:

- hüquqi dövlət və vətəndaş cəmiyyəti ideallarını tanımayan sosialist dəyərlərin və sosialist hüquq düşüncəsinin əks olunması;

- <…> aşağı səviyyəli şuraların yuxarı səviyyəli şuralara tabe olmasını təmin edən demokratik mərkəzçilik prinsipi və nominal xarakter daşıyan və hakim partiyanın və sovet nomenklaturasının faktiki hökmranlığının leqal gizlədilməsi üçün nəzərdə tutulan şuraların tamhakimiyyətliyi prinsipi əsasında qurulan sovet hakimiyyəti sisteminin mövcudluğu;

- <…> insan hüquqlarının təbii-hüquqi təbiətinin inkar edilməsi" [21, s.63].

Bütün bu çatışmazlıqlar federasiya subyektinin – SSRİ-in konstitusiyaları kimi Azərbaycan SSR konstitusiyalarına da xas idi və onlar dəyər və prinsiplərin əks olunması müstəvisində Azərbaycan Respublikasının 1995-ci il tarixli Əsas Qanununun müəllifləri tərəfindən uğurla aradan qaldırılmışdır. Konstitusiya layihələşməsində əksər postsovet ölkələrindəki kimi eyni yanaşmadan istifadə edilmişdir, yəni "Konstitusiyanın yeni mətni ideologiyadan azad edilmişdir, o, ideoloji direktivləri, cazibədar və emosional vədləri ehtiva etmir" [27, s.840].

Eyni zamanda, 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyası mətninin müəllifləri tamamilə haqlı olaraq daha radikal qərardan – Əsas Qanunun mətninə dəyərləri ümumiyyətlə daxil etməmək qərarından imtina etdilər.

Birincisi, belə yanaşmanı praktikada həyata keçirmək kifayət qədər çətindir.

Məsələn, A.İ.Ovçinnikov düzgün qeyd etmişdir ki, "istənilən hüquqi norma bu və ya digər bir dəyərin qorunmasına yönəlmiş bir hökmdür.

Hüquq normaları sistemi və ya qanunvericilik sistemi (sistemlik zəruri hüquq prinsiplərindən birisidir) hər şeydən əvvəl dəyərlər sistemidir, onların obyektivləşdirilməsi sistemidir.

Nəticə olaraq, müəyyən bir dəyərlər sistemi, onların iyerarxiyası dövlət tərəfindən qəbul edilən hüquq normalarında istər-istəməz mövcuddur“.

İkincisi, cəmiyyət bir və ya bir neçə dəyər ətrafında birləşmə nümayiş etdirir və bu dəyərlər üzərindəki təhlükə nə qədər böyük olarsa, ictimai institutlar və cəmiyyətin ayrı-ayrı üzvləri bir o qədər çox birləşmə nümayiş etdirirlər.

Onu da vurğulamaq vacibdir ki, “ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi nə qədər yüksək olsa da, ayrı-ayrılıqda bu amil insanlardan bir ümumilik, birlik yarada bilməz. Məhz birgə dəyərlər insanların birliyini müəyyən edir. Sovet insanlarının idealları böyük ölçüdə utopik idi, lakin onlar etnosların dostluğuna dəstək kimi xidmət etmiş, dövlətçiliyin qorunub saxlanmasının əsası kimi çıxış etmiş, vətəndaşları qəhrəmanlığa ruhlandırmışlar” [24, s.126].

Beləliklə, 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyası mətninin müəllifləri Azərbaycan SSR-nin bütün mövcudluğu dövründə qazandıqları təcrübəni tənqidi qiymətləndirmiş və ondan ölkənin konstitusiya kontinuitetinin saxlanılması üçün istifadə etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Əsas Qanunu mətninin müəlliflərinin bu cür mövqeyi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə öz fəaliyyətini antroposentrik bir yanaşma üzərində qurmasına imkan verdi.

Belə bir tezis antroposentrik yanaşmanın məhz sovet dövrünün konstitusiya-hüquq praktikasında çatışmazlığı ən çox aşkar olan yanaşma olması ilə əlaqədar olaraq vacib görünür, çünki o, hətta söhbət sosial və mədəni hüquqların geniş siyahısının zəmanətli həyata keçirilməsi haqqında getdiyi halda belə, dövlətin şəxsiyyət üzərində “qəyyumluğunu” yox, şəxsiyyətə maksimal azadlığın verilməsini nəzərdə tutur.

1995-ci il tarixli Azərbaycan Respublikasının Əsas Qanununun mətninin yaradılmasında müasir dünyada dəyərlərin universallığının mövcud olması imkanı haqqında məsələni nəzərdən qaçırmaq mümkün deyildi.

S.Maslovskaya qeyd etmişdir ki, “hər ölkənin konstitusiya dəyərləri müəyyən bir xüsusiyyət ilə səciyyələndirilir, dövlətin konstitusiya kimliyini müəyyənləşdirir. Bununla bərabər, konstitusiya mətnlərində hamılıqla tanınan dəyərlərin əks olunması (onların qeyd edilməsi və ya sadalanması) bu müstəvidə konstitusiyaların müəyyən standartlaşdırılması haqqında fikir irəli sürmək imkanını yaradır. Eyni zamanda, Avropa hüquq məkanı çərçivəsində milli dəyərlərin və ümumi Avropa dəyərlərinin uyğunlaşdırılması problemi kəskindir” [25].

V.V.Mamonov hesab edir ki, “müstəqil xarici siyasətin aparılmasına imkan verən milli dəyərlərin dövlət tərəfindən sərbəst qurulması dövlət suverenliyinin reallaşdırılmasının mühüm bir elementi kimi tanınmalıdır. Dünyada hamılıqla tanınan dəyərlər müəyyən edilmədən, istənilən nəticə əldə edilə bilməz” [24, s.126]. Hətta, getdikcə daha da fəallaşan qloballaşma və Avropaya inteqrasiya proseslərinə baxmayaraq, inkişafın müasir mərhələsində universal dəyərlərin mövcudluğu haqqında danışmaq çox çətin ki, mümkün olsun.

Qloballaşma və Avropaya inteqrasiya prosesləri informasiya mübadiləsini gücləndirir, bu və ya digər dəyərlərə ardıcıllıqla riayət etmənin üstünlüklərini və ya çatışmazlıqlarını daha aydın şəkildə nümayiş etdirir.

Bununla belə, bu və ya digər dəyərin konstitusiya dəyərlərinin tərkibinə daxil edilməsinə, onun hüquqi müdafiəsinə dair son seçim yenə də dövlətin özündə qalmalıdır. Bu onun daxili suverenliyinin təzahürlərindən birisi kimi, milli kimliyinin saxlanılmasının vasitəsi kimi görünür.

Bundan başqa, böhran vəziyyətlərində milli birliyin əldə olunmasına yardım etmək kimi dəyərlərin belə bir vacib funksiyası haqqında

da bəhs edilmişdir. Hətta, cəmiyyət üzvlərinin əksəriyyətinin şüurunda əks-səda tapa biləcək dəyərlərin siyahısı ona kənardan “vermək” üçün, əksəriyyət tərəfindən birmənalı şəkildə qəbul ediləcək və zərurət yarandığı təqdirdə cəmiyyətin sıx birləşməsinə kömək edə biləcək “universal” dəyərlər siyahısının hazırlanması üzrə ən diqqətli səylər belə hər bir konkret cəmiyyətin, xalqın xüsusiyyətlərini nəzərə ala bilməz.

Beləliklə, müasir mərhələdə Azərbaycan Respublikasının konstitusiya dəyərləri ümumbəşəri dəyərlərin əsasında, onların ölkənin tarixi inkişafı gedişatında müasir Azərbaycan cəmiyyətinin xüsusiyyətlərini nəzərə almaqla qüvvədə olan qanunvericilik müddəalarında əks olunması üçün uyğunlaşdırılması nəticəsində yaranmış unikal bir kombinasiyadır.

Konstitusiya hüququ sahəsini təhlil edərkən, onda ona məxsus, yalnız bu sahəyə xas olan dəyərlərin olması haqqında danışmaq düzgün olmazdı, çünki öz təbiətinə görə dəyərlər siyasi, iqtisadi, sosial, mədəni, hüquqi ola bilər və öz əksini müxtəlif sənədlərdə, o cümlədən normativ-hüquqi aktlarda, məsələn, konstitusiyalarda tapa bilər.

Yuxarıda göstərilənlər nəzərə alınmaqla, Azərbaycan Respublikasının Əsas Qanununun normalarında öz əksini tapan dəyər və prinsipləri “konstitusiya dəyərləri” (“konstitusiya hüququ sahəsinin dəyərləri” deyil) və “konstitusiya prinsipləri” (“konstitusiya hüququ sahəsinin prinsipləri” deyil) kimi adlandırmaq daha üstün görülür.

Artıq qeyd edildiyi kimi, konstitusiya prinsipləri çox vaxt konstitusiyanın mətnində birbaşa, hərfən əks olunur.

Ümumbəşəri insan dəyərlərinin Əsas Qanunda əks olunmasının bu üsulunun səmərəliyini inkar etmədən (bu və ya digər dəyər haqqında qeydi ehtiva edən “qeyri-tipik normativ göstərişləri” [17, s.113-118] mətnə daxil etmək yolu ilə), onun çox geniş yayılmadığını qeyd etmək lazımdır. Çox güman ki, bu sahədə hüquq nəzəriyyəçilərinin tədqiqatlarının sayının nisbətən az olması məhz bununla əlaqədardır.

A.V.Baranovun əsərləri belə istisnalardan birisidir. Hüquq normalarını təsnif edərkən, o, birbaşa davranış qaydalarına (icazə verilir, göstəriş verilir, qadağan edilir) qarşı digər hüquq normalarını qoyur. Bu cür digər hüquq normalarını “ixtisaslaşdırılmış hüquq normalar” adlandıraraq, A.V.Baranov qeyd edir: “Onlar özündə birbaşa davranış qaydalarını ehtiva etmir, məzmun və funksional təyinat baxımından tənzimləyici və qoruyucu normalardan fərqlənirlər” [8, s.13].

A.V.Baranov hüquq sistemi üçün ixtisaslaşdırılmış hüquq normalarının dəyərini onda görür ki, onlar “birbaşa davranış qaydaları kimi ifadə oluna bilsə də, birbaşa ictimai münasibətlərə təsir göstərmək, insanların və onların kollektivlərinin konkret davranış qaydalarını müəyyən etmək məqsədini güdmür. Onların təyinatı ondan ibarətdir ki, onlar digər normaların gücünü müəyyənləşdirir və təmin edir, bununla da hüquqi tənzimlənmənin əsasını formalaşdırır. Hüquq tənzimlənməsi sistemində belə normalar keyfiyyətcə müxtəlif, lakin eyni zamanda bir-birindən qarşılıqlı asılı və müəyyənedici funksiyaları yerinə yetirirlər. Belə funksiyaların məzmunu ixtisaslaşmış normaların bütövlükdə hüquq sisteminə və xüsusən ayrı-ayrı hüquq sahələrinin və hüquq institutlarının formalaşmasına və vəziyyətinə sistem müəyyənləşdirici, sistem təmin edici və sistem uyğunlaşdırıcı təsir göstərməsində təzahür edir” [8, s.13-14].

N.V.Vitrukun haqlı olaraq yazdığı kimi, “dəyərlər ətraf dünyadan, gerçək həyatdan asılı olmayan transsedent, ideal, zamandan kənar varlıqlar deyillər. Dəyərlər sosial asılıdırlar, real gerçəkliklə bağlıdırlar” [14, s.11].

Konstitusiyada dolayı yolla öz əksini tapmış dəyərləri müəyyən etmək üçün V.İ.Krussun ümumiləşdirməsindən istifadə edilməlidir. O, qeyd edir ki, “konstitusiyanın birinci və ikinci fəsillərindəki müddəaların əksəriyyəti və sonrakı fəsillərdəki bəzi müddəalar dəyər müəyyənləşdirmə əhəmiyyətinə malikdir [22, s.18].

Konstitusiya yurisdiksiyasının yeganə or-

qanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi təfsir etmə metodundan istifadə edərək dəyərləri Əsas Qanunun məhz bu müddəalarından çıxarır. Bu halda əsasən aksioloji və teleoloji yanaşmalardan istifadə edilir.

A.V.Baranov hüquq prinsiplərinin spesifik hüquq normalarında əks olunması ilə bağlı belə bir ümumiləşdirmə aparmışdır: “Pozitiv hüquq normalarında hüquq prinsiplərinin məzmunca (dolayı) ifadə edilməsi üsulu ondan ibarətdir ki, mahiyyət etibarilə, konkret prinsipin məzmunu bir neçə hüquq normasının mətnində “həll edilib” və belə bir norma qrupunun və ya hüquq institutlarının məzmununun təhlilindən üzə çıxarıla bilər” [9, s.8].

Bu ümumiləşdirmə konstitusiya müddəalarında təsbit edilmiş dəyərlər üçün də istifadə edilməlidir.

Qeyd etmək lazımdır ki, dolayı yolla Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş dəyərlər həm alimlər, həm də praktiki işçilər – publik hakimiyyət (dövlət) orqanlarının vəzifəli şəxsləri, daha çox ali məhkəmə hakimiyyəti orqanları hakimləri tərəfindən Konstitusiyanın müddəalarından çıxarılır.

Məsələn, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 30 iyun 2014-cü il tarixli “Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsində və bir sıra normativ hüquqi aktlarda nəzərdə tutulmuş “ali hüquq təhsili almış” müddəasının şərhi haqqında” qərarında qeyd etmişdir ki, “hər bir hüquqi məsələ, xüsusən də Konstitusiyada təsbit edilmiş hüquqların həyata keçirilməsi məsələsi qanunvericilikdə elə tənzimlənməlidir ki, konstitusiya əhəmiyyətli dəyərlərə heç bir ziyan vurulmasın, ictimai və xüsusi mənafelər arasında tarazlığa əməl edilsin” [29].

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi təhsil sahəsində dövlət tənzimləmə sistemində tarazlığın qorunması ilə bağlı öz mövqeyini izah edərək göstərmişdir ki, dövlət hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində təhsil sahəsinin dövlət tənzimləməsinin həyata keçirilməsində sərbəstdirlər.

Bununla belə, bu cür tənzimlənmə yalnız ali təhsilin müvafiq istiqamətlərinin müəyyənləşdirilməsinin obyektiv şərtlərə əsaslandığı, özünü doğrultduğu, konstitusiya baxımından əhəmiyyətli hədəflərə xidmət etdiyi və bu hədəflərə nail olmaq üçün istifadə olunan qanuni vasitələrə mütənasib olduğu halda və formada mümkündür.

Konstitusiya dəyərlərini və məqsədlərini müdafiə edərək konstitusiya nəzarəti orqanı, ilk növbədə, Azərbaycanda təhsilin dünyəvi, hüquqi bir şəkildə inkişaf etdirilməsi yolunu nəzərdə tutan Konstitusiyanın əsas müddəalarına və ruhuna əsaslanırdı.

Ali məhkəmələrin qərarlarında dəyər kateqoriyasına mücərrəd, amorf kimi deyil, formal müəyyən edilmiş bir hadisə kimi baxılır. Konstitusiya dəyərinin formal müəyyənliyi, dolayı yolla müəyyən edilsə belə, ali məhkəmələrə konstitusiya normativliyinə istiqamətlənmək imkanı yaradır. Bununla yanaşı, konstitusiya normativliyinin faktiki ictimai münasibətləri əks etdirməsi heç də məcburi deyil. Konstitusiya dəyərləri çox vaxt əslində olduğundan daha yüksək göstərişləri ehtiva edir.

N.S.Bondar qeyd edir ki: “... nəzərə almamaq olmaz ki, konstitusiya hüquqi sənəd kimi cəmiyyətin və dövlətin siyasi təşkil olunmasının ideal modelini əks etdirən, praktiki olaraq həmişə olmalı olan ilə mövcud olan arasında münaqişə ilə əlaqədardır. Bunun əsasında, bir qayda olaraq, siyasi və sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi üçün konstitusiyanın həqiqi əhəmiyyəti barədə həddən artıq qiymətləndirilən sosial gözləntilər və siyasi illüziyalar durur” [13, s.33].

Nəticə etibarilə, konstitusiya dəyərləri bəzən həddindən artıq qiymətləndirilmiş məqsədlər daşıyır, lakin məhkəmə qiymətləndirməsi üçün onların formal müəyyənliyi lazımdır. Əks halda, məhkəmə qərarının nəticələri inandırıcı görünməyə bilər.

Məsələn, götürək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin

320.1. maddəsinin bəzi müddəalarının təfsir edilməsi haqqında" 15 noyabr 2019-cu il tarixli qətnaməsini. Gəncə Kəpəz Rayon Məhkəməsinin başqa bir şəxsin (ərizəçinin) əvəzinə imtahana girməyə cəhd göstərmiş şəxsin hərəkətləri ilə əlaqədar rəsmi sənədin saxtalaşdırılmasına görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1. maddəsinin dispozisiyasının təfsir edilməsinə dair müraciətinə baxaraq konstitusiya nəzarəti orqanı qeyd etmişdir ki, Dövlət İmtahan Mərkəzi tərəfindən ali və ya orta ixtisas təhsili tədris müəssisələrinə qəbul imtahanları iştirakçıları üçün verilmiş kartlar həmin iştirakçılara hər bir abituriyentin adına kodlaşdırılmış blankları doldurmaq hüququ verən rəsmi bir sənəddir. Cavab kartının müvafiq ərizəçidən başqa hər hansı bir digər şəxs tərəfindən doldurulması rəsmi sənədin saxtalaşdırılması kimi xarakterizə olunmalıdır. Cavab kartını başqa bir şəxs tərəfindən doldurması nəticəsində cavab kartı müvafiq ərizəçinin deyil, faktiki imtahan vermiş şəxsin bilik səviyyəsini əks etdirir. Bu isə o deməkdir ki, cavab kartı əslində saxtalaşdırılıb.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi öz mövqeyini əsaslandıraraq göstərdi ki, "bu cür hərəkətlər inkişaf etməkdə olan müasir cəmiyyət üçün faydalı mütəxəssislərin hazırlanması prosesinə mane olur və dövlətin sosial ədalət prinsipinə və elmi dəyərlərə sadiqliyini şübhə altına alır" [30].

Əlbəttə ki, "elmi dəyərlər" anlayışının etimologiyasına qiymət vermədən yalnız ehtimal etmək olar ki, cinayət-hüquqi normanı təfsir edərkən formal tərkibi olmayan elmlik meyarına dair şübhə inandırıcı görünə bilməz. Nəzəri tədqiqatlar konstitusiyada dolayı yolla ifadə olunan dəyərlərin müəyyən edilməsində mühüm rol oynayır.

Məsələn, Azərbaycan Respublikası Konstitusiyasına münasibətdə E.N.Səmədov qeyd edir ki, "konstitusiya müddəaları ... onlar tərəfindən qorunan və müdafiə edilən obyektləri müəyyən edir. Belə obyektlər qismində insan və vətəndaş hüquq və azadlıqları (maddə 12), xalqın suverenliyi (maddə 2), Azərbaycan dövlətinin ərazisinin toxunulmazlığı və bölünməzliyi (maddə 11), sosial inkişaf (maddə 16) və s. kimi ali sosial dəyərlər çıxış edir [28, s.45].

Bu ümumiləşdirmə ilə razılaşmaq lazımdır. Bununla birlikdə, məhkəmə orqanları konstitusiya dəyərlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli bir rol oynayırlar. Bu sahədə yeganə konstitusiya nəzarəti orqanının hakimləri ən fəaldırlar. Çünki konstitusiya ədalət mühakiməsi konstitusiyanın sosial-tarixi modernləşməsinin bir aləti, "canlı" konstitusionalizmin generatoru [12, s.25], "yeni konstitusiya dəyərlərini qorunması məqsədilə praktiki olaraq bütün posttotalitar dövlətlərdə fəaliyyət göstərən demokratik dəyişikliklər institutudur. Konstitusiya ədalət mühakiməsi konstitusiyanın müəyyən sabitliyini və konstitusiya inkişafının planlığını təmin edir" [18, s.32].

H.Hacıyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsini xarakterizə edərək qeyd edir ki, o, "demokratik dəyərlərin qoruyucusudur və dövlətdə vətəndaş razılığına və sabitliyə zəmanət verən hakim qismində çıxış edir" [16, s.24].

Konstitusiya nəzarəti orqanları tərəfindən Əsas Qanunda dolayı yolla öz əksini tapmış konstitusiya dəyərlərinin və konstitusionalizm prinsiplərinin müəyyənləşdirilməsi və zəmanəmizin reallıqlarını nəzərə alaraq onların təfsir edilməsinin əhəmiyyəti o qədər yüksəkdir ki, bu qurumların formalaşdırılmasında belə bir məsələnin yerinə yetirilməsinin effektivliyi nəzərə alınır.

Hal-hazırda əsas vurğu hakimlərin fərqli hüquqi şüura sahib olması üçün konstitusiya nəzarət orqanlarının fərdi tərkibinin formalaşdırılması zərurətinin üzərinə qoyulur. Bu isə hakimlər kvorumuna onların qarşısında qoyulan məsələləri fərqli nöqteyi-nəzərdən araşdırmaq və iş üzrə mübahisədə həqiqəti müəyyən etmək imkanını yaradır.

Venesiya Komissiyasının ekspertləri bunu onunla əlaqələndirirlər ki, "demokratik cəmiyyət mütləq plüralistikdir – o, istər fəlsəfi, etik, sosial, siyasi, dini, istərsə hüquqi inanclar olsun, müxtəlif inancların ifadə olunması üçün bir sahədir. Konstitusiya nəzarəti orqanı öz tərkibinə görə müxtəlif qrupların maraqlarının qorunmasına zəmanət verməli və ictimai plüralizmə kömək etməlidir. Konstitusiya nəzarəti orqanının legitimliyi və onun cəmiyyət tərəfindən qəbul edilməsi dərəcəsi onun öz işində müxtəlif sosial dəyərləri nə dərəcə nəzərə almasından çox asılı ola bilər [4].

Konstitusiyasında insan, onun hüquq və azadlıqları, dövlətin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyi, konstitusiya quruluşunun əsasları, ictimai sağlamlığı, təbii sərvətləri və s. kimi dəyərlər əks olunmuş Azərbaycan Respublikası da istisna deyil.

Nəzərə alsaq ki, konstitusiya dəyərləri cəmiyyətin və dövlətin inkişafının konkret bir mərhələsində ən vacib olan konstitusiya prinsipləridir, onların siyahısı daimi dinamikadadır.

Bu dinamika aşağıdakılar ilə bağlıdır:

a) Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilir;

b) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz fəaliyyətində Əsas Qanunun mətninə müraciət edir, onun müddəalarının rəsmi təfsirini həyata keçirir;

c) Avropa İnsan Hüquqları Məhkəməsi dövlətlərarası müqavilələrlə əlaqədar Azərbaycan məhkəmələri tərəfindən tətbiq edilməsi məcburi olan təcrübəsini fəal şəkildə formalaşdırır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Konstitusiya və qanun müddəalarının rəsmi təfsirini həyata keçirərək, bütövlükdə konstitusiya prinsiplərinin iyerarxiyasının yaradılmasına və xüsusən də, bu və ya digər prinsipin əhəmiyyətinin müəyyənləşdirilməsinə mühüm töhfə verir.

Mütləq dəyərlər təcrübədə digər dəyərlərə "kölgə salan" dəyərlər hesab olunur.

V.İ.Anişina qeyd etmişdir ki, "heç bir hüquq sistemi özünün cəhd etdiyi bazis dəyərləri və məqsədlərini müəyyənləşdirmədən inkişaf edə bilməz... bu məqsədlər və dəyərlər leqal və formal olaraq müəyyənləşdirilməli və əsas, hərəkətverici başlanğıclar kimi prinsiplər şəklində yayımlanmalıdır. Hüquq prinsiplərinin tərkibini və məzmununu kim müəyyənləşdirirsə, o, cəmiyyətə və dövlətə tənzimləyici təsiretmə mexanizminə malikdir." [7, s.27]

Nəticə olaraq qeyd etmək lazımdır ki, konstitusiya prinsipləri və dəyərləri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən müdafiə olunur.

Konstitusiya Məhkəməsi bu günə qədər Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tərəfindən iki cildlik "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri – 1998-2018-ci illər" adlı monoqrafik nəşrdə ümumiləşdirilən 400-dən çox qərarında öz ifadəsini tapan bərqərar olmuş hüquqi mövqelərə malikdir [2].

Konstitusiya normaları və prinsipləri ən ümumi və fundamental münasibətləri tənzimləyir və bütün hüquq sahələri üçün məcburi xarakter daşıyır.

Məhz bu hal müxtəlif növ məhkəmə icraatlarında (inzibati, cinayət, mülki, ticarət) onların normativ təfsir edilməsi tələbinin səbəbi kimi çıxış edir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 1, 31 iyul 1997-ci il, s.7 – 47.
2. Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri (1998–2018) / F. Abdullayev. – Bakı : Yeni nəşr, 2018. – I Cild – 566 s.; II Cild – 572 s.
3. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı: [Elektron resurs] / URL: https://ru.president.az/articles/32587
4. Opinions, Reports and Studies on Constitutional Justice. European Comission for Democracy through Law (Venice Comission), Compilation of Venice Comission, Strasbourg, 1 July 2015, CDL-PI(2015)002 [Электронный ресурс]. – с.7. – Режим доступа: https://www.venice.coe.int/webforms/ documents/?pdf=CDL-PI%282015%29002
5. Абдуллаев Ф. Обеспечение верховенства Конституции в постановлениях Конституционного Суда Азербайджанской Республики / Ф. Абдуллаев // Конституционное правосудие в странах СНГ и Балтии: дайджест офиц. материалов и публикаций периодической печати. – 2009. № 16. – с. 36.
6. Абрамова О.К. Конституционные ценности как особая форма выражения права / О.К. Абрамова // Конституционное и муниципальное право. – 2013. №12. – с. 24.
7. Анишина В.И. Конституционные принципы как основа самостоятельности судебной власти: дис. ... д-ра юрид. наук / В.И. Анишина. – М., 2006. – с. 27.
8. Баранов А.В. Системоопределяющие специализированные нормы современного российского права / А.В. Баранов // Вестн. Омск. гос. ун-та. Сер.: Право. – 2017. – № 4. – с. 13.
9. Баранов А.В. Нормы-принципы в механизме правового регулирования / А.В. Баранов // Вестн. Томск. гос. ун-та. Сер.: Право. – 2016. – № 4. – с. 7.
10. Бондарь Н.С. Аксиология судебного конституционализма: конституционные ценности в теории и практике конституционного правосудия / Н.С. Бондарь. – М.: Юрист, 2013. – Вып. 2. – с. 18-19.
11. Бондарь, Н.С. Конституционные ценности – категория действующего права (в контексте практики Конституционного Суда РФ) / Н.С. Бондарь // Журн. конституционного правосудия. – 2009. № 6. – с. 2.
12. Бондарь Н.С. Социоисторический динамизм Конституции – без переписывания конституционного текста / Н.С. Бондарь // Журн. конституционного правосудия. – 2014. № 2. – с. 25.
13. Бондарь Н.С. Судебный конституционализм в России в свете конституционного правосудия / Н.С. Бондарь. – М.: Норма, 2011. – с. 33.
14. Витрук Н.В. Конституция Российской Федерации как ценность и конституционные ценности: вопросы теории и практики / Н.В. Витрук // Конституционные ценности: содержание и проблемы реализации: материалы междунар. науч.-теорет. конф. (Москва, 4 6 декабря 2008 г.): в 2 т. – М.: Рос. акад. правосудия, 2009. – Т. 1. – с. 10.
15. Гаджиев Г.А. Конституционно-правовое концептуальное пространство и его ценности / Г.А. Гаджиев // Право: журн. Высш. шк. экономики. – 2012. № 2. – с. 8.
16. Гаджиев Х. Влияние деятельности Конституционного Суда на развитие законодательства Азербайджанской Республики / Х. Гаджиев // Конституционное правосудие на рубеже веков: материалы междунар. конф., посв. 10-летию Конституционного Суда Россий-

ской Федерации. – М.: НОРМА, 2002. – с. 24.
17. Горшенев В.М. Нетипичные нормативные предписания в праве / В.М. Горшенев // Сов. гос. и право. – 1978. – № 3. – с. 113-118.
18. Зорькин В. Вопросы конституционного развития стран новой демократии / В.Зорькин // Konstitusiya Məhkəməsinin Məlumatı. – 2005. – № 3. – с. 32.
19. Клейменова Е.В. Конституция Российской Федерации в свете основных тенденций развития современной правовой культуры: дис. ... канд. юрид. наук / Е.В. Клейменова. – СПб., 2001. – с. 4.
20. Клочко Е.И. Подходы к определению понятия «конституционные ценности» в теории конституционного права России и зарубежных стран / Е.И. Клочко // Вестн. Рос. ун та дружбы народов. Сер.: Юрид. науки. – 2015. № 2. – с. 117-118.
21. Кравец И.А. Формирование российского конституционализма: проблемы теории и практики: дис. ... д-ра юрид. наук / И.А. Кравец. – Екатеринбург, 2002. – с. 63.
22. Крусс В.И. Актуальные аспекты проблемы злоупотребления правами и свободами человека / В.И. Крусс // Гос. и право. – 2010. № 7. – с. 18.
23. Крусс В.И. Нормативность конституционных ценностей / В.И. Крусс // Конституционные ценности: содержание и проблемы реализации: материалы междунар. науч.-теорет. конф. (Москва, 4-6 декабря 2008 г.): в 2 т. – М.: Рос. акад. правосудия, 2009. – Т. 1. – с. 31-32.
24. Мамонов В.В. Конституционные ценности современной России / В.В. Мамонов // Вестн. Саратов. гос. юрид. акад. – 2013. № 4. – с. 126.
25. Масловская С. Конституционные ценности и их отражение в международном и национальном законодательстве [Электронный ресурс]. – Режим доступа: http://elib.bsu.by/bitstream/123456789/41970/1/Maslovskaya_Paradigma.pdf
26. Овчинников А.И. Конституционно-правовая аксиология в современной России / А.И. Овчинников // Философия права. – 2015. № 5. – с. 63-67.
27. Румянцев О.Г. Новая Конституция для России: наши подходы / О.Г. Румянцев // Из истории создания Конституции Российской Федерации. Конституционная комиссия: стенограммы, материалы, документы (1990–1993): в 6 т. / под общ. ред. О.Г. Румянцева. – М., 2007. – Т. 1 : 1990. – с. 840.
28. Самедов Э.Н. Конституция Азербайджанской Республики 1995 года – основа национального права Азербайджана / Э.Н. Самедов // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. – 2007. № 4. – с. 45.
29. Электронный ресурс. – Режим доступа: http://www.constcourt.gov.az/decision/849
30. Электронный ресурс. – Режим доступа: http://www.constcourt.gov.az/decision/1097

***Açar sözlər:*** *Azərbaycan konstitusionalizmi, Azərbaycan Respublikasının Konstitusiyası, Konstitusiya Məhkəməsi, məhkəmə-hüquq sistemində islahatlar, konstitusiya prinsipləri, konstitusiya dəyərləri, ədalət mühakiməsi*

**Jeyhun Qaracayev**
*Judge of the Constitutional Court of the Republic of Azerbaijan,*
*Doctor of Law*

## CONSTITUTIONAL PRINCIPLES AND VALUES IN JUSTICE

### SUMMARY

The paper reveals the legal significance of the principles and values of constitutional law, their importance in ensuring justice in court, and in particular the importance of the normative features of constitutional principles and values in the decisions of the Constitutional Court of the Republic of Azerbaijan and their application in practical justice.

Important theoretical features of the protection of constitutional principles and values by the Constitutional Court of the Republic of Azerbaijan have also been investigated, and moreover practical examples are being used to describe the special criteria of assessment of the constitutional principles established by the higher courts.

***Keywords:*** *Azerbaijani constitutionalism, the Constitution of the Azerbaijan Republic, the Constitutional Court, reforms in the judicial system, constitutional principles, constitutional values, justice*

**Джейхун Гараджаев**
*Судья Конституционного Суда Азербайджанской Республики,*
*доктор юридических наук*

## КОНСТИТУЦИОННЫЕ ПРИНЦИПЫ И ЦЕННОСТИ В СУДОПРОИЗВОДСТВЕ

### РЕЗЮМЕ

В статье отражены юридическая значимость принципов и ценностей конституционного права, а также их значение в обеспечении правосудия, в частности, рассмотрены значение нормативного отражения конституционных принципов и ценностей в решениях Конституционного Суда Азербайджанской Республики и их практического применения в системе правосудия, также с теоретической точки зрения и на практических примерах анализируются особенности защиты конституционных принципов и ценностей Конституционным Судом Азербайджанской Республики и важность специальных критериев оценки, установленных верховными судами.

***Ключевые слова:*** *Азербайджанский конституционализм, Конституция Азербайджанской Республики, Конституционный Суд, реформы в судебно-правовой системе, конституционные принципы, конституционные ценности, правосудие*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

UOT 1(091); UOT 13

**İLHAM MƏMMƏDZADƏ**
**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor**
*e-mail: ilham_mamedzade@mail.ru*

**ZEMFİRA MƏMMƏDZADƏ**
**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru**
*e-mail: zemfiramamedzade@gmail.com*

## TARİXİ YADDAŞIN TƏDQİQİNİN BƏZİ FƏLSƏFİ PROBLEMLƏRİ

Son zamanlar tarixi yaddaşla, tarixlə bağlı olan hər bir şey yalnız tarixçi, siyasətçi və jurnalistlər də deyil, həm də, təbii ki, filosoflarda maraq doğurur. Lakin bu məsələlərə maraq müxtəlif səbəb və motivlərdən oyanır və ya ən azından, oyanmalıdır. Məsələ bundadır ki, fəlsəfə həmişə öz keçmişinə özünəməxsus bir şəkildə yanaşan bir elm olmuşdur. Əbəs yerə deyil ki, fəlsəfə tarixinin fəlsəfədəki roluna verilən dəyəri çox böyük saymaq və ya onu olduğundan az qiymətləndirmək olmaz, o, tam təşəkkül tapıb. Fəlsəfə tarixi, tarixdən fərqli olaraq, autentik (əslinə uyğun) keçmişi bərpa etməyə cəhd göstərməyib, tədqiqatçı onda, adətən, keçmişi öz yanaşması baxımından ideyaların hərəkət və toqquşması, bu və ya digər bir məktəbin və ya cərəyanın formalaşması kimi nəzərdən keçirməyə çalışıb. Bu cür yanaşma, bir qayda olaraq, bir çox tarixçilər tərəfindən tənqid olunub, onlar onda yalnız birtərəflilik, təmayüllülük görüblər. Məsələn, materialist və idealistlər keçmişdə guya yalnız onlara sərfəli olan şeyləri görürdülər. Ən pis nümunələrdə, görünür, bu belə idi, ən yaxşılarında isə tarixə başqa bir baxışı var idi: burada əsas şey autentiklik deyil, keçmişin müasir dərki idi.

### Tarixə yanaşmada epistemologiya haqqında

R. Rortinin sözlərini parafraz edərək deyə bilərik ki, müasir fəlsəfə, beləliklə, keçmişi onda gördüyümüz bir “güzgü“dür. Güzgü ilə analogiyanın daha aydın olması üçün Rortinin özünün məhz nə yazdığını xatırlayaq: “Ənənəvi fəlsəfəyə inanılmaz cazibədarlıq verən mənzərə ona görə öz qüvvəsini bu qədər uzun müddət saxlayır ki, zəkamızı bizə müxtəlif – bəzən düzgün, bəzən yanlış – anlayışları ehtiva edən böyük bir güzgü şəklində göstərir və bu güzgünü empirizmlə heç bir əlaqəsi olmayan metodlarla öyrənmək olar” (5, s.168). Lakin söhbət fəlsəfə tarixində çox olmuş təmayüllükdən, yanlış təsəvvürlərdən getmir. R. Rortinin onu öz analitik dövründə bir rəy kimi göstərməsi əbəs yerə deyildi. Məsələ başqa şeydə, məhz bundadır ki, tarixi yaddaş, yaddaş məkanları, bütün tarix bir keçmiş olaraq həmişə keçmişlə bu gün arasında, həmçinin gələcəklə bəzən gözədəyməyən, potensial bir dialoqdur.Burada indiki dövrdə (metodun) əski dövrün təcrübəsindən faydalanmaq, indini dəyişdirmək və s. məqsədi ilə keçmişin məna və niyyətlərini daha dərindən dərk etməyə yol

verdiyini anlamaq üçün də imkan qalmalıdır. Keçmiş yalnız ona görə vardır ki, indiki zaman mövcuddur, o bizə bilavasitə verilmir, biz onu yalnız dərk edə bilərik.

Keçmişi dərk etmək üçün faydalandığımız müasir metodların problemi onlardan necə istifadə etdiyimiz, onların köməyi ilə keçmişə dair anlayış və biliklərimizi həcmli surətdə nə dərəcədə genişləndirdiyimiz və dərinləşdirdiyimizlə bağlıdır. Bu, böyük bir idraki problemidir. Filosoflar çox vaxt fəlsəfənin tarix elmi olduğunu iddia edirlər, lakin etiraf etmək lazımdır ki, tarix – fəlsəfi bir problemdir (4, s.125). Burada onun həm siyasi və hətta riyazi problem olduğunu vurğulamaq istərdik. Görünür, buna görə də araşdırmalarımızda fənlərarası tədqiqatlardan həm fəlsəfi kontekstdə, həm də müxtəlif elmlərə aid məlumatlar kimi istifadə etmək lazımdır. Onu da qeyd edək ki, keçmiş, tarix bütövlükdə mədəniyyətimizin bir hissəsidir və onu dərk etmək və bilmək üçün keçmişin bir qismi olan mədəniyyəti anlamaq və ona yiyələnmək, bizimlə, ölkəmizlə, cəmiyyətimizlə və s. bağlı baş vermiş mədəni-tarixi foun və ya kontekstin fərqində olmaq gərəkdir. Tarix və fəlsəfə tarixi fəlsəfə, cəmiyyət, ölkə və dünyadakı dəyişikliklər prosesini dərk etməyə çalışır və buna görə də bunun üçün məlumatlar, təfsir tələb olunur, bu da fənlərarası yanaşmaya ehtiyac yaradır. Eyni zamanda, onlar müxtəlif amil və fenomenlərin təsiri altında olan, lakin elmi cəhətdən yoxlanıla bilən müddəalara tələbat duyan şüura təsir göstərir. Məlumatlar və təfsir, şərh arasında ziddiyyətlərin olması mümkündür və bu zaman belə bir dilemma yaranır: tədqiqatçı nəyi seçəcək, onun seçimini hansı dəyərlər müəyyənləşdirir. Bu dilemmanın başa düşülməsi metodologiya və epistemologiya ilə, onların arasındakı fərqlər və təmayüllüklə sıx bağlıdır. Yaddaşımızın tarixini fəlsəfə, ədəbiyyat, dil tarixi və bir çox başqa şeylər yaddaşımızı təşkil edir və ya, daha doğrusu, onun bir hissəsi ola bilər, amma olmaya da bilər. Və onun bir hissəsi olması üçün (sözün fəlsəfi mənasında) onun elmi olması heç də həmişə kifayət deyil. Tarix və fəlsəfə, onların əsasına kütlənin anlayışları, bir qayda olaraq, mifoloji iddialar, təsəvvürlər, rəvayətlər qoyularsa, populist də ola bilər. Yoxlanıla bilən tarix və yaddaşın keçici hadisə və vəziyyətlərin təsiri altında əksəriyyətin spontan surətdə qəbul edilmiş bu cür iddiaları ilə müəyyən mənada əvəz edilməsi ona görə zərərlidir ki, yararsız, qeyri-rasional idarəetmə qərarlarının qəbul edilməsinə gətirib çıxara bilər. Məsələn, Almaniyanın tarixindəki ən bariz iz və sarsıntı İkinci Dünya müharibəsinin başlanması ərəfəsində, Hitlerin hakimiyyətə gəlməsindən əvvəl “bütün almanların” onların Birinci Dünya müharibəsinin nəticəsində incidildiklərinə, ümumdünya antialman sui-qəsdi nəticəsində sənayedən, ordudan, ərazilərdən məhrum olunduqlarına “birdən” inandıqları ilə bağlidir. Onların tarixi yaddaşlarında buna dərhal belə bir izah tapıldı ki, bunda yəhudilər və anqlosakson maliyyə kapitalı günahkardır. Burada məsələ bunun nə dərəcədə belə olub-olmadığında deyil, məsələ bu incikliyin İkinci Dünya müharibəsinə başlamaq qərarının qəbul edilməsinə şərait yaratdığındadır. Bu ekskursu ona görə etdik ki, indi bütün dünyada Birinci və İkinci Dünya müharibələrinin başlanmasına gətirib çıxarmış səbəb və bəhanələrin yenidən dərk edilməsi prosesi gedir və zənnimizcə, müharibələrin səbəblərində çox şey tarixi yaddaşla bağlıdır. Müharibələrin yekunlarına yenidən baxılması dünyanı ciddi kataklizmlərə apara bilər. Əgər bu proses müzakirə, elmi mübahisə, nəşr olunmuş əsərlərin müsabiqəsi, arxivlərdən daha çox və daha keyfiyyətli istifadə, diskussiyalara müxtəlif ölkələrin alimlərinin cəlb edilməsi kimi gedirsə, bu bir variantdır, amma siyasətçilərin kütlələrdən populist qərarlar qəbul etmək üçün istifadə eməsi tamamilə fərqli bir variantdır. Hazırda bu məsələlər müxtəlif ölkələrin ictimai elmlərində fəal surətdə müzakirə olunur. Ancaq üzdə olan odur ki, kütləvi informasiya vasitələrinin diqqət mərkəzində, bir qayda olaraq, ABŞ-da, Avropada Sovet

İttifaqı, Rusiyada isə Avropa və s. xüsusən də yaddaşda olanlar yerləşir. Bu mövzu ilə bağlı qeyd etmək istərdik ki, məsələn, erməni tarixçiləri həm qədim, həm də yeni tarixi təhrif etməklə tanınırlar. Onların Albaniyanın tarixinə necə yiyələndiklərinii və ya, məsələn, Türkiyənin təklifini qəbul etmək və onun arxivlərində 1915-ci il hadisələrinə dair iş aparmaq əvəzinə əfsanələr yaratmaqda davam etdiklərini xatırlayaq. Bu yalan hekayələr onlara öz xalqını idarə etmək üçün lazımdır və təəssüf ki, onlar buna nail olurlar. Tarixin ağrılı dövrləri üzərində birgə elmi iş, həqiqət axtarışı və onun birlik tərəfindən necə qavranıldığı arasındakı fərq mədəniyyət və sivil (yüksək inkişaf etmiş) mədəniyyət arasındakı müxtəlifliyin əsasını təşkil edir. Sivil mədəniyyət qanuniləşdirilmiş birgə həllər axtarışındadır. M.Mamardaşvilinin yazdığı kimi, "Sosial, hüquq və vəzifələrin dərkinə əsaslanmış düşüncənin şərti elə məhz bundan ibarətdir" (6, s.21). Daha sonra o, həm də yazır ki, "... əgər biz düşməniksə, gəlin özümüzü mədəni aparaq, oturduğumuz budağı kəsməyək" (6, s.21-22). Fikrimizcə, burada söhbət həm də alimlərin öz mövqeyindən asılı olmayaraq elmi işləri opponentlə rəqabətdə mümkün qədər keyfiyyətli, əsaslı surətdə yerinə yetirməyi seçməli olduqlarından gedir. Görünür, sivil mədəniyyətdə elmin mənası, əhəmiyyəti bundan ibarətdir.

### Mədəniyyətdə yaddaş tarixi haqqında

Yaddaş tarixinin nə demək olduğu və əlbəttə ki, keçmişi necə xatırladığımız barədə məsələ elə məhz sosiumun, cəmiyyətin mədəniyyətinin mahiyyəti, necə inkişaf etdiyi, miflərə necə üstün gəldiyi, onları hansı dəyərlərin köməyi ilə tədqiq etdiyimiz barədə məsələdir. Bunda, eyni zamanda, həm aksiologiya, həm fəlsəfi antropologiya, həm də etikanın müəyyən rolu vardır. Burada qeyd etməyinə dəyər ki, bu düşüncələr müxtəlif ölkələrdə konkret etnos və millətin tədqiq edilən mədəniyyət tarixinə yalnız yol açır. Türklərin arxivlərdə işləmək üzrə təklifi isə, ümumiyyətlə, millətlərarası münaqişələrə aparan bir çox problemlərin həlli üçün əla variant sayıla bilər. Və yalnız bunun üçün deyil, bizcə, həm keçmiş, həm də bu gün ilə maraqlanan hər kəs üçün. Bu məsələləri araşdırarkən K.Marks və ya M.Fuko, məsələn, tarixi hərəkətə gətirən və onu anlamağa kömək edən sinfi mübarizə ideyasını və ya oxşar funksiyaları yerinə yetirən episteme konsepsiyasını əsaslandırıblar. Məsələn, episteme nəinki keçmiş və indi, mədəniyyətlər, rejimlər, hakimiyyətlər arasındakı fərqləri dərk etməyə, hətta müxtəlif zamanlar, dövrlər, mədəniyyətlər və s. arasındakı oxşarlıqları görməyə imkan yaratdı. Həmin məsələlər bu yazının müəlliflərindən biri tərəfindən kitab və məqalələrində bu və ya digər dərəcədə təhlil edilmişdir (3). Lakin burada biz belə bir rakursu vurğulamaq istərdik. O, bundan ibarətdir ki, həmin yanaşmalar inkişaf etmiş Avropa ölkələrinin (K.Marks) və Fransanın (M.Fuko) tarixinin dərk edilməsi əsasında hasil olmuşdur. Azərbaycanda epistemologiyadan istifadə etmək üçün Azərbaycan tarixinin təcrübəsini, yaddaşa və yaddaşın özünə münasibətini dərk etmək lazımdır. Filosof üçün tarixi dərk etmək nə deməkdir? Sual heç də sadə deyil. Obyektivliyə aparan yol obyektivliyin özü deyil, amma onsuz obyektivlik olmur. Həqiqət və ədalət də eyni şeylər deyil. Eyni zamanda, o da aydındır ki, tarix siyasətə cəlb olunmaya bilməz. Amma elm və tarix həqiqət axtarışında olmaya, öz müddəalarını sübut etməyə, mətnlərini və s. əsaslandırmaya bilməz. Yalnız bundan sonra onlar inkişaf edir, mədəniyyət və cəmiyyət tərəqqi edir. Mədəniyyət fəlsəfənin köməyi ilə özünü müasir mədəniyyət kimi dərk edir. Belə halda yaddaş, şüur, təcrübə yalnız fəlsəfi təhlilin obyektləri və vasitələri olur. Bu cür müasirlik mədəni (sivil), refleksiv, düşünən ola bilər. Görünür, bu zaman tarix ona keçmişin mədəniyyəti ilə əlaqə yaratmağa, mövcud olanın mürəkkəbliyini müqayisə və anlamağa kömək edir, yəni tarixi

bu mənada da fəlsəfi cəhətdən yüklənіş olmalıdır. Məsələn, İ.Məmmədzadə "Əxlaqın təfsiri təcrübəsi" kitabında (2) müasirliyi məhz əxlaqın fəlsəfi dərki və təfsiri prizmasından işıqlandırır. Beləliklə, müasirlik, keçmiş və mədəniyyət arasındakı dəyişkən əlaqəni təkcə fəlsəfə tarixinin yox, yalnız fəlsəfə və fəlsəfi fənlərin vasitəsilə araşdırmaq mümkündür.

Fəlsəfə, vurğular düzgün qoyulduqda, keçmiş və bu gündə yeni və ümumi olanları sezməyə, nəzərə almağa, anlamağa kömək edir. Bu baxımdan Bəhmənyar, Nizami, N.Tusi və ya Platon, Nitsşe və M. Fuko müəyyən mənada bizim müasirlərimiz olurlar, çünki onların əsərlərini oxuyanda biz indiki zamanda yeni bir şey anlamış oluruq. Beləliklə, bu əsərlər yalnız qədim yunan və ya müasir fransız fəlsəfəsi və mədəniyyətinin deyil, həm də onları dərk etməyə çalışanların mədəniyyətinin bir hissəsidir. Belə ki, biz həm keçmiş haqqında biliklərimizi dəyişdirir və dərinləşdiririk, həm də bu günümüzü və görünür, gələcəyimizi genişləndiririk. Keçmiş barədə düşüncələr, ona aid xatirə (yaddaş), beləliklə, mədəniyyətin yenilənməsinə səbəb olur.

Tarixə münasibət və tarixi yaddaş mövzusundakı düşüncələr "yaddaş müharibələrinə" də gətirib çıxara bilər, lakin, amalən, mədəniyyətin mənəviliyini dərinləşdirməli, mədəniyyət, ideya və ideologiyaların mahiyyətini dərk etməyə, özümüz, əhatəmiz və ətraf mühit haqqında onların köməyi ilə düşündüyümüz obrazları izah etməyə kömək göstərməlidir. İnsanda tamlıq yaratmalı, mənəvi həyata, ola bilsin, həcmlilik və dərinlik verməli, identiklik və bütövlüyə, universallıq və lokallıq, ümumi və xüsusi arasında qarşılıqlı münasibətlərin (heç də həmişə aydın olmayan) hərtərəflilik və variativliyinə imkan yaratmalıdır. Burada bütövlük həm də nəyin yaxın, qohum və yad olduğunu sual etmək və başqasının xatirəsinə (yaddaşına) münasibətin insanda, onun mədəniyyətində, cəmiyyətin özünün inkişafında çox şeyi müəyyənləşdirdiyini etiraf etməkdədir. Düşünürük ki, məhz belə bir yanaşma müasir sivil mədəniyyətin yaddaş kontekstində dərkində yeniliyi ehtiva edir.

Və nəhayət, mədəniyyət, cəmiyyət və fərdin identikliyi fəlsəfədə vacib məsələlərdir. Yaddaş tarixi, fikrimizcə, onların ayrılmaz hissəsini təşkil edir. Fəqət yaddaş, eyni zamanda, həm də münasibət və bu münasibət mədəniyyətinin təşəkkülüdür. Yeri gəlmişkən, bu, dilimizdə, metaforalarımızda (məcazlarda), əsatirlərimizdə, yaddaş yerlərinə münasibətimizdə, etikada özünü göstərir. Keçmişə münasibət müasir ola bilər, amma çox yox, sivil ola bilər, olmaya da. Prinsipcə, bunlar insan və onun mədəniyyətinin onun mahiyyəti ilə bağlı, vacib, əsas xüsusiyyətləridir. Bəziləri deyə bilər ki, "yaddaş" insanı olduğu kimi edir.

### Fəlsəfə mədəniyyət və tarixi yaddaş haqqında

Müasirlik bizim hal-hazırda və bu anda dünyada mövcudluğumuzun məqamıdır. Əgər sadə insan üçün bu, adi bir şeydirsə, fəlsəfə üçün hər şey daha mürəkkəbdir. O, seçimi axtarır, izah edir, tutuşdurur və dəyərləndirir. Dünyada bir-biri ilə yanaşı mövcud olan və əksər hallarda düşmənçilik edən müxtəlif mədəniyyətlər vardır. Dövlətlər öz qarşılıqlı münasibətlərində, siyasətlərində mədəniyyətdən istifadə edir. Mədəniyyətin özü də siyasətə təsir göstərir. Dünyada hakim ideologiya və fəlsəfə olmadığı bir şəraitdə Liotar, Delöz və ya Fukuyama ilə razılaşmaq və ya razılaşmamaq olar, amma mədəniyyət və tarixi yaddaşın və əlbəttə, fəlsəfənin ideoloji prosesə cəlb olunduğunu qeyd etməmək olmaz. Görünür, bununla bərabər, fəlsəfənin elmi obyektivliklə əlaqələrinin və belə bir fəlsəfənin mədəniyyətə təsirinin itirilməsinə yol verməmək olmaz.

Hərçənd onlar ideoloji mübarizədə "yumşaq güc" kimi istifadə olunur. Bununla əlaqədar, İtaliya kommunisti A.Qramşinin inkişaf etdirdiyi "mədəni-ideoloji hegemonluq" ideyası yada düşür, ona V.İ.Leninin mədəniyyət ilə bağlı fikirlərinin təsirini də qeyd etməmək olmaz. Beləliklə, cəmiyyətlər və mədəniyyətlə-

rin toqquşmalarında yeni bir müasirlik (postmüasirlik) təsbit olunur. Onda dialoq mədəniyyəti müharibə mədəniyyəti ilə yanaşı mövcuddur. Qeyd edək ki, sosial şəbəkələrdə yalnız bir-biri ilə razı olanlar deyil, razı olmayanlar arasında da, müxtəlif mədəniyyətlərə, dinlərə, ənənələrə, cinslərə mənsub olan insanlar arasında söhbət baş tutur. Yeri gəlmişkən, dialoqun əhəmiyyətə malik olduğunu etiraf etsək, onda onun öz mədəniyyəti, tarixi və yaddaşı olduğunu aşkar edərik. İndi aydın olur ki, Platonun dialoqları, həmişə olmasa da, Sokratın üstünlüyü ilə başa çatırdı və bu, onun haqqında xatirəyə aiddir. Bu gün dialoqda başlıcası təkcə mövqeyə, rəyə malik olmaq hüququ deyil, həm də başqasının fikrini dinləmək, mövqeyini anlamaqdır. Yaddaş və müasirliyin tələbləri arasında bu fərqin aşkar olunması bizə indini dərk etməyə imkan verir. Mübahisədə hər bir mövqe üstünlük qazana bilər. Amma, bir qayda olaraq, başqasını dinlədiyi üçün onu anlayan qalib gəlir.

Bu isə artıq yeni bir mədəniyyət və yeni dir fəlsəfədir. O, yalnız daha yaxşı olduğuna görə təşəkkül tapmır, sonuncunun səbəbi bundan ibarətdir ki, o yaradılmasa, gələcəyimizin heç bir mənası olmayacaq. Texnologiyalar mədəniyyəti transformasiya edir, mədəniyyət isə şəri məhdudlaşdırır. İndiki insan mənasız dünyada yaşamağı, hər kəsə xidmət etməyi bacarar, amma zəkalı, əxlaqlı da ola bilər. Belə bir mədəniyyət heç də klassik standartlara uyğun olaraq formalaşmır. Biz, müdriklərin söz sahibi olduğu klassik mədəniyyət dünyasından hər kəsin öz sözünü deməyə haqqı olduğu bir mədəniyyətə keçirik. Məhz bu hüquq müasirliyin dialoji, lakin ziddiyyətli mədəniyyətini yaradır və bizcə, təkcə mütəxəssislər üçün deyil, başqaları üçün də maraqlı və lazımi olacaq qeyri-ənənəvi bir fəlsəfəyə zərurət doğurur. Həm də güman edirik ki, o, hər kəsin vermək istədiyi sualları cavablandırmaqdan daha çox, sizinlə razı olmayan biri ilə necə söhbət aparmaq, dolanmaq, yanaşı yaşamaq, tolerant davranmaq və anlaşmaq lazım olduğu barədə düşünəcəkdir. Və burada məlum olur ki, belə bir fövqəladə vəziyyət barədə yalnız qədim yunan filosofları deyil, həm də maarifçilik dövründə Kant, modern dövründə Nitsşe və bizim mütəfəkkirlərimiz Nizami, Nəsimi, Zərdabi və b. düşünmüşlər.

Dünya artıq klassik ideal sistemlərə mütabiq deyil, hamı üçün ümumi, vahid cavablar yoxdur, müxtəliflik, toqquşma və mürəkkəbliyin olduğunu daha çox başa düşürük. Buna görə, söhbət, hər şeydən əvvəl, sualları, onları vermək üçün, anlaşmaq üçün istifadə etdiyimiz anlayışları dəqiqləşdirmək lazım olmasından gedir. Bizcə, müasir fəlsəfədəki suallar (və cavablar) fizika və ya riyaziyyatda olduğu kimi həqiqət deyil. Anlayışların dəqiqləşdirməsi yalnız fəlsəfənin özü üçün deyil, bəşəri idrakın hər bir sahəsi üçün lazımdır. Hər hansı bir dialoq (hətta kişi ilə qadın, fəlsəfə və ideologiya, materializm və idealizm, mədəniyyət və kütləvilik arasında), ilk növbədə, anlayışların məzmunu və təfsiri xüsusunda aparılan bir mübahisəsidir. Burada, hər bir bənzətmə şərti olsa da, belə bir analogiya gətirmək olar: anlayışların sərhədləri dəqiqləşdirilmədən aparılan mübahisə hormonların qızğın çağında, öz həqiqətini sırımağın hər şeydən əhəmiyyətli olduğu zaman yeniyetmələrin öz münasibətlərini aydınlaşdırmasına oxşayır. Güman edirəm ki, müasir dünya bu cavanlıq dövrünü keçməli, yetkin, kamil olmalıdır. Biz həmçinin bilirik ki, müasirliyə onun bizə məxsus olduğu dərəcədə mənsubuq. Yəni insanlar bunu anladıqdan sonra nəyinsə qarşısını ala, vacib bir şey haqqında razılığa gələ, yəni dəyişə və bununla da öz dövrünü dəyişdirə və ya onun üçün nicat yolu tapa bilərlər. Bu kontekstdə Delöz və Gvattarinin fəlsəfənin mahiyyəti barədə ideyaları, Liotarın modern və postmodern, mürəkkəblik və ədalətin nə olduğu haqda fikirləri və Derridanın ölümündən sonra bir filosof kimi xatırlanıb-xatırlanmayacağı barədə düşüncələri, ya da, məsələn, çoxlarının tez-tez nasizm və antisemitizmdə günahlandırdığı Haydeggeryada düşür. Bəli, çoxluğun fikrincə bu belədir, amma həqiqətənmi bu məhz bu cürdür?

Bəli, o, nasizmə xidmət edirdi, ancaq bu onun ideyalarının aşkar bəsitləşdirilməsidir, onları bu dərəcədə sadələşdirmək düzgündürmü? Keçmişdə Nitsşeyə qarşı da belə bir ittiham irəli sürülmüşdü, amma mütəfəkkirin şəxsiyyəti təməlinin onun əxlaq, mədəniyyət, zaman və dinin mahiyyətinin dərkini dərinləşdirdiyi səbəbindən bu gün aktuallaşan fəlsəfəsi bununlamıizah olunur? (1; 7)

Nəticədə vurğulamaq istərdik ki, mədəniyyət və fəlsəfə, fəlsəfə və tarix məsələlərinin təhlilinə, yaddaşın müxtəlif təfsirləri arasındakı dialoqlara daha çox müraciət etmək lazımdır. Onlardakı əsas leytmotiv müxtəlif mədəniyyətlərin insanlar arasında dialoqun mümkünlüyünü dərk etməkdən ibarətdir. Bizi mədəniyyətlərin, ideologiyaların, fəlsəfənin qarşılıqlı təsir problemləri, onların cəmiyyət və vətəndaşın şüuru ilə ayrılmaz əlaqəsi maraqlandırır. Hamı dünyadakı iqtisadi, ideoloji və mənəvi böhranın səbəblərini dərk etmək istəyir, buna görə də insan şüuru ilə baş verən bütün hər şeyin ziddiyyətli və eyni zamanda, qarşılıqlı surətdə şərtləndirilmiş olduğunu izah edə biləcək bir fəlsəfəyə ehtiyac duyur.

**Ədəbiyyat:**


1. Fəlsəfə tarixi. Qərbi-Rusiya-Şərq. Dördüncü kitab: XX əsrin fəlsəfəsi. M.: Akademik Layihə 2012
2. Məmmədzadə İlham. Əxlaqın təfsiri təcrübəsi. Bakı, 2006.
3. Məmmədzadə İlham. Bir daha fəlsəfə haqqında. Bakı, 2019.
4. Məmmədzadə İlham. Mədəniyyətlərarası kommunikasiyanin bəzi fəlsəfi problemləri // Dovlət idarəciliyi: nəzəriyyə və təcrübə, №2(70), 2020, səh.125-134.
5. 12 ведущих философов современности, М., АСТ, 2014, 414 с.
6. Мамардашвили Мераб. Сознание и цивилизация. СПб: «АЗБУКА», 2019, 352 с.
7. Ницше Ф. Наследие и проект. М.: Издательский Дом ЯСК, 2017, 824 с.


***Açar sözlər:*** *fəlsəfə, mədəniyyət, tarixi yaddaş, fəlsəfə tarixi*

**Ilham Mammadzade**
*Director of the Institute of Philosophy*
*of the National Academy of Sciences of Azerbaijan,*
*Doctor of Philosophical Sciences, Professor*

**Zemfira Mammadzade**
*Leading researcher of the Institute of Philosophy*
*of the National Academy of Sciences of Azerbaijan,*
*PhD in Philosophy*

## SOME PHILOSOPHICAL PROBLEMS OF STUDYING HISTORICAL MEMORY

**SUMMARY**

Recently, everything related to historical memory and history has attracted interest not only among historians, politicians, and journalists, but also among philosphers. Interest in these issues is fueled, or at least should be fueled by various reasons and motives. The fact is that philosophy has always been a science in its own way related to the past.

In this sense, the role of history in philosophy cannot be underestimated. The history of philosophy, unlike history, does not try to restore the authentic past; the researcher in it, as a rule, tries to consider the past from a certain standpoint.

This approach considers history as a movement and clash of ideas and the formation of a particular school or direction. This approach, as a rule, was criticized by many historians, they saw in it only tendentiousness. For example, it was as if materialists and idealists in the past noticed only what suited them. In the worst examples, apparently, it was so, but in the best, there was a different view of history, where the main thing was not authenticity, but a modern vision of the past.

***Key words:*** *philosophy, culture, historical memory, history of philosophy*

**Ильхам Маммадзаде**
*Директор Института Философии*
*Национальной Академии Наук Азербайджана,*
*доктор философских наук, профессор*

**Земфира Маммадзаде**
*Ведущий научный сотрудник Института Философии*
*Национальной Академии Наук Азербайджана,*
*доктор философии по философии*

## НЕКОТОРЫЕ ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЯ ИСТОРИЧЕСКОЙ ПАМЯТИ

### РЕЗЮМЕ

В последнее время все, что связано с исторической памятью, историей вызывает интерес не только у историков, политиков, журналистов. Понятно, что и у философов. Но интерес к этим вопросам питается или, по-крайней мере, должен питаться различными причинами и мотивами. Дело в том, что философия всегда была наукой по-своему относящейся к своему прошлому. Недаром роль истории философии в философии нельзя не переоценить или недооценить, оно устоялось. История философии, в отличие от истории, не пыталась восстановить аутентичное прошлое, исследователь в ней пытался с позиций своего подхода рассмотреть прошлое, как движение и столкновение идей, становление той или иной школы или направления. Такой подход, как правило, критиковался многими историками, они видели в нем лишь тенденциозность. К примеру, будто бы материалисты и идеалисты в прошлом замечали только то, что их устраивало. В худших образцах, видимо, так и было, а в лучших, был иной взгляд на историю, где главным была не аутентичность, а современное видение прошлого.

***Ключевые слова:*** *философия, культура, историческая память, история философии*

DÖVLƏT İDARƏÇİLİYİ
PUBLIC ADMINISTRATION

UOT 323

**ELCHIN AHMADOV**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,**
**Professor, Doctor of Political Sciences of the Department of International Relations and Foreign Policy**
*e-mail: elchin_ahmedov@yahoo.com*

# INDICATORS OF AZERBAIJAN'S DYNAMIC DEVELOPMENT: SUCCESSES AND ACHIEVEMENTS

After the Republic of Azerbaijan regained its independence on 18 October 1991, it acquired the historic opportunity to develop and strengthen its statehood. Under such circumstances, the most important issue on the agenda was to develop and implement a new political course aligned with the principles of national statehood. Armenia's unfounded territorial claims and military aggression against Azerbaijan not only left the country face-to-face with serious political and socioeconomic problems, but also brought the important foreign political objectives to the foreground. To prevent Armenia's military aggression, eliminate its bitter consequences, ensure the territorial integrity and security of our country and put it on a path of political and economic integration with the rest of the world required thought-out, consistent and proactive policies.

After national leader Heydar Aliyev returned to power in the second half of 1993, the country's political course was amended to reflect the new realities and secure Azerbaijan's national interests. The policies launched in that period are associated with the name and activities of the national leader. In an effort to identify the key directions of a new political course of the state drawing on his own extensive experience, President Heydar Aliyev established a number of priority goals. The most important goal was to put an end to Azerbaijan's isolation from the international world, dispel the negative public opinion about our country, communicate the people's just cause to the world community and thus break the information blockade. The execution of the new political course required a cessation of the war and restoration of peace. Thanks to the ceasefire agreement reached with Armenia in May 1994 and the steps to create stability in the country, the necessary peaceful environment was built to facilitate a new foreign political course.

The successful resolution of the socioeconomic and political problems the Republic of Azerbaijan faced after embarking on a path of democratic state building was closely connected to the international standing of our country, the process of mutually beneficial relations with countries and integration into the world community. From this perspective, wat is important to regulate and develop relations with states and international organizations played a leading role in the formation of global politics in order to secure a worthy place in the system of international relations for Azerbaijan.

As a highly skilled and experienced president and a mature political figure, the national leader demonstrated the ability to successfully and skillfully overcome the

difficult and complex tasks. The steps taken to expand bilateral and multilateral political relations played an important part in the systematic integration of our country into the world community. The "Contract of the Century" on the development of oil fields in the Azerbaijani sector of the Caspian Sea signed on 20 September 1994 gave a powerful impetus to the deepening of our country's relations with the world and strengthening its international positions. The Baku International Conference on the Restoration of the Great Silk Road, held on 7-8 September 1998 and attended by representatives of 32 countries and 13 international organizations, was one of the most important achievements of Azerbaijan's foreign policy (1, pp.191-196).

The 1993-2003 period was crucial for our country. It was in those years that a solid foundation of our statehood was laid. The strategic course of Azerbaijan – both domestic and foreign – was defined and Azerbaijan joined the world community. In addition to becoming a member of international organizations, Azerbaijan regularly and actively participated in their activities. The established fruitful cooperation made it possible to communicate the problems our country was facing to the international community. In those years, very serious reforms were carried out, the principles of market economy prevailed and major investments were attracted to Azerbaijan. The first Constitution of the independent Republic of Azerbaijan was adopted, the political system was strengthened and a solid foundation for the successful development of our country was laid. The work done in these years contributed to the successful development of our country and the projects launched at that time are still proving successful.

## Important stage in Azerbaijan's dynamic development

Since 2003, the people and the state of Azerbaijan have experienced a period of rapid development in the true sense of the word. The sustainable development of the Azerbaijani economy against the backdrop of a global recession of the past years and the timely implementation of all social programs is clear evidence of the solid foundation of the national economic development model put forward by national leader Heydar Aliyev. One of the most important factors behind Azerbaijan's success in its active integration into the global economic system is its energy, food and environmental security, diversification of the economy and the successful implementation of sustainable development strategies in all areas (4). The dynamism observed in the country's non-oil sector is also an important result of the policy of economic diversification.

Over the past 16 years, the Azerbaijani economy and its GDP has more than tripled. Azerbaijan's foreign debt is at a very low level, accounting for only 17 percent of the gross domestic product. In particular, by effectively investing foreign currency revenues fetched from its rich oil resources Azerbaijan managed to create favorable framework for the dynamic development of all sectors of the economy, and now the non-oil sector has become a strategically viable asset. Azerbaijan's foreign currency reserves exceed the country's foreign debt 5 times. More than $250 billion has been invested in the country's economy over the past 16 years. Over the past 16 years, the poverty rate in Azerbaijan has dropped from about 50 to 5.4 percent, while unemployment is at 5 percent. In 2019, the non-oil industry grew by 15 percent and agriculture by 7 percent (13). The dynamism observed in the country's non-oil sector can also be seen as an important consequence of the policy of economic diversification. This shows that "black gold" and gas have turned into human capital.

Leading economic and financial institutions of the world have acknowledged Azerbaijan's success, as the country ranks among leaders in all international reports. The Global Competitiveness Report of the World Economic Forum ranks Azerbaijan's economy first in the

CIS (5). The annual “Inclusive Development Index” report for 2017 ranks Azerbaijan in third place among 80 developing countries (3). Azerbaijan had $1.8 billion foreign exchange reserves in 2003 but has now increased them to $50 billion. It is a great achievement for the newly-independent state, which shows the diversified development of Azerbaijan’s economy.

The decision to launch an Azerbaijani satellite into orbit was made in 2008 and the launch of the first Azerbaijani telecommunications satellite “Azerspace-1” on 8 February 2013 was a remarkable and historic day in the life of our country. Thus, Azerbaijan became a member of a club of space-faring nations. In 2014, Azerbaijan received the second observation satellite “Azersky“, which was handed over to our country. What makes “Azersky” special is that the satellite observes the surface of the Earth with a high degree of precision and only 20 countries in the world have such satellites. Besides being a great success for our country, it is also an indicator of its rapid development. On 26 September 2018, another telecommunications satellite “Azerspace-2” was launched into orbit. Azerbaijan's national interests and security interests are therefore fully met and our space industry develops (11).

## Azerbaijan's energy security policy

Over these years, our country's security strategy has been successfully implemented, first and foremost, Azerbaijan's energy security has been fully ensured and its dependence on external sources has been eliminated. Today, Azerbaijan is the leading country in the region in terms of economic potential. It accounts for more than 80% in the South Caucasus economy. The Agreement on Joint Development and Production Sharing for the Azeri, Chirag and Guneshli Fields in the Azerbaijani Sector of the Caspian Sea signed in Baku on 20 September 1994 was extended until 2050 on 14 September 2017. The implementation of the “Contract of the Century” is successfully ongoing and Azerbaijan’s new oil strategy was launched following the signing of this contract.

At the same time, by signing the “Contract of the Century“, Azerbaijan, known worldwide as an oil country, became an important player in the global energy market through the Baku-Tbilisi-Ceyhan project. In 2002, Azerbaijan laid the foundation of the Baku-Tbilisi-Ceyhan oil pipeline at the Sangachal Terminal expecting major oil from the Azeri-Chirag field. This pipeline was commissioned in 2006 and currently serves the people of Azerbaijan and all friendly countries. At the same time, our country has also attracted attention in recent years for its natural gas reserves. Today, Azerbaijan is a country playing the key role in the energy security of the region and Europe and on the global energy market. Azerbaijan's share in the gas market of a number of European countries has reached 40 percent. Currently, oil and oil products from Azerbaijan are exported to 30 countries of the world (6).

In 2007, the Baku-Tbilisi-Erzurum gas pipeline was commissioned. This is also a very important project. Without this project, the development of the Shah Deniz field would have been impossible. Thus, Azerbaijani gas was transported to Georgia and Turkey for the first time in 2007 and work on the establishment of the Southern Gas Corridor started. After hard work and negotiations, Azerbaijan and Turkey signed an agreement on TANAP – the Trans-Anatolian gas pipeline. The Caspian Basin, which has become a venue of international cooperation, now draws attention as a hub for a number of global energy projects implemented thanks to ample hydrocarbon reserves. From this perspective, the Shah Deniz field in the Azerbaijani sector of the Caspian Sea is of particular importance. The signing of the final investment decision on the project in Baku on 17 December 2013 paved the way for the full-field development of the Shah Deniz field. As President Ilham Aliyev said, the Shah Deniz-2 energy project is one of the largest energy projects in the

world. This project is about energy security and energy diversification. Twenty years ago, Azerbaijan signed the “Contract of the Century“, opened the Caspian Sea to foreign investment and ensured the successful economic development of our country. “If that contract is described as a contract of the 20th century, then Shah Deniz-2 is the largest energy project of the 21st century (9).

Thus, a strong impetus was given to the implementation of the Southern Gas Corridor project. On 20 September 2014, the 20th anniversary of the “Contract of the Century” was celebrated. It is quite symbolic that the foundation of the Southern Gas Corridor was laid on that day as well (10). The Southern Gas Corridor is Europe's largest infrastructure project, and our country has once again demonstrated its leadership in the implementation of this gigantic transnational project. As is the case with other international cooperation matters, Azerbaijan has taken the lead in these projects too. More than $40 billion has been invested in this project. Azerbaijan's proven gas reserves constitute 2.6 trillion cubic meters. At the same time, Azerbaijan, Georgia and Turkey have established a very strong tripartite regional cooperation format having implemented the Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum and other important projects, including the Baku-Tbilisi-Kars project in the transport sector. The selection of TAP, the Trans-Adriatic Pipeline project, as the main export route in 2013 was also a historic event.

The official opening of the Southern Gas Corridor held at the Sangachal Terminal and the opening of the 25th Caspian Oil and Gas Exhibition on 29 May 2018 played a major role in the implementation of Azerbaijan's energy policy. The commissioning of the TANAP gas pipeline in Eskişehir, Turkey, on 12 June 2019 is a clear indication of the highest level of relations between the two friendly and fraternal states (12).

Azerbaijan has participated actively in regional connectivity projects, such as East-West, North-South, North-West transportation corridors, becoming one of Eurasia's primary and reliable transport and logistics hubs. We have also commissioned the Baku-Tbilisi-Kars railroad and the Baku International Trade Seaport with the potential of handling capacity of 25 million tons. According to the Davos Economic Forum’s Global Competitiveness Report 2019 - among 141 countries, Azerbaijan ranks 11th for “Efficiency of railroad services“, 12th for “Efficiency of air transportation services“, 25th for “Efficiency of seaport services” and 27th for “Quality of road infrastructure” (14).

Issues of energy security are high on the global agenda today and are regarded as matters of national security of countries. In addition, the Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum, Baku-Tbilisi-Kars, TANAP, TAP and other projects implemented on the initiative of Azerbaijan have reaffirmed Azerbaijan in the world as a country with its own economic model.

## Foreign policies, successes achieved in cultural and humanitarian areas

As a reliable partner in the European security architecture, Azerbaijan plays an important role in the energy security of the continent. In 2004, Azerbaijan joined the European Neighborhood Policy, the main objective of which is to accelerate political and economic integration of South Caucasus states into European values. In 2006, the Republic of Azerbaijan and the European Union signed a Memorandum of Understanding on strategic partnership in energy matters, and after Azerbaijan joined the EU's Eastern Partnership Program in 2008, this political, economic cooperation expanded and entered a qualitatively new phase (7).

In addition, on 24 October 2011, Azerbaijan won a convincing victory by receiving the votes of 155 out of 193 UN member-states to become a non-permanent election to the UN Security Council for 2012-2013 (8). Admission of non-permanent members of the UN Security

Council is one of the biggest diplomatic achievements in the history of Azerbaijan and should be viewed as a clear proof of the growing political authority of our country on the world stage in recent years. As a country that has steadily developed for the past several years, showed impressive economic results and earned international authority for its activities in global politics, Azerbaijan was elected to become a member of the most influential international body.

With a unanimous decision of all 120 countries of Non-Aligned Movement Azerbaijan was elected as a chair of this body. In October 2019 Azerbaijan assumed the chairmanship of Non-Aligned Movement during the 18th Summit of the Heads of State and Government held in Baku (14).

Our country is trying to contribute to the issues of friendship, peace, partnership and cultural diversity today. The well interfaith and intercultural relations are regulated in Azerbaijan is well known to the world. A number of steps have been taken to study Azerbaijan's experience. In 2008, the "Baku process" began at the initiative of our country, and issues of intercultural and inter-civilizational dialogue and multiculturalism are now part of the "Baku process". Azerbaijan continues its efforts in this direction, and the fact that representatives from more than 100 countries have come to Baku to discuss these important issues inspires us to achieve our goals as the country keeps on contributing to friendship, peace, partnership and cultural diversity.

Having become a political, economic and humanitarian center of the region, Azerbaijan has also taken its rightful place in the system of international relations and earned the reputation for being a strong state and reliable partner. Baku is already known as a venue for continental and global humanitarian events discussing these important issues. Azerbaijan has become the center of dialogue between cultures and civilizations, global political, economic, humanitarian and other issues. Five times – in 2011, 2013, 2015, 2017 and 2019 – the World Forum on Intercultural Dialogue was organized in Baku at a high level and initiatives undertaken by Azerbaijan in this area go beyond regional onto a global plane (2).

The Baku International Humanitarian Forum joined by heads of state and government, Nobel Laureates and renowned public and political figures has already become a tradition. Having hosted the Seventh General Assembly of the International Conference of Asian Political Parties, the World Summit of Religious Leaders and other high-profile events, Baku is now widely recognized as one of the venues of global events. Also, playing host to the World Economic Forum "Strategic Dialogue on the Future of the South Caucasus and Central Asia", a meeting of the Club of Madrid, the First South Caucasus Forum, the first meeting of the Euronest Parliamentary Assembly outside Europe and other great international events in the past 17 years, Azerbaijan demonstrated again that it is a geopolitically important South Caucasus venue for the discussion of burning issues of the modern world.

A number of important events held in our country and on the initiative of the head of state, such as the 2018 Sixth Baku International Humanitarian Forum, the Sixth Global Baku Forum, the Foreign Ministers Conference of the Non-Aligned Movement, the Meeting of the Council of Foreign Ministers of the Black Sea Economic Cooperation Organization, the Ministerial Meeting of the Southern Gas Corridor Advisory Board, the Official Opening Ceremony of the Southern Gas Corridor, the Seventh Global Baku Forum held in March 2019 have significantly enhanced Azerbaijan's international authority.

In addition, the decision to hold the inaugural European Games in Baku in 2015 was not accidental. The first European Games "Baku 2015" opened an interesting page in the history of sports. At the same time, Azerbaijan gained the opportunity to host sports of any level with the highest quality. In May 2017,

Baku hosted the Islamic Solidarity Games. These sporting events are our great contribution to the promotion of multiculturalism as well (14). The fact that such two major sporting events were held in Azerbaijan in a matter of two years is not only a historic event, but also a significant contribution of our country, which plays a bridge between Asia and Europe, to the inter-civilizational and intercultural dialogue.

All this gives us ground to say that on the one hand, the Azerbaijani state defines the model of its economic and political development by benefiting from the global experience and, on the other, embarks on international relations by maintaining its national interests in accordance with internationally recognized principles.

In general, all of the aforementioned suggests that the events of global proportions held in Azerbaijan have significantly enhanced Azerbaijan's international authority and made our country a leader in the South Caucasus. As a result, Azerbaijan has gained the opportunity to influence not only the processes going on in the region, but also those processes taking place in the international arena. As the key state in the South Caucasus region, Azerbaijan pursues an independent foreign policy in difficult geopolitical circumstances. At present, as an important geopolitical location Azerbaijan is viewed as the most promising partner for maintaining peace and security in the region.

**References:**

1. The Republic of Azerbaijan. 1991-2001. Baku, 2001, pp.191-196.
2. Speech of President of the Republic of Azerbaijan Ilham Aliyev at the opening of the Fourth Global Forum on Intercultural Dialog in Baku – “Azerbaijan” newspaper, 6 May 2017; “Azerbaijan” newspaper, 6 May 2019.
3. Speech of President of the Republic of Azerbaijan Ilham Aliyev at a meeting of the Cabinet of Ministers dedicated to the results of socioeconomic development in nine months of 2018 and objectives for the future - “Azerbaijan” newspaper, 10 October 2018.
4. Speech of President of the Republic of Azerbaijan Ilham Aliyev at the opening of the Fourth Global Forum on Intercultural Dialog in Baku – “Azerbaijan” newspaper, 6 May 2017.
5. Speech of President of the Republic of Azerbaijan Ilham Aliyev at a meeting of the Cabinet of Ministers dedicated to the results of socioeconomic development in the first quarter of 2017 and objectives for the future - “Azerbaijan” newspaper, 11 April 2017.
6. President of the Republic of Azerbaijan Ilham Aliyev’s interview with the influential British magazine “The Business Year” - “Azerbaijan” newspaper, 4 April 2013.
7. Commission of the European Communities. “European Neigborhood Policy“, Country Report Azerbaijan. Brussels, 2005, p.2-3.; European Neighborhood Policy EU / Azerbaijan Action Plan 14 november 2006. - http://ec.europa.eu/environment/enlarg/pdf /enp_ action_plan_azerbaijan.pdf.; Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council, № COM (2008) 823 from 3 December 2008.
8. “Azerbaijan” newspaper, Baku, 25 October 2011.
9. “Azerbaijan” newspaper, Baku, 21 September 2014.

10. "Azerbaijan" newspaper, Baku, 30 September 2014.
11. "Azerbaijan" newspaper, Baku, 27 September 2018
12. "Azerbaijan" newspaper, Baku, 13 June 2019.
13. https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_attended_ceremony_to_mark_100th_anniversary_of_Baku_State_University_VIDEO-1359802
14. https://azertag.az/en/xeber/President_Ilham_Aliyev_made_a_speech_at_general_debates_of_75th_session_of_United_Nations_General_Assembly_in_a_video_format_VIDEO-1594355

***Key words:*** *The Republic of Azerbaijan, public policy, energy security, foreign policy, dynamic development*

**Elçin Əhmədov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru, siyasi elmlər doktoru*

## AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFININ ƏSAS GÖSTƏRİCİLƏRİ: UĞURLAR VƏ NƏTİCƏLƏR

### XÜLASƏ

Məqalədə göstərilir ki, 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. Həmin illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti ilə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur.

Məqalədə 2003-2017-ci illərdə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətləri və bütün sahələrdə dinamik inkişafının mühüm göstəriciləri geniş tədqiq edilir. Bu illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi fktlara əsasən təhlil edilir.

Məqalədə bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyasının uğurla həyata keçirilməsi, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyinin tam təmin olunması, xüsusilə, Cənubi Qafqaz iqtisadiyyatında Azərbaycanın iqtisadi potensial baxımından regionun lider ölkəsi olduğu əsaslandırılır. Bundan əlavə, məqalədə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələrin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilməsi tədqiq edilir.

Bununla yanaşı, məqalədə xarici siyasət, mədəni-humanitar və idman sahələrində qazanılan uğurlar faktlara əsasən geniş təhlil edilir. Həmçinin, Azərbaycanın daxili və xarici siyasətində mədəni müxtəliflik, multikultural və tolerant dəyərlər tədqiq edilir. Məqalədə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi dövlətimizin xarici siyasətində əsas prioritet istiqamət kimi araşdırlmışdır.

***Açar sozlər:*** *Azərbaycan Respublikası, dövlət siyasəti, enerji siyasəti, xarici siyasət, dinamik inkişaf*

**Эльчин Ахмедов**
*Профессор кафедры “Международные отношения и внешняя политика”*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук*

## ПОКАЗАТЕЛИ ДИНАМИЧНОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА: УСПЕХИ И ДОСТИЖЕНИЯ

### РЕЗЮМЕ

В статье указывается, что 1993-2003 годы были решающими для нашей страны, именно в эти годы была заложена прочная основа независимой государственности. В эти годы был определен стратегический курс Азербайджанской Республики, связанный как с внутренней, так и с внешней политикой, началась интеграция страны в мировое сообщество. В статье широко исследуются приоритетные направления государственной политики Азербайджана в 2003-2019 годах и важные показатели динамичного развития во всех сферах. На фактах анализируются устойчивое развитие экономики Азербайджана, своевременное выполнение всех социальных программ на фоне происходившего в эти годы в мире глобального кризиса. Обосновывается успешное осуществление стратегии безопасности страны, в первую очередь, полное обеспечение ее энергетической безопасности, в частности, автор аргументированно показывает, что в экономике Южного Кавказа Азербайджан является лидирующей страной с точки зрения высокого экономического потенциала. При этом исследуются и реализация по инициативе Азербайджана проектов Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Эрзурум, Баку-Тбилиси-Карс, TANAP, TAP и других глобальных проектов, а также их геополитическое, геоэкономическое значение. Наряду с этим, на фактах широко анализируются успехи, достигнутые страной во внешнеполитической и культурно-гуманитарной сферах, исследуются культурное разнообразие, мультикультуральные и толерантные ценности во внутренней и внешней политике Азербайджана.

***Ключевые слова:*** *Азербайджанская Республика, государственная политика, энергетическая безопасность, внешняя политика, динамичное развитие*

V Ə T Ə N   T A R İ X İ
N A T I O N A L   H I S T O R Y

UOT 94 (479.24)

**NURU MƏMMƏDOV**
**Bakı Dövlət Universitetinin professoru,**
**tarix elmləri doktoru, Əməkdar müəllim**
*email: iradeehmedova33@gmail.com*

# BÖYÜK İCTİMAİ-SİYASİ VƏ DÖVLƏT XADİMİ NƏRİMAN NƏRİMANOV

N.Nərimanov bütün həyatı və varlığı ilə xalqa bağlı olmuş, şüurlu fəaliyyətini xalqının azadlığı və tərəqqisi uğrunda mübarizəyə həsr etmişdir. Qətiyyəti, prinsipiallığı, "dəmir iradəsi", milli-mənəvi dəyərlərə ürəkdən bağlılığı, türkçülüyü, islamçılığı, müasirliyi və Azərbaycanı göz bəbəyi kimi qoruması ilə xalqımızın tarixində ən parlaq simalardan biri olmuşdur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev görkəmli ictimai-siyasi və dövlət xadimi olan Nəriman Nərimanov haqqında demişdir: " N.Nərimanov... görkəmli simadır, böyük siyasi xadimdir, öz dövrünün ən hörmətli və dəyərli şəxsiyyəti idi...xalqını, dövlətini və vətənin sevən insan idi" (1, s.158-159). Nəriman Nərimanovun anadan olmasının 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 fevral 2020-ci il tarixdə imzaladığı Sərəncamda deyilir: "Son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov mili maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir" (3).

Nəriman Nərimanov Qori müəllimlər seminariyasını bitirdikdən sonra Borçalı qəzasının Qızıl Hacılı kəndində müəllim kimi çalışarkən kəndlilərin ağır və məşəqqətli həyatı ilə tanış olmuş, onların dözülməz həyatını əks etdirən "Nadanlıq" əsərini yazmışdır. 1891-ci ildə Bakıya gələn N.Nərimanov geniş ədəbi, ictimai və siyasi fəaliyyətə başlayır. N.Nərimanovun müsəlman əhali üçün 1894-cü ildə Bakıda açdığı ümumi kitabxana-qiraətxana (19, s.246) Şərqdə ilk ictimai oxu kitabxanası idi. Tezliklə bu kitabxanaya bütün Qafqazın qabaqcıl ziyalıları və maarifçiləri, habelə mədəniyyət xadimləri cəlb olunur. Kitabxana qısa müddətdə mədəniyyət mərkəzinə çevrilir.

N.Nərimanov bir çox mətbuat səhifələrində, o cümlədən "Kaspi", "İrşad", "Həyat", "Təkamül" və digər qəzet və jurnallarda ictimai-siyasi və inqilabi ruhlu məqalələrlə çıxışlar edirdi. Cənubi Azərbaycan inqilabçıları ilə sıx əlaqə saxlayan Nərimanov Səttərxanın və Bağırxanın dəstələrinə yardım etdiyi üçün həbs edilir, ziyalılar işə qarışdıqdan sonra azad olunaraq Həştərxana sürgün olunur (14, s.32). Həştərxanda olduğu müddətdə geniş ictimai, siyasi fəaliyyətə başlayır və bir çox əsərlər yazır. Həştərxanda xalq universitetinin işində fəal iştirak edir, Duma yığıncaqlarında çıxışlar edir, Həştərxan Şəhər Dumasına üzv seçilir, az sonra xalq universitetləri cəmiyyətinin sədr müavini, sonra sədri seçilir.

N.Nərimanov 1913-cü ildə sürgündən Bakıya qayıtdıqdan sonra həkim işləyə-işləyə tibb elminə dair çoxlu məqalələr, eyni zamanda ədəbi-bədii əsərlər yazır, müxtəlif idarə və müəssisələrdə mühazirələr oxuyur. 1917-ci ilin fevralında Rusiyada çar monarxiyasının devrilməsindən sonra N.Nərimanov siyasi mübarizəsini genişləndirir, həmin ilin martında "Hümmət" təşkilatının müvəqqəti komitəsinin sədri seçilir. Bakıda keçirilən Qafqaz müsəl-

manlarının qurultayında iştirak edir, rəyasət heyətinə seçilir. Nərimanov 1917-ci ilin oktyabrında Şəhər Dumasına, noyabrda isə Müəssisələr Məclisinə bolşeviklər tərəfindən namizəd göstərilmişdir (9, s.227). 1918-ci ilin martında Bakıda baş vermiş müsəlman qırğınların qarşısını almağa çalışmış və bolşeviklərin milli qırğına rəvac verən siyasətini kəskin tənqid etmişdir. Bakı XKS-nin tərkibində şəhər təsərrüfatı komissarı olmuşdur. N.Nərimanov 1918-ci ilin iyununda xəstələndiyi üçün Həştərxana müalicəyə göndərilir. 1918-1919-cu illərdə Həştərxanda geniş ictimai, siyasi fəaliyyət göstərmişdir (19, s.255). 1919-cu il iyulun axırlarında N.Nərimanov RK(b)P MK tərəfindən Moskvaya çağırılmış, RSFSR xalq xarici işlər komissarlığı Yaxın Şərq şöbəsinin müdiri vəzifəsinə təyin edilmiş, bir müddət sonra RSFSR xalq milli işlər komissarının müavini vəzifəsində işləmişdir (20, s.3-4).

1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyəti hakimiyyəti devrilib sovet hakimiyyəti elan ediləndə N.Nərimanov Azərbaycan İnqilab Komitəsinin sədri təyin edilir. Bakı əhalisi N.Nərimanovu təntənə ilə qarşılayır. Həmin dövrün el sənətkarı çoban Əfqan qoşmalarının birində belə yazırdı: "Qazilərin düz imanı gəlirmi, Qoca Şərqin Nərimanı gəlirmi?" - deyə ölkədə düzlüyün, ədalətin bərqərar olması, özbaşınalığa son qoyulması üçün doktor Nərimanın gəlişini arzulayırdı (17). N.Nərimanov Bakıya gələn kimi XI Ordunun özbaşınalığına son qoymaq haqqında qərarlar verir və günahı olmayan adamları həbsdən azad edir (5). N.Nərimanov sovet Azərbaycanının hökumət rəhbəri kimi, özünün bütün səy və bacarığını, biliyini və fəaliyyətini xalqın tərəqqisinə və inkişafına yönəldir. Azərbaycanda rəhbərliyə başladığı ilk gündən xalqın tərəqqisinə ciddi diqqət verir, sovet dövlət quruculuğunun inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına, azadlığın, bərabərliyin və ədalətin bərpasına çalışır, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına fədakarlıq göstərir. N.Nərimanovun dərin istedadını, qeyri-adi bacarığını, yüksək insani keyfiyyətlərini qiymətləndirən M.İ.Kalinin demişdi: "...O, xalqa, bəşəriyyətə xidmət edirdi. Bu cür vəzifələri, bəşəriyyətə kömək və xidmət vəzifələrini, həm də belə şəraitdə öz qarşısına qoyan hər bir adam isə müstəsna bir adamdır" (22, s.301).

N.Nərimanov 1920-ci il aprelin 28-dən 1922-ci il martın 12-nə kimi Azərbaycan XKS-in sədri, 1922-ci ilin martından dekabrına qədər Zaqafqaziya MİK-in 3 sədrindən biri, 1922-ci il dekabrın 30-da SSRİ-nın təşkili ilə əlaqədar SSRİ MİK-in 4 sədrindən biri olmuşdur. 1922-ci ilin aprelində Genuyada keçirilən beynəlxalq konfransda sovet nümayəndə heyətinin üzvü - Azərbaycan hökumətinin rəhbəri kimi iştirak etmişdir.

1922-ci il noyabrın 8-də Bakıda Sabir adına bağda M.Ə.Sabirin heykəli qoyulmuşdu. Onun açılışında N.Nərimanov nitq söyləmişdi (9, s.227). N.Nərimanov 1923-cü ildə RK(B)P MK üzvlüyünə namizəd seçilir.

Sovet şərqşünaslıq elminin inkişafında N.Nərimanovun böyük xidmətləri olmuşdur. Haqlı olaraq Moskva Şərqşünaslıq institutu uzun müddət N.Nərimanovun adını daşıyırdı.

Xalqa olan məhəbbəti, geniş xalq kütlələrini maarifləndirmək, onlarda ictimai, siyasi və milli şüuru oyatmaq N.Nərimanovun arzu və məqsədlərindən biri və başlıca ideya istiqaməti idi. N.Nərimanovun həyat bioqrafiyası, mənalı ömür yolu və geniş ictimai-siyasi fəaliyyəti zəngin bir məktəbdir, sonrakı nəsillərə parlaq bir nümunədir. Teymur Əhmədov yazır: "Xalq içərisindən çıxmış bütün həyatı boyu geniş və çoxcəhətli ictimai, ədəbi və siyasi fəaliyyəti ilə xalqın azadlığı və səadəti uğrunda mübarizə aparmış N.Nərimanov Azərbaycan maarifçi-realist və inqilabi-demokratik ədəbiyyatın inkişafında, onun mütərəqqi ideyalarla zənginləşməsində müstəsna rol oynamış, müəllimlikdən dövlət xadimi səviyyəsinədək qalxmış, Şərq xalqlarının" (21, s.5) azadlıq və müstəqillik uğrunda mübarizəsinin alovlu təbliğatçısı olmuşdur.

N.Nərimanov mürəkkəb ictimai-siyasi dövrün bütün “imtahanlarından” mərdanə çıxan, milli-mənəvi dəyərləri həmişə yüksək tutan tarixi şəxsiyyət, qüdrətli qələm sahibi, millətimizə başucalığı gətirən böyük dövlət xadimi idi. Səməd Vurğunun sözləri ilə desək, “belə nadir şəxsiyyətlərin ədəbi-elmi fəaliyyəti nəticəsində xalq kamalı, onun mənəvi dünyası, həyat və mübarizə qüdrəti düha süzgəcindən keçərək ümumiləşdirilir, xalq şüuruna aşılayır, xalq öz tarixi və istiqlalı ilə fəxr edir. O şəxsiyyət xalqın nəzərində yüksəlir, onların dərin hörmət və məhəbbətini qazanır” (15).

İnqilabi mübarizələr tarixində “bütün şəxsiyyətlər kimi bəzən illüziyalara qapılmış, yanılmış və səhvlərə yol vermiş, lakin öz inamına sədaqətindən irəli gələn, səhvlərində “səmimi olan” (11, s.57) belə bir böyük insan, mütəfəkkir və istedadlı yazıçı, qayğıkeş müəllim və həkim hələ gənc yaşlarından, ilk təhsil illərindən geniş mütaliə sayəsində zəmanəsinin mütərəqqi ideyalarına dərindən yiyələnmiş, maarifçilik dünyagörüşünün formalaşmasında qabaqcıl ziyalılardan dərs almışdı (13).

N.Nərimanovun maarifçilik fəaliyyəti, ədəbi-bədii fəaliyyəti və ictimai-siyasi fəaliyyəti üzvi surətdə bir-biri ilə bağlı idi. Üstəgəl dövlətçilik fəaliyyəti. Bu böyük mütəfəkkir həmişə xalqına bağlı insan olmuş, xalqın müstəqilliyi uğrunda gecə-gündüz çalışmışdır.

N.Nərimanov şəxsi keyfiyyətləri baxımından cəsarətli, iradəli, prinsipial, özünə qarşı məsuliyyətli və tələbkar idi. Mərkəzi və yerli partiya məmurlarının sıxışdırılmaları qarşısında nə ayrı-ayrı şəxslərin, nə də kütlənin müdafiəsinə sığınmırdı. Fikrini birbaşa, açıq ünvana çatdırırdı, yüksək vəzifəli şəxslərə qarşı kəskin ittihamla çıxışlar edirdi (12, s.13). İnadlı mübarizə meydanında tənha qalan N.Nərimanov son nəticədə ya istədiyinə nail olurdu, və yaxud da ki, mürəkkəb tarixi şərait öz sözünü deyirdi.

Ərazi və sərhəd məsələsi barəsində N.Nərimanovun qətiyyətli mövqeyi aydın idi. Ərazi məsələləri 1920-1922 və 1923-cü illərdə RK(b)P MK-nın, Qafqaz Bürosunun iclaslarında dəfələrlə müzakirə edilmişdi (7). Külli miqdarda arxiv sənədləri təsdiq edir ki, N.Nərimanov heç zaman susmayıb, həmişə prinsipial mövqeyini nümayiş etdirib (8). İstər Qarabağ məsələsində, istər Naxçıvan məsələsində, istər Zəngəzur məsələsində və digər taleyüklü məsələlərdə N.Nərimanov həmişə mili mənafeyi qoruyan hökumət başçısı kimi çıxışlar etmişdi. N.Nərimanov Mərkəzin sərt mövqeyinə, erməni daşnaklarının şovinist siyasətinə baxmayaraq sistemli şəkildə Azərbaycanın ərazi bütövlüyünün yorulmadan mübarizə aparan fədaisi olmuşdur.

Ərazi məsələləri ilə əlaqədar bəzi kitablarda və mətbuat səhifələrində N.Nərimanovun fəaliyyətinə kölgə salanlar da vardır. Tarixi faktları, arxiv sənədlərini, mövcud tarixi şəraiti bilmədən hər hansı bir problemə qiymət vermək olmaz. Həm də hər kəs bilməlidir ki, N.Nərimanov özünün şərəfli ömrünü doğma xalqına həsr etmiş, çoxcəhətli fəaliyyətini Azərbaycan dövlətinin və dövlətçiliyinin möhkəmləndirilməsinə, milli-dövlət quruculuğunun yeni və demokratik təsisatlarının yaranmasına, xalqımızın milli və mənəvi sərvətlərinin qorunmasına həsr etmişdir. Onun dövlət fəaliyyətində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin qorunması və möhkəmləndirilməsi, xüsusilə diqqəti cəlb edir. Ərazi məsələlərində hər hansı bir ərazinin Ermənistana və ya Gürcüstana verilməsinin qətiyyətlə əleyhinə çıxır, buraxılan kiçik səhvləri də “düzəldilməsi mümkün olmayan fəlakətli səhv” hesab edirdi. Bakıda düşmən əhatəsinə alınan N.Nərimanov Azərbaycanın ərazi bütövlüyü uğrunda Leninlə, Stalinlə, Çiçerinlə, Trotski ilə, Orconikidze ilə mübarizə aparmışdır. Bəzən Mərkəzin və Zaqafqaziya rəhbərliyinin birləşmiş qüvvələri və güclü təzyiqi qarşısında tək qalan N.Nərimanov yenə də öz sözünü deyirdi.

N.Nərimanovun xidmətini yüksək qiymətləndirən Heydər Əliyev demişdir: “…Tarixi bilənlər, tarixlə sənədlər əsasında tanış olanlar yaxşı bilirlər ki, Nərimanov və başqaları o vaxt nə qədər kəskin mübarizə aparmışlar. Ancaq,

sadəcə, ona nail ola bilmişlər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalsın. Tarixçilər yaxşı bilirlər ki, Moskvada, Tiflisdə, Zaqafqaziya Federasiyasında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qoyulanda N.Nərimanov ciddi bir bəyanat vermişdi və kəskin demişdi ki, onda biz Rusiyaya neft verilməsini dayandıracağıq… Məhz bu kəskin mübarizənin nəticəsində, nəhayət, belə bir qərar qəbul olunmuşdu". (2, s.153)

N.Nərimanovun xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev demişdir: "..Sovet hakimiyyəti qurulandan sonra Cənubi Qafqazda sərhədləri müəyyən etməyə başladılar – o vaxt Azərbaycanın milli mənafeyini qoruyanlar nə qədər gərgin iş görmüşlər…mərkəzin siyasətinə qarşı N.Nərimanov və başqaları nə qədər kəskin mübarizə aparmışlar… o insanlar çox milli qürurlu insanlar olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən xətt çəkirlər. Bu, ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm… Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar.." (2, s.153) .

Vətənə və torpağa bağlılıq, xalqın taleyinə qayğı N.Nərimanovun ömrünün mənasını təşkil edirdi. 1920-1921-ci illərdə Azərbaycan xalqının sosial-iqtisadi vəziyyəti ağır, kəndlilərin vəziyyəti dözülməz idi. Belə bir vaxtda məhz N.Nərimanovun tarixi xidmətləri sayəsində "çanaq" vergisi adı ilə bütün Azərbaycan kəndliləri vergilərdən azad edildi (4).

N.Nərimanov hələ sağlığında geniş xalq kütlələrinin hörmət və məhəbbətini qazanmış, sovet Rusiyasında və Yaxın Şərq ölkələrində məşhur olmuş, haqq-ədalət, xalqların sosial azadlığı uğrunda mübarizə aparan görkəmli ictimai-siyasi xadim, dövlət rəhbəri olmuşdur. "N.Nərimanov bütün həyatı və varlığı ilə xalqa bağlı olmuş, şüurlu fəaliyyətini onun azadlığı və tərəqqisi uğrunda mübarizəyə həsr etmişdir" (15). N.Nərimanov bütün varlığı ilə xalqını və millətini sevən, Azərbaycanın ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyan rəhbər idi. 1921-ci il 4 iyul qərarına kəskin etiraz edən N.Nərimanov ermənilərin tərəfini saxlayan Orconikidzeyə demişdi ki, mən bircə gün də qoymaram Qarabağ erməni tapdağı altında olsun. Mən Qarabağı bir gecədə qaytaracağam (16). Həqiqətən də elə olur. 5 iyul qərarı ilə N.Nərimanovun Leninlə telefon danışığından sonra Qarabağ Azərbaycanın tərkibində saxlanılır. Bu, tarixi qələbə idi.

N.Nərimanov həm türkçü idi, həm də islamçı idi və həm də müasir beynəlmiləlçi olmaqla xalqlar arasında dostluğu və qardaşlığı arzu edirdi. Milli-mənəvi dəyərləri sevən N.Nərimanov dilimizi, dinimizi və milli adət-ənənələrimizi müqəddəs bilir, dindarlara hörmət edər, müsəlman məscidlərində çıxışlar edir, Novruz bayramının ümumxalq bayramı kimi qeyd olunması haqqında hökumət qərarı qəbul etmişdi. N.Nərimanovun göstərişi ilə AK(b)P MK Siyasi Bürosu belə bir qərar qəbul etmişdi iki, Müqəddəs Kərbəla şəhərinə ziyarətə gedən hər bir dindara dövlətin hesabına 300 manat qızıl pul verilsin (23, s.467). Bu qərar hökumətin islam dininə olan böyük hörməti idi: "N.Nərimanov Azərbaycan xalqının mənəvi dayağı, gücü və qüvvətidir" (18, s.48, 64).

N.Nərimanovun dövlətçilik fəaliyyətinin özülündə müstəqillik ideyaları, milli-dövlət quruculuğu konsepsiyası başlıca istiqamət idi. Azərbaycan dövlətçiliyinə və milli maraqlara qarşı çıxan qüvvələrlə açıq-aydın mübarizə aparır, mərkəzi və yerli məmurlarla təkbətək qarşı-qarşıya duruş gətirirdi. M.Ə.Rəsulzadə ilə söhbətində Stalin demişdi: "Nəriman bizimlə yox, biz Nərimanla anlaşırıq". Hətta Leninlə danışıqlar apararkən hər hansı şərtləri Lenin deyil, N.Nərimanov qarşıya qoyurdu. Bu şərtlərin əsasını ilk əvvəl Azərbaycanın müstəqil bir dövlət kimi tanınması, bu dövlətin paytaxtının Bakı olması, milli adət-ənənələrin nəzərə alınması təşkil edirdi (14, s.52-53).

Rəsmi Moskva, RK(b)P MK-nın Siyasi Bürosu tezliklə başa düşdü ki, N.Nərimanova qarşı aparılan kompaniya düzgün siyasət

olmamış və onun fəaliyyətini yoxlamaq üçün bir-birinin ardınca Bakıya göndərilən komissiyalar qərəzlidir və ədalətli yoxlamalar aparmır. Siyasi Büro nəhayət, anladı ki, N.Nərimanov həqiqətən "Şərqin Leninidir", müsəlman dünyasının lideridir. Siyasi Büro onu da başa düşdü ki, Sovet dövlətinin Şərq siyasətində N.Nərimanov əvəzsiz nümayəndəsidir və SSRİ MİK onun şəxsində Şərq siyasətində böyük müvəffəqiyyətlər qazana bilər. Bütün bu göstəriciləri nəzərə alan MK və Siyasi Büro belə qərara gəldilər ki, "Şərqin rəhbəri"nin ictimai, siyasi və ədəbi-bədii fəaliyyəti və yaradıcılığı geniş, ittifaq miqyasında təntənəli formada qeyd edilsin (22, s.298). Hətta Stalin də Siyasi Büronun qərarına tabe oldu.

1925-ci ilin fevralında Siyasi Büro N.Nərimanovun anadan olmasının 55, bədii yaradıcılığının 30 illiyini geniş qeyd etmək haqqında qərar qəbul etdi. Moskvanın Böyük Teatr zalında onun əsərləri nümayiş etdirildi, "Nadir şah" əsəri tamaşaya qoyuldu. Təntənəli yubiley mərasimində məşhur şərqşünas alim Pavloviçin məzmunlu çıxışı geniş rezonans yaratdı. Nitqində N.Nərimanov "Şərqin Lenini" adlandırılırdı. Rus dilində "Bahadur və Sona", "Pir", "Nadir şah" əsərləri çap olundu, sərgi zalında nümayiş etdirildi. Sovet İttifaqında belə bir yubiley hələ keçirilməmişdi (22, s.299).

Böyük insan, görkəmli ictimai, siyasi və dövlət xadimi, Şərq xalqlarının əsl bilicisi, SSRİ MİK sədri N.Nərimanov 1925-ci il martın 19-da qəflətən və müəmmalı şəkildə vəfat etdi. N.Nərimanovun ölümü haqqında ciddi mülahizələr var. Onun ölüm xəbəri bütün sovet xalqının, Şərq xalqlarının dərin hüznünə, böyük kədərinə səbəb oldu və ağır bir üzüntü yaratdı. Onun şəxsində Qızıl Meydan Şərq xalqlarının ilk qurbanını öz ağuşuna aldı.

N.Nərimanovun qəfil ölümü SSRİ rəhbərlərinin hamısına ağır təsir bağışladı. SSRİ rəhbərləri anladılar ki, N.Nərimanov yalnız Azərbaycan və türk xalqlarına deyil, bütünlükdə Sovet İttifaqına xidmət etmiş pak və təmiz görkəmli inqilabçı və dövlət xadimi olmuşdur. Siyasi Büro qərara aldı ki, xidmətlərini nəzərə alaraq müsəlman dünyasının lideri və sevimli rəhbəri Qızıl Meydanda dəfn edilsin.

N.Nərimanovun dəfni yüksək dövlət səviyyəsində təşkil edildi, sanki 1924-cü ilin yanvarında Leninin dəfni kimi. Martın 20-də N.Nərimanovun cənazəsi əhalinin vidalaşması üçün İttifaqlar Evinin Sütunlu zalına qoyuldu. Matəm musiqisi üzüntü ilə ətrafa yayılırdı. Vidalaşma və fəxri karaulda Siyasi büronun üzvləri, sovet dövlətinin rəhbərliyi iştirak edirdi. Martın 22-də N.Nərimanovun cənazəsi İnqilab meydanı yolu ilə Qızıl Meydana gətirildi. SSRİ rəhbərliyi və mərhumun ailəsi cənazəni aparan lafetin arxasınca onu son mənzilə yola salırdı. Qızıl Meydanda xüsusi karaul dəstələri düzülmüş, Moskva hərbi dairəsinin komandanlığı matəm mitinqi ilə ağır-ağır addımlayırdı. Dəfn günü – martın 23-ü matəm günü elan edildi. Saat 13-00-da Sovet İttifaqının hər yerində mərhumun şərəfinə üç yaylım atəşi açıldı. Bakıda, Tiflisdə, İrəvanda isə altı yaylım atəşi açıldı. SSRİ ərazisində bayraqlar endirildi, iş 5 dəqiqə dayandırıldı. SSRİ-nin xaricdəki diplomatik və ticarət nümayəndəliklərinin binalarında, hərbi və ticarət donanmasının gəmilərində, İttifaq respublikalarının bütün hökumət binalarında bayraqlar endirildi, iş 5 dəqiqəyə dayandı. Hərbi hissələrin qarnizonlarında toplardan yaylım atəşləri açıldı. M.İ.Kalinin matəm nitqində demişdi: "N.Nərimanovun şəxsində biz öz doğma dostumuzu dəfn edirik. Onun şəxsində Qızıl Meydan Şərq xalqlarının birinci qurbanını öz ağuşuna alır" (9, s.227). Zaqafqaziya xalqlarının, müsəlman Şərqinin rəhbəri, dünyanın məzlum xalqlarının rəhbəri, Şərqin azadlıq mübarizi Qızıl Meydanda dəfn edildi. Həmin vaxt Bakıda on minlərlə insanın matəm nümayişi keçirilirdi (22, s.300).

Dəfn mərasimində M.İ.Kalinin, Siyasi büro üzvü L.B.Kamenski, Zaqafqaziya Federasiyası adından M.Q.Çxakaya, Sovet Millətləri adından N.A.Ckrıpnik, Orta Asiyadan A.İ.İsmayılov və b. çıxış etdilər, N.Nərimanovun şərəfli ömür yolundan və xidmətlərindən danışdılar.

Qızıl Meydan müsəlman Şərqinin böyük rəhbərini əbədi olaraq qoynuna aldı. N.Nərimanov son mənzilə belə yüksək hörmət və ehtiramla yola salındı.

N.Nərimanovun qəfil ölümü haqqında ilk məlumatı rəsmi Moskva Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə göndərdiyi başsağlığı teleqramında bildirdi (6). Az. MİK rəhbərliyi dərhal Rəyasət Heyətinin Azərb. XKS-in və Bakı Soveti Rəyasət Heyətinin Azərbaycan xalqına müraciətini elan etdi. Müraciətdə deyilirdi: martın 19-da, saat 830-da SSRİ MİK Sədri, Azərbaycan İnqilab Komitəsinin keçmiş sədri, ilk XKS-ini sədri, ZSFSR İttifaq Sovetinin sədri N.Nərimanov qəflətən vəfat etmişdir (6, v.13). N.Nərimanov Şərq xalqlarının azadlıq mübarizəsinin mübarizi, Zaqafqaziya xalqlarının sevimli rəhbəri, xalqların qardaşlıq ittifaqının başçısı idi. SSRİ xalqlarının və bütün zəhmətkeş əhalinin əməkdaşlığı, qardaşlığı və dostluğu N.Nərimanovun ideya arzusu idi. Nə həbslər və sürgünlər və nə də ona düşmən münasibət onun dəmir iradəsini sındıra bilmədi. O, böyük enerji ilə qələbə uğrunda və Azərbaycan xalqının firavanlığı uğrunda yorulmadan mübarizə aparırdı. N.Nərimanov bütün Şərq xalqlarının azadlıq yolunu göstərən rəhbər idi.

SSRİ MİK-in sədri Kalinin Sovet xalqı adından, SSRİ MİK sədri Petrovski Ukrayna xalqı adından, "Pravda" və "İzvestiya" qəzetləri kollektivləri adından, Moskva Quberniya Soveti adından, Moskva Mərkəzi Teleqraf işçiləri adından, Moskva, Leninqrad və digər şəhərlərdən Azərbaycana başsağlığı teleqramları göndərilirdi. Tatarıstan, Türkmənistan və digər yerlərdən göndərilən başsağlığı teleqramlarında deyilirdi ki, N.Nərimanovun ölümü SSRİ və Qafqaz xalqlarının ağır itkisi və xalqlara üz verən ağır zərbədir. N.Nərimanovun ölüm xəbəri bir çox xalqları, o cümlədən Azərbaycan xalqını dərin hüzn və kədərə salmışdı (6, v.20-31). Tehran, Daşkənd, Yerevan, Tiflis, Kazan, Simferepol, Yakutiya, Kaluqa və b. şəhərlərdən kədərli teleqramlar göndərilirdi (6, v.37).

Başsağlığı teleqramlarında qeyd edilirdi ki, N.Nərimanov dünyanın məzlum xalqlarının rəhbəri, Zaqafqaziya xalqlarının başçısı (rəhbəri), Şərq xalqlarının azadlıq mübarizəsinin yorulmaz rəhbəri, zəhmətkeş xalqın və ziyalıların əsl dostu, böyük insan və görkəmli dövlət xadimi idi.

N.Nərimanovun qəfil ölümü Azərbaycanda əsl milli faciə kimi qarşılanmış, xalq sözün həqiqi mənasında matəmə batmışdı. N.Nərimanovun vəfatı münasibətilə Almas Ildırım yazdığı təsirli şeirində qeyd edirdi ki, onun ölümü təkcə Azərbaycanı deyil, bütün Şərqi yetim qoydu.

*"Ah şimdi ayrıldın, qaldın uzaqda,*
*Kəsdi aramızı ölüm pərdəsi.*
*Söylə gəliyormu sana torpaqda*
*Viran Şərq elinin yanıqlı səsi"*

Və yenə heç vaxt sosialist platformasında dayanmayan başqa bir şair Əjdər Cəlili:

"Bu mövtun ey Nəriman cisimlərdə can ağlatdı, Fərağınla doğan möhnət Azərbaycanı ağlatdı" adlı şeirində (11) Nərimanovun şəxsində Azərbaycan xalqının böyük siyasi liderini və dövlət xadimini itirdiyini bəyan edirdi.

Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, xalqımızın sosial rifah halını yaxşılaşdırmaq, xalqlar dostluğunu bərqərar etmək N.Nərimanovun narahat ömrünün mənasına çevrilmişdi. Onun başlıca amalı Vətəninə, xalqına və bütün Şərq xalqlarına xidmət etmək, onlara mənəvi dayaq olmaq olub. Onun başlıca həyat konsepsiyası xalqların xoşbəxt gələcəyinə inanan bəşəri ideyalarla yaşamaq olubdur. Həyat yoldaşı Gülsüm xanım istər Bakıda və istərsə də Moskvada yaşayarkən geniş ictimai-siyasi fəaliyyət aparmış, N.Nərimanovun partiya və dövlət fəaliyyətində ona yaxından kömək göstərmiş, mənalı ömrünün yardımçısı olmuşdur.

Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyildiyi kimi, "onun ömrünün mühüm hissəsi qəlbən inandığı və müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizə

aparmaq olub" (3). Böyük maarifçi idi, insanpərvərlik ruhu qəlbinə hakim idi, əsl xalq adamı, xalqını sevən Vətən övladı idi.

N.Nərimanovun ölümündən sonra onun ideyaları sanki bir simvola çevrildi. Lakin 30-cu illərdə "Nərimanovşina" uyduruldu və ona "millətçi" damğası vuruldu, əsərləri qadağan edildi. Buna baxmayaraq qədirbilən xalqımızın yaddaşında yaşayırdı. 50-ci illərin ortalarından başlayaraq N.Nərimanov irsi bərpa edildi. Azərbaycan ziyalıları və alimləri tərəfindən onun haqqında dəyərli əsərlər yazılmağa başlandı. Ancaq N.Nərimanova ən yüksək qiymət Heydər Əliyev tərəfindən verildi. Məhz Heydər Əliyev böyük cəsarətlə və çox gərgin çətinliklərlə N.Nərimanova monumental heykəl ucaldılmasına nail oldu, onun haqqında sənədli film çəkilməsini həyata keçirdi. Qeyd edək ki, sovet inzibati-amirlik dövründə bu məsələləri həll etmək, N.Nərimanovun heykəlini qoymaq olduqca çətin idi. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyev əsl qəhrəmanlıq və cəsarət göstərərək və özünün də böyük və istedadlı nüfuzundan istifadə edərək belə bir mürəkkəb missiyanın həyata keçirilməsinə nail oldu. O dövr üçün bu, Heydər Əliyev siyasətinin parlaq qələbəsi idi.

N.Nərimanov sözün əsl mənasında xalqını sevən, mənalı və şərəfli ömrünü xalqına həsr edən görkəmli dövlət xadimi idi. S.Vurğunun sözləri ilə desək, "ölüm sevinməsin qoy,... qalacaqdır dünyada sevərək yaşayanlar, sevilərək ölənlər". N.Nərimanovun ömür dünyası, onun ədəbi-bədii sənət xəzinəsi təkcə Azərbaycan xalqı üçün deyil, həm də Şərq və Türk xalqlarının tarixində silinməz izlər qoymuşdur. O, payına düşmüş ömür möhlətini və ömür tarixini şərəflə yaşadı, namus və qeyrətlə başa vurdu, el sözü ilə desək, kişi kimi yaşadı və dünyadan köçdü. Sonralar aydın olacaq ki, əslində o, təkcə öz xalqı üçün deyil, bütün Şərq xalqları üçün yaşamış, onların övladı olmuşdur, insanlığın övladı olmuşdur, dostluğu və qardaşlığı sevən beynəlmiləl xalqların övladı olmuşdur, bəşəri ideyalarla yaşayan böyük insan olmuşdur. Bu nəcib hisslər və duyğular onu ölümsüz etdi, əbədiyyətə qovuşdurdu. Nəriman Nərimanovun mərd və nəcib obrazı, nəhəng düşüncəsi və odlu qəlbi Azərbaycan, türk və müsəlman xalqlarının yaddaşında əbədi yaşayacaqdır.

**Ədəbiyyat:**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab., B., 1997
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. XIX kitab, B., 2006
3. İlham Əliyev. Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Respublika" qəzeti, 15 fevral 2020-ci il
4. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.379, c.3, iş 3226, v.18-21
5. ARDA, f.27, s.1, iş 4, v.21
6. ARDA, f.379, c.3, i.319, v.1
7. ARDA, f.379, s.3, i.2990, v.20-23; i.2953, v.406; i.3099, v.33; i.2953 v.405-406; i.3215, v.19
8. ARPİİSSA, f1 s.1, i.22, v.5-37; c.74, i.123. v.54; i.132, v.145 və i.a.
9. ASE, VII c, s.227
10. Azərbaycan Sovet Ensiklopediyası. VII c., B., 1983,
11. Əhmədov Teymur. N.Nərimanov. B., Yazıçı, 1982.
12. Əhmədova F. Nəriman Nərimanov- ideal və gerçəklik. B., 1998
13. Əlimirzəyeva Rəfayət. N.Nərimanov dramaturgiyasında maarifçi ziyalı obrazları. "Elmi axtarışlar" XXVII. B., 2006
14. Həsənov H. Nəriman Nərimanov – milli təmayüllü kommunist. B, 2004
15. Köçərli F. "N.Nərimanov yeni təfəkkür ışığında" AEA-nın xəbərləri, 1991
16. Qılman İlkin. N. Nərimanovun məktubları və tarixi sənədlər. "Xalq qəzeti", 16 mart 2003

17. Quliyev V. // "Xalq qəzeti" 4 dekabr 1996.
18. Qurbanov Ş. Nəriman Nərimanov. Ömrünün son illəri. 2003
19. N.Nərimanov. Məqalələr və nitqlər. Tərtib edən C.B.Quliyev və b. B., 1971
20. N.Nərimanovun ictimai-siyasi fəaliyyəti. İnternet saytı.
21. Nəriman Nərimanov. Seçilmiş əsərləri, Tərtib edəni: Teymur Əhmədov, B., 1985
22. Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. Москва, Российская полит. энциклопедия, 2010
23. Мусаева Тамилла. Культура Азербайджана на рубеже эпох. В. 2015

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Nəriman Nərimanov, milli-mənəvi dəyərlər, xalqlar, dövlət, siyasət*

**Nuru Mamedov**
*Professor of Baku State University,*
*Doctor of Historical Sciences, Honored Teacher*

## NARIMAN NARIMANOV - GREAT SOCIAL, POLITICAL AND STATESMAN

## SUMMARY

Based on specific facts, the paper examines the glorious life and historical and socio-political activities of Nariman Narimanov; a prominent party and state figure, and pride of the Azerbaijani people. During the period of his social, political, and pedagogical activity, N. Narimanov advocated for the equality of peoples and was an ardent promoter of the friendship of peoples. The creation of a national culture in Soviet Azerbaijan, the development of national moral values of the Azerbaijani people, the formation of the Soviet national intelligentsia, and the expansion of public education were closely attributed to the name and activities of N. Narimanov. National leader of our people, Heydar Aliyev, highly appreciated the social, political, and state activities of Narimanov.

***Key words:*** *Azerbaijan, Heydar Aliyev, Nariman Narimanov, national and moral values, peoples, state, politics*

**Нуру Мамедов**
*Профессор Бакинского Государственного Университета,*
*доктор исторических наук, Заслуженный педагог*

## НАРИМАН НАРИМАНОВ - ВЫДАЮЩИЙСЯ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЙ И ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ

## РЕЗЮМЕ

В статье на основе конкретных фактов исследуется славная история жизни и общественно-политическая деятельность видного партийного и государственного деятеля, выдающегося сына азербайджанского народа Наримана Нариманова. В период своей общественно-политической и педагогической деятельности Н.Нариманов руководствовался равноправием народов, был ярым пропагандистом дружбы народов. Создание национальной культуры в Советском Азербайджане, развитие национальных нравственных ценностей азербайджанского народа, формирование советской национальной интеллигенции, расширение народного образования были тесно связаны с именем и деятельностью Н.Нариманова. Общенациональный лидер Азербайджанского народа Гейдар Алиев высоко оценил общественно-политическую и государственную деятельность Н.Нариманова.

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, Нариман Нариманов, национально-нравственные ценности, народы, государство, политика*

## VƏTƏN TARİXİ
## NATIONAL HISTORY

UOT 94 (479.24)

**EMİN ŞIXƏLİYEV**
**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: emin.amea@yahoo.com*

# ERMƏNİSTAN DÖVLƏTİNİN YARADILMASI VƏ AZƏRBAYCANA TƏSİRİ: TARİX, MÜASİR DÖVR, QLOBAL MARAQLAR VƏ YENİ GEOSİYASİ REALLIQ

Cənubi Qafqaz öz geosiyasi və geostrateji əhəmiyyətinə görə olduqca önəmli bir coğrafiyada yerləşir. Yaxın Şərq, Avropa və Asiya arasında yerləşən, tarix boyu geosiyasi maraqların toqquşduğu arena olan Cənubi Qafqazı öz coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə etmək mümkündür. Əsrlər boyu imperialist güclər bu bölgəyə sahib olmağı hədəfləmiş və öz nüfuz dairələrini digər ərazilərə yaymaq üçün məhz Cənubi Qafqazdan baza kimi yararlanmaq istəmişlər. Qeyd etmək lazımdır ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. Günümüzdə böyük güclərin geosiyasi maraqlarının rallaşdırılmasında Əl-Qaidə, İşid, Əl-Nüsra, Boko Haram və s. kimi terrorist təşkilatların oynadığı rolu XIX əsrin sonu – XX əsrin əvvəllərində Armenakan, Hnçaq, Daşnaksütyun kimi erməni terror təşkilatları oynayırdılar. Metodlar eynidir, sadəcə olaraq günümüzdə rollar dəyişib. Bu mənada tarixin müəyyən mərhələlərində Cənubi Qafqazda geosiyasi maraqların həyata keçirilməsində başlıca rol oynayan vasitələrdən biri məhz "erməni kartı" olmuşdur. Bu da bir həqiqətdir ki, ermənilər böyük güclərin geosiyasi maraqlarının icraçısına çevrilsə də, öz növbəsində bu güclərdən qarşılıqlı olaraq öhdəliklər də tələb etmişdilər ki, həmin öhdəliklər son nəticədə erməni dövlətinin qurulması istəyindən başqa bir şey deyildi. Bu baxımdan mövcud situasiyanı aydınlaşdırmaq üçün Ermənistan dövlətinin qurulmasını, pərdə arxası məqamları, eyni zamanda qlobal maraqları araşdırıb təhlil etmək lazım gəlir. Əvvəlcədən onu da qeyd etməyi vacib bilirik ki, bu məsələlərin aşkara çıxarılmasında tarixi sənədlərin olduqca böyük əhəmiyyəti vardır. Xüsusilə Böyük Britaniya arxivlərində yer alan sənədlər araşdırılan problemin və tarixi reallıqların daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Bu materiallar XX əsrin əvvəllərində geosiyasi maraqlar naminə ermənilərdən vasitə kimi istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə ermənilərin maliyyələşdirildiyini və hərbi baxımdan silahlandırıldığını sübut edir.

### Ermənistan dövlətinin qurulmasında qlobal maraqlar

Böyük güclərin Cənubi Qafqazla bağlı geosiyasi maraqları "tarixi Şərq məsələsi"nin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməlidir. Yuxarıda da qeyd olunduğu kimi, bu maraqlarda erməni məsələsi xüsusi rol oyna-

mışdır. Xüsusilə Rusiya və İngiltərə ermənilərə öz geosiyasi planlarında fərqli bir yer ayırmışdır. Çar Rusiyası erməniləri günümüzdə Dağlıq Qarabağ probleminə səbəbiyyət təşkil edən 1828-ci il tarixli Türkmənçay anlaşmasının XV maddəsinə əsasən köçürmüş, bu sayədə strateji üstünlük əldə etmiş, tarixi türk torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarını "Erməni vilayəti" adlanan yeni bir inzibati vahidə çevirmişdir. Beləliklə, ermənilər üçün gələcəkdə qurulması planlaşdırılan erməni dövlətinin təməli atılmış oldu. Radikal millətçi fikirləri ilə tanınan erməni müəllifi Zori Balayan "Oçaq" adlı kitabında yazır ki, "1828-ci ildə məşhur Türkmənçay anlaşması olmasaydı, rus əsgərləri olmasaydı, günümüzdə müasir kənd şəhərlərə çevrilən yüzlərlə yeni təşkil edilən erməni yaşayış yerləri olmayacaqdı". (7, s. 120, 273).

Sonradan erməni məsələsi 1878-ci il tarixli Berlin Konqresində İngiltərənin nəzarəti altına keçdi. Bu tarixdən etibarən ermənilər müəyyən vədlərlə silahlandırıldı, təşkilatlandırıldı və təlimatlandırıldılar. Bir məsələyə xüsusilə diqqət çəkmək lazım gəlir ki, XIX əsrin sonları və XX əsrin əvvəllərində İngiltərənin geosiyasi maraqlarının icraçısına çevrilən ermənilər dünyanın bu böyük gücündən gələcəkdə qurulması planlaşdırılan "Ermənistan dövləti" üçün öhdəliklər də tələb etmişdilər. Yəni ingilis-erməni əlaqələrini bir növ "qarşılıqlı istifadə və faydalanma" münasibətləri çərçivəsində xarakterizə etmək olar.

Məlum olduğu kimi, geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi (3, s. 208). Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmış, Turancı arzuların reallaşması üçün də bir yol açılmışdı. Bu ehtimal İngiltərəni müəyyən tədbirlər almaq məcburiyyəti qarşısında qoydu. Çünki Turanizm İngiltərənin maraqlarına həm Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi (6, s. 320). Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi (5, s. 18). Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq, İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər alınmalıydı.

İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı yeganə baryerin ermənilər olduğunu anlamışdı. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Toynbi İngiltərənin Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona yazırdı ki, "bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır" (14).

London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirir, hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də son dərəcə gərəkli hesab edirdi (12). Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni

ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı (12).

Nəticədə, İngiltərənin Hərbi Kabineti özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqda qərar qəbul etdi (16, p. 103). Bununla yanaşı, İngiltərənin Xarici İşlər Nazirliyi də erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərmiş (11), eyni zamanda Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı (16, p. 101).

Arxiv sənədlərinə görə, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə Turanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilmişdi (13). Turanizm təhdidinə qarşı ermənilərdən istifadə siyasəti Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: "Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar" (17).

Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Turanizm təhlükəsinə qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın müharibə məqsədlərindən biridir (15). Bu yazı açıq bir etirafdır. Ümumiyyətlə, məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də "1915-ci il erməni tragediyası" adlı əsərində göstərir: "İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi" (10, s. 15).

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq, müstəqil Ermənistan dövləti Osmanlı imperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər "Böyük Ermənistan" dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə "Erməni vilayəti"nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Beləliklə, İngiltərə Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətini yaratmaqla Türk Dünyasının bağrına bir xəncər saplamış, beləliklə, öz vəzifəsini tamamlamışdır. İngilislərin sonradan bölgəni tərk etmələri ilə Daşnak Ermənistanı sovetləşdirilmiş və beləliklə, Rusiyanın nəzarəti altına keçmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır.

Geosiyasi maraqların nəticəsi olaraq tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin qurulması ilə kifayətlənməyən ermənilər Sovetlər dövründə də Azərbaycana qarşı növbəti iddialarla çıxış etmiş, müxtəlif üsullarla öz istəklərini reallaşdırmağa çalışmışlar. Heç təsadüfi deyildir ki, Zəngəzurun Azərbaycandan qoparılmasından sonra Qarabağ da müzakirə obyektinə çevrilmiş, region süni şəkildə aran və dağlıq hissəslərinə bölünmüş, Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verilmişdir. Qeyd etmək lazımdır ki, bu muxtariyyət statusu Dağlıq Qarabağda tarixən yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan və onların hüquqları kobudcasına pozularaq həyata keçirilmişdi. Nəticədə, Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə, bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir vasitə olmuşdur. Halbuki keçmiş SSRİ məkanındakı digər respublikalarda Qarabağda yaşayan ermənilərdən daha çox erməni yaşayırdı. Bundan başqa, Ermənistanda tarixən yaşayan azərbaycanlıların sayının Qarabağ ermənilərindən dəfələrlə çox olmasına baxmayaraq, Azərbaycan onlar üçün Ermənistandan hər hansı milli-dövlət qurumu yaradılmasını heç vaxt tələb etməmişdi. Halbuki, indiki Ermənistan ərazisində XX əsrin 20-ci illərinədək 500 mindən çox azərbaycanlı yaşayırdı (2).

XX əsrin sonlarında isə Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini pozaraq Azərbaycan ərazilərini işğal etmiş, etnik təmizləmə siyasəti gerçəkləşdirmiş, soyqırımlar törətmiş, nəticədə ərazilərin işğal olunması ilə azərbaycanlılar öz doğma yurdlarından məcburən köçkün vəziyyətə düşmüşlər. Birinci Qarabağ müharibəsi nəticəsində qalibiyyət havasına qapılan Ermənistan böyük güclərin də dəstəyini arxasına alaraq Azərbaycan torpaqlarının 20%-ni son dövrlərə qədər işğal altında saxlayırdı.

## İkinci Qarabağ müharibəsinin başlanması və mövcud geosiyasi vəziyyət

Təxminən 30 ilə yaxındır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunur. Atəşkəs haqqında razılıq əldə edildiyi tarixdən etibarən tərəflər arasında qeyri-müəyyən vəziyyət yarandığına görə, problemin beynəlxalq hüquq normaları çərçivəsində həlli tələb olunurdu. Dünyanın aparıcı dövlətləri bu münaqişəyə münasibətdə müxtəlif mövqelərdə dayandıqlarından bu variant da real nəticə verməmişdir. Ermənistan tərəfinin izahına görə, münaqişə Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını (self-determination) təyin etmək istəyi və bu istəyin Azərbaycan tərəfinin güc tətbiq etməklə qarşısının alınmasına göstərilən cəhdlər nəticəsində baş vermişdir. Ermənistan Dağlıq Qarabağ ermənilərini dəstəkləmək məqsədilə münaqişəyə qoşulmuş və nəticədə, “status-quo” formalaşmışdır (8, s. 271; 9, s. 31-32; 29). Azərbaycan tərəfi isə münaqişəni Ermənistanın aqressiv və işğalçı siyasətinin bir nəticəsi olaraq izah etmişdir (1, s. 149; 4, s. 322). Şübhəsiz ki, Ermənistanın bu torpaqlardan xoşluqla çıxacağı məntiqə uyğun deyildi. Azərbaycan tərəfi də torpaqlarının heç bir şəkildə güzəştə getməyəcəyini bütün rəsmi və qeyri-rəsmi səviyyədə keçirilən görüşlərdə bəyan etmişdir. Belə bir vəziyyətdə Ermənistan ilə Azərbaycan arasında “sülh” variantının yeri görünmədiyindən, Azərbaycan tərəfinin prizmasından baxıldığında müharibə vəziyyəti daha real və məqbul variant kimi qəbul edilirdi. Heç təsadüfi deyildir ki, Azərbaycan hərbi güc tətbiq etməkdən belə çəkinməyəcəyini hər dəfə vurğulamışdır. Düzdür, Azərbaycanın hərbi büdcəsini artırması Ermənistan tərəfindən siyasi manevr olaraq qəbul edilsə də, 8 iyun 2010-cu ildə Hərbi Doktrinanın qəbulu Azərbaycanın bu məsələdə son dərəcə ciddi olduğunu ortaya qoydu (19). Doktrinada beynəlxalq hüququn Azərbaycana tanıdığı haqlar çərçivəsində hərbi güc tətbiq

edərək işğal altında olan torpaqların qaytarılması təsbit edilmiş və bu məsələ dəfələrlə təkrarlanmışdır. Lakin Ermənistan hər dəfə öz havadarlarından mənəvi, siyasi, hərbi dəstək alaraq ənənəvi siyasətini davam etdirmişdir. Məhz ikili standartlar siyasətinin nəticəsi idi ki, ardıcıl olaraq hər il tərəflər arasında görüşlər keçirilmiş, münaqişəsinin həlli ilə bağlı prinsiplər önə sürülmüş və bəyannamələr imzalanmış, heç bir nəticəsi olmamışdır. Bu da hər şeydən əvvəl onunla əlaqədar idi ki, qoyulan müddəalar ya hər iki tərəfi qane etməmiş, ya da bəzi tövsiyələr müsbət qarşılansa da, bəziləri qəbulolunmaz hal almışdır.

Burada bəzi məsələlərə xüsusilə diqqət çəkmək istərdik. Məlumdur ki, ATƏT-in Minsk Qrupu 1994-cü ildə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Azərbaycan ilə Ermənistan arasında vasitəçilik etməyi öz üzərinə götürmüşdür. Lakin 30 ilə yaxın davam edən danışıqlara baxmayaraq, Minsk Qrupunun regionda sülh yaratmaq cəhdləri iflasa uğrayıb. Qeyd edək ki, 822, 853, 874 və 884 saylı qətnamələrə əsasən Dağlıq Qarabağda yerləşən hərbi birləşmələr qeyd-şərtsiz çıxarılmalıdır. Lakin ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri Dağlıq Qarabağ münaqişəsi haqda dəqiq mövqelərini bəyan etməkdən çəkiniblər. Minsk Qrupu həmişə Azərbaycan ilə Ermənistanın bu problemi öz aralarında həll etməli olduğunu və qəbul ediləcək bütün qərarların qurum tərəfindən dəstəklənəcəyini bildirirdi. Məsələyə belə münasibət və qurumun məkik diplomatiyasının iflasa uğraması Azərbaycanda haqlı olaraq ATƏT-in Minsk Qrupunun fəaliyyətinə inamsızlıq yaratdı.

Bu bir həqiqətdir ki, Minsk Qrupunun həmsədr ölkələri qlobal güc mərkəzlərini təmsil edirlər. Həmin ölkələr təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malikdirlər. Lakin onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq "turistik ekskursiya" kimi qiymətləndirilib. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrubu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həl¬linə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə 2-5 aprel 2016-cı il tarixində baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Düzdür, müəyyən səbəblərdən Rusiyanın müdaxilə etməsiylə vəziyyət əvvəlki məcrasına qayıtdı. Lakin Ermənistan vəziyyətin həmişə bu cür davam edəcəyini hesablayaraq, növbəti dəfə təxribatlara əl atmaqda davam etdi. Heç təsadüfi deyildir ki, Ermənistan yenə də havadarlarından ilham alaraq 2020-ci ilin iyul ayında da növbəti təxribata əl atdı. Əlbəttə, bunun müəyyən səbəbləri var idi: Əvvəla, Ermənistanın Tovuz istiqamətində sərhəddə təxribat törətməkdə əsas məqsədi ilk olaraq Baş nazir N.Paşinyanın təmas xəttindən diqqəti yayındırmağa çalışması olmuşdur; ikincisi, həmin ərazilərdən Azərbaycanın beynəlxalq layihələri olan Bakı-Tiflis-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tiflis-Ərzurum-Qars, Bakı-Tiflis-Qars və Böyük İpək yolu keçir. Ermənistan yüksəklikləri ələ keçirib öz istəyinə nail olmaq məqsədində idi; üçüncüsü, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin diqqətini tamamilə fərqli istiqamətə yönəltmək istəyirdi, amma bunların heç biri alınmadı.

Bu hücumların Rusiya və Fransa tərəfindən təhrik edildiyinə dair iddialar mövcuddur (25; 27). Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Paşinya hökuməti mütləq şəkildə böyük dövlətlərin dəstəyini hesaba qataraq və buna inanaraq "yeni müharibə və yeni torpaqlar" şüarından yola çıxmış və belə bir hücum reallaşdırmışdır. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi.

Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır. Nöqtə" bəyanatı belə demək mümkündürsə, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirilən hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı mühüm yerləri, tarixi torpaqları, strateji əraziləri və yüksəklikləri ələ keçirdi. Müharibədə Rusiya və Qərb dövlətlərinin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunun bildirilməsinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Ermənistan düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yaydılar. Əsas məqsəd dünyanın xristian ölkələrinin, xüsusilə də böyük güclərin diqqətini özünə çəkmək və xristian dövlətlərin Azərbaycana qarşı səlib yürüşlərinin formalaşdırmaq idi. Heç təsadüi deyildir ki, Fransa Prezidenti Emmanuel Makron "Dağlıq Qarabağda suriyalı cihadçılar məsələsi 'oyunu dəyişdirən' çox ciddi reallıqdır", – deyərək, şantaj mahiyyətli bu məsələnin Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyi ilə bağlı ənənəvi ermənipərəst mövqeyini ortaya qoydu (23). Halbuki hal-hazırda İraq, Suriya və Livandan PKK və digər terrorçularının Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi, eyni zamanda muzdlu döyüşçülərin bölgədəki fəaliyyəti barədə kifayət qədər məlumatlar vardır (22; 28). Ancaq Fransa və onun kimi düşünən dövlətlər və dövlət rəsmiləri nədənsə Ermənistanın özünün terrorist təşkilatlarla sıx əlaqə içərisində olduğunu görməzdən gəldilər. Bu məsələdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın tərəfsiz mövqe nümayiş etdirməli olduğu xüsusilə qeyd edilməlidir.

Bundan başqa, Ermənistan Türkiyənin və Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakını yalandan qabardaraq saxta xəbərləri dünyanın ayrı-ayrı ölkələrinin media resurslarında tirajladılar. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çox tutarlı, sərrast cavablar və arqumentlərlə həm cihadçılar məsələsi ilə bağlı, həm də Türkiyənin və Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakı ilə bağlı çox sayda ölkələrin dövlət telekanallarına da Ermənistan tərəfinin bütün yalanlarını ifşa etdi və bu kimi iddiaları ortaya atanları da ciddi şəkildə tənqid etdi. Bütün bunlarla yanaşı, olduqca vacib bir məqama da diqqət çəkməyi məqsədəuyğun hesab edirik ki, bu da atəşkəslə bağlı məsələdir. 26 illik atəşkəs anlaşmasından sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqları-

mızda irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid önəmə sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi. 2016-cı ilin aprel ayında gerçəkləşən “Dördgünlük müharibə“də də bunu göstərdi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiya təkrar müdaxilə etməyə çalışaraq Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu (18). Cənubi Qafqazı öz “arxa baxça“sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə kilid önəmə sahib olduğunu bir daha dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması erməni terrorunun yeni bir təzahürü oldu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər. Rəsmi Yerevanın yeganə ümidi rəsmi Bakının bu hücuma Ermənistan ərazisinə əks-hücumla cavab verməsilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dərhal müdaxilə etməsinə fürsət yaratmaq olsa da, əslində rəsmi Moskvanın nüfuz və xarizmasına ciddi bir zərbə oldu.

Atəşkəsi elan edən Rusiyanın xarizmasını cızan atəşkəsin pozulması məsələsi Ermənistanın amerikanpərəst mövqeyini ortaya qoydu. Heç təsadüfi deyildir ki, Rusiyanın müttəfiqi olan Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan Qərb və Soros tərəfindən dəstəklənən Nikol Paşinyan tərəfindən idarə olunur. Lakin Rusiyanın Qafqazdakı ən önəmli müttəfiqi olan Ermənistandan əl çəkməsi də mümkün görünmürdü. Sadəcə olaraq Paşinyanın iqtidardan uzaqlaşdırılması planlaşdırılırdı. Azərbaycan da 1990-cı illərdəki vəziyyətdə deyil, olduqca güclü bir orduya və silahlara sahibdir. Eyni zamanda Qarabağ müharibəsi Xarici İşlər nazirləri çərçivəsində həll oluna biləcək bir problem olmayıb, daha geniş mahiyyətli bir məsələdir. Zatən Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və danışıqlar yolu ilə işğal etdiyi torpaqları geri qaytarmayacağını göstərmiş oldu. ATƏT-in Minsk Qrupunun müdaxilə etməsi, xüsusilə də Fransanın vasitəçiliyi ilə tərəflər arasında 18 oktyabrda bir daha müvəqqəti atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən pozuldu (20).

Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin Xarici İşlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi (26). Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşmədən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu (21). Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə

dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı (30). Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Lakin Azərbaycan öz qətiyyətini və gücünü ər meydanında göstərərək, torpaqlarını işğaldan qurtarmağa davam etdi. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra – noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü. Bəyanatda Rusiya və Türkiyə silahları qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Anlaşmadan sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda Qarabağa yerləşdirildi. Bununla birlikdə, ən mühüm amillərdən biri isə budur ki, proses çərçivəsində Naxçıvan da blokadadan azad olur və Ermənistan ərazisində dəhliz yaradılır. 9-cu maddəyə əsasən, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. (24). Əlbəttə ki, hadisələrin bundan sonra necə inkişaf edəcəyini zaman özü göstərəcək.

Ümumiyyətlə, həm dünya siyasətindəki, həm də Cənubi Qafqazdakı real vəziyyəti təhlil edərkən belə bir məqam ortaya çıxır: hansısa davranış və ya hərəkət supergüclərin xeyrinə deyilsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər. Bu, Böyük Güclərin "Dünya Nizamı"dır və dünya nizamını beynəlxalq hüquq və institutlar deyil, əsas geosiyasi oyunçuların güc potensiallarının nisbəti müəyyənləşdirir. Cənubi Qafqazdakı problemlərə, xüsusilə Qarabağ məsələsinə də eyni kontekstdə yanaşmaq lazım gəlir. Azərbaycan bu məsələdə əlindən gələn bütün təsir imkanlarından istifadə etdi və edəcək. Əlbəttə ki, əldə etdiyi qazanc və uğurlar da kifayət qədərdir. Sadəcə olaraq, Azərbaycan gedişata uyğun olaraq şahmat taxtasında öz oyununu oynamalıdır. Hər həmləyə qarşı yeni bir strategiya müəyyənləşdirməlidir. Bu bir geosiyasi reallıqdır və Azərbaycan əlbəttə ki, öz strategiyasını müəyyənləşdirir.

**Ədəbiyyat:**


1. Həmidov Samir. Dağlıq Qarabağ münaqişəsi 2020-ci ildə: sülh, yoxsa müharibə? // Dirçəliş-XXI əsr, 2011, №153-154, s. 146-159.
2. Əhmədov Elçin, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, "İki sahil" qəzeti, 27 sentyabr, 2019
3. Qasımlı Musa. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224.
4. Şıxəliyev Emin Arif. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: Əcəmi, 2018, 384 s.
5. Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul: Tarih Vakfı Yurt yayınları, 1998, 264 s.
6. Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, 507 s.
7. Балаян, З.Г. Очаг, Ереван: Советакан грох, 1984, 424 с.
8. Казимиров Владимир. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва: изд-во "Международные Отношения", 2009, 456 с.
9. Кочарян Роберт. Искать выгоду в сглаживании противоречий // журнал "Международная жизнь", Москва, 2003, №2, с. 31-32.
10. Малевил Жорж де. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.
11. PRO. FO. 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917.
12. PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917.
13. PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917.
14. PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918.
15. PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918.
16. PRO CAB. 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM.
17. PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3th, 1917.
18. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-ucterefli-gorusu-basa-catdi/
19. Azərbaycan Respublikasının Hərbi Doktrinası, Azərbaycan Respublikasının Milli Məclisi, 08 iyun 2010-cu il. http://meclis.gov.az/?/az/law/183#comment
20. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
21. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür. https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
22. Ermenistan PKK'lı teröristleri Azerbaycan cephe hattında kullanıyor. https://www.trthaber.com/haber/dunya/ermenistan-pkkli-teroristleri-azerbaycan-cephe-hattinda-kullaniyor-518306.html
23. Fransa Cumhurbaşkanı Macron: cihatçılar Gaziantep üzerinden Karabağ'a gitti, elimizde kanıtlar var. https://tr.euronews.com/2020/10/01/fransa-cumhurbaskan-macron-cihatc-lar-

gaziantep-uzerinden-karabag-a-gitti-elimizde-kan-tla
24. İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/45924
25. Mehmet Koçak. Ermeni saldırılarının arkasında kimler var? https:/hyetert.org/2020/07/29/ermeni-saldirilarinin-arkasinda-kimler-var/, erişim tarihi: 20.07.2020
26. Pompeo Azərbaycan ve Ermənistan Xarici İşlər Nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
27. Suinbay Suyundikov. "Ermeni Saldırılarının Arka Planı ve Türk Dünyası". https://www.21yyte.org/tr/fikir-tanki/ermeni-saldirisinin-arka-plani-ve-turk-dunyasi
28. Gazeta.ru: Зачем Ереван затеял интриги на Ближнем Востоке, начав игру «не своей лиге»? https://1news.az/news/gazeta-ru-zachem-erevan-zateyal-intrigi-na-blizhnem-vostoke-nachav-igru-ne-v-svoey-lige
29. Рафаел Аветисян, «Армения в структуре современных международных отношений Кавказского региона», Санкт-Петербург, 2011, тема диссертации и автореферата по ВАК 23.00.04. http://www.dissercat.com/content/armeniya-v-strukture-sovremennykh-mezhdunarodnykh-otnoshenii-kavkazskogo-regiona
30. Vüqar Rəhimzadə. Bərdə qətliamı kar-kor dünyanın gözünü və qulağını açması üçün növbəti çağırışdır. https://news.milli.az/politics/893298.html

***Açar sözlər:*** *Ermənistan, Azərbaycan, İngiltərə, Osmanlı, Vətən müharibəsi, işğalçılıq siyasəti, dövlətlərin mövqeyi*

**Emin Shikhaliyev**
*Nakhchivan Branch of Azerbaijan National Academy of Sciences,*
*Associate Professor, PhD in History*

# THE CREATION OF THE ARMENIAN STATE AND ITS IMPACT ON AZERBAIJAN: HISTORY, MODERN AGE, GLOBAL INTERESTS AND THE NEW GEOPOLITICAL REALITY

## SUMMARY

The British archives contain valuable materials that play a key role in revealing the realities about the Armenian question. These documents contain correspondence between British officials and top-secret reports signed by senior officials, which show the importance of the Armenian factor and the importance of the creation of the Armenian state for major powers, particularly for the United Kingdom. These materials prove that the Armenians were used as a means for the eradication of the ideology of Pan Turanism and that the creation of an Armenian state was intended for the purposes of cutting ties between Turkey and Azerbaijan, and indirectly with the Turkic world, which would serve the interests of the Entente countries. This factor severely affected Azerbaijan and the country faced serious threats. Namely as a result this, Armenian’s territorial claims and policy of occupation became one of the greatest obstacles to security and stability in the South Caucasus. The continued occupation of 20% of Azerbaijan's lands by Armenia increased the chances of a new war breaking out. And the continued provocative actions of Armenia suddenly resulted in a war. The article provides an in depth analysis of such issues.

***Keywords:*** *Armenia, Azerbaijan, England, Ottoman empire, Great Patriotic War, occupation policy, the position of the states, Russia*

**Эмин Шихалиев**
*Нахчыванское Отделение Национальной Академии Наук Азербайджана*
*доктор философии по истории, доцент*

# СОЗДАНИЕ АРМЯНСКОГО ГОСУДАРСТВА И ЕГО ВЛИЯНИЕ НА АЗЕРБАЙДЖАН: ИСТОРИЯ, СОВРЕМЕННОСТЬ, ГЛОБАЛЬНЫЕ ИНТЕРЕСЫ И НОВАЯ ГЕОПОЛИТИЧЕСКАЯ РЕАЛЬНОСТЬ

## РЕЗЮМЕ

Британские архивы содержат ценные материалы, которые играют ключевую роль в выявлении реалий армянского вопроса. В этих документах существуют переписки между английскими официальными лицами, их подписи и множество секретных рапортов, выражающих особое значение армянского фактора, создания Армении для великих держав, особенно для Англии. Эти материалы свидетельствуют о том, что армяне использовались в качестве барьера в искоренении идеологии пантуркизма, принимая во внимание разрыв связей между Турцией и Азербайджаном, также косвенно Тюркским миром, создание Армянского государства было в непосредственных интересах союзников Антанты. Этот фактор повлиял на Азербайджан, который столкнулся с серьезными угрозами. В результате, территориальные претензии армян и их политика агрессии был и одним из самых больших препятствий в вопросе обеспечения безопасности и стабильности на Южном Кавказе. Продолжающаяся оккупация 20% земель Азербайджана со стороны Армении увеличивала шансы возгорания новой войны. Однако последующие провокационные действия Армении вызвали внезапную войну. Эти вопросы подробно анализируются в представленной статье.

***Ключевые слова:*** *Армения, Азербайджан, Англия, Османская империя, Отечественная война, оккупационная политика, позиция государств, Россия*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**RƏNA BAYRAMOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının dosenti,**
**tarix üzrə fəlsəfə doktoru**
*e-mail: r_bayramova@mail.ru*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ SƏVİYYƏDƏ TANINMASI - 100

100 il bundan əvvəl müsəlman Şərqində ilk demokratik Cümhuriyyəti quranlar, onun xarici siyasətini həyata keçirənlər dünya xalqları içərisində azərbaycanlıların yerini müəyyən etməklə, tək azərbaycanlıların dünyaya baxışını deyil, dünyanın da Azərbaycana baxışlarını dəyişə biliblər. Azərbaycan Xalq Cümhuriyyətinin dünyaya tanıtdırılması, o dövrdə qarşıya qoyulan ən vacib məsələlərdən biri idi. Çox mürəkkəb beynəlxalq şəraitdə müstəqilliyin qorunub saxlanılması daxildən daha çox, xarici amillərlə də bağlı idilər ki, bu da Azərbaycan nümayəndə heyətindən böyük çeviklik tələb edirdi. Əvvəllər dünyanın kiçik dövlətlərə bölünməsini istəməyən, vahid Rusiya tərəfdarı olan V.Vilson digər Qərb liderləri Denikinin qələbəsinə ümid bəsləyirdilərsə, Paris Sülh Konfransının gedişində hadisələrin məcrası dəyişdi. Denikinin məğlubiyyətilə rus bolşeviklərinin yaxınlaşan təhlükəsi, eləcə də onların kamalçı Türkiyə ilə yaxınlaşması narahatlıq yaradırdı. Bu səbəbdən böyük dövlətlər Cənubi Qafqaz xalqlarının taleyinə də biganə deyildilər.

Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - (1920-ci il yanvar-aprel).(3, s.349)

Məsələnin problemli tərəfi Azərbaycan haqqında xarici ölkələrdə düzgün fikrin az olması, erməni lobbisi və havadarları tərəfindən əleyhimizə aparılan kampaniya idi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti sənədlər məcmuəsində bir çox vacib cəhətlərlə yanaşı azərbaycanlıların xarakteri ilə bağlı vəziyyət haqqında qısa məlumatda göstərilirdi: "Sayı milyonlarla olan azərbaycanlıların hələ az tanındığı doğru bir faktdır və onların etnoqrafiyası, tarixi, ədəbiyyatı, adət-ənənələri dərindən öyrənilməmişdir. Bunun böyük günahı rus rejiminin üzərinə düşür, çünki o, bir əsr müddətində yuxarıda göstərdiyimiz təqib və digər çatışmazlıqlar nəticəsində azərbaycanlıları nəyin bahasına olursa-olsun ruslaşdırmağa və onları milli dəyərlərdən uzaq salmağa çalışmışdır.

Bundan əlavə, azərbaycanlılara xas olan təvazökarlıq xüsusiyyəti, onları özlərini reklam tipli hərəkətlərdən uzaq durmağa vadar edir. Azərbaycanlılar özlərini reklam etməyi sevmirlər, buna öyrəşməyiblər və bu səbəbdən sakit və şikayətsiz çəkdikləri əzab-əziyyətləri barədə mətbuatda, o cümlədən cəmiyyətdə bar-bar bağırmayıblar, bəşəriyyətin diqqətini özlərinə

cəlb etməyiblər, millətlərin və dövlətlərin cəmiyyətlərinin diqqətini cəlb edəcək şikayətlər etməyiblər.

Bu bir çatışmazlıq kimi qəbul edilə bilər; hər halda bu hal bizim xalqa çoxlu ziyan gətirib və onu öz milli mövqeyini nümayiş etdirməkdən çəkindirib. Belə vəziyyət Avropa və Amerika mətbuatında azərbaycanlılarla bağlı yanlış məlumatların yayılmasına səbəb olub. Bu məlumatların müəllifləri bəzən təsadüf nəticəsində, bəzən isə cəmiyyətdə işıqlandırmaq istədikləri mövzuya bələd olmadıqları səbəbindən yanlış məlumatları yayırdılar. Lakin əksər hallarda bu azərbaycanlılara zərbə endirmək məqsədilə bizim millətə qarşı çıxış edərək öz xalqlarına xeyir gətirəcəklərini düşünən düşmən qüvvələr tərəfindən həyata keçirilirdi." (1, s.100). Qərb dövlətləri lap əvvəllər bizi türk – müsəlman dövləti kimi görür, düşmən bildikləri Türkiyənin timsalında bizə də laqeyd münasibət göstərir, Paris Sülh Konfransına gedən, Türkiyədə viza almaq üçün gözləyən nümayəndə heyətimizə - (Ə.M.Topçubaşov nümayəndə heyətinin sədri, M.Hacınski, Ə.Ağayev, Ə.Şeyxülislamov, M.Məhərrəmov, M.Mehdiyev, C.Hacıbəyli, Ə.Hüseynzadə) maneə törədirdilər. Uzun çək-çevirdən sonra fransızlar sədr istisna edilməklə dörd nəfərə viza verməyə hazır olduqlarını bildirmişdilər. Texniki tərkibdən heç kimə icazə verilmirdi. Nəticədə nümayəndə heyəti səmərəli iş qabiliyyətindən məhrum edilərək amorf bir şəklə salınırdı. Təbii ki, İstanbuldakı Fransa ali komissarlığı atdığı addımın fərqində idi. Gürcü əsilli müasir fransız tarixçisi G.Mamuliyanın yazdığına görə, Rusiyaya rəğbətini gizlətməyən ali komissar general Franşe d`Eşpere Azərbaycan missiyasını bilərəkdən parçalamaqla, sədr və tərcüməçilərdən məhrum etməklə onu Parisə getmək fikrindən birdəfəlik çəkindirməyə çalışırdı (15).

ABŞ prezidenti Vudro Vilsonun rəsmi şəkildə Versal Sülh konfransında Qafqaz məsələsini qoymasına bir neçə gün qalmış təcili şəkildə Azərbaycan nümayəndələrini Parisə çağırdılar. 1919-cu ilin aprel ayının 14-də ABŞ-ın dövlət katibi R.Lansinqə Bakı nefti haqqında təqdim olunmuş qısa xülasə amerikanların Qafqaza marağından xəbər verirdi. Ə.M.Topçubaşovun prezident V.Vilsona müraciətini əsas tutaraq ABŞ dövlət katibi R.Lansinq Azərbaycan nümayəndələrinə viza verilməsi xahişi ilə Fransanın xarici işlər naziri J.M.Pişona məktub göndərdi. Nəhayət, uzun yazışmalardan sonra nümayəndə heyətinin bütün üzvlərinə texniki işçiləri çıxmaq şərti ilə Parisə getmək üçün pasport və viza verdilər. Aprel ayının 22-də Azərbaycan nümayəndələri İstanbuldan çıxdılar. Beləliklə, Azərbaycan nümayəndələrinin İstanbulda üç aydan artıq apardığı gərgin mübarizə öz nəticəsini verdi. Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan Sülh heyəti Versal Sülh konfransının keçirildiyi Fransaya buraxıldı (Ə.Ağayev və Ə.Hüseynzadə məlum səbəblərdən gedə bilmədilər). Bu, süni maneələrlə üzləşmiş Azərbaycan diplomatiyasının böyük uğuru idi (6, s.205).

Böyük Britaniya siyasi dairələrinin, ilk növbədə isə Lloyd Corcun Azərbaycan haqqında fikrinin yaxşılığa doğru dəyişməsində ingilis jurnalisti Skotland Liddelin 1919-cu ilin sentyabr ayında "Morninq Post" və noyabr ayının 11-də "Tariq" qəzetlərində Azərbaycan haqqında çap edilmiş məqalələri də az rol oynamamışdı. S.Liddel birinci məqaləsində ingilis ictimaiyyətinə bildirirdi ki, Azərbaycan haqqında onlarda formalaşdırılan təsəvvürlər heç də düzgün deyildir. O, Azərbaycanı Cənubi Qafqazda müstəqil yaşamağa qadir olan birinci respublika hesab edirdi (7).

Sülh konfransında iştirak etməklə Azərbaycan nümayəndələri 4 mühüm vəzifəni həll etmək istəyirdilər: 1) ABŞ, Fransa, Böyük Britaniya, İtaliya müttəfiq hökumətləri və Hollandiya və İsveçrə nümayəndələri ilə görüşərək suveren dövlət kimi Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq; 2) Azərbaycan haqqında ictimai rəy formalaşdırmaq; 3) Ta-

nınmış ictimai və siyasi xadimlərlə, təşkilat rəhbərləri ilə görüşərək Azərbaycan barədə məlumat vermək; 4) Xarici dövlətlərin ticarət-sənaye dairələri ilə kommersiya əlaqələrinə girərək, Azərbaycanın gələcəyi üçün zəruri materialların toplanması.

Təsadüfi deyil ki, Ə.M.Topçubaşov Bakıya, Nazirlər Şurasının sədrinə göndərdiyi məlumatlarda təkcə gördükləri işlərdən bəhs etmir, həm də çağdaş Avropa təcrübəsinə dayanaraq ölkəsinin rəhbərliyinə dövlət quruculuğu, xarici və daxili siyasət, idarəçilik, beynəlxalq münasibətlər və s. bağlı qiymətli məsləhət və tövsiyələr verirdi. Paris mühitindən və Sülh konfransından yalnız Azərbaycanın dövlət müstəqilliyinin rəsmi tanıdılması üçün yox, həm də ölkədə demokratik, sivil, Qərb standartlarına və demokratik dəyərlərə cavab verən bir dövlət qurmaq üçün istifadə olunurdu. Nümayəndə heyəti Azərbaycanın siyasi və iqtisadi maraqlarından çıxış edərək fəal, mütəhərrik siyasət yürüdürdü. Bu siyasətin əsasını milli müstəqilliyinin böyük dövlətlər tərəfindən mümkün qədər tez tanınması və təhlükəsizliklə bağlı etibarlı təminatın əldə olunması təşkil edirdi (4, s.10).

Nümayəndə heyəti Azərbaycanın tarixi, əhalisinin antropologiyası və etnik tərkibi, təsərrüfatı, Azərbaycan Respublikasının mövcud vəziyyəti haqqında ingilis və fransız dillərində bir neçə dolğun, məzmunlu (indi də elmi dəyərini itirməmiş) kitabça hazırlayıb, çap etdirmiş, Avropada və Amerikada yayılmasını təşkil etmişdi. Bundan başqa nümayəndə heyəti fransız dilində informasiya bülleteni də nəşr etməyə başladı, yerli mətbuat orqanlarında Azərbaycana aid bir sıra materialların çapına nail oldu (11, s.157). Nümayəndə heyətimizin ən ümdə diqqətdə saxladığı məqam ərazi bütövlüyümüzün təsdiq olunması idi. Buna görə də bu vacib problemin beynəlxalq İstanbul konfransında müzakirə edilməsi, 1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda, daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində də əks olunmuş, Cümhuriyyətin ərazisi 113,9 min kv. km (o cümlədən, mübahisəsiz ərazi 97,3 min kv. km; mübahisəli ərazi 16,6 min kv. km) göstərilmişdir (2, s.11). Paris sülh konfransına “Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri” adlı sənəd böyük tirajla fransız və ingilis dillərində çap edilmiş, diplomatik nümayəndəliklər və əlaqədar adamlar arasında yayılmışdı. Sülh nümayəndəliyinin tələbləri Azərbaycanın mənşəyi barədə bölmə ilə başlanır, XVII-XVIII əsrlərdə müstəqil xanlıqlarda vəziyyət haqqında məlumat verilir, xanlıqların süqutu və çar Rusiyasının Azərbaycanın şimal hissəsini işğal etməsi izah edilir. Sənədin etnoqrafiya hissəsində Azərbaycanın türk yurdu olması göstərilir, etnik azlıqlar haqqında məlumat verilir (11, s.178). Sənəddə Azərbaycanın tərkibinə daxil olan inzibati ərazilər göstərilir: I. Bakı quberniyası – Bakı şəhəri, onun ətrafı və Bakı, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları daxil olmaqla; II. Yelizavetpol (Gəncə) quberniyası - Yelizavetpol (Gəncə), Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzaları daxildir. Gəncə quberniyasının dağlıq hissəsi Azərbaycan və Ermənistan respublikaları arasında mübahisə obyekti olaraq qalır; III. İrəvan quberniyası - Naxçıvan, Şərur-Dələyəz, Sürməli qəzaları və Yeni Bəyazid, Eçmiədzin, İrəvan, Aleksandropol qəzalarının bir hissəsindən ibarətdir; IV. Tiflis quberniyası – Borçalı, Tiflis və Sığnaq qəzalarının müəyyən hissələrindən ibarətdir; V. Zaqatala qəzası; VI. Dağıstan regionunda – Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsindən ibarətdir. Yuxarıda göstərilən İrəvan və Tiflis quberniyalarında, eyni zamanda Zaqatala qəzasında Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikaları tərəfindən iddialar doğuran sahəcə çox kiçik ərazilər də

mövcuddur. Azərbaycan Respublikası Batum, xüsusən də Qars əyalətlərinin və Axalsıx qəzasının əhalisini öz gələcəklərini istədikləri kimi həll etməyə çağırdığını bəyan edir və müstəqil respublikanın yaradılmasını bu regionun əhalisinin maraqları və istəklərinə cavab verən ən yaxşı çıxış yolu hesab edirdi. Ancaq qeyri-məqbul qərar qəbul olunduğu təqdirdə, Azərbaycan xüsusi hüquqla dənizə çıxışı olan dövlətlərə öz tələblərini irəli sürəcəyini bildirmişdi.

Azərbaycan Respublikası yerli əhalinin istəklərinin müdafiəçisi olaraq və qonşu Gürcüstana olan dostluq münasibətini nəzərə alaraq, iki respublika arasında olan ərazi və sərhəd məsələsinin referendum yolu ilə müzakirəsi və həlli təklifini irəli sürmək istədiyini də ifadə etmişdi (1, s.91). Sənəddə hələlik Azərbaycan hakimiyyətinin yayılmadığı əraziləri ilə birlikdə Cümhuriyyətin ümumi ərazisinin 150,2 min kv. km. olduğu, bunun da Cənubi Qafqazın 60 faizini təşkil etdiyi göstərilirdi (1, s.92).

Xarici ölkələrdə təbliğat işi Azərbaycan Xarici İşlər Nazirliyinin diqqət mərkəzində idi. 1919-cu ilin noyabr ayının 10-da Bakıya göndərdiyi məlumatda Ə.M.Topçubaşov yazırdı: "Etiraf etmək lazımdır ki, bizim burada olduğumuz ilk vaxtlara nisbətən indi mətbuat Azərbaycan haqqında daha çox yazır... İndi heç olmazsa bizə rəğbət göstərən mətbuat orqanları var." Böyük çətinliklərdən sonra 1919-cu ilin yayında və payızında Avropada müxtəlif dillərdə nəşr edilən "L"Eyrope Orientale", "Limaçe", "Les Paubles Libres" jurnallarında, "Le Temps", "Revus du Monde musulman", "Revus Kon Temporaine", "Humanite", "Le Dieçe Kolonial", "Le Derniçes Nouvelles", "Le Kroix" və digər qəzetlərdə Azərbaycan haqqında maraqlı məqalələr çap olunmuşdu. Azərbaycanı təbliğ etmək məqsədi ilə Ə.M.Topçubaşov "Limaçe" jurnalının naşiri ilə razılığa gəlmişdi ki, jurnalın bir nömrəsi Azərbaycana həsr edilsin.(5.s.338) Avropa mətbuatında aparılan təbliğat işlərindən başqa, Versalda olan Azərbaycan nümayəndələri Paris Sülh konfransının iştirakçılarını, Fransa, Böyük Britaniya, ABŞ və digər ölkələrin ictimaiyyətini məlumatlandırmaq üçün sentyabr ayından etibarən "Azərbaycan haqqında İnformasiya bülleteni" buraxmağa başlamışdılar (6, s.341). 1919-cu ildə Parisdə C.Hacıbəyli tərəfindən hazırlanmış "İlk müsəlman respublikası Azərbaycan" kitabı çapdan çıxmışdı. Həmin ildə o, "Revue du Monde musulman" qəzetində Cənubi Qafqazda milli zəmində baş verən hadisələrlə bağlı məqalələrlə çıxış etmişdi. "İlk müsəlman respublikası Azərbaycan" kitabının elə birinci cümləsində Ceyhun bəy tarixin ədalətsizliyi ucbatından azərbaycanlıların bölünmüş xalq olduğunu Avropa oxucularının diqqətinə çatdırırdı. O yazırdı: türk əhalisindən ibarət iki Azərbaycan vardır: İran mədəniyyəti və islamın şiə təriqətinə etiqad edən, İranda yerləşən Təbriz Azərbaycanı və Cənubi Qafqazda yerləşən Bakı Azərbaycanı. (6.s.344) Beləliklə, 1919-cu ildə Parisdə nəşr olunmuş bu kitab və broşürlər, Avropanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş çoxsaylı məqalələr ilk dəfə olaraq, Azərbaycan, onun əhalisi, iqtisadiyyatı, siyasi sistemi, mədəniyyəti haqqında Qərb oxucularına geniş məlumat verirdi. Bütün bunlar Azərbaycanın azad dünyaya qovuşması istiqamətində əhəmiyyətli addımlar olub, yeni müstəqillik qazanmış bir millətin istək və arzularını əks etdirirdi.

Konfransa hazırlıq mərhələsində diplomatik missiyamızın səyləri nəticəsində Azərbaycan Cümhuriyyətinin ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, İran, Osmanlı imperiyası və başqa dövlətlərlə qarşılıqlı münasibətlər qurması istiqamətində bir sıra ilkin təşəbbüslər göstərilmişdi. Azərbaycanın istiqlalına zəmanətin yalnız Avropada deyil, həm də okeanın o tayında - ABŞ-da olduğunu yaxşı başa düşən Ə.M.Topçubaşov qısa müddət ərzində amerikanlarla işgüzar münasibətlər yaratmağa nail olmuşdu. Vəkil V.Çandler və Amerika yəhudi icmasının

nümayəndəsi M.Robinovla müqavilə bağlanmış, onlara ABŞ və Kanadada Azərbaycanın maraqlarını təmsil etmək səlahiyyəti verilmişdi.

Parisdə Azərbaycan haqqında ingilis və fransız dillərində çap olunan kitabların bir qismi hələ 1919-cu ildə bu ölkələrə göndərilmişdi. Uzaqgörən siyasətçi kimi Ə.M.Topçubaşov ABŞ və Avropada Azərbaycan lobbisinin yaradılmasını ölkəsinin dünya miqyasında geniş tanınmasının, habelə onun siyasi və iqtisadi maraqlarının daha etibarlı qorunmasının qarantı sayırdı. Nümayəndə heyətinin səyi nəticəsində hələ 1919-20-ci illərdə Azərbaycanın tarixi keçmişi, ölkənin zəngin təbii sərvətləri, bölgədə bir əsrdən çox davam edən rus işğalı və onun nəticəsi kimi meydana çıxan erməni zülmü, Qafqazdakı qonşularla münasibət, erməni-azərbaycanlı qarşıdurmasını şərtləndirən amillər, 1918-ci ildə Bakıda daşnak-bolşeviklər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən dəhşətli soyqırım və s. barəsində Avropa ölkələrində müəyyən obyektiv məlumatlar yaymaq mümkün olmuşdu. Bütün bunlar isə öz növbəsində həm Azərbaycanın Qərbdə qismən obyektiv şəkildə tanınmasına imkan yaratmış, həm də ölkəmiz və xalqımız barəsində qərəzli rus-erməni qaynaqlarının təsiri ilə formalaşmış yanlış təsəvvürlərin az da olsa aradan qaldırılmasına kömək etmişdi (4, s.10).

1919-cu ilin may ayının 28-də günün ikinci yarısı Azərbaycan nümayəndə heyəti prezident V.Vilson tərəfindən qəbul edildi. Bununla bağlı Ə.M.Topçubaşov yazırdı: "Bizim nümayəndə heyətinin prezident Vudro Vilson tərəfindən qəbulunu çox böyük hadisə hesab etmək lazımdır, çünki başqa Antanta dövlətlərinin başçıları kimi, o da nümayəndə heyətlərini qəbul etmir." (8,s.220) Azərbaycan nümayəndə heyətinin tələbləri V.Vilsona verildi. Altı bənddən ibarət olan bu tələblərdə prezidentdən xahiş edilirdi: 1. Azərbaycanın müstəqilliyi tanınsın; 2. Vilson prinsipləri Azərbaycana da şamil edilsin; 3. Azərbaycan nümayəndələri Sülh konfransına buraxılsın; 4. Azərbaycan Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsin; 5. ABŞ-ın hərbi departamenti Azərbaycana hərbi yardım göstərsin; 6. ABŞ-la Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaradılsın. Danışıqlar zamanı ABŞ tərəfindən bu tələblərin qəbul ediləcəyi təqdirdə Ə.M.Topçubaşov Azərbaycanın keçmişdə tərkibində olduğu çar Rusiyasının borclarından öz payına düşəni tədricən ödəyəcəyinə təminat verirdi. Söhbət zamanı V.Vilson Azərbaycan nümayəndələrini görməyə və Azərbaycan haqqında xeyli material aldığına çox şad olduğunu bildirdi. Lakin Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxlayaraq dünyanın kiçik dövlətlərə parçalanmasını istəmədiklərini bildirdi (8, s.221).

Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz məsələyə çevrildi. Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Kerzonun fikrincə, Britaniya qoşunlarının Qafqaz hüdudlarına daxil olması Mudros barışığından sonra İngiltərə hökumətinə çox böyük üstünlüklər verirdi. Bir qədər sonra - yanvarın 11-də müttəfiqlərin Ali Şurası lord Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar". ABŞ və Yaponiya nümayəndələri bildirdilər ki, Azərbaycan və Gürcüstanın tanınması aktına qoşulmaq üçün onlar öz hökumətlərinin rəyini öyrənməlidirlər. Az sonra Yaponiya Ali Şuranın 11 yanvar tarixli qərarına qoşuldu. Amerika Birləşmiş Ştatları qərara qoşulmaqdan rəsmi olaraq imtina etdi. ABŞ-ın bu qərarı müxtəlif səbəblərlə izah edilirdi. Onlardan biri Amerika hökumətinin Qafqazda Böyük Britaniyanın nüfuzunun güclənməsindən ehtiyatlanması idisə, digəri də sülh konfransının yekun mərhələsində ABŞ-la onun Avropa müttəfiqləri arasında ciddi ixtilaflar yaranması idi. Lakin ABŞ-ın Azərbaycan

Xalq Cümhuriyyətinin müstəqilliyini tanımaqdan imtina etməsinin təkcə İngiltərə-Amerika ziddiyyətlərindən irəli gəlmədiyi gümanı da istisna deyildi. Amerika Senatının Versal müqaviləsinə qoşulmaga razılıq verməməsi, Vilson hökumətinin həyata keçirdiyi geniş beynəlxalq əməkdaşlıq siyasətinin tənqidə məruz qalması onun Qafqazla bağlı siyasətinə də öz təsirini göstərdi. Yanvarın 13-də ABŞ-ın Parisdəki səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstan dövlətlərinin müstəqilliklərini de-fakto tanımaları və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona məlumat verdi. ABŞ hökumətinin Fransadakı səfirinə cavab məktubunda deyilirdi ki, Birləşmiş Ştatlar İngiltərə və Fransanın Qafqaz dövlətlərinə kömək etmək ideyası ilə razılaşsa da, onların müstəqilliklərinin tanınmasını Rusiyanın dağılmasının başlanğıcı kimi qiymətləndirir. Bununla yanaşı, yanvarın 19-da müttəfiqlər tərəfindən Ermənistanın müstəqilliyinin tanınmasını ABŞ heç də Rusiyanın dağılması kimi qiymətləndirmədi və 1920-ci il aprelin 23-də özü də de-fakto olaraq Ermənistanı tanıdı. Yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular. Azərbaycan (Ə.M.Topçubaşov və M.Məhərrəmov) və Gürcüstan (İ.Sereteli və Z.Avalov) nümayəndələri nazirliyin birinci katibi Jül Kambon, İngiltərə nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi markiz de la Torreta tərəfindən qəbul edildilər. (6,s.438) Həmin tarixi hadisənin iştirakçılarından biri olan Miryaqub Mehdiyev yazırdı: “Müsyö Kambon bəyan etdi ki, Azərbaycan və Gürcüstan respublikaları rəsmi olaraq beynəlxalq hüquq normalarına uyğun şəkildə müstəqil dövlətlər kimi tanınmışlar. Bu andan başlayaraq hər iki ölkə rəsmi şəkildə Ali Şura ilə əlaqəyə girə bilər, öz ehtiyaclarını, qeydiyyata alınmalarını, konfransın iclaslarında qanuni haqlarını, bərabərhüquqlu üzv olmalarını tələb edə bilərlər. Bundan başqa Kambon bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı, eyni zamanda onların Rusiyadan ayrılmalarının tanınması ilə müşayiət olunmalıdır. Buradan çıxış edərək demək olar ki, Azərbaycan və Gürcüstan respublikaları bu gündən etibarən suveren dövlətlər hesab ediləcək” (5, s.5-6).

1920-ci il yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları problemi ətraflı müzakirə edildi. Həmin gün Paris Sülh Konfransının iclasında Lloyd Corc, Klemanso, Nitti, Kambon, Matei, Kerzon, Çörçill, Foş, Bitti, Vilson, eləcə də o dövrün digər görkəmli siyasətçiləri və hərbçiləri, həmçinin Azərbaycan nümayəndə heyətinin bütün üzvləri iştirak edirdilər. İclasda, Ali Şuranın 10 yanvar tarixli tapşırığına əsasən, ingilis nümayəndələri tərəfindən tərtib edilmiş memorandum elan olundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu: 1. Azərbaycan və Gürcüstanın tanınması (bu tədbir həyata keçirilmişdi); 2. Əvvəllər Denikinə verilmiş və Potidə olan silah və sursatın Azərbaycan, Gürcüstan və Ermənistana verilməsi; 3. Azərbaycana və Gürcüstana əlavə ərzaq, maliyyə və hərbi (silah və geyim) cəhətdən yardım göstərilməsi; 4.Bakının müdafiəsinin möhkəmləndirilməsi üçün əlavə tədbirlərin görülməsi; 5. Xəzər sahillərinin müdafiəsinin təmin olunması, bolşevik ordusunun Xəzər dənizinə və Xəzər donanmasına buraxılmaması, Denikinin dəniz donanmasının müttəfiqlərin ümumi istifadəsinə qaytarılması, bu, mümkün olmadıqda isə onun batırılması (6, s.442). Çox təəssüf ki, memorandumda qəbul edilən bir çox müddəaların həyata keçirilməsi mümkün olmadı. Azərbaycan üçün həyat əhəmiyyəti daşıyan ordu ilə təminat məsələsinin mümkünsüzlüyünü böyük dövlətlər aşağıdakı kimi əsaslandırdılar: “Əgər ordu göndərmədən Qafqazı saxlamaq mümkün deyilsə və göndərilən silahlar itiriləcəksə, deməli, məntiqə əsasən, köməkdən imtina etmək lazımdır“. Lloyd Corc Azərbaycan si-

lahlı qüvvələri haqqında suallar verdi. Azərbaycan nümayəndə heyətinin müşaviri M.Məhərrəmov onun suallarını cavablandırarkən bildirdi ki, lazımi miqdarda silah və sursat olarsa, Azərbaycanda orduya qısa müddətdə 100 min nəfər səfərbər etmək mümkündür. Ə.M.Topçubaşov bildirdi ki, müttəfiqlər İngiltərənin Ənzəlidəki donanmasından istifadə edərək, Bakının müdafiə qabiliyyətini xeyli gücləndirə bilərdilər. Ə.M.Topçubaşov müttəfiqlərə şimaldan hərəkət edən ordu ilə Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasını da de-fakto tanımağı təklif edirdi. İclasa yekun vuran Lloyd Corc Qafqaz respublikalarına silah, sursat və geyim formasında təcili yardım göstərməyi zəruri hesab etdi. Azərbaycana və Gürcüstana qoşun göndərmək məsələsinə toxunan Lloyd Corc bunun qeyri mümkünlüyünü etiraf etdi. Onun fikrincə Qafqaz respublikaları öz silahlı qüvvələri hesabına öz müdafiə qabiliyyətlərini, xüsusilə Bakının müdafiə qabiliyyətini gücləndirməlidirlər (2, s.365). Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin de-fakto tanınması xəbəri ölkəmizdə böyük coşqu ilə qarşılanmışdı. 1920-ci il yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri keçiriləcəyi elan edilmişdi, respublikanın paytaxtında mitinqlər və nümayişlərin, həmçinin Azərbaycan ordusunun hərbi keçidinin və Azərbaycan parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi. Azərbaycanda yanvarın 14-ü istirahət günü elan olundu. Bakı bayram libası geyinmişdi. Hətta, erməni vandallarının yandırdığı İsmailiyyə belə bayraq və şüarlarla bəzədilmişdi. Hər tərəfdən musiqi sədaları ucalırdı. Milli bayraqlarla bəzədilmiş avtomobillər küçələrdə şütüyür, aktyorlar milli və tarixi geyimlərdə keçmişi canlandırırdılar. Dəstənin önündə at üstündə Mirzağa Əliyev gedirdi. Təzəpirdən qayıdan Nəsib bəy Yusifbəylini xalq çiyinləri üstündə Parlamentə aparırdı. Parlamentin qarşısında yığılan izdiham isə Məhəmməd Əmin Rəsulzadəni tələb edirdi. Binaya axışan insanlar onu əl üstündə Parlamentin eyvanına çıxardı. Məhəmməd Əmin Rəsulzadə atəşin bir nitq ilə öz istiqlalını dünyaya qəbul etdirmiş Azərbaycan xalqını təbrik etdi (2, s.179). İstiqlaliyyətin dünya siyasətini müəyyən edən dövlətlər tərəfindən tanınması Azərbaycan türklərinin öz gücünə inamını, sabaha ümidini artırmışdı. Azərbaycanın istiqlaliyyətinin Paris Sülh konfransının Ali Şurası tərəfindən tanınması münasibəti ilə M.Ə.Rəsulzadə yazırdı: "Mülki və siyasi hüquqlardan məhrum edilmiş, dövlətin idarəsinə yaxın belə buraxılmayan Şərqin zülm altında inləyən xalqlarından biri ilk imkan düşən kimi bütün çətinliklərə baxmayaraq, mədəni cəmiyyət yaradılmasında elə ləyaqət nümunəsi göstərdi ki, onun bu qabiliyyəti sayəsində Azərbaycan Cümhuriyyəti müttəfiqlərin və bütün dünyanın diqqətini cəlb etdi və beynəlxalq həyata daxil oldu. Müttəfiq dövlətlərin Ali Şurasının 1920-ci il yanvarın 11-də toplanmış iclası Azərbaycan Cümhuriyyətini de-fakto tanıdı. Rusiya imperiyasının xarabalıqları üzərində yaradılmış Cümhuriyyətlər arasında Azərbaycan Avropanın inandığı yeganə müsəlman qurumu idi. Bu yeni türk dövləti bütün müsəlman dünyasında yaradılmış yeganə türk cümhuriyyəti idi. Türk dünyasında və türk tarixində bu böyük və xoş məramlı hadisəni yalnız onunla bilavasitə bağlı olan Azərbaycan bayram etmirdi".(10, s. 57)

Azərbaycanın müstəqilliyinin elan olunması beynəlxalq aləmdə ona marağın artmasına təkan verdi. Bir çox ölkələr – Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar, İtaliya isə burada öz nümayəndəliyini yaratdı. Fevral ayında Denikin ordusunun məğlubiyyəti respublikanın dinc nəfəs alması üçün mühüm hadisə oldu. Tadeuş Svetocovskinin təbirincə desək "Denikinin məğlubiyyəti Cənubi Qafqaz respublikalarında sevinc doğurmadı, çünki onlar qələbədən ruhlanmış bolşeviklərin simasında daha güclü düşmən qazandılar" (14, s.159).

Qonşu Gürcüstan və İranla hərtərəfli əməkdaşlıq yaradılması prosesi başlandı. 1920-ci il martın 20-də Azərbaycanla İran arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Müqaviləyə əsasən, İran hökuməti Azərbaycanın müstəqilliyini tanıdı. Tərəflər dostluq və iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, həmçinin Tehranda Azərbaycan səfirliyinin, Bakıda isə İran səfirliyinin açılması barədə öhdəliklər götürdülər. Bundan əlavə, həmin gün Azərbaycanla İran arasında gömrük, ticarət, poçt-teleqraf və konsul əlaqələri haqqında saziş imzalandı. Bir qədər sonra Tehranda Azərbaycan səfirliyi açıldı, Təbrizdə isə Azərbaycanın baş konsulluğu fəaliyyət göstərməyə başladı. 1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada AXC-nin diplomatik nümayəndəliklərinin açılması haqqında qanun qəbul etdi. Türkiyə, Gürcüstan və Ermənistan kimi qonşu ölkələrlə diplomatik əlaqələr genişləndi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı. 1920-ci il 27 aprel çevrilişi ərəfəsində beynəlxalq aləmdə Azərbaycan Xalq Cümhuriyyətinin tam təcrid olunması aradan qaldırılmışdı. Müstəqil Azərbaycanın diplomatik cəhətdən geniş tanınması və hərtərəfli beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlanmışdı.

Dünyanın iqtisadi idarəsini əlinə alan ABŞ ilə əlaqələr qurulması üstün istiqamətlərdən biri sayılırdı. Bu işdə Çandlerlə birlikdə ABŞ-dan dəvət olunan M.Robınovun missiyasının xidməti danılmazdır. O, AXC Sülh nümayəndəliyinin maliyyə işləri üzrə məsləhətçisi təyin olunmuşdu. Azərbaycan və gürcü nümayəndəlikləri onu, əsasən, kredit alınması məsələsi sahəsində əməkdaşlıq üçün dəvət etmişdilər. M.Robinovla, tərəflərin istəyi ilə müddəti sonradan artırılmaqla, müqavilə bağlandı. Müqavilənin şərtlərinə görə M.Robinov: 1) Azərbaycan neftinin dünya qiymətlərinə uyğun satılmasını; 2) ABŞ-ın AXC-yə kredit verməsini; 3) Amerika manufaktura mallarının Azərbaycan üçün alınmasını təşkil etməli; 4) gəlirin üç faizinə sahib olmalı idi. O, Vətənə döndükdən (8.X.1919) sonra müəyyən faydalı işlər görə bildi. Belə ki, Azərbaycan üçün Amerika bazalarından 108 adda müxtəlif mallar şəklində 15 milyon dollarlıq kredit razılaşdırıldı. ABŞ tanımadığı dövlətlərə kredit buraxmadığından Azərbaycanla bağlı da problemlər mövcud idi. Maliyyə məsləhətçisi ABŞ ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və s. məqsədlərlə M.Məhərrəmovun Amerikaya gəlməsini tövsiyə etmiş, müvafiq təmsilçiliyin oraya yetişə bilməsi üçün də çalışmışdı. Ə.M.Topçubaşova ünvanladığı teleqramlardan və məktubdan (3.XI.1919) da göründüyü kimi M.Robinov öz təşəbbüsü ilə - nümayəndəlik tərəfindən tapşırılmadığı halda - neftlə bağlı məsələlərlə də məşğul olmuşdu. Sənədlərdən aydın olur ki, o, həmçinin "Standard Oil Company" təmsilçiləri ilə də danışıqlar aparmışdı (Yeri gəlmişkən, şirkətlə AXC Yollar Nazirliyi arasında kerosinlə taxıl alqı-satqısına dair saziş (VII. 1919) artıq həyata keçirilirdi). Buna görə də Əlimərdan bəy təcili teleqramla M.Robinovun istisnasız şəkildə yalnız kredit məsələsi ilə məşğul olmasını istəmişdi. M.Robinov ilin sonunda Bakıya göndərilmək üçün ticarət-sənaye-maliyyə dairələrinin iş adamlarından ibarət təmsilçilik də müəyyənləşdirmişdi. Ən əsası isə Azərbaycanla iqtisadi-ticarət əlaqələrində həlledici rol oynaya biləcək Amerika-Qafqaz Kommersiya Palatası təşkil olunmuşdu. Müxtəlif dövlətlərlə hərtərəfli əlaqələr qurulmasına mühüm əhəmiyyət verən Sülh nümayəndəliyi bu və digər məsələlərlə bağlı mülahizə və tövsiyələrini də AXC hökumətinə çatdırmışdı. Ə.M.Topçubaşov Baş nazirə göndərdiyi məktublardan birində (8-9.VII. 1919, №8) diqqəti iqtisadi-ticarət əlaqələrinin qurulması sahəsində Azərbaycanda yol verilən nöqsanlara və onların aradan qaldırılmasına yönəltmişdi (9, s.222). Ə.M.Topçubaşov Parisdən Bakıya göndərdiyi məktublarda dəfələrlə eyforiyaya qapılmamağa, bütün gücü istiqlalın

qorunub saxlanılmasının daxili şərtlərinin təmin edilməsinə yönəltməyi məsləhət görürdü.

Aprelin 28-də San-Remo konfransında iştirak etmiş Azərbaycan nümayəndələri işğal xəbərini alan kimi müttəfiq dövlətlərin Ali Şurasına, İtaliya hökumətinə və xarici dövlətlərin Romada olan səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada qeyd olunurdu: "Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir". Bu məzmunda notalar və müraciətlər dəfələrlə Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən dövlətlərə verildi. Lakin bunların elə bir əhəmiyyəti olmadı. Antanta ölkələri Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Aprel işğalı ilə sona çatdı. Onun Parisdəki nümayəndələri isə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər (2, s.16).

Çox böyük məhrumiyyətlər, çətinliklər bahasına Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində tanınması o, dövrkü diplomatiyamızın qələbəsi idi. Qısa zaman ərzində Ə.M.Topçubaşovun başçılığı ilə səriştəli diplomatlar korpusu formalaşdı, AXC-ni de-fakto tanıdaraq dövlətlərarası münasibətlər sisteminə qatdı və beynəlxalq hüququn subyektinə çevirməklə Azərbaycan məsələsini Rusiya daxili problemlər çərçivəsindən çıxartdı, itirilmiş dövlətçiliyimizin ərazilərimizin kiçik bir qismində bərpa olunmasını beynəlxalq müstəvidə təsdiq etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 il əvvəl de-fakto tanınması istiqamətində atılan əməli addımlar dövlətçiliyimizin yenidən dirçəlməsinə vəsilə oldu. Paris Sülh Konfransına gedən nümayəndə heyətimizin o dövrkü əlçatmaz amalları gerçəkləşdi. AXC-nin varisi olan müstəqil Azərbaycan Respublikası dünya xalqları ailəsinin bərabərhüquqlu üzvünə çevrildi, böyük transmilli layihələrin həyata keçirildiyi ölkə kimi beynəlxalq aləmdə öz layiqli yerini tutdu.

**Ədəbiyyat:**


1. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Bakı, 2009.
2. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası, I hissə. Bakı, 2004.
3. Azərbaycan tarixi VII cilddə, V cild. Bakı, 2008.
4. Azərbaycan Paris Sülh Konfransında (1918-1920), Bakı - 1918. Tərtib, ingilis dilindən tərcümə və müqəddimə: Vilayət Quliyev. Bakı, 2008.
5. Əlimərdan bəy Topçubaşov. Paris məktubları. B. Azərbaycan Xalq Cümhuriyyəti Sülh Nümayəndə heyəti sədrinin Azərbaycan hökumətinə məlumatları (mart 1919 - noyabr 1919), 1998.
6. Həsənli C., Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, 2009.
7. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransı tərəfindən tanınması. Diplomatiya aləmi, 23, 2009.
8. Həsənli C. Azərbaycan Respublikasının Diplomatiya Tarixi. I cild. Bakı, 2009.
9. Musayev İ., Azərbaycanın xarici siyasəti. Bakı, 2011.
10. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.
11. Parisdəki sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri – Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. Bakı, 1992.
12. Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, Bakı, 1990.
13. Yaqublu N. Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması. Moderator. az11/01/2019
14. Svietocovski T. Rusiya Azərbaycanı. Bakı, 2000.
15. https://az.wikipedia.org/wiki/Paris

***Acar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Paris Sülh Konfransı, de-fakto, diplomatiya, Qafqaz, xarici siyasət*

**Rana Bayramova**
*Associate Professor, Department of History of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in History*

## RECOGNITION OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC AT THE INTERNATIONAL LEVEL - 100

### SUMMARY

The de facto recognition of the Azerbaijan Democratic Republic by the Paris Peace Conference was one of the most important issues raised by our diplomacy at that time. Under the leadership of Topcubashov, a corps of competent diplomats, despite great difficulties, had de facto introduced the People's Republic of Azerbaijan to the international arena, made it part of the system of interstate relations and turned it into a subject of international law. The period beginning in January 1920 is characterized by the struggle for the entry of the Republic of Azerbaijan into broad international relations and interstate relations. During this period, Azerbaijani representatives participated in the conferences of the Supreme Council of the Allied Powers in London and San Remo, tried to become a member of the League of Nations and other international organizations, and diplomatic missions of more than twenty countries were established in Baku.

***Keywords:*** *Azerbaijan Democratic Republic, Paris Peace Conference, de facto, diplomacy, Caucasus, foreign policy*

**Рена Байрамова**
*Доцент кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории*

## ПРИЗНАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ НА МЕЖДУНАРОДНОМ УРОВНЕ - 100

### РЕЗЮМЕ

Фактическое признание Азербайджанской Демократической Республики Парижской мирной конференцией было одним из самых важных вопросов, поставленных перед собой нашей тогдашней дипломатии. Под руководством А.М.Топчибашева корпус компетентных дипломатов, ценой огромных трудностей, достигнув признания АДР де-факто, включил и его в систему межгосударственных отношений и превратили его в субъект международного права. Период, начинающийся с января 1920 года, характеризуется борьбой за вхождение Азербайджанской Демократической Республики в широкие международные и межгосударственные отношения. В этот период представители Азербайджана участвовали в конференциях Верховного Совета союзников в Лондоне, Сан-Ремо, пытались стать членами Лиги Наций и других международных организаций, в Баку были созданы дипломатические представительства более двадцати стран.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, Парижская мирная конференция, де-факто, дипломатия, Кавказ, внешняя политика*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

UOT 327-027(21)

**RAMİL ŞÜKÜROV**
**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin**
**NATO-nun Hər iki Strateji Komandanlığında Milli Hərbi Nümayəndəsi**
**ƏHMƏD HÜSEYNOV**
**Azərbaycan Respublikası Müdafiə Nazirliyi Müdafiə Planlaşdırması və**
**Hərbi Strategiya İdarəsinin Təcrübələrin Öyrənilməsi bölməsinin rəisi**
**HAZİM HODZİÇ**
**Bosniya və Herseqovinanın NATO-nun Hər iki Strateji Komandanlığında**
**Milli Hərbi Nümayəndəsi**

## DÖVLƏTİN SÜLHMƏRAMLI ƏMƏLİYYATLARDA İŞTİRAKI: MÜFƏSSƏL QƏRAR DƏSTƏK MODELİ
### (qərar qəbul edən və planlaşdırma heyəti üçün metodiki dəstək)

1948-ci ildən BMT-nin Təhlükəsizlik Şurası İsrail ilə Ərəb qonşuları arasında atəşkəs müqaviləsini monitorinq etmək üçün BMT-nin sülhü qoruma missiyasına [21] səlahiyyət verdikdən bəri dövlətlərin sülhməramlı əməliyyatlara töhfə verib verməməyi, niyə və necə töhfə verməsi kimi suallara cavab daima aktual bir məsələ olmuşdur. Soyuq Müharibənin başa çatmasından sonra, geosiyasi mühitdə radikal dəyişiliklərlə, BMT-nin rəhbərliyi altında missiyaların sayı kəskin artaraq, soyuq müharibə dövründə (eyni zamanda regional təşkilatlar və koalisiyalar tərəfindən səlahiyyət verilənlər də daxil olmaqla) 18-dən 53-ə çatmışdır [17].

2018-ci ilin sonuna qədər 144 000-dən çox şəxsi heyət 60 aktiv müxtəlif sülhməramlı əməliyyatlarda iştirak etmişdir. Onlardan 95 000 nəfəri 14 BMT missiyasında və 49 000 nəfəri isə müxtəlif regional təşkilatların və ya müvəqqəti koalisiyaların rəhbərliyi ilə keçirilən sülhməramlı missiyalarda iştirak etmişlər [30]. Getdikcə ixtisaslaşmış və peşəkar sülhməramlılara ehtiyacın artdığı bir dövrdə eyni ilə, Sülhməramlı Əməliyyatlar üzrə BMT-nin Yüksək-Səviyyəli paneli özünün 2015-ci il məruzəsində qeyd edirdi ki: “son on ildə sülhməramlılara artan tələbat qarşısında BMT kifayət qədər sülhməramlı qüvvələri münaqişə ərazilərinə çevik olaraq göndərə bilməmiş və bu ehtiyacı qarşılamaq üçün isə əsasən resursları məhdud olan hərbi və polis imkanlarına arxalanmışdir” [23].

Sülhməramlı əməliyyatlar təkcə miqyasına görə deyil, həmçinin ənənəvi soyuq müharibə tipli missiyalarından daha çox kompleks müasir çoxvektorlu missiyalara tədricən çevrilməklə xarakterində də dəyişikliyə məruz qalmışdır. Soyuq Müharibə dövrü missiyaları mahiyyətcə hərbi olub, bufer zonalarda müşahidə, monitorinq və sülh danışıqları üçün ilkin şəraitin yaradılması məqsədilə atəşkəsin həyata keçirilməsi üçün məruzələrin edilməsi kimi tapşırıqlar icra edirdilər [33, s.21]. Soyuq Müharibə dövründən sonrakı missiyaların məqsədi isə hərtərəfli sülh sazişinin həyata keçirilməsi üçün qarışıq hərbi, polis və mülki vasitələrin cəlb olunmasını nəzərdə tuturdu [33, s.22].

Qlobal geosiyasi dəyişiklikləri və sülhməramlı əməliyyatlarda iştirak üçün çoxməqsədli imkan və qabiliyyətlərin münaqişə

bölgələrinə göndərilməsinə artan tələbləri, və Azərbaycanın da bu tipli əməliyyatlarda həm iştirak coğrafiyasının və miqyasının artması fonunda, növbəti suallar meydana gəlir:

1. Dövlətlər sülhməramlı əməliyyatlarda iştirak məsələsini nəzərdən keçirərkən, milli qərar qəbul edən və planlamaya cavab verən şəxslər hansı amilləri diqqətə almalıdırlar?

2. Beynəlxalq təcrübədən istifadə etməklə sülhməramlı əməliyyatlarda iştirakla bağlı məsələlərə daha müfəssəl və sistemli formada baxmaq, mövzu haqqında bilikləri dərinləşdirmək, ehtiyacları müəyyənləşdirmək, boşluqları görmək, eləcə də qərar qəbuletmə prosesini həm keyfiyyətli, həm də sürətli etmə baxımından elmi model qurula bilərmi?

Suallara cavab vermək üçün müəlliflərdən birinin doktorluq dissertasiyasının (Şükürov) bir hissəsi olaraq ərsəyə gətirdiyi sülhməramlı əməliyyatlarda iştirakla bağlı prototip Ümumi Morfoloji Təhlil (ÜMT) metodu tətbiq edilməklə ortaq səciyyəvi xüsusiyyətləri sayəsində bütün dövlətlər tərəfindən tətbiq oluna bilir "Sülhməramlı Əməliyyatlar üçün Qərara Dəstək Modeli (SƏQDM)" təqdim edilir. SƏQDM milli qərar qəbuletmə prosesinə təsir edən aşağıda qeyd olunan doqquz əsas faktorlar və amillər əsasında hazırlanmışdır.

- beynəlxalq qanunvericilik;
- sülhməramlı əməliyyatların növləri;
- aidiyyəti tapşırıqlar;
- tələb olunan qabiliyyətlər;
- milli təhlükəsizliyin hədəfləri;
- milli təhlükəsizliyin hədəflərinə çatmaq üçün mövcud olan mexanizmlər;
- maliyyə resursları;
- ehtimal olunan itki riski;
- iştiraketmənin ehtimal oluna bilən fəsadları.

Modelin hazırlanması üçün ilkin olaraq sözügedən faktor və amillər əsaslandırılacaq, daha sonra ÜMT metodu ilə elmi modelin necə qurulduğuna dair izahat veriləcək və sonda isə SƏQDM modelinin qurulması və modelin işə yararlılığının sınaqdan keçirilməsi üçün reallığa əsaslanan "fərziyyə" ssenariləri təqdim ediləcək.

## Sülhməramlı əməliyyatlara milli töhfə, ehtimal olunan motivlər və təsir edən amillər

Alimlər dövlətlərin sülhməramlı əməliyyatlara töhfə vermək səbəblərini bir çox amillərlə əlaqələndirirlər. Bellamy və Vilyams kimi müəlliflər dövlətlərin hansı əməliyyata töhfə vermə səbəbini vəziyyətə bağlı amil hesab etsə də Katham və Melinin ümumi faktorların müəyyənləşdirmənin mümkün olacağını bildirirlər [12, s.152]. Bəzi dəlillər göstərir ki, BMT-nin sülh, stabillik və insan haqları kimi institusional normalarını yaxından mənimsəmiş siyasi mədəniyyətə sahib dövlətlər BMT sülhü qoruma əməliyyatlarında iştirak etməyə üstünlük verirlər. Lakin mövzu ilə bağlı xeyli ədəbiyyat dövlətlərin sülhməramlı əməliyyatlarda iştirakına dar çərçivədə öz maraqları ilə bağlı motivlər (beynəlxalq siyasi status-kvonun qorunması, keçmiş koloniya və ticarət tərəfdaşlarının mühafizəsi, ittifaqlıq və təhlükəsizlik əlaqələrinin qorunması, məcburi köçkün axınının qarşısının alınması, sülhməramlı əməliyyatların aparıldığı, yaxınlıqda yerləşən dövlətlərin stabilləşdirilməsi kimi) daha çox rol oynayır [12, s.152]. Bununla da, dövlətlərin sülhməramlı əməliyyatlarda iştirakını zəruri edən amillər iki alt başlıqda (milli təhlükəsizlik hədəfləri və qərara təsir edən digər amillər) olaraq təhlilə cəlb olunacaqdır.

### *Milli təhlükəsizliyin hədəfləri*

Dövlətləri sülhməramlı əməliyyatlarda iştiraka təşviq edən ən başlıca amillər onların milli təhlükəsizlik hədəfləri ilə bağlıdır. Katham və Melinin qeyd etdiyi kimi, sülhməramlı əməliyyatlara dövlətlər tərəfindən hərbi töhfə vermək "…dövlətin özül maraqlarından" [12, s.152] irəli gəlir, Soyuq Müharibə dövründən sonra güclü dövlətlər (məs. ABŞ, Fransa və Almaniya) maliyyə və yüksək texnologiya ilə iştirak etdiyi halda, nisbi stabil və ya zəif ölkələr şəxsi heyətlə töhfə verirlər. Belə ki, son dövrlər BMT sülhməramlı əmə-

liyyatlarına töhfə verən dövlətlərin sıralamasını apardıqda yalnız hərbi və mülki heyəti ilə iştirak edən ilk iyirmi iki dövlət arasında bir Avropa ölkəsini görə bilirik [32].

Həm nəzəri, həm də praktiki mülahizələr sülhməramlı əməliyyatlara töhfə vermək istiqamətində dövlətlərə qərar vermək üçün müxtəlif motivlərin olacağını işarə edir. Məsələn, Zhengyu və Taylor [35], Çinin BMT-nin sülhməramlı əməliyyatlarda iştirakının təhlilini verərkən, Çin üçün əsas motivləri: 1) öz qüvvələrinin yerləşdirildiyi ərazilərdə siyasi vəziyyətə təsir etmək, 2) BMT-nin TŞ-nda güc balansına təsir etmək, 3) öz qlobal imicini gücləndirmək və 4) Afrikada özünün strateji mövcudluğu üçün beynəlxalq legitimliyi təmin etmək olaraq qeyd edir. Müəlliflər eyni zamanda özünün qanunvericiliyi və xarici siyasəti vasitəsi ilə bu tipli əməliyyatlarda iştirakla bağlı Çinin bir neçə hüquqi məhdudiyyətlərin tətbiq etdiyini müzakirə edirlər. Bu məhdudiyyətlər Çinin sülhün bərqərar edilməsi (sülhə məcbur etmə) əməliyyatlarında iştirak etməkdə və yaxud TŞ-da bu əməliyyatlara (qəbul edən ölkənin razılığına ehtiyac olmadığı) dəstək verməkdə həvəssiz olması faktında özünü büruzə verir. Belə etməklə, Çin dövlət suverenliyi prinsipini (BMT Nizamnaməsi tərəfindən təmin olunan), öz daxili məsələləri ilə məşğul olmaq hüququnu, hətta güc tətbiq etmək lazım gələrsə, tam dəstəkləyir.

Eyni ilə Braziliya sülhməramlı əməliyyatlarını təhlil edən Alsina [2] iddia edir ki, Braziliyanın təhlükəsizlik strategiyasında sülhməramlı əməliyyatlarda iştirak tam açıq milli təhlükəsizlik hədəfi olaraq əks olunmasa da, lakin bu hədəflər digər siyasi sənədlərdə öz əksini tapır. Bu isə Braziliyanın: 1) beynəlxalq stabilliyin qorunması və töhfə verilməsində arzu və qabiliyyətini; 2) əsaslı vasitələrə üstünlük verməklə, ölkənin müsbət imicini yaratmaq; 3) ölkənin təsir dairəsini həm BMT-də, həm də Braziliyanın iqtisadi maraqlarının təşviqi istiqamətində sülhməramlı əməliyyatlar keçirildiyi ölkədə və regionda artırmaq və 4) sahib ölkə ilə sülhməramlı missiyalarda həmrəylik niyyətini bildirir.

Digər tərəfdən, şəxsi heyətlə töhfə verərək "ilk onluğa" daxil olan ölkələrlə (ələlxüsus inkişaf edən Afrika və Asiya ölkələri) bağlı Katman və Melin iddia edir ki, burada motivlər: 1) iqtisadi və BMT-nin əməliyyatlarda iştirak edənlərə xərclərin geri qaytarılması sistemindən faydalanmağa; 2) silahlı qüvvələrdə yüksək hazırlığın saxlanılmasına; və 3) ölkədən xaricə qüvvə göndərilməsi ordunun idarəedici elitası tərəfindən hərbi çevriliş risklərinin azaldılmasına yönəlmişdir [12].

Lakin nisbətən kiçik olan, Portuqaliya kimi regional təhlükəsizlik təşkilatının (məs. NATO) üzvü olan Qərb demokratiyasını götürdükdə, biz onun iştirakında, xüsusi ilə BMT sülhməramlı əməliyyatlarında iştirak üçün müxtəlif səbəblərlə rastlaşırıq. Ceu Pinto qeyd edir ki:

"Portuqaliyanın sülhməramlı əməliyyatlarda iştirakı Portuqaliyanın dünyada mövqeyinin möhkəmlənməsi üçün lokomotiv olaraq görülür: beynəlxalq təşkilatların bayrağı altında iştirak etmək Portuqaliyanın xarici siyasətinin və diplomatiyasının profilini artırmış oldu [5].

Əlavə olaraq, müəllif sülh əməliyyatlarına hərbi iştirakla cəlb olunmanın aşağıdakı məqsədlərə xidmət edən xarici siyasətin de-fakto alətinə çevrildiyini bildirir:

"...BMT, AB və NATO daxilində təsir və nüfuzun əldə olunması və qorunması; Portuqaliyanın dünyanın ən mühüm siyasi qərar verici strukturlarında mövqeyini möhkəmlədir; Portuqaliya üçün strateji olan ərazilərdə beynəlxalq ictimaiyyətin, xüsusilə BMT-nin sülhməramlı əməliyyatlara cəlb olunması xahişinə yüksək legitimlik verir; və beynəlxalq strukturlarda yüksək səviyyəli postların tutulması üçün namizədlərin irəli sürülməsinə şərait yaradır" [5, s.72].

Beləliklə, bir çox demokratik sabit və inkişaf etmiş ölkələr kimi, dövlət gücünün və xarici siyasətin proyeksiyası Portuqaliya üçün hərtərəfli və müfəssəl təşkil olunmuş motivdir. Bu kontekstdə qeyd etmək yerinə düşər ki,

Portuqaliya hal-hazırda BMT-nin TŞ-nın Baş Katibi vəzifəsini icra edir [5, s.72].

Ermənistan Azərbaycan arasında davam edən münaqişə fonunda Ermənistanın sülhməramlı əməliyyatlarda iştirakının səbəblərinin təhlili də ayrıca əhəmiyyət kəsb edir.

Ermənistanın, Qafqaz regionunda Rusiyanın for-postu olmasına baxmayaraq, xüsusən son illərdə NATO ilə yaxın əməkdaşlıq və Avropanın bir çox ölkələri ilə, eləcə də Almaniya, Polşa, Yunanıstan, Fransa və İtaliya ilə ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin genişləndirdiyi müşahidə olunur. 2004-cü ildən NATO-nun Kosovadakı əməliyyatlarında ilkin olaraq Yunan qüvvələrinin tərkibində (35 nəfər), 2012-ci ildən ABŞ qüvvələri ilə birlikdə (35 nəfər), 2005-2008-ci illərdə İraqdakı əməliyyatlarda Koalisiya qüvvələrinin tərkibində Polşa kontingenti ilə birgə (46 nəfər), 2011-ci ildən NATO-nun Əfqanıstandakı “ISAF” missiyasında (46 nəfər) daha sonra “Qətiyyətli Dəstək Missiyasında” (121 nəfər) Almaniya qüvvələrinin tərkibində, 2014-cü ildən BMT-nin Livandakı “UNIFIL” missiyasında (33 nəfər) İtalyan qüvvələrinin tərkibində, BMT-nin Malidəki “MINISUMA” missiyasında Fransız qüvvələrinin tərkibində (2 nəfər) [10] və 2019-cu ildən Rusiya qüvvələri tərkibində Suriyada mina təmizləmə fəaliyyətlərində (83 nəfər) [13] sülhməramlı əməliyyatlarda iştirak edirlər. Sülhməramlı əməliyyatlarda iştirakın coğrafiyasından həm qərb ölkələri, həm də Rusiya tərəfindən dəstəklənən əməliyyatlarda aktiv iştirakından bu nəticəyə gəlinir ki, xüsusi ilə Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının işğalı fonunda Ermənistan bu tipli əməliyyatlardan xarici siyasətin mühüm bir vasitəsi kimi istifadə edir. Belə ki, dünyanın və Avropanın aparıcı ölkələri ilə ikitərəfli əlaqələri genişləndirmək, ölkə haqqında müsbət təəssürat yaratmaq, eyni zamanda Qarabağ münaqişəsi ətrafında gedən danışıqlarda və ümumiyyətlə beynəlxalq aləmdə özlərinin təcavüzkar deyil, əksinə sülhsevər xalq olduqlarını sübut etmək, özlərinin diplomatik gücünü artırmağa və xarici siyasi hədəflərinə nail olmağa çalışırlar. Sülhməramlı əməliyyatlarda iştirak etməklə və qərbyönlümü siyasət yürütməklə Avropaya inteqrasiya, Rusiya tərəfindən onlara qarşı olan mənfi təsirləri balanslaşdırmağa və Rusiyanın regional-strateji tərəfdaşı kimi Qərbin gözündə ölkənin əhəmiyyətini artırmağa səy göstərirlər [10]. Başqa bir məqam isə xüsusi ilə Livan və Suriyada etnik ermənilərin kütləvi şəkildə yaşamasını nəzərə aldıqda, Ermənistan dövlətinin dünyadakı bütün ermənilərin varisi kimi çıxış etməsi, onlara sahib çıxması və gələcəkdə də diaspora ermənilərinin gücündən istifadə edərək Azərbaycan və Türkiyəyə qarşı hər fürsətdə istifadə etmə istəyi ilə əlaqələndirilə bilər. Livan parlamentində erməni əsilli millət vəkillərinin aktivliyi, habelə istər birinci Qarabağ döyüşlərində Livan və Suriyadan erməni əsilli döyüşçülərin cəlb edilməsi, istərsə də atəşkəs dövründə isə Suriyadan erməni əsilli immiqrantların Qarabağa yerləşdirilməsi bu siyasətin tərkib hissəsi kimi qeyd oluna bilər.

Ermənistanın sülhməramlı əməliyyatlarda iştirakının digər mühüm səbəbi silahlı qüvvələrində institusional reformlarla və iqtisadi dividentlərlə əlaqədardır. Belə ki, NATO əməliyyatlarında iştirak etməklə, hərtərəfli müdafiə islahatlarından yararlanmaq üçün NATO-nun təklif etdiyi proqramlardan, təlim, məşq və kurslardan istifadə edir, eləcə də əməliyyatlarda ikitərəfli qaydada iştirak etdiyi ölkələrin (ABŞ, Almaniya, Fransa, İtaliya, Polşa, Rusiya, Yunanıstan) hərbi kontingentlərindən praktiki təcrübə əldə edir. Yerlərdəki əməliyyat təcrübəsi daha sonra ikitərəfli hərbi əməkdaşlığın dərinləşməsinə də öz töhfəsini verir. Bir başqa mühüm məqam isə iqtisadi amillərdir. Ermənistan BMT əməliyyatlarında iştirak etməklə, BMT-nin “xərclərin geri ödəmə sistemi“ndən faydalanır, ikitərəfli qaydada əməliyyatlarda birgə iştirak etdiyi ölkələr maddi texniki təminat dəstəyi göstərməklə yanaşı, şəxsi heyətin məvaciblərini də təmin edirlər. Bu da

öz növbəsində kiçik Ermənistan büdcəsini nəzərə aldıqda, beynəlxalq sülhməramlı əməliyyatlar hesabına beynəlxalq təcrübəli peşəkar zabit, gizir və şəxsi heyətin formalaşmasına töhfəsini verir [10].

Dövlətlərin sülhməramlı əməliyyatlara töhfə vermək üçün digər bir əhəmiyyətli stimul onların müdafiə qabiliyyətlərinin islahatları ilə bağlıdır (ya hər tərəfli/ institusional miqyasda ya da daha çox məhdud/ixtisaslaşmış sahədə). Bu kontekstdə, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində tərəfdaş ölkələr bu təşkilatlar tərəfindən təklif olunan müxtəlif proqramlardan istifadə etməklə, beynəlxalq təşkilatlarla müxtəlif səviyyələrdə (məhdud və ya hərtərəfli) tərəfdaşlıq edə bilərlər.

Bu prizmadan, NATO-nun aidiyyəti əməkdaşlıq paketləri təklif etməklə, tərəfdaş ölkələrlə əməkdaşlığa çoxşaxəli və özünəməxsus yanaşması vardır [19]. Tərəfdaş ölkənin təhlükəsizlik hədəflərindən, NATO ilə əməkdaşlıqda ambisiyasının səviyyəsindən və NATO-nun rəhbərlik etdiyi missiyalara töhfəsindən asılı olaraq, uyarlılıq, qabiliyyətlərin inkişaf etdirilməsi və müdafiəyə dəstək, təhlükəsizliklə bağlı islahatlara və s. dəstək vermək üçün bir sıra vasitə və mexanizmlər təsis etmişdir [18]. NATO müdafiə qabiliyyətinin demək olar ki, bütün aspektlərini, o cümlədən qarşılıqlı fəaliyyət üçün qüvvə standartlarını və üzvlər arasında vahid səylə hərəkət etmək qabiliyyətini standartlaşdırmışdır.

NATO bu təcrübəni, NATO-nun rəhbərlik etdiyi əməliyyatlarda və NATO “Çevik Həmlə Qüvvələri”nə (NRF) töhfə verən ölkələrlə bölüşür. Belə ki, tərəfdaş ölkələrin bölmələrinin NATO əməliyyatlarında və NRF-də iştirak etmədən əvvəl onların NATO qüvvələri ilə uyarlılıq səviyyəsinin artırılması üçün ikisəviyyəli (NATO-nun Qüvvə Standartlarının yoxlama sualları əsasında) “Əməliyyat İmkanları Konsepsiyası Qiymətləndirmə və Rəy” proqramı yaratdı. Bu proqram NATO əməliyyatlarına elan edilmiş bölmələrin qiymətləndirilməsi və uyarlılığı üçün taktiki bir vasitə olaraq və ya milli qiymətləndirmə sisteminin təkmilləşdirilməsi və silahlı qüvvələrdə aparılan islahatlara töhfə istiqamətində strateji mexanizm olaraq istifadə edilə bilər [16, s.i-3-4].

BMT nümunəsində, onun “Sülhüqoruma Qabiliyyətlərinə Hazırolma Sistemi” (SQHS) ehtimal olunan və BMT qərargahı ilə üzv dövlətlərin arasında hazırolma və lazımi sülhüqoruma qabiliyyətlərinin vaxtında göndərilməsinə əmin olmaq üçün dinamik prosesin yaradılmasına hədəflənmişdir [20, s.3]. Eyni zamanda canlı qüvvə ilə töhfə verən ölkələrə heyətinin göndərilməsi üçün “vahid pəncərənin” təmin olunmasına səy göstərir [14, s.16]. Lakin mövcud müdafiə islahatları ilə bağlı BMT-nin mövcud mexanizmləri heyətlə sülhməramlı əməliyyatlara töhfə verən ölkələrə və bu sahədə onların təcrübi biliklərini artırmaq üçün məhduddur. Onlar müdafiə islahatları üçün müdafiə ilə bağlı çox şaxəli paketlər və ya heyətlə töhfə verən ölkələr üçün digər transformasiya səylərini yerinə yetirmək üçün dəstək paketləri ilə təmin etmir.

Amerika Ştatları Təşkilatı, Afrika Birliyi, Avropa Birliyi, Kollektiv Təhlükəsizlik Şurası kimi digər potensial tərəfdaşlıq təşkilatlarında, özünün tərəfdaşları üçün çox şaxəli müdafiə islahatlarına dəstək təklif edən mexanizm və ya vasitələrə rast gəlinmir.

Son olaraq, belə nəticə çıxara bilərik ki, sülhməramlı əməliyyatlarda dövlətin iştirakı xarici və təhlükəsizlik siyasətindən meydana gələn geniş bir sahədir Buraya iqtisadi maraqların qorunması, regional sülh və təhlükəsizliyə töhfə vermək, ölkənin müsbət imicinin formalaşdırılması ilə, milli müdafiə islahatlarına dəstək vermək (hərtərəfli/institusional və ya məhdud sahədə xüsusi məqsədlər üçün), dünyanın ən çox siyasi və təhlükəsizlik təşkilatlarında ölkənin mövqeyinin gücləndirilməsi, sülhməramlı əməliyyatların göndərildiyi məkanda siyasi vəziyyətə təsirin artırılması və milli nüfuzun artırılması kimi maraqlar daxil oluna bilər.

*Qərara təsir edən digər amillər*

Beynəlxalq legitimlik: İkinci dünya müharibəsinin acı nəticələrini görən dünya dövlətləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məqsədi ilə 26 iyun 1946-cı il tarixində BMT nizamnaməsini imzaladılar. Nizamnamənin birinci maddəsinə əsasən, BMT-yə üzv olan ölkələr "Beynəlxalq sülhü təmin etməli və bu məqsədlə müştərək şəkildə beynəlxalq sülh əleyhinə olan təhdidlərin qarşısı alınmalı və ya aradan qaldırılaraq, eyni zamanda təcavüzkarlıq və sülhün pozulması fəaliyyətlərini əngəlləməlidirlər [6]. Nizamnamə beynəlxalq sülhün və təhlükəsizliyin təminatı üzrə əsas məsuliyyəti Təhlükəsizlik Şurasına (TŞ) verirdi. TŞ beynəlxalq sülhün və təhlükəsizliyin təminindən irəli gələn məsuliyyətlərini yerinə yetirmək üçün, sülhün qorunması əməliyyatları da daxil olmaqla, müxtəlif tədbirlər görə bilərdi. Sözügedən tədbirlərin hüquqi təməli Nizamnamənin VI, VII və VIII Fəsillərinə əsaslanır. VI fəsil "Münaqişələrin sülh yolu ilə həlli"; VII fəsil "Sülh əleyhinə olan təhdidə, sülhün pozulmasına və təcavüzkarlığa qarşı fəaliyyət"; VIII fəsil isə " Regional razılaşma" olaraq adlanır [33, s 13]. Ənənəvi olaraq, BMT Sülhü Qoruma Əməliyyatları Nizamnamənin VI fəsili ilə əlaqələndirilməsinə baxmayaraq, TŞ hər hansı BMT əməliyyatına səlahiyyət verərkən, sözügedən fəsilə istinad etmək məcburiyyətində olmamaqla yanaşı, indiyədək VI fəsilə müraciət etməmişdir. Bununla yanaşı, son illərdə TŞ dövlətin təhlükəsizlik və ictimai asayişi təmin edə bilmədiyi münaqişə sonrası həssas yerlərdəki BMT sülhməramlılarının əməliyyatları üçün VII fəsilə (əməliyyatın hüquqi əsasın təmin etməklə yanaşı münaqişə tərəflərinə qətiyyətli siyasi həll bəyanatının çatdırılma vasitəsi olaraq) müraciət etmək təcrübəsini qəbul etmişdir [33, s 14].

Hər bir sülhməramlı əməliyyatın idarə edilməsi üçün hüquqi əsasını təmin edən və məqsədlərini, habelə hüquqi və əməliyyat parametrlərini müəyyənləşdirən qətnaməyə ehtiyac vardır. Qətnamə səlahiyyətli beynəlxalq təşkilat tərəfindən (BMT, AB, Aİ, NATO) və ya "ev sahibi ölkə"nin öz ərazisində sülhməramlı əməliyyatın keçirilməsi üçün dəvəti, yaxud razılığı ilə qəbul edilir və bir çox hallarda hər ikisinin bərabər fəaliyyəti nəticəsində olur. BMT sülhməramlı əməliyyatları daima sahib ölkənin razılığına əlavə olaraq, BMT TŞ-nin qəbul etdiyi mandat əsasında fəaliyyət göstərir. Regional təşkilatlar tərəfindən icra edilən sülhməramlı əməliyyatların əksəriyyəti də ev sahibi ölkənin razılığı ilə birlikdə BMT TŞ-nin mandatı əsasında aparılır. Lakin güc tətbiqinin özünü müdafiə ilə məhdudlaşdığı sülhməramlı əməliyyatlarda TŞ mandatına ehtiyac duyulmur, ev sahibi ölkənin razılığı, ev sahibi ölkə ilə regional təşkilat arasındakı razılaşma və ya sülhməramlı əməliyyatı icra etmək üçün əldə edilən razılaşma mandat olaraq istifadə edilə bilər [14, s. 27].

Ev sahibi ölkənin razılığına əlavə olaraq, BMT-nin TŞ tərəfindən qəbul edilmiş mandat sülhməramlı əməliyyatın icra edilməsi üçün əlavə olaraq hüquqi baza yaradır. Əgər mandat BMT Nizamnaməsinin VII fəslinə uyğun olaraq təsdiqlənərsə, mandat əməliyyatın keçirilməsinə razılıq verən ev sahibi dövləti tərəfindən müəyyən edilmiş şərtlərdən üstün olacaqdır [14, s. 29].

Ev sahibi ölkənin razılığının olmadığı hallarda, BMT Nizamnaməsinin VII fəslinə əsasən qəbul olunan mandat, sülhməramlı əməliyyatın icra edilməsi məqsədi ilə bir dövlətin ərazisinə bölmələrin və digər şəxsi heyətin yerləşdirilməsi üçün ciddi qanuni əsasdır. Bu tələb, ancaq TŞ-nın icazəsi ilə, əməliyyatın birbaşa BMT tərəfindən, regional bir təşkilat tərəfindən və ya BMT-dən və ya başqa bir təşkilatdan müstəqil şəkildə fərdi dövlət tərəfindən keçirilməsindən asılı olmayaraq tətbiq edilir [14, s. 30].

Sülhməramlı əməliyyatlarda, mandatla müəyyən edilmiş şərtlərə əlavə olaraq, hər zaman beynəlxalq hüququn bütün müvafiq və tətbiq olunan qaydalarına uyğun hərəkət etmək və beynəlxalq qanuna və mandata uyğun sahib ölkə qanununa hörmət etmək tələb olunur. Əlavə olaraq, Qüvvə Töhfə edən Ölkələr öz

sülhməramlı kontingentlərindən milli qanunların müvafiq protokollarına riayət etməyi tələb edir [14, s. 31].

Nizamnamənin VIII fəslinin 52-nci maddəsinə əsasən, regional təşkilatlar (məs: Avropa və Afrika İttifaqı) belə əməliyyatları keçirmə qabiliyyətli beynəlxalq təşkilatlar da beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi üçün öz regionlarında sülhməramlı əməliyyatların keçirilməsi üçün qətnamə qəbul etmək səlahiyyətinə malikdir. 1990-cı ildən etibarən, BMT sülh və təhlükəsizlik sahəsində daha praqmatik yanaşma göstərərək, əhatə dairəsi regional olmayan digər beynəlxalq təşkilatların da bu sahədəki fəaliyyətlərini TŞ təsdiqləmiş, xoş qarşılamış və ya müsbət xarakterizə etmişdir. Belə olan hallarda qətnamə qəbul edilərkən, Nizamnamənin VIII fəsli qeyd edilməmişdir. Regional təşkilat və tənzimləmələrin yerinə yetirdiyi sülhməramlı əməliyyatlar BMT sülhməramlı əməliyyatlarından fərqlidir, hətta bəzi hallarda BMT TŞ-na məruzəetmə ilə bağlı öhdəlikləri belə bu fərqliliyi azaltmır. Buna görə də, prinsipcə regional təşkilatın və tənzimləmələrin hərəkətləri hüquqi baxımdan BMT-yə deyil, onlara aiddir [14, s. 34-40]. Əlavə olaraq, VIII fəslin 53-ncü maddəsinə əsasən: “TŞ regional təşkilatlanan təsisatlara və agentliklərə məcburetmə tədbirləri üçün səlahiyyət verə bilər. Lakin heç bir halda regional təşkilatlanan təsisatlar və agentliklər TŞ-nın qətnaməsi olmadan məcbur etmə tədbirləri həyata keçirə bilməzlər” [6].

Sülhməramlı əməliyyatlarda iştirak üçün mövcud mexanizmlər: Dövlətlər sülh və stabilliyin təmin olunması adına fərdi şəkildə fəaliyyət göstərə biləcəkləri kimi, adətən bu tip əməliyyatlar BMT və ya digər beynəlxalq və regional təşkilatlar çərçivəsində həyata keçirilir. Soyuq Müharibənin başa çatması ilə BMT sülhü qoruma missiyalarının xeyli sayda artması (ən böyüklərindən biri, daha çox müasir Qərbi Avropa tipli hərbi kontingentinin heyəti hesabına komplektləşdirilmiş, Qərbi Balkan regionunda baş vermişdir) milli maraqlarda və prioritetlərdə baş verən dəyişikliyin nəticəsi (regional təşkilatların, ələlxüsus Avropa Birliyi və NATO-nun böyük marağı) kimi görülə bilər. Bu dəyişikliyin kökündə yatan əsas səbəblər Qərbi Balkanlardakı münaqişələrin nisbi olaraq hərtərəfli sülh sazişi ilə tənzimlənməsi və regiona sərhəd olan Avropa İttifaqı ölkələrinin stabilliyinə yaxın təhlükənin olması ilə izah oluna bilər.

Daha sonra, NATO-ya üzv dövlətləri tərəfindən 2001-ci ildə Əfqanıstanda kollektiv fəaliyyət və ardından ABŞ-ın rəhbərliyi ilə 2003-də İraqda formalaşdırdığı koalisiya qüvvələri “Qərb dünyasının” sülhməramlı əməliyyatlarda iştirak mexanizminin seçimi baxımından xarici siyasətinin prioritetlərinə təsir göstərmiş oldu. Bu müstəvidə Katman və Melin mülahizə edir ki, “güclü Qərb dövlətləri BMT sülhməramlı əməliyyatlarında şəxsi heyətlə töhfəsini azaldır daha çox maliyyə, texnika və texnologiya ilə töhfəsini artırır… yerinə isə daha az inkişaf etmiş ölkələr Qərb dövlətlərindən qalan boşluqları doldururlar” [12, s.152]. Buna əlavə olaraq, son iki onillikdə güclü dövlətlər (məs. ABŞ və Rusiya) milli təhlükəsizlik hədəflərinə çatmaq üçün fərdi intervensiyalar icra etmişdir.

Nəticədə, milli təhlükəsizlik maraqlarından, mövcud resurs və geosiyasi kontekstdən asılı olaraq, dövlətlər BMT çətiri altında, regional təhlükəsizlik təşkilatlarının rəhbərliyi altında, müxtəlif koalisiyalar çərçivəsində və ya fərdi şəkildə sülhməramlı missiyalarda iştirak edib etməməyi qərar verə bilər.

**Maliyyə resursları:** Ölkənin sülhməramlı əməliyyatlarda iştirakı ilə bağlı qərarına təsir edə bilən digər bir ciddi amil bu növ fəaliyyətin maliyyə yükü məsələsidir. Gaibulloev və digərləri tərəfindən aparılmış tədqiqatların nəticəsinə görə, indikatorlar göstərir ki, “ölkənin adam başına düşən ümum daxili məhsulu qalxdığı halda, BMT sülhməramlı missiyalarına göndərilən şəxsi heyətin sayında azalma müşahidə olunur” [9]. Bu nəticələr göstərir ki, öz əməliyyatlarını özləri maliyyələşdirən və ümumi imkan və qabiliyyətlər (məs. müşahidə, havadan müdafiə, strateji hava daşıması və s.)

üçün maliyyə yükünü bölüşən daha zəngin ölkələr (NATO və Avropa Birliyi kimi) regional təşkilatlar tərəfindən keçirilən sülhməramlı əməliyyatlarda iştiraka daha çox meyillidirlər. Bundan əlavə, öz maraqlarının müdafiəsi üçün regional və qlobal oyunçular sayılan ölkələr ya tək ya da bir neçə koalisiya tərəfdaşları ilə birlikdə əməliyyatlar icra edir, həmçinin maliyyə yükünün çox hissəsini öz üzərilərinə götürürlər.

Digər tərəfdən Gaibulloev və digərləri iddia edir ki, "təhlilə cəlb edilmiş dövr ərzində (1990-2012), görünür ki, BMT sülh əməliyyatlarına töhfə verən ölkələr əsasən regional stabilliyin əldə edilməsi kimi spesifik qazanclara deyil, daha çox maddi qazanc eldə etmək üçün şəxsi heyətini göndərməyə maraq göstərmişdir" [9, s.738]. Buna görə də, şəxsi heyətlə töhfə verən ölkələrin ilk onluğunda, hansılar ki, xüsusi ilə "üçüncü zona dövlətləri" BMT sülhməramlı missiyalarına şəxsi heyət göndərməklə, BMT hər bir təhkim olunan şəxsi heyət üçün xərcləri geri qaytardığı üçün özlərinin müdafiə büdcəsini artırmış olur. Əsgər və onu göndərən ölkə arasında geri qaytarılan vəsait 50-nin 50-yə bölüşdürülməsinə baxmayaraq, əsgər öz vətənində xidmət etdiyindən daha artıq qazanır [8]. Bu kontekstdə, BMT əməliyyatlarında ilk onluğa girən bəzi ölkələrin hər bir sülhməramlı üçün illik xərclərinə nəzər salmaq yerinə düşərdi: Banqladeş (4,553 min ABŞ dolları); Hindistan, (9,768 min ABŞ dolları); Nepal, (1,892 min ABŞ dolları); Pakistan, (3,417 min ABŞ dolları) [9, s.729]. Hal-hazırda, BMT-nin xərclərin geri ödənilməsi sistemi vasitəsi ilə BMT əməliyyatlarında iştirak edən hər bir əsgər və polisə geri ödənilən aylıq məbləğ 1410 ABŞ dollarıdır, illik 16920 ABŞ dolları həcmindədir [8]. Lakin müqayisə etsək, inkişaf etmiş ölkələrin hərbi qulluqçuları üçün bu vəsaitin miqdarı olduqca çoxdur. Kanada (137,054 min ABŞ dolları), Fransa (119, 273 min ABŞ dolları), İtaliya (156,181 min ABŞ dolları) Amerika Birləşmiş Ştatları (138,465 min ABŞ Dolları) kimi ölkələri bunlara nümunə olaraq göstərə bilərik [9, s.730].

Nəticədə, sülhməramlı əməliyyatlarda iştirakla bağlı qərar qəbul etmədən öncə və ölkənin xarici siyasətindən və ümum daxili məhsulu indeksindən asılı olaraq, qərar qəbul edənlər bu qəbildən olan addımların maliyyə təsirini nəzərə almalıdır (məsələn əgər maliyyə yükünün bölüşdürülməsinə BMT-nin geri ödəməsi vasitəsi ilə yardım və yaxud öz resursları hesabına maliyyələşdirməyə gedərsə).

**İtki riskləri:** Ehtimal olunan yüksək itki faktoru dövlətin sülhməramlı əməliyyatlarda iştirak edib etməyəcəyi ilə bağlı qərarına təsir edən ciddi amil ola bilər. Tarixə nəzər yetirdikdə, böyük itki sayına görə ölkələr sülhməramlı əməliyyatlardan qüvvələrini çəkdiyini görmək olar (məs. 1992-ci ildə ABŞ qüvvələrinin Somalidən çəkilməsi, NATO ISAF missiyasının 2014-cü ildə başa çatmasından əvvəl bir sıra ölkələr qüvvələrini Əfqanıstandan geri çəkdilər). Buna görə də, qərarı formalaşdıran şəxslər, planlama prosesi zamanı tarixi aspektləri və faktları, potensial gələcək təhdidləri və itki sayına təsir edə biləcək amilləri nəzərdən keçirilən əməliyyat növlərində nəzərə almalıdırlar. Daha vacib məsələ isə, ehtimal olunan itki səviyyəsinin dövlətin sülhməramlı əməliyyata qüvvə göndərməklə, əldə etməyi planlaşdırdığı siyasi hədəflərə dəyib dəymədiyini, eləcə də "cəmiyyət tərəfindən qəbul edilən" itki səviyyəsi nəzərə alınmalıdır.

Sülhməramlı əməliyyatlarda iştirakın mümkün fəsadları: Töhfə verən ölkələr xüsusi ilə BMT tərəfindən VI fəslə müvafiq sülhməramlı əməliyyatlar keçirilərkən, aşağı səviyyədə mənfi sosial, siyasi və yaxud iqtisadi təsirlərə, BMT-nin TŞ-nın yüksək profilli VII fəslinin səlahiyyət verdiyi sülh əməliyyatları (məcbur etmə - bəzi hallarda səlahiyyət verilməmiş) zamanı isə yüksək səviyyəli mənfi təsirlərə məruz qala bilər. Sözügedən mənfi təsirlər əməliyyatın keçirildiyi ölkədə sülhməramlıların yerləşdirilməsinə razı olmayan tərəflər (hərbi, yaraqlı, terrorist və b.) tərəfindən yaradıla biləcəyi kimi, iştirak edən ölkənin əhalisinin geniş bölməsinin yüksək itki səviyyəsinə ictimai reaksiyası səbəbi ilə də ola bilər (məs: ABŞ cəmiyyətinin Vyetnam müharibəsi-

nə qarşı etiraz mitinqləri [34]). Digər potensial mənfi təsir iştirak edən ölkənin informasiya və kiber məkanına hücum göstərilə bilər. Qeyri-dövlət oyunçuları tərəfindən özlərinin iqtisadi və digər maraqları məqsədi ilə etdikləri kiber hücumlar artmaqdadır. Proksi terroristlər özlərinin hücum imkanlarını artırmaq məqsədilə kiber qabiliyyətlərini artan xətt boyu tətbiq edirlər. Kiber təhdidlərin mənbəyinin aydın şəkildə aşkarlana bilməməsi bu kimi təhdidləri müəyyən edərək mübarizə aparılmasını çətinləşdirir [4].

Həmçinin, iştirakla bağlı xərclərin həddindən artıq ekspozisiyası ölkə iqtisadiyyatına, xüsusi ilə BMT çətiri altında olmayan əməliyyatlara mənfi təsir göstərə bilər. ABŞ-ın Əfqanıstanda keçirilən əməliyyatlardakı xərclərinin 975 milyard dollar dəyərində olması qiymətləndirilmişdir. Bu ABŞ tarixində ikinci ən bahalı müharibədir (II dünya müharibəsindən sonra). Əlavə olaraq, Kiberli Amadeo qeyd edir ki:

“ABŞ şirkətləri, xüsusi ilə kiçik sahibkarlar Milli Qvardiya və Ehtiyatda olanların hərbi sıralara çağırışları ilə mənfi təsirlərə məruzə qalırdı. İqtisadiyyat həmçinin həlak olmuş, yaralanmış və ya psixoloji travma almış çağırışçıların məhsuldar töhfələrindən məhrum olmuşdur” [3].

Sonda, legitimliyi olmayan və ya qəbul edən ölkənin razılığı olmayan əməliyyatlarda iştirakın iqtisadi, siyasi və diplomatik olaraq mənfi nəticələri ola bilər (məsələn: üçüncü tərəf iqtisadi sanksiyalar tətbiq edir, beynəlxalq imicin itirilməsi və ya diplomatik təcrid olunma).

Sülhməramlı əməliyyatların növləri, tapşırıqları və tələb olunan qabiliyyətlər: Sülhməramlı əməliyyatlarla bağlı doktrinal terminologiya məsələləri NATO [1], Avropa Birliyi [31] və Afrika Birliyində [22] qismən fərqli olduğu üçün, bu məqalədə BMT tərəfindən verilmiş təsnifat əsas götürülür. Ona görə ki, BMT-nin təsnifatı daha çox ümumişlək və yuxarıda sözügedən regional institutlar özlərinin sülhməramlı əməliyyatlar doktrinalarının mənbəyini (cüzi fərqli interpretasiya ilə) buradan götürmüşdürlər. Buna görə də sülhməramlı əməliyyatlarda iştirakla bağlı milli qərar qəbuletmə prosesinə cəlb olunmuş şəxslərə regional təhlükəsizlik təşkilatlarının rəhbərliyi altında öz milli qüvvələrini təhkim etməsini nəzərdən keçirdikdə təfərrüatlı doktrinal xüsusiyyətləri yaxından nəzərdən keçirmələri təklif olunur.

BMT-nin sülhməramlı əməliyyatlar üzrə sonuncu doktrinal nəşrində əməliyyatlar aşağıdakı şəkildə təsnif edilmişdir [33, s.19]:




**Şəkil 1.** BMT-nin Əsas Doktrinasına əsasən sülhməramlı əməliyyatların təsnifatı

**Münaqişənin önlənməsi:** mübahisəli məsələlərin artaraq açıq münaqişəyə çevrilməməsinin qarşısının alınması üçün diplomatik səylərin və fəaliyyətlərin tətbiqi;

**Sülhyaratma:** münaqişədə iştirak edən tərəflər arasında sülh sazişinə nail olmaq üçün diplomatik fəaliyyətlər vasitəsi ilə davam edən münaqişələrin dayandırılmasını nəzərdə tutur;

**Sülhün qorunması:** Tərəflərin razılığı əsasında sülh razılaşmasını həyata keçirmək üçün hərbi və mülki imkanlar tərəfindən çoxvektorlu fəaliyyətləri ehtiva edir;

**Sülhün bərqərar edilməsi (məcburetmə):** BMT-nin Təhlükəsizlik Şurasının təsdiqi ilə münaqişəyə cəlb olunmuş tərəflərin və ya qəbul edən ölkənin razılığı olmadan beynəlxalq sülh və təhlükəsizliyin qurulması üçün hərbi güc də daxil olmaqla məcburi tədbirləri ehtiva edir;

**Münaqişə sonrası sülhün bərpası (sülh quruculuğu):** davamlı sülh üçün ilkin şəraitin yaradılmasına hesablanan uzun müddətli və mürəkkəb proses, müfəssəl yanaşma vasitəsi ilə münaqişənin daha dərin struktural səbəblərini aradan qaldırmağa istiqamətlənir.

Missiyanın hədəflərinə nail olunmasına töhfə vermək üçün çoxvektorlu əməliyyatlarda hərbi komponentlər bir sıra tapşırıqlar icra etməlidirlər [Sülhməramlı əməliyyatlarda icra edilən tapşırıqların ətraflı siyahısı NATO-nun müvafiq sənədində verilmişdir. (Bax: AJP-3.4.1. (2014), səh. 4-2 to 4-10.)]. Bu tapşırıqların bəziləri müştərək xüsusiyyətlərə sahib olub, bir çox sülhməramlı əməliyyat növlərində tətbiq oluna bilər, digərləri məxsusi sülhməramlı əməliyyatlar üçün spesifik ola bilər. Aşağıdakı hərbi tapşırıqların siyahısı məhdud olmayıb, aidiyyəti missiyanın mandatından asılı olaraq uyğunlaşdırıla bilər:

- Texniki kəşfiyyat vasitələri ilə müşahidə / Erkən xəbərdarlıq,
- qabaqlayıcı tədbir olaraq sülhməramlıların münaqişə zonasına yerləşdirilməsi,
- sanksiya və embarqo fəaliyyətlərinin tətbiqi,
- münaqişə tərəflərin güc tətbiqi ilə ayrılması,
- mühafizə oluna təhlükəsiz ərazilərin yaradılması və nəzarət edilməsi,
- hərəkət azadlığı və qadağasının tətbiqi,
- uçuşun qadağan olduğu hava məkanının yaradılması və tətbiqini məcbur etdirmə,
- atəşkəs və sülh sazişlərinə rəhbərliyin edilməsi,
- mülki əhalinin mühafizəsinə dəstək,
- qüvvə mühafizəsi və təhlükəsizlik,
- sülhməramlıların münaqişə tərəfləri arasında yerləşdirilməsi,
- müşahidə və monitorinq,
- keçid dövrünə yardım (seçki prosesinə dəstək, ilkin təhlükəsizlik sektoru islahatlarına dəstək, minalanmış ərazilərin təmizlənməsinə dəstək və s.),
- humanitar yardım,
- dəniz təhlükəsizliyi əməliyyatları.

**Ehtiyac olan qabiliyyətlər:** Missiya və əməliyyat şəraitindən asılı olaraq, çoxvektorlu sülh əməliyyatlarında hərbi tapşırıqların icrası hərbi polis, minalardan təmizləmə bölmələri, logistika, kəşfiyyat, səhra tibb məntəqələri də daxil olmaqla bir sıra müxtəlif qabiliyyətlər, eləcə də quru, dəniz və hava qabiliyyətlərinə də ehtiyac duyulur.

## Ümumi Morfoloji Təhlili (ÜMT) metodu ilə elmi modelin qurulması

Məqsəd siyasi və hərbi rəhbərlər, həmçinin mülki və hərbi planlama işi ilə məşğul olanlar üçün, sülhməramlı əməliyyatlarda iştirakla bağlı qərar qəbuletmə prosesinin asanlaşdırılması üçün, xüsusi olaraq hazırlanmış kompüter proqram təminatının köməyi ilə (Carma) Qərar Dəstək Modeli hazırlamaqdır. Bununla yanaşı, hazırlanan Qərar Dəstək Modeli vasitəsi ilə sülhməramlı əməliyyatlarda iştirakın milli təhlükəsizliyə təsirləri qiymətləndirilə bilinə bilər. Lakin Qərar Dəstək Modelinin hazırlanma prosesini təsvir etmədən əvvəl elmi müstəvidə modelin nə olduğunu və ÜMT vasitəsilə elmi modelin necə qurulduğunu bilmək faydalı olardı. Çünki ÜMT məhz qeyri-müəyyən, mürəkkəb problemlərin modelini quraraq, onları qeyri-müəyyənlikdən, məchulluqdan çıxarır və təzahür etmə arealını müəyyən edir.

### *Elmi model anlayışı*

Model təbiətdə və ictimai həyatda mövcud bir fenomenin və ya hər hansı bir mürəkkəb sistemin mahiyyətinin təzahür formasıdır. Modelləşdirmə hipotez, konsepsiya və nəzəriyyə kimi elmi biliyin əldə edilməsi və inkişaf etdirilməsi, onun daim dərinləşdirilməsi, genişləndirilməsi, habelə təkmilləşdirilməsi istiqamətində insan idrak prosesinin əsas yollarından biridir. Modelləşdirmə idrakın elə xüsusi üsuludur ki, bir sistem (tədqiqat subyekti) başqa sistemdə (modeldə) yenidən canlandırılır [28, s.305].

ÜMT metodunu inkişaf etdirən alim Tom Ritçi hər nə qədər də elmi modelin yekdilliklə qəbul olunmuş bir tərifinin olmadığını söyləsə də, o elmi modelin nə olduğunu izah etmək üçün aşağıda qeyd olunan üç mütləq şərtin olduğunu iddia edir [27, s.12].

• Elmi model mütləq şəkildə ən az iki dəyişəndən ibarət olmalıdır. Məhz bu dəyişənlərin dəyərlərinin, bir-birinə nəzərən dəyişməsi nəticəsində biz modelin necə çalışdığını müşahidə edirik. ÜMT-də bu dəyişənlər modelin “parametrləri” adlanır. Bu parametrlər ölçülə bilən faktorların çoxluğudur. Bu faktorlar çoxluğunun bir-biri ilə münasibəti, qarşılıqlı əlaqələri fenomenin, məsələnin və ya problemin mahiyyətinin nə olduğunu, xüsusiyyətlərini və davranışlarını müəyyən edir. Parametri ölçülə bilən çoxluq olaraq qəbul edirik və bu çoxluğun hər hansı bir elementi həmin parametrin dəyəri adlanır. Nümunə olaraq meteoroloji modelə baxaq: Hər bir meteoroloji modelin ən az iki dəyişəni olur. Bu dəyişənlər istilik, rütubət miqdarı, küləyin sürəti, hava axınının istiqaməti (şaquli və ya üfüqi) və sairə ola bilər. İstiliyin, rütubət miqdarının və küləyin sürətinin, istiqamətinin müxtəlif ölçüləri isə hər bir parametrin dəyərləri kimi təşəkkül tapır.

• Elmi modelin parametrlərinin dəyərləri arasında əlaqə olmalıdır. Bu əlaqə səbəb-nəticə, məntiq, statistika və s. əsasında qurula bilər. Meteoroloji modeldə bəhs etdiyimiz istilik, rütubətin miqdarı və ya küləyin sürəti kimi dəyişənlər arasında mütləq şəkildə əlaqə mövcuddur. Məsələn, biz bilirik ki, istilik artıqda rütubətin miqdarı da artır. Demək, istilik ilə rütubətin miqdarı arasında doğru korrelyasiya/nisbət mövcuddur.

• Elmi modelin işləmə prinsiplərini anlamaq üçün müəyyən verilənlər daxil edilməli (giriş) və daxil edilən verilənlərin modeldə əmələ gətirdiyi dəyişikliklər (çıxış) müşahidə edilə bilməlidir. Yəni elmi modelin girişi və çıxışı olmalıdır. Fərz edək ki, statistik məlumat əsasında qurduğumuz meteoroloji model vasitəsilə beş gün sonrakı meteoroloji vəziyyəti təxmin etmək istəyirik. O zaman bu günə aid küləyin sürətini və hərarətini modelə daxil edərək (modelin girişi) modeldəki dəyişikliyi, yəni beş gün sonrakı meteoroloji vəziyyəti müşahidə edirik (modelin çıxışı).

Qeyd edilən bu üç şərti nəzərə alaraq demək olar ki, elmi model parametrlərin dəyərləri arasında olan əlaqələrin bəsitləşdirilmiş təsviridir. Başqa bir sözlə, model maddi və ya mücərrəd təsvir edilə bilən elə bir prosesdir ki, tədqiqat zamanı orijinal fenomen daha bəsit obyekt ilə əvəz edilir və bu bəsitləşdirilmiş obyektin bilavasitə öyrənilməsi nəticəsində orijinal fenomen haqqında yeni biliklər əldə edilir [29]. Mürəkkəb fenomenlər məhz model vasitəsilə öyrənilə bilər. Unutmamaq lazımdır ki, model latınca sumilacrum (oxşarlıq, eynilik) olduğu üçün heç bir zaman təsvir etdiyi orijinal fenomenin eynisi ola bilməz. Məhz buna görədir ki, model vasitəsilə real həyatda baş verən mürəkkəb fenomenlərin idrak edilməsində hər zaman yanılma ehtimalı var. Elmi model düşünmə prosesini dəstəkləmək üçün özünəməxsus bir idrak vasitəsidir [7, s.61].

Yuxarıda bəhs edilən meteoroloji model elmi modellərə səciyyəvi nümunə təşkil edir. Təbiətdə baş verən mürəkkəb meteoroloji hadisələri təfərrüatlı, müfəssəl şəkildə anlamaq insan idrakının fövqündədir. Herbert Simonun [11] “məhdud rasionallıq (bounded rationality)” adlı nəzəriyyəsinə əsasən, insan həyatda

baş verən mürəkkəb hadisələrin mahiyyətini anlamaqda çətinlik çəkir, məhz buna görə də hətta ana bətnində aldığı ilk stimuli əsasında təhtəlşüur səviyyədə real dünyanın modelini qurmağa başlayır və bu model vasitəsilə baş verən mürəkkəb hadisələri anlamağa çalışır. Meteoroloji modellər vasitəsilə havanın gələcəkdə necə olacağını təxmin etməyə çalışırıq. Bu modellərin bəzilərinin təxminetmə dəqiqliyi yüksəkdir bəziləri isə dəqiq təxminlər vermir. Eləcə də insanların qurduğu əqli (mental) modellərin bəziləri reallığa yaxın bəziləri isə reallıqdan uzaqdır və ya reallığı əks etmir.

### *ÜMT metodunun tətbiqi*

ÜMT metodu real həyatda baş verən, müşahidə edilərək, idrak edilməsi mürəkkəb və dinamik olduqları üçün çox çətin, hətta bəzi hallarda imkansız olan qeyri-müəyyən problemlərin ilk öncə parametrlərini müəyyən edib, daha sonra bu parametrlərin dəyərləri arasında bütün mümkün əlaqələri tədqiq edərək və əlaqələndirərək, elmi model qurmaqdır. ÜMT metodunda qeyri-müəyyən problemlərin modelləşdirilməsi analiz və sintez olmaq üzrə iki ardıcıl mərhələdən ibarətdir. Bu mərhələlər ardıcıl olmaqla bərabər, iterativlik (təkrar olunma) bu mərhələlər üçün səciyyəvidir [24, s.2].

Analiz və sintez əsas elmi və məntiqi metod olaraq, bütöv sistemin dərkedilmə üsulu kimi mücərrədləşdirmə (abstraksiya) və konkretləşdirmə ilə əlaqədardır. Mücərrədlik təfəkkürün elə prosesidir ki, elmi, obyektiv idraka çatmaq üçün predmetin ən əhəmiyyətli dəyişənləri haqqında anlayış formalaşır. Mücərrədliyin yaranma yolu hər şeydən əvvəl analitik yoldur, yəni predmeti onun təşkil edən komponentlərə (dəyişənlərə və ya parametrlərə) bölmək və ən mühümlərini seçib ayırmaq yoludur. Konkretlik, tədqiq olunan predmetin mücərrədləşdirmə (analitik) prosesi zamanı ayrılan anlayışlarının (komponentlərinin, parametrlərinin və ya dəyişənlərinin) sintez prosesi nəticəsində bu anlayışlar arasında mürəkkəb əlaqələrin (statistik, məntiqi, səbəb-nəticə, riyazi və s.) cəmi ilə bütöv halında birləşdirilməsidir [28, s.306-307].

ÜMT-nin birinci mərhələsi olan analiz mərhələsində tədqiqat subyektinin mühüm parametrləri müəyyən edilir. Parametrlər müəyyən edildikdən sonra, hər bir parametr üçün ayrı ayrılıqda ölçülə bilir dəyərlər müəyyən edilir. Bu mərhələ ÜMT-nin çətin və diqqət edilməsi lazım olan mərhələsidir. Mühüm parametrlərin və onların dəyərlərinin doğru şəkildə müəyyən edilməsi modelin işəyararlığının təminatçısıdır. Parametrlər həm ordinal (sıra şəklində ardıcıllıqla düzülən) həm də nominal (heç bir ardıcıllığı olmayan) dəyər aralığını ehtiva edə bilər. Analiz mərhələsində parametrləri və onların dəyərlərini təsvir etmək üçün təbii dil istifadə edilir, lakin mücərrəd anlayışlardan istifadə də mümkündür [25, s.3].

Parametrlərin və onların dəyərlərinin qarşılıqlı düzülməsi n-dəyişən konfiqurasiyalı morfofəzanı əmələ gətirir. Bu fəzadakı müəyyən bir konfiqurasiya hər parametrdən bir dəyərin-seçilməsi ilə əmələ gəlir (Şəkil 2-dəki matrisdə qara hücrələr), və beləliklə bir vəziyyəti, və ya mürəkkəb fenomenin / problemin mümkün həll yollarından birini müəyyən edir [25, s.3].

Morfofəza quruluş şəklinə görə tipologiyadır. Tipologiya vasitəsi ilə model fiziki məkanın (maddi dünyanın) dəyişənləri istifadə edilərək təsvir edilir. İki və daha çox dəyişənin kəsişmə nöqtəsində, başqa sözlə, dəyişənlərin dəyərləri arasında qurulan əlaqələrdən, "tiplər" ortaya çıxır. Bəsit tipologiya modelinə nümunə olaraq, fərqli siyasi sistemlərdə (demokratik və avtoritar) bazara olan müdaxilə nəticəsində (sərbəst, nəzarət edilən) ortaya çıxan dörd "tip" market tipologiya vasitəsilə şəkil 3-də təsvir edilir. Lakin, yaşadığımız maddi dünya üç həmcins dəyişəndən ibarət (hündürlük, en və uzunluq) olduğu üçün üçölçülü fəzada tipologiya vasitəsi ilə üçdən artıq dəyişənli model [Tipologiya da bəsit bir elmi modeldir] qurula bilmir.




**Şəkil 2:** 6 parametrli morfo-fəza. Qaraldılmış hücrələr 4800 mümkün konfiqurasiyadan birini təsvir edir.

| | Demokratik market | Avtoritar |
|---|---|---|
| Sərbəst | Liberal market | Ənənəvi |
| Nəzarət edilən | Sosial market | Totalitar |

**Şəkil 3:** dixtomiyadan ibarət iki dəyişənli (siyasi idarəetmə və bazara nəzarət sistemi) tipoloji model. Həll konfiqurasiyasının (tip) sayı 4-dür.

| Siyasi sistem | Bazara nəzarət |
|---|---|
| Demokratik | Sərbəst |
| Avtoritar | Nəzarət edilən |

**Şəkil 4:** dixtomiyadan ibarət iki dəyişənli (siyasi idarəetmə və bazara nəzarət sistemi) morfoloji modeli.

Tipologiyada ən çox üç dəyişənin (parametrin) dəyərləri arasında əlaqə qurmaq mümkün olarkən, morfofəzada bu əlaqələrin və ya əlaqələr nəticəsində əmələ gələn konfiqurasiyaların sayı sonsuz sayda ola bilər. Tipologiya vasitəsilə təsvir edilən marketlərin təsviri bir də morfofəza vasitəsilə şəkil 4-də göstərilmişdir. Nəzərə almaq lazımdır ki, tipologiyada morfofəzadan fərqli olaraq, parametrlərin üfüqi və şaquli düzülüşündən əmələ gələn tiplərə müəyyən adlar verilir. Morfofəzada parametrərin çoxluğu səbəbi ilə parametrlər qarşılıqlı düzülür və tiplərə ad verilmir.

İndiktuvist elmi metodun əleyhinə çıxan Karl Popper hesab edirdi ki, elmi bilikdə həqiqəti tapmaq, seçmək, müəyyənləşdirmək mümkün deyil, lakin yalanı daim üzə çıxarmaq və kənarlaşdırmaq yolu ilə (empirik falsifikasiya) həqiqətə yaxınlaşmaq olar [28, s.281]. ÜMT-nin sintez mərhələsi də məhz, n-dəyişən konfiqurasiyalı morfofəzada bir-biri ilə uyarlı olmayan parametr və dəyərlərin məntiqi, empirik və normativ cəhətdən hansının mümkün və tətbiq oluna bilir olub-olmadığını tədqiq edərək kənarlaşdırılması prinsipi əsasında işləyir. Beləliklə tədqiq edilən fenomen haq-

qında yaradılmış morfofəzada daxili ziddiyyətlərdən və uyarsızlıqlardan kənarlaşdırılmış həll sahəsi yaranmış olur. Lakin, 6-10 dəyişəni (parametri) olan səciyyəvi morfo-fəzada 50,000 və 5,000,000 arasında konfiqurasiya olmaqdadır, bu da dəyərlər arasında daxili uyarlılığın/uyarsızlığın əl ilə yoxlanması üçün həddən artıq çoxdur. Beləliklə, bu məsələ ÜMT-nin analiz və sintez prosesinin ikinci mərhələsi olan sintez prosesinin tətbiq edilməsi ilə həll olunur.

ÜMT-də sintez mərhələsinin bir neçə məqsədi var. Sintez mərhələsi qarşılıqlı uyarlı olmayan parametrləri və onların dəyərlərini müəyyən edir. Bu bir növ "alaq edən və ya yalanı kənarlaşdıran" vəzifəsi icra edir və beləcə ilkin mərhələdə yüz minlərlə hətta bəzi hallarda milyonlarla olan konfiqurasiya çoxluğunu kəskin şəkildə azaltmış və yalnız bir-biri ilə uyarlı (məntiqi/formal, empirik və normativ) olan parametrləri və onların dəyərlərini saxlamış, yəni həll fəzasını yaratmış olur. Bu proses, morfo-fəzada elmi modelin ikinci şərti olan dəyişənlər arasında qarşılıqlı əlaqənin olub olmadığının yoxlanıldığı, Qarşılıqlı Uyarlılığın Qiymətləndirilməsi (QUQ) adlanır. Morfofəzada parametrlərin və onların dəyərləri bir-birləri ilə şəkil 5-də göstərildiyi kimi (qarşılıqlı təsir matrisi şəklində) müqayisə edilərək onlar arasında müəyyən əlaqələrin mövcudiyyəti yoxlanılır [25, s.3].

ÜMT-in sintez mərhələsində qarşılıqlı əlaqəsi yoxlanılan hər hansı iki dəyər arasında hansı növ əlaqənin olduğu müəyyənləşdirilir. İki dəyər arasında əlaqə qarşılaşdırıldığı zaman "bu iki dəyər birlikdə var ola bilərmi?" sualı sintez prosesinin əsasını təşkil edir. Sintez vasitəsi ilə səciyyəvi morfo-fəza mövcud problem strukturundan asılı olaraq (parametrlərin və dəyərlərinin sayından) 90% və ya hətta 99%-ə qədər azaldıla və həll fəzası yaradıla bilər [26, s. 13].

QUQ prosesində dəyərlər arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi üçün üç cür məhdudiyyət tətbiq edilir. Bunlar məntiqi (formal), empirik və normativ məhdudiyyətlər olaraq təsnifatlandırılır [26, s. 8]. Məntiqi məhdudiyyətlərin ortaya çıxması üçün heç bir




**Şəkil 5:** Şəkil 2-dəki morfo-fəza üçün Qarşılıqlı Uyarlılıq matrisi. Qaraldılmış hücrələr şəkil 2-də göstərilən konfiqurasiyanın əmələ gəlməsi üçün tətbiq olunan dəyərlər arasında 15 qarşılıqlı əlaqəni (uyarlılığı) təsvir edir.

empirik biliyə ehtiyac yoxdur. Məntiqi məhdudiyyət normal olaraq qeyri-müəyyən problemi əmələ gətirən parametrlər arasında məntiqi proseslə qurula bilir. Bunun üçün heç bir təcrübə ortaya qoymaq və ya buna şahid olmağa ehtiyac yoxdur. Məntiqi/formal məhdudiyyətlərin ÜMT-nin sintez mərhələsi əsnasında müəyyən edilməsi, maraqlı tərəflərin doğru müstəvidə görüşlərinin müəyyən edilməsi üçün çox əhəmiyyətlidir, lakin məntiqi məhdudiyyətlər sintez mərhələsində müəyyən olunan məhdudiyyətlərin az bir qismini təşkil edir. Məhdudiyyətlərin böyük qismini empirik və normativ olanlar təşkil edir. Empirik məhdudiyyətlər bizim biliyimizə və təcrübəmizə (ÜMT-də bunu müəyyən sahədə mütəxəssis olan şəxslər edəcək) əsasən, iki dəyərin birlikdə mövcudluğunu qeyri-mümkün olduğunu müəyyən edən mülahizələrdir. Belə bir empirik fikir ortaya qoymaq üçün təhlil edilən problem haqqında dərin təcrübə və bilik sahibi olmaq labüddür. Normativ məhdudiyyətlər isə məhz normativ xarakterdədir. Yəni, daha hadisə baş vermədən hadisənin normaları müəyyən edilir [26, s. 9-12].

Sintez mərhələsində müəyyən etdiyimiz üç növ, məntiqi/formal, empirik və normativ məhdudiyyətlərin üç dərəcəsi var. Birinci dərəcədə iki parametrin seçilmiş iki dəyərinin bir arada var olması tamamən mümkündür. Bu növ məhdudiyyət CARMA adlı ÜMT aparmaq üçün hazırlanan proqram təminatında “-” işarəsi ilə göstərilir. Məhdudiyyətin ikinci dərəcəsində isə iki dəyərin birlikdə var olmasını mümkün edir, lakin bunların birlikdə var olması optimal deyil. Yəni var olmaqla olmamaq arasındakı sərhəddir və bu məhdudiyyət dərəcəsi “K” hərfi ilə göstərilir. Üçüncü növ məhdudiyyət dərəcəsi isə iki dəyərin birlikdə var olmasını tamamən mümkün olmadığını təsvir edir və “X” işarəsi ilə göstərilir [26, s. 13].

Morfofəzanın QUQ vasitəsilə sintezi nəticəsində əldə olunan həll sahəsi, elmi modelin üçüncü meyarı olan, dəyərlərdən bəzisi və ya bəzilərinin “daxil olunan” olaraq seçilə bildiyi və nəticələrin müşahidə edilə bildiyi interaktiv modelə çevrilir. Beləliklə, müvafiq kompüter dəstəyi ilə həll sahəsi, mürəkkəb problem haqqında bilik səviyyəsini və həll yollarını tədqiq edə bilən, fərziyyələri sınaqdan keçirə bilən və gözlənilməz nəticələri aşkarlayan konseptual laboratoriya funksiyası yerinə yetirir [27, s. 14].

ÜMT ilə modelqurma prosesinin əsas xüsusiyyətlərindən biri, modelin hakim aparıcılığında interaktiv qrup tərəfindən qurulmasıdır. Mürəkkəb problemlərin strukturlaşdırılmasında interaktiv qrupun iştirakı səciyyəvi olmaqla yanaşı, bu həm də iştirakçılar arasında yaradılan dialoq sayəsində modelləşdirilən problemin müfəssəl şəkildə anlaşılmasına şərait yaradır. Bu səbəblə, ÜMT ilə model qurma prosesinə 6-7 nəfərdən çox olmayacaq şəkildə mütəxəssislərdən ibarət cəlb olunması tövsiyə olunur. Daha geniş mütəxəssis təcrübəsinə ehtiyac olduqda, müəyyən qrup sessiyalarına əlavə mütəxəssis cəlb oluna bilər və ya paralel qruplar şəklində iş təşkil edilə bilər [27, s. 14].

## ÜMT metodu ilə Sülhməramlı Əməliyyatlar üçün Qərara Dəstək Modelinin (SƏQDM) qurulması və sınaqdan keçirilməsi üçün ssenarilər

### *SƏQDM-in qurulması*

Baxmayaraq ki, ÜMT vasitəsilə modelin qurulması üçün sülhməramlı əməliyyatlar sahəsində mütəxəssislərin və qərar qəbul edən şəxslərin işə cəlb edilməsi əhəmiyyətlidir, lakin tədqiq edilən problem dissertasiya mövzusu olduğu üçün modelin qurulması zamanı bu qayda qəsdən tətbiq edilməmişdir. Həmçinin, mövzu ilə bağlı qrup tərkibində mütəxəssis təcrübəsini kompensasiya etmək üçün problem haqqında ətraflı məlumat əldə etmək məqsədilə üç il bu sahədə ətraflı tədqiqat aparılmışdır. Əlavə olaraq, qurulan model vasitəsilə problem sahəsinin tam şəkildə əhatə və bütün həllərin müəyyən edildiyi iddia edilmir. Lakin hazırlanan bu model daha çox prototip məqsədlidir və problem haqqında daha dərin düşünməyi, idrak etməyi və fərqli müstəvidən məsələyə

baxmağı stimullaşdırır. Modelin məqsədi qərar qəbul edən şəxslər, siyasi və hərbi-strateji səviyyədə planlama işlərinə cəlb olunanlar üçün problem haqqında konseptual model hazırlamaqdır.

***Analiz Mərhələsi:***
***Parametrlərin müəyyən olunması***

Bu mərhələnin əsas məqsədi, sülhməramlı əməliyyatlarda iştirak istiqamətində milli qərar qəbuletmə prosesinə təsir edən mühüm parametrləri müəyyən etməkdir. Bu parametrləri müəyyən etmək üçün; 1) Niyə sülhməramlı əməliyyatlara iştirak etməliyik?, 2) Hansı sülhməramlı əməliyyatlarda iştirak etməliyik?, 3) Sülhməramlı əməliyyatlarda hansı tərkibdə və hansı qüvvə ilə iştirak etməliyik?, 4) Sülhməramlı əməliyyatlara iştirak etmənin ölkə adına müsbət və mənfi cəhətləri nələr ola bilər? kimi suallara cavab axtarmaqla nail olunmuşdur. Müəyyən olunan doqquz parametrlər (şəkil 6) həm ordinal həm də nominal dəyər aralığı ehtiva edir. Bu parametrləri belə sıralamaq mümkündür:

1. müəyyən ölkənin milli təhlükəsizlik məqsədləri;
2. Müəyyən ölkənin sülhməramlı əməliyyatlara iştirak etmə yolları/mexanizmləri;
3. ölkənin sülhməramlı əməliyyatlarda iştirak etməsinin legitimliyi;
4. ölkənin sülhməramlı əməliyyatlarda iştirakının maliyyə aspektləri;
5. ölkənin sülhməramlı əməliyyatlarda insan itkisi verə bilmə səviyyəsi;
6. ölkənin sülhməramlı əməliyyatlarda iştirakının, qüvvəni göndərən ölkədə törədə biləcəyi fəsadlar/təsirlər;
7. ölkənin iştirak edə biləcəyi sülhməramlı əməliyyatların növləri;
8. ölkənin sülhməramlı əməliyyatlarda icra edə biləcəyi tapşırıqlar;
9. ölkənin sülhməramlı əməliyyatlarda icra edə biləcəyi tapşırıqları tam həcmdə yerinə yetirə bilməsi üçün tələb olunan qabiliyyətlər;

**1-ci parametr:** Müəyyən ölkənin milli təhlükəsizliyinin məqsədləri. Bu parametr müəyyən ölkənin öz sərhədləri xaricində sülhməramlı əməliyyatlarda niyə iştirak etməli-




| Milli/Herbi Tehlukesizlik Meqsedleri | Mexanizmler | Legitimlik | Maliyye Aspektleri | Itki Qebul Etme Seviyyesi | Emiliyyatlarda ishtirakin menfi tesirleri | Sulhmeramli Emeliyyatlarin Novleri | Sülhmeramli tapshiriqlar | Ehtiyac Olan Qabiliyyetler |
|---|---|---|---|---|---|---|---|---|
| Birbasha olke maraqlarinin qorunmasi | BMT | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | Olkenin Xerclerinin Geri Odenilmesi | Hech/Chox az Itki Qebul olunur | Tesir yoxdur | Munaqishenin Onlenmesi | Texniki keshfiyyat vasitleri ile mushahide/Erken xeberdarliq | Xususi Herbi Bolme (Herbi Polis) |
| Regional tehlukesizlik tohfe | Reginoal teshkilatlar | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | Bashqa Tereflerle Xerclerin Bolushulmesi | Chox az/Mehdud sayda Itki Qebul olunur | Informasiya domeninde hucuma meruz qalma | Sulhe Mecburetme | Qablayici tedbir olaraq münaqishe zonasina sülhmeramlilarin yerleshdirilmesi | Quru Qoshunlari |
| Qlobal tehlukesizliye tohfe | Muveqqeti Koalisiyalar | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | Gonderen Olke Xercleri Tam Shekilde Qarshilanmasina Cavabdehdir | Nisbi Olaraq Yuksek sayda Itki Qebul Olunur | Ichtimai asayishin pozulmasi | Sulhun Qorunmasi | Sanksiya ve embarqo fealiyyetlerinin Tetbiqi | Hava Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Herterefli ve instusional) | Ferdi | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | | | Iqtisadi gerileme | Munaqishe sonrasi Sulh Quruculugu | Munaqishe tereflerinin guc tetbiqi ile ayrilmasi | Deniz Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Mehdud/praktiki sehra tecrubesi seviyyesinde) | | | | | Siyasi/Diplomatik izolasiya | | Mühafize olunan ve tehlükesiz erazilerin yaradilmasi ve nezaret edilmesi | Xususi Teyinatli Quvveler |
| Musbet beynelxalq imicin formalashmasi | | | | | Xarici silahli hucuma meruz qalma 1.Enenevi 2.Asimetrik | | Uchushun qadagan oldugu zonalarin yaradilmasi ve tetbiqini mecburetdirme | Sehiyye Xidmeti Qabiliyyetleri |
| | | | | | | | Hereket serbestliyi ve qadagasinin tetbiqi | Keshfiyyat, texniki keshfiyyat ve qoshun keshfiyyati fealiyyetleri |
| | | | | | | | Mulki ehalinin muhafizesine destek | Herbi Olmayan Tohfe |
| | | | | | | | Quvve muhafizesi ve tehlukesizlik | |
| | | | | | | | Sulhmeramlilarin munaqishe terefleri arasinda yerleshdirilmesi | |
| | | | | | | | Mushahide ve monitorinq | |
| | | | | | | | Sulhe kechide destek fealiyyetleri | |
| | | | | | | | Humanitar yardim | |
| | | | | | | | Deniz tehlukesizliyi emeliyyatlari | |

**Şəkil 6:** SƏQDM üçün 9 parametrli morfo-fəza.

dir sualına verilən cavabdır. Dövlətləri sülhməramlı əməliyyatlarda iştiraka təşviq edən amillərin tədqiqi bunu deməyə əsas verir ki, sülhməramlı əməliyyatlarda iştirak dövlətlərin milli təhlükəsizlik məqsədlərini əldə etmədə mühüm vasitədir. Dövlətlər bu vasitədən birbaşa ölkə maraqlarının qorunması, beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz bir hissəsi kimi qlobal və/və ya regional təhlükəsizliyə töhfə vermək, çoxmillətli formatlarda iştirakla digər ölkələrin və ümumilikdə dünya təcrübəsinə çıxış əldə etməklə öz silahlı qüvvələrində islahatlara töhfə vermək və beynəlxalq mühitdə müsbət imic formalaşdırmaq üçün istifadə edir. Sülhməramlı əməliyyatlara iştirak etmək niyyəti olan ölkə verilən məqsədləri həm tək-tək həm də bir neçəsini eyni anda əldə edə bilər. Bu məqsədlərin heç, qismən və ya tam olaraq əldə edilməsi dövlətlərin sülhməramlı əməliyyatlarda iştirakının siyasi və hərbi cəhətdən qiymətləndirilməsində mühüm parametrdir. Dövlətlərin fərdi xüsusiyyətindən aslı olaraq milli təhlükəsizlik məqsədlərində göstərilən fərqli dəyərlərə verilən əhəmiyyət dərəcəsi dəyişə bilər. Bununla yanaşı, ölkələr sülhməramlı əməliyyata qoşularkən bu parametrdəki məqsədlərdən birinə və ya bir neçəsini eyni zamanda əldə edə bilər.

**2-ci parametr:** Müəyyən ölkənin sülhməramlı əməliyyatlara iştirak etməsinin yolları/mexanizmləri. Bu parametr ölkənin sülhməramlı əməliyyatlarda iştirak etməsinin yollarını və mexanizmlərini müəyyən edir. Belə ki, ölkələr BMT və ya digər beynəlxalq və regional təşkilatlar çərçivəsində sülhməramlı əməliyyatlarda iştirak etmək üçün bu mexanizmlərdən birinin başçılığı altında əməliyyatlarda iştirak edə bilər. Parametrin nominal dəyərlərindən göründüyü kimi dövlətlər sülhməramlı əməliyyatlarda milli təhlükəsizlik maraqlarından, mövcud resurs və geosiyasi kontekstdən asılı olaraq, BMT-nin başçılığı altında, regional təşkilatların başçılığı altında, digər millətlərlə müvəqqəti koalisiya tərkibində və ya fərdi olaraq iştirak edə bilərlər. Bu parametrdəki dəyərlər əhəmiyyət dərəcəsinə görə bir birinə üstünlük təşkil etmir, hər hansı bir mexanizmin seçimi başqa amillərdən aslıdır. Bu səbəblə bu parametrdəki dəyərlər qiymətləndirmə faktoru kimi təşəkkül tapmır.

**3-6 aralığında olan parametrlər:** Bu dörd parametr (ölkənin sülhməramlı əməliyyatlarda iştirak etməsinin legitimliyi, ölkənin sülhməramlı əməliyyatlarda iştirakının maliyyə aspektləri, ölkənin hərbi əməliyyatlarda döyüş itkisi verə bilmə səviyyəsi, ölkənin sülhməramlı əməliyyatlarda iştirakının qüvvəni göndərən ölkədə törədə biləcəyi fəsadlar / təsirlər) qərarı müsbət və ya mənfi istiqamətdə şəkilləndirilməsinə səbəb olur. Bu parametrlərin səciyyəvi cəhəti dixotomik dəyərlərdən (zidd qütblü) meydana gəlməsidir. Belə ki, parametrin ilk dəyəri “ən arzu olunan” hal, parametrin son dəyəri “ən arzu olunmayan hal“, iki zidd qütb arasındakı dəyərlər isə təsir və ya əhəmiyyət dərəcəsinə görə bu ikisinin arasında sırasını almaqdadır. Bu xüsusiyyətləri səbəbi ilə sözügedən parametrlərdəki dəyərlər sülhməramlı əməliyyatlarda iştirakla bağlı qəbul olunan qərarları qiymətləndirmə faktoru kimi təşəkkül tapır.

Legitimlik (3-cü parametr) qərara təsir edən digər amillər sırasında ən mühüm amillərdən biri sayılır. Məqalənin birinci hissəsində BMT Nizamnaməsi, BMT-nin sülhməramlı əməliyyatlarlara bağlı müvafiq sənədlər, beynəlxalq hüququn və digər sənədlərin tədqiqinə uyğun olaraq sülhməramlı əməliyyatlarda iştirakın legitimliyi ümumi cəhətdən “BMT TŞ-nın mandatı” və “sahib ölkənin razılığı” əsasında formalaşdığı müəyyənləşdirilmişdir. Hər hansı bir əməliyyatda iştirak edərkən hər ikisinin mövcudluğu ən arzu olunan hal, yoxluğu isə ən arzu olmayan hal kimi təşəkkül tapır və bu iki hüquqi və zəruri şərt fərqli kombinasiyalı parametrdə əks olunub.

Maliyyə aspektləri (4-cü parametr) də bu tip əməliyyatlarda iştirak edərkən qərara təsir edən vacib amillərdən bir kimi məqalənin birinci hissəsində ələ alınmışdır. Bu amil bəzi ölkələr üçün əsas və ya ciddi bir motivasiya olduğu halda bəziləri üçün isə digər amillər

fonunda ikinci dərəcəli və ya əhəmiyyətsiz amil olaraq təşəkkül tapır. Maliyyə aspektləri bu parametrdə əməliyyatda iştirak "xərclərinin tamamının və ya bir qisminin geri ödənilməsi" (geri ödənilən məbləğ çərçivə mexanizm tərəfindən (məs:BMT) sabit olmasına baxmayaraq ölkədən asılı olaraq xərclər fərqlilik təşkil etməkdədir) ən arzu olunan hal, "xərclərin göndərən ölkə tərəfindən tam qarşılanması" ən arzu olunmayan hal, "xərclərin başqa tərəflərlə bölüşdürülməsi" isə (göndərən ölkə və çərçivə mexanizm və ya bir başqa güclü sponsor ölkə tərəfindən) iki zidd qütb arasında bir dəyər olaraq əks olunur.

İtki riskləri (5-ci parametr), məqalənin birinci hissəsində qeyd edildiyi kimi qərara təsir edən mühüm amillərdən biri olaraq ölkələrin bu tip əməliyyatlarda iştirak edib etməməsinə və ya davam edən bir əməliyyatdan geri çəkilməsinə səbəb ola bilməkdədir. Bu parametrdə itki riski baxımından sülhməramlı əməliyyatları ən arzu olunan hal olaraq "heç və ya çox az itki", iki zidd qütb arasındakı dəyər olaraq "məhdud sayda itki" və arzu olunmayan hal olaraq "nisbi olaraq çox sayda itki" qəbul olunur şəklində təsnif edilmişdir. Elmi ədəbiyyatda itkiləri az və ya çox olaraq statistik bölgüsünə rast gəlinməmişdir. İtkinin azlığı və çoxluğu həm də ölkədən ölkəyə dəyişəcəyi üçün itki riskləri dərəcələndirilərkən dəyərlərin formalaşdırılmasında mücərrəd dildən istifadə edilmişdir. Hər bir ölkə özü üçün az və çox anlayışını rəqəm olaraq müəyyənləşdirə və mövcud əməliyyatların itki statistikasına əsasən bunlar arasından hər hansı bir əməliyyatda iştirakla bağlı qərarını formalaşdıra bilər.

Sülhməramlı əməliyyatlarda iştirakın mümkün fəsadları 6-cı parametrdə ələ alınmışdır. Bu parametrdə ən arzu olunan hal sülhməramlı əməliyyatlarda iştirakın qüvvə göndərən ölkəyə mənfi "təsirinin olmaması", "istər ənənəvi və istərsə də asimmetrik vasitələrlə qüvvə göndərən ölkənin xarici silahlı hücuma məruz qalması" ən arzu olunmaz hal olaraq parametrin iki zidd qütbünü təşkil etmişdir. Xüsusilə sülhməramlı əməliyyatın keçirildiyi qəbul edən ölkənin və ya bu ölkənin daxilində hər hansı bir tərəfin razılığı olmadıqda, habelə bu tip əməliyyatın keçirilməsini üçüncü ölkə öz maraqlarına təhdid olaraq gördükdə qüvvə göndərən ölkəyə qarşı ənənəvi və asimmetrik vasitələrdən istifadə edərək təcavüz edə bilər. Mənfi fəsadlar bu iki zidd qütb arasında daha az təsirdən ciddi fəsadlara doğru "informasiya məkanında hücuma məruz qalma", "ictimai asayişin pozulması", iqtisadi sanksiyalara və digər səbəblərlə "iqtisadi geriləmə" və "siyasi/diplomatik izolyasiya" olaraq artan ardıcıllıqla sıralanmışdır. Bir çox hallarda fəsadların şiddəti bir baxıma sülhməramlı əməliyyatın legitimliyi (BMT TŞ-nin mandatı və/və ya sahib ölkənin razılığı) ilə düz mütənasib olmaqdadır. Əməliyyat nə qədər legitimdirsə qüvvə göndərən ölkəyə və onun qüvvələrinə olan mənfi fəsadlar bir o qədər az olur.

**7-9 aralığında olan parametrlər:** Son üç parametrlər normativ və nominal dəyər aralığına sahibdirlər. Bu parametrlərin dəyərləri BMT-nin həmçinin NATO-nun sənədləri əsasında hazırlanıb. Yeddinci parametr müəyyən ölkənin iştirak edə biləcəyi sülhməramlı əməliyyatların növlərini, səkkizinci parametr bu əməliyyat növlərində ölkənin icra edə biləcəyi tapşırığın növünü, doqquzuncu parametr isə bu tapşırıqları icra edə bilməsi üçün tələb olunan qabiliyyətləri göstərir. "Sülhməramlı əməliyyatların növləri" parametrində (7-ci parametr) dəyərlər BMT-nin Əsas Doktrinasındakı təsnifata əsasın müəyyən edilmişdir. İstisna olaraq, "sülhyaratma" növü, bu tip sülhməramlı fəaliyyətin əsasən diplomatik vasitələrlə yerinə yetirilməsini nəzərə alaraq modelə daxil edilməmişdir.

Sülhməramlı tapşırıqlar parametri (8-ci parametr) sülhməramlı əməliyyatlar ilə əlaqəli bir sıra mümkün vəzifə və tapşırıqlardan ibarət dəyərləri ehtiva edir. Sözügedən vəzifə və tapşırıqlar əsasən NATO-nun [1] və Skandinaviya ölkələrinin [15] müvafiq təlimatlarından götürülmüşdür. Bəzi vəzifə və tapşırıqlar konkret sülhməramlı əməliyyatla əlaqədar olduğu

halda bəziləri isə müxtəlif növ sülhməramlı əməliyyatlarda tətbiq edilə bilər. Modeldə göstərilən sülhməramlı tapşırıqlar əhəmiyyət ardıcıllığına görə sıralanmamışdır və bu tip əməliyyatlarla bağlı bütün hərbi fəaliyyətlər modeldə göstərilən tapşırıqlarla məhdudlaşmır.

Modelin son parametri sülhməramlı əməliyyatların icra edilməsi üçün "ehtiyac olan hərbi qabiliyyətlərdir". Müasir sülhməramlı əməliyyatlarda istər ayrılıqda istərsə də birgə bütün qoşun növünə aid qabiliyyətlər istifadə oluna bilər. Bu parametrdə istifadə edilən qabiliyyətlər NATO-nun müvafiq təlimnaməsinə [1] istinad edilərək əsasən qoşun növü səviyyəsində (Quru, Hava, Dəniz və s.) nəzərdə tutulmuşdur.

Bununla, analiz mərhələsi başa çatmış hesab edilir. Bu mərhələdə doqquz parametrdən və onların dəyərlərindən ibarət morfo-fəza quruldu. Bu morfo-fəzadakı mümkün olan konfiqurasiyaların cəmi sayı parametrlərin dəyərlərinin bir-birinə vurulması ilə tapılır və bu rəqəm,

$$6 \times 4 \times 4 \times 3 \times 3 \times 6 \times 4 \times 14 \times 8 =$$
$$= 2,322,432\text{-dir.}$$

Buradan göründüyü kimi bu miqdarda konfiqurasiyaların işə yararlığını tək-tək tədqiq



**Şəkil 7:** 9 parametrli SƏQDM modelinin QUQ matrisi. Mavi dördbucaqlı, "boş" parametr bloklarından birini göstərir. Bu model üçün məhdudiyyət dərəcələri aşağıda göstərilən şəkildə tədbiq olunmuşdur:

"-" Kəsişən iki dəyər arasında tam uyarlılıq var və bir arada olması mümkündür.

"X" Kəsişən iki dəyər arasında uyarlılıq yoxdur və bir arada olması mümkün deyil.

"K" Kəsişən iki dəyər arasında uyarlılıq var, amma optimal deyil.

etmək böyük miqdarda zaman və insan gücü tələb edir. Məhz bu məqsədlə morfo-fəzadakı konfiqurasiyaların sayı azaldılaraq, hər hansı iki dəyərin bir arada yer alması mümkün olmayan konfiqurasiyalar "alaq edilərək", həll-fəzası yaradılmalıdır. Bu da sintez mərhələsi vasitəsilə yerinə yetiriləcək.

**Sintez mərhələsi:** ÜMT-nin ikinci mərhələsi daha öncə də qeyd edildiyi kimi sintez mərhələsidir. Bu mərhələdə analiz mərhələsində müəyyən olunan parametrlərin dəyərləri arasında münasibətlər tədqiq edilir. Bildiyimiz kimi bu QUQ prosesidir. İlk öncə bir-biri ilə birbaşa əlaqəli olmayan yəni bir-birilərinə birbaşa təsir etməyən parametrlərin müəyyən edilməsi lazımdır. Aşağıdakı şəkildə (mavi dördbucaqlı, "boş" parametr bloklarından birini göstərir) bir-biri ilə birbaşa əlaqəsi olmayan, boş buraxılmış, parametr blokları göstərilir.

Digər, yəni aralarında birbaşa əlaqə olan dəyərlər arasında həll-fəzasını yaratmaq və sintez mərhələsini tamamlamaq məqsədilə 600-dən çox məntiqi, empirik və normativ ziddiyyətlərin olub-olmadığı tədqiq edildi. Əlbəttə ki, burada bütün tədqiq edilmiş dəyərləri tək-tək göstərmək uzun zaman alacağı üçün yalnız bir neçə nümunə göstərməklə QUQ-un necə çalışdığı nümayiş ediləcək.

Misal olaraq, "Müəyyən ölkənin sülhməramlı əməliyyatlarda iştirak etmə yolları / mexanizmləri" və "Ölkənin sülhməramlı əməliyyatlara iştirak etməsinin legitimliyi" parametrlərini götürək. Görüldüyü kimi bu iki parametr bir-birilərinə qarşılıqlı təsir edir (şəkil 8). BMT mandatı, BMT sülhməramlı əməliyyatlarında iştirak edilməsini, legitimliyin təməlini təşkil edir. Həmçinin, sahib ölkənin sülhməramlı əməliyyatların keçirilməsi üçün razılığının olması şərt olaraq qəbul edilir. Ümumi olaraq yalnız bu iki şərt təmin edildikdə BMT müəyyən bir ölkədə sülhməramlı əməliyyatlar icra edir. Aşağıdakı şəkildə iki parametrin qarşılıqlı bir arada mövcud olması mümkün olmayan dəyərləri arasındakı məhdudiyyət dərəcələri qırmızı ilə göstərilib.

Başqa bir misal isə "ölkənin sülhməramlı əməliyyatlarda iştirakının qüvvəni göndərən ölkədə törədə biləcəyi fəsadlar/təsirlər" və "ölkənin iştirak edə biləcəyi sülhməramlı əməliyyatların növləri" parametrləri arasında olan münasibətdir (şəkil 9). Asanlıqla mülahizə etmək olar ki, sahib ölkənin razılığı olmadan, sülhməramlı əməliyyatlar çərçivəsində sülhün bərqərar edilməsi (məcbur etmə) əməliyyatı icra edən ölkə daxilində mənfi təsirlər baş verəcək.

Beləcə, qurulan model elmi model olmanın ikinci şərti, yəni dəyərlər arasında əlaqələrin qurulması (məntiqi, empirik və normativ əlaqə), təmin edildi. SƏQDM modelində QUQ icra edilməklə, ilkin olaraq 2,322,432 fərqli konfiqurasiyadan ibarət bir problem fəzası 13994 konfiqurasiyadan ibarət həll-fəzasına endirilərək və müdaxilə edilə bilən interaktiv model quruldu. Müdaxilə edilə bilən model

| | | Milli/Herbi Tehlukesizlik Meqsedleri | | | | | | Mexanizmler | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ke maraqlarinin qorunmasi | Regional tehlukesizlik tohfe | Qlobal tehlukesizliye tohfe | (Herterefli ve instusional) | ra tecrubesi seviyyesinde) | xalq imicin formalashmasi | BMT | Reginoal teshkilatlar | Muveqqeti Koalisiyalar | Ferdi |
| Mexanizmler | BMT | K | K | - | X | - | - | | | | |
| | Reginoal teshkilatlar | - | - | - | - | - | - | | | | |
| | Muveqqeti Koalisiyalar | - | K | - | X | - | K | | | | |
| | Ferdi | - | - | K | X | X | K | | | | |
| Legitimlik | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | - | - | - | - | - | - | - | - | - | - |
| | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | - | - | - | K | K | K | X | - | - | K |
| | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | - | - | K | K | K | K | X | - | - | - |
| | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | - | X | X | X | X | X | X | K | - | K |

**Şəkil 8:** QUQ prosesinə nümunə 1.

| | | Milli/Herbi Tehlukesizlik Meqsedleri | | | | | | Mexanizmler | | | | Legitimlik | | | | Maliyye Aspektleri | | | Itki Qebul Etme | | | Emiliyyatlarda ishtirakin menfi tesirleri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ke maraqlarinin qorunmasi | Regional tehlukesizlik tohfe | [illegible] | (Herterefli ve instusional) | ra tecrubesi seviyyesinde) | [illegible] | BMT | Reginoal teshkilatlar | Muveqqeti Koalisiyalar | Ferdi | Sahip olkenin raziligi VAR | Sahip olkenin raziligi VAR | Sahip olkenin raziligi YOX | Sahip olkenin raziligi YOX | Xerclerinin Geri Odenilmesi | de Xerclerin Bolushulmesi | shilanmasina Cavabdehdir | /Chox az Itki Qebul olunur | ud sayda Itki Qebul olunur | ak sayda Itki Qebul Olunur | Tesir yoxdur | inde hucuma meruz qalma | timai asayishin pozulmasi | Iqtisadi gerileme | Siyasi/Diplomatik izolasiya | almal Enenevi2 Asimetrik |
| | Siyasi/Diplomatik izolasiya | - | - | - | X | X | X | X | X | X | - | X | X | - | - | | | | | | | | | | | | |
| | Xarici silahli hucuma meruz qalma | - | - | - | X | X | X | X | - | - | - | X | - | - | - | | | | | | | | | | | | |
| Sulhmeramli Emeliyyatlarin Novleri | Munaqishenin Onlenmesi | - | - | - | - | - | - | - | - | - | - | - | X | K | X | - | - | - | - | K | X | - | - | X | X | X | X |
| | Sulhe Mecburetme | - | - | - | X | X | X | X | - | - | - | - | - | K | K | X | - | - | - | - | - | X | - | - | - | - | - |
| | Sulhun Qorunmasi | - | - | - | - | - | - | - | - | - | - | - | X | X | X | - | - | - | - | - | X | K | - | K | X | X | X |
| | Munaqishe sonrasi Sulh Quruculugu | - | - | - | - | - | - | - | - | - | - | - | X | X | X | - | - | - | - | X | X | - | - | X | X | X | X |

**Şəkil 9:** QUQ prosesinə nümunə 2.

dedikdə elmi modelin üçüncü şərti nəzərdə tutulur ki, bu da modeldə müxtəlif dəyərlər daxil edilən olaraq seçildikdə bütün modeldə baş verən nəticələri müşahidə etmək mənasına gəlir. 13994 konfiqurasiya sayısı, bütün konfiqurasiyaların təxminən 99% azaldılması digər adla "alaq edilməsi" deməkdir. Hər nə qədər də 13994 konfiqurasiya sayısı böyük görünsə də, bu rəqəm məntiq, empirik və normativ çərçivədə baş verə biləcək bütün alternativ ssenariləri təqdim edir. Bu həll-fəzasında fərqli amilləri əsas alaraq ssenarilərin necə inkişaf edəcəyini müşahidə etmək olar.

***Modelin sınaqdan keçirilməsi üçün ssenarilər***

**Ssenari 1:** Fərz edilsin ki, A ölkəsinin siyasi rəhbərliyi, qlobal təhlükəsizliyə töhfə vermək, həmçinin müsbət beynəlxalq imic əldə etmək məqsədilə sülhməramlı əməliyyatlarda iştirak etmə qərarı verdi. Bununla yanaşı, sülhməramlı əməliyyatlarda iştirak etmək üçün "minimum itki" və "yüksək olmayan maliyyə xərcləri" əsas meyar olaraq təyin edildi.

Rəhbərlik tərəfindən müəyyənləşdirilən bu meyarlar əsasında modeldə müvafiq parametrlərdə "ölkənin xərcləri geri ödənilir" və "heç/çox az itki qəbul olunur" dəyərləri "daxil edilənlər" (qırmızı rənglə göstərilir) olaraq seçdikdə, buna münasib olaraq CARMA proqram təminatı tərəfindən avtomatik olaraq qurulan interaktiv modeldə həll-fəzası əmələ gəlmiş olur (mavi rənglə göstərilir).

Modeldə əmələ gəlmiş həll fəzası (şəkil 10) bildirir ki, rəhbərliyin təyin etdiyi bu meyarlar əsasında yalnız BMT çərçivəsində beynəlxalq hüquqa əsaslanan ən yüksək səviyyədə mandatı olan sülhməramlı əməliyyatlarda iştirak etmək mümkündür. Bununla yanaşı, model əldə oluna biləcək mümkün milli təhlükəsizlik məqsədlərini, iştirak edilə biləcək sülhməramlı əməliyyat növlərini, tapşırıqlarını və tələb olunan qabiliyyətlərin siyahısını göstərir.

**Ssenari 2:** A ölkəsinə aid hərbi rəhbərlər ölkənin siyasi rəhbər heyətinə, ölkənin sahib olduğu hərbi dəniz qüvvələrini regional təşkilatın həyata keçirdiyi dəniz təhlükəsizliyi

| Milli/Herbi Tehlukesizlik Meqsedleri | Mexanizmler | Legitimlik | Maliyye Aspektleri | Itki Qebul Etme Seviyyesi | Emiliyyatlarda ishtirakin menfi tesirleri | Sulhmeramli Emeliyyatlarin Novleri | Sülhmeramli tapshiriqlar | Ehtiyac Olan Qabiliyyetler |
|---|---|---|---|---|---|---|---|---|
| Birbasha olke maraqlarinin qorunmasi | BMT | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | Olkenin Xerclerinin Geri Odenilmesi | Hech/Chox az Itki Qebul olunur | Tesir yoxdur | Munaqishenin Onlenmesi | Texniki keshfiyyat vasitleri ile mushahide/Erken xeberdarliq | Xususi Herbi Bolme (Herbi Polis) |
| Regional tehlukesizlik tohfe | Reginoal teshkilatlar | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | Bashqa Tereflerle Xerclerin Bolushulmesi | Chox az/Mehdud sayda Itki Qebul olunur | Informasiya domeninde hucuma meruz qalma | Sulhe Mecburetme | Qablayici tedbir olaraq münaqishe zonasina sülhmeramlilarin yerleshdirilmesi | Quru Qoshunlari |
| Qlobal tehlukesizliye tohfe | Muveqqeti Koalisiyalar | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | Gonderen Olke Xercleri Tam Shekilde Qarshilanmasina Cavabdehdir | Nisbi Olaraq Yuksek sayda Itki Qebul Olunur | Ichtimai asayishin pozulmasi | Sulhun Qorunmasi | Sanksiya ve embarqo fealiyyetlerinin Tetbiqi | Hava Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Herterefli ve instusional) | Ferdi | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | | | Iqtisadi gerileme | Munaqishe sonrasi Sulh Quruculugu | Munaqishe tereflerinin guc tetbiqi ile ayrilmasi | Deniz Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Mehdud/praktiki sehra tecrubesi seviyyesinde) | | | | | Siyasi/Diplomatik izolasiya | | Mühafize olunan ve tehlükesiz erazilerin yaradilmasi ve nezaret edilmesi | Xususi Teyinatli Quvveler |
| Musbet beynelxalq imicin formalashmasi | | | | | Xarici silahli hucuma meruz qalma 1.Enenevi 2.Asimetrik | | Uchushun qadagan oldugu zonalarin yaradilmasi ve tetbiqini mecburetdirme | Sehiyye Xidmeti Qabiliyyetleri |
| | | | | | | | Hereket serbestliyi ve qadagasinin tetbiqi | Keshfiyyat, texniki keshfiyyat ve qoshun keshfiyyati fealiyyetleri |
| | | | | | | | Mulki ehalinin muhafizesine destek | Herbi Olmayan Tohfe |
| | | | | | | | Quvve muhafizesi ve tehlukesizlik | |
| | | | | | | | Sulhmeramlilarin munaqishe terefleri arasinda yerleshdirilmesi | |
| | | | | | | | Mushahide ve monitorinq | |
| | | | | | | | Sulhe kechide destek fealiyyetleri | |
| | | | | | | | Humanitar yardim | |
| | | | | | | | Deniz tehlukesizliyi emeliyyatlari | |

**Şəkil 10:** Birinci ssenari üçün həll fəzası. Daxil olunanlar: "ölkənin xərcləri geri ödənilir" və "heç/çox az itki qəbul olunur"

| Milli/Herbi Tehlukesizlik Meqsedleri | Mexanizmler | Legitimlik | Maliyye Aspektleri | Itki Qebul Etme Seviyyesi | Emiliyyatlarda ishtirakin menfi tesirleri | Sulhmeramli Emeliyyatlarin Novleri | Sülhmeramli tapshiriqlar | Ehtiyac Olan Qabiliyyetler |
|---|---|---|---|---|---|---|---|---|
| Birbasha olke maraqlarinin qorunmasi | BMT | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | Olkenin Xerclerinin Geri Odenilmesi | Hech/Chox az Itki Qebul olunur | Tesir yoxdur | Munaqishenin Onlenmesi | Texniki keshfiyyat vasitleri ile mushahide/Erken xeberdarliq | Xususi Herbi Bolme (Herbi Polis) |
| Regional tehlukesizlik tohfe | Reginoal teshkilatlar | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | Bashqa Tereflerle Xerclerin Bolushulmesi | Chox az/Mehdud sayda Itki Qebul olunur | Informasiya domeninde hucuma meruz qalma | Sulhe Mecburetme | Qablayici tedbir olaraq münaqishe zonasina sülhmeramlilarin yerleshdirilmesi | Quru Qoshunlari |
| Qlobal tehlukesizliye tohfe | Muveqqeti Koalisiyalar | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | Gonderen Olke Xercleri Tam Shekilde Qarshilanmasina Cavabdehdir | Nisbi Olaraq Yuksek sayda Itki Qebul Olunur | Ichtimai asayishin pozulmasi | Sulhun Qorunmasi | Sanksiya ve embarqo fealiyyetlerinin Tetbiqi | Hava Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Hertereflі ve instusional) | Ferdi | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | | | Iqtisadi gerileme | Munaqishe sonrasi Sulh Quruculugu | Munaqishe tereflerinin guc tetbiqi ile ayrilmasi | Deniz Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Mehdud/praktiki sehra tecrubesi seviyyesinde) | | | | | Siyasi/Diplomatik izolasiya | | Mühafize olunan ve tehlükesiz erazilerin yaradilmasi ve nezaret edilmesi | Xususi Teyinatli Quvveler |
| Musbet beynelxalq imicin formalashmasi | | | | | Xarici silahli hucuma meruz qalma 1.Enenevi 2.Asimetrik | | Uchushun qadagan oldugu zonalarin yaradilmasi ve tetbiqini mecburetdirme | Sehiyye Xidmeti Qabiliyyetleri |
| | | | | | | | Hereket serbestliyi ve qadagasinin tetbiqi | Keshfiyyat, texniki keshfiyyat ve qoshun keshfiyyati fealiyyetleri |
| | | | | | | | Mulki ehalinin muhafizesine destek | Herbi Olmayan Tohfe |
| | | | | | | | Quvve muhafizesi ve tehlukesizlik | |
| | | | | | | | Sulhmeramlilarin munaqishe terefleri arasinda yerleshdirilmesi | |
| | | | | | | | Mushahide ve monitorinq | |
| | | | | | | | Sulhe kechide destek fealiyyetleri | |
| | | | | | | | Humanitar yardim | |
| | | | | | | | Deniz tehlukesizliyi emeliyyatlari | |

**Şəkil 11:** İkinci ssenari üçün həll fəzası. Daxil olunanlar: “Hərbi Dəniz Qüvvələri”, “dəniz təhlükəsizliyi əməliyyatları” və “regional təşkilatlar”.

əməliyyatları çərçivəsində istifadə etməyi təklif edir.

Bu ssenarinin qurulması məqsədilə “tələb olunan qabiliyyətlər” parametrinin “dəniz qüvvələri” dəyəri, “sülhməramlı tapşırıqlar” parametrinin “dəniz təhlükəsizliyi əməliyyatları” dəyəri və “mexanizmlər” parametrinin “regional təşkilatlar” dəyəri daxil edilən meyarlar olaraq seçilir. Bu üç dəyər seçildikdən sonra bunlara uyğun olan həll-fəzası CARMA proqram təminatı tərəfindən avtomatik olaraq qurulur (şəkil 11). Şəkildən görüldüyü kimi, maliyyə aspektləri daxilində olan ölkənin xərclərinin geri ödənilməsi şərti xaric ölkə demək olar ki, bütün hədəflərinə optimal dərəcədə nail olur. Məhz bu məqsədlə qərar qəbul edən rəhbər heyət planlaşdırıcılara maliyyə cəhətdən daha optimal, yəni xərclərin az olduğu alternativlərin, axtarışına göstəriş verə bilər.

**Ssenari 3:** A ölkəsi beynəlxalq təşkilatlarla sülhməramlı əməliyyatlarda iştirak edərək hərbi əməkdaşlıq qurmaq niyyətindədir. Əsas milli təhlükəsizlik məqsədi bu əməkdaşlıq vasitəsilə müdafiə islahatları həyata keçirməkdir. Bu məqsədlə planlaşdırıcılar müdafiə islahatlarına yardım edə biləcək variantların araşdırılması haqqında tapşırıq alırlar.

Milli təhlükəsizlik məqsədləri parametrinin altı dəyərindən ikisi müdafiə islahatları ilə əlaqədardır. Bunların içindən ilki hərtərəfli (əhatəli) və institusional müdafiə islahatlarını nəzərdə tutarkən digəri isə daha dar çərçivədə, praktiki səhra bilikləri ilə məhdudlaşan təcrübə qazanmağı nəzərdə tutur. Qərar qəbul edən rəhbər şəxs bu dəyərlərin eyni zamanda hər ikisini giriş dəyərləri olaraq daxil edə bilər və proqram təminatının xüsusi funksiyası vasitəsilə bu iki dəyərin daxil edilməsi nəticəsində baş verə biləcək ssenarilərin bir-birindən fərqi göstərilir. Beləcə iki dəyərin əmələ gətirdiyi ssenarilər müqayisə edilərək, daha optimal variant seçilə bilər.

Həll fəzasında (şəkil 12) tünd mavi rəng hər iki variant (müdafiə islahatlarına töhfə) üçün məqbul olan konfiqurasiyanı, açıq mavi ilə göstərilən dəyərlər (və bütün tünd mavi dəyərlər) ancaq “müdafiə islahatlarına məh-

| Milli/Herbi Tehlukesizlik Meqsedleri | Mexanizmler | Legitimlik | Maliyye Aspektleri | Itki Qebul Etme Seviyyesi | Emiliyyatlarda ishtirakin menfi tesirleri | Sulhmeramli Emeliyyatlarin Novleri | Sülhmeramli tapshiriqlar | Ehtiyac Olan Qabiliyyetler |
|---|---|---|---|---|---|---|---|---|
| Birbasha olke maraqlarinin qorunmasi | BMT | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | Olkenin Xerclerinin Geri Odenilmesi | Hech/Chox az Itki Qebul olunur | Tesir yoxdur | Munaqishenin Onlenmesi | Texniki keshfiyyat vasitleri ile mushahide/Erken xeberdarliq | Xususi Herbi Bolme (Herbi Polis) |
| Regional tehlukesizlik tohfe | Reginoal teshkilatlar | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | Bashqa Tereflerle Xerclerin Bolushulmesi | Chox az/Mehdud sayda Itki Qebul olunur | Informasiya domeninde hucuma meruz qalma | Sulhe Mecburetme | Qablayici tedbir olaraq münaqishe zonasina sülhmeramlilarin yerleshdirilmesi | Quru Qoshunlari |
| Qlobal tehlukesizliye tohfe | Muveqqeti Koalisiyalar | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | Gonderen Olke Xercleri Tam Shekilde Qarshilanmasina Cavabdehdir | Nisbi Olaraq Yuksek sayda Itki Qebul Olunur | Ichtimai asayishin pozulmasi | Sulhun Qorunmasi | Sanksiya ve embarqo fealiyyetlerinin Tetbiqi | Hava Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Herterefli ve instusional) | Ferdi | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | | | Iqtisadi gerileme | Munaqishe sonrasi Sulh Quruculugu | Munaqishe tereflerinin guc tetbiqi ile ayrilmasi | Deniz Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Mehdud/praktiki sehra tecrubesi seviyyesinde) | | | | | Siyasi/Diplomatik izolasiya | | Mühafize olunan ve tehlükesiz erazilerin yaradilmasi ve nezaret edilmesi | Xususi Teyinatli Quvveler |
| Musbet beynelxalq imicin formalashmasi | | | | | Xarici silahli hucuma meruz qalma 1.Enenevi 2.Asimetrik | | Uchushun qadagan oldugu zonalarin yaradilmasi ve tetbiqini mecburetdirme | Sehiyye Xidmeti Qabiliyyetleri |
| | | | | | | | Hereket serbestliyi ve qadagasinin tetbiqi | Keshfiyyat, texniki keshfiyyat ve qoshun keshfiyyati fealiyyetleri |
| | | | | | | | Mulki ehalinin muhafizesine destek | Herbi Olmayan Tohfe |
| | | | | | | | Quvve muhafizesi ve tehlukesizlik | |
| | | | | | | | Sulhmeramlilarin munaqishe terefleri arasinda yerleshdirilmesi | |
| | | | | | | | Mushahide ve monitorinq | |
| | | | | | | | Sulhe kechide destek fealiyyetleri | |
| | | | | | | | Humanitar yardim | |
| | | | | | | | Deniz tehlukesizliyi emeliyyatlari | |

**Şəkil 12:** Üçüncü ssenari üçün həll fəzası. Daxil olunanlar: “müdafiə islahatlarına töhfə (müfəssəl/institusional)” və “müdafiə islahatlarına töhfə (məhdud/praktiki səhra təcrübəsi səviyyəsində)”.

| Milli/Herbi Tehlukesizlik Meqsedleri | Mexanizmler | Legitimlik | Maliyye Aspektleri | Itki Qebul Etme Seviyyesi | Emiliyyatlarda ishtirakin menfi tesirleri | Sulhmeramli Emeliyyatlarin Novleri | Sülhmeramli tapshiriqlar | Ehtiyac Olan Qabiliyyetler |
|---|---|---|---|---|---|---|---|---|
| Birbasha olke maraqlarinin qorunmasi | BMT | BMT Mandati VAR / Sahip olkenin raziligi VAR | Olkenin Xerclerinin Geri Odenilmesi | Hech/Chox az Itki Qebul olunur | Tesir yoxdur | Munaqishenin Onlenmesi | Texniki keshfiyyat vasitleri ile mushahide/Erken xeberdarliq | Xususi Herbi Bolme (Herbi Polis) |
| Regional tehlukesizlik tohfe | Reginoal teshkilatlar | BMT Mandati YOX / Sahip olkenin raziligi VAR | Bashqa Tereflerle Xerclerin Bolushulmesi | Chox az/Mehdud sayda Itki Qebul olunur | Informasiya domeninde hucuma meruz qalma | Sulhe Mecburetme | Qablayici tedbir olaraq münaqishe zonasina sülhmeramlilarin yerleshdirilmesi | Quru Qoshunlari |
| Qlobal tehlukesizliye tohfe | Muveqqeti Koalisiyalar | BMT Mandati VAR / Sahip olkenin raziligi YOX | Gonderen Olke Xercleri Tam Shekilde Qarshilanmasina Cavabdehdir | Nisbi Olaraq Yuksek sayda Itki Qebul Olunur | Ichtimai asayishin pozulmasi | Sulhun Qorunmasi | Sanksiya ve embarqo fealiyyetlerinin Tetbiqi | Hava Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Herterefli ve instusional) | Ferdi | BMT Mandati YOX / Sahip olkenin raziligi YOX | | | Iqtisadi gerileme | Munaqishe sonrasi Sulh Quruculugu | Munaqishe tereflerinin guc tetbiqi ile ayrilmasi | Deniz Quvveleri |
| Mudafie Islahatlarina tohfe (Mehdud/praktiki sehra tecrubesi seviyyesinde) | | | | | Siyasi/Diplomatik izolasiya | | Mühafize olunan ve tehlükesiz erazilerin yaradilmasi ve nezaret edilmesi | Xususi Teyinatli Quvveler |
| Musbet beynelxalq imicin formalashmasi | | | | | Xarici silahli hucuma meruz qalma 1.Enenevi 2.Asimetrik | | Uchushun qadagan oldugu zonalarin yaradilmasi ve tetbiqini mecburetdirme | Sehiyye Xidmeti Qabiliyyetleri |
| | | | | | | | Hereket serbestliyi ve qadagasinin tetbiqi | Keshfiyyat, texniki keshfiyyat ve qoshun keshfiyyati fealiyyetleri |
| | | | | | | | Mulki ehalinin muhafizesine destek | Herbi Olmayan Tohfe |
| | | | | | | | Quvve muhafizesi ve tehlukesizlik | |
| | | | | | | | Sulhmeramlilarin munaqishe terefleri arasinda yerleshdirilmesi | |
| | | | | | | | Mushahide ve monitorinq | |
| | | | | | | | Sulhe kechide destek fealiyyetleri | |
| | | | | | | | Humanitar yardim | |
| | | | | | | | Deniz tehlukesizliyi emeliyyatlari | |

**Şəkil 13:** Üçüncü ssenari üçün həll fəzası. Daxil olunanlar: “nisbi olaraq yüksək sayda itki qəbul olunur”.

dud/praktiki səhra təcrübəsi səviyyəsində töhfə variantındakı həll konfiqurasiyasını göstərir.

Modelin müqayisəli təhlil imkanları vasitəsilə görmək olur ki, “müfəssəl və institusional səviyyədə müdafiə islahatlarına töhfə” ancaq regional təşkilatlar mexanizmi çərçivəsində həyata keçirilə bilər.

**Ssenari 4:** Bu ssenari risk qiymətləndirilməsi məqsədilə həyata keçirilib. Burada “niyə müəyyən ölkə nisbətən yüksək itkilər vermək riskini qəbul edərək sülhməramlı əməliyyatlarda iştirak etməyi qəbul edərdi?”

Bu halda (şəkil 13) ölkə bu şərtlə sülhməramlı əməliyyatlara iştirak edər ki, onun

birbaşa maraqları təhlükəyə düşmüş olsun. Hətta bu hal yarandıqda beynəlxalq qəbul edilən mandatın olmaması və geniş spektrdə ölkəyə mənfi təsirlər əmələ gəlsə belə ölkə bu fəaliyyət tərzini seçmiş olacaq.

Araşdırmanın giriş hissəsində dövlətləri sülhməramlı əməliyyatlarda iştiraka sövq edən ehtimal olunan motivlər və bu tipli əməliyyatlarda iştirakla bağlı qərara təsir edən əsas amillər müzakirə edildi. Sülhməramlı əməliyyatların tarixi tərəqqisini müşahidə etdikdə müəyyən olunur ki, bu növ əməliyyatların nəinki əhatə sahəsi həmçinin xarakteri də dəyişmişdir. Sülhməramlı əməliyyatlar ənənəvi Soyuq Müharibəyə səciyyəvi olan əməliyyat növlərindən müasir, mürəkkəb çoxölçülü əməliyyatlara keçid etmişdir. Soyuq Müharibənin bitməsindən etibarən baş verən qlobal geosiyasi, həmçinin sülhməramlı əməliyyatların əhatə sahəsində və xarakterində baş verən dəyişiklikləri nəzərə alaraq, sülhməramlı əməliyyatlarda iştirak etmək məqsədilə qərar vermənin formalaşmasına təsir edəcək bir neçə mühüm faktorları diqqət mərkəzinə çəkildi. Bu faktorlar milli təhlükəsizlik məqsədləri, sülhməramlı əməliyyatlarda iştirak edərək bu məqsədləri əldə etmənin mexanizmləri, beynəlxalq legitimlik, sülhməramlı əməliyyatların növü, sülhməramlı əməliyyatlar zamanı icra edilən tapşırıqlar və bu tapşırıqları tam həcmdə icra etmək üçün tələb olunan qabiliyyətlər, maliyyə aspektləri, sülhməramlı əməliyyatlarda iştirak edən ölkənin verə biləcəyi itkilər və qarşılaşa biləcəyi mənfi nəticələrdir.

Diqqət edilməlidir ki, hazırlanan bu model vasitəsilə əmələ gətirilən ssenarilər, bu sahədə dərin təcrübəsi olan insanların qərarını əvəz edə bilməz lakin, qərar qəbuletmə prosesində köməkçi vasitə kimi istifadə edilə bilər. Əlavə olaraq, hazırlanan bu model prototip vəzifəsi icra etdiyi üçün, ehtimal edilir ki, sülhməramlı əməliyyatların tam və ətraflı olaraq bütün parametrlərini ehtiva etmir. Lakin qərar qəbul edən şəxslərin sülhməramlı əməliyyatların əhatə sahəsini strukturlaşdırılmış və şəffaf şəkildə görməsini təmin edir. Həmçinin, modeldə ümumilik səciyyəvi olduğu üçün fərqli ölkələr öz ehtiyaclarını nəzərə alaraq modeli fərqli şəkildə qura bilər və ya uyğunlaşdıra bilərlər. Milli modellərin qurulması zamanı milli mütəxəssislər analiz (ölkəyə səciyyəvi olan müəyyən parametrlər morfo-fəzaya əlavə edilə bilər və ya çıxarıla bilər) və sintezin (QUQ yenidən aparılması məqsədilə) yenidən aparılması üçün bu işə cəlb oluna bilər. Beləcə ümumi xarakter daşıyan model milli xüsusiyyətləri nəzərə alaraq daha spesifik ola bilər və zaman ərzində püxtələşər.

**Ədəbiyyat:**


1. Allied Joint Doctrine for the Military Contribution to Peace Support (AJP-3.4.1.) A, Version 1 // Adopted in 2 December 2014. – Brussels: NATO Standardization Office (NSO), – 2014. – 80 p.
2. Alsina P. J. Grand Strategy and Peace Operations: The Brazilian Case // Revista Brasileira de Política Internacional, – 2017, 60 (2).
3. Amadeo, K. Afghanistan War Cost, Timeline, and Economic Impact - The Ongoing Costs of the Afghanistan War: [Electronic resource] / The Balance. – June 15, 2019. URL: https://www.thebalance.com/cost-of-afghanistan-war-timeline-economic-impact-4122493
4. Bachmann, S-D & Gunneriusson, H. Terrorism and Cyber Attacks as Hybrid Threats: Defining a Comprehensive 21st Century Approach to Global Security // Journal on Terrorism & Security Analysis Editorial, – 2014, No 9, – p.26-36.

5. Ceu Pinto, M. Portugal: participation in peace missions as a factor of external credibility // e-journal of international relations, – 2012, 3 (1), – p. 65-77.
6. Charter of the United Nations: [Electronic resource] / United Nations. – November 21, 2018. URL: www.un.org/en/charter-united-nations/
7. Churchman, C. W. The systems approach and its enemies., s. 61 / C. W. Churchman. – New York: Basic Books, – 1979.
8. Deployment and Reimbursement: [Electronic resource] / United Nations Peacekeeping. – Sugust 20, 2019. URL: ttps://peacekeeping.un.org/en/deployment-and-reimbursement
9. Gaibulloev, K. Personnel contributions to UN and non-UN peacekeeping missions: A public goods approach / Khusrav Gaibulloev, Justin George, Todd Sandler [et al.] // Journal of Peace Research, – 2015, 52(6), – 727-742.
10. Giragosian, R. Peacekeeping Contributor Profile: Armenia: [Electronic resource] / Providing for Peacekeeping. – December 14, 2015. URL:http://www.providingforpeace-keeping.org/2015/12/14/peacekeeping-contributor-profile-armenia/
11. Simon, H. A. Bounded rationality in social science: Today and tomorrow // Mind & Society, – 2000, 1(1), – 25-39.
12. Kathman J.& Melin M. Who Keeps the Peace? Understanding a State Contribution to UN Peacekeeping Operations // International Studies Quarterly, – 2017, 61, – p.150-162.
13. Kucera, J. Armenia sends military deminers and medics to support Russian mission in Syria: [Electronic resource] / Eurasianet. – February 8, 2019. URL: https://eurasianet.org/armenia-sends-military-deminers-and-medics-to-support-russian-mission-in-syria
14. Leuven Manual on the International Law Applicable to Peace Operations / Gill, T., Fleck, D., Bootby [et al.]. – Cambridge: Cambridge University Press. – 2017. – 403 p.
15. NORDCAPS PSO Tactical Manual Volume I, third edition // Prepared by the Committee of Nordic Co-operated Arrangement for Military Peace Support. – Jyvaskyla: –2002. – 161 p.
16. OCC E&F Handbook. (2019). Operational Capabilities Concept Evaluation and Feedback (OCC E&F) Programme Handbook, Verision 4.0. // Approved in 28 June 2019. – Mons: NATO ACO Partnership Directorate, – 2019. – 259 p.
17. Our History [Electronic resource] / United Nations Peacekeeping. – August 21, 2019. URL:https://peacekeeping.un.org/en/our-history
18. Partnership tools: [Electronic resource] / NATO. – June 24, 2016. URL: https://www.nato.int/cps/en/natohq/topics_84336.htm
19. Partnerships: projecting stability through cooperation: [Electronic resource] / NATO. – August 30, 2018. URL: https://www.nato.int/cps/en/natohq/topics_84336.htm
20. Peacekeeping Capability Readiness System (PCRS): [Electronic resource] // Approved in 1 January 2019. – New York: – Department of Peace Operations, Department of Operational Support. – 2019. – 15 p. URL: https://pcrs.un.org/lists/resources/forms/allitems.aspx?rootfolder=/lists/resources/peacekeeping+capability+readiness+system+(pcrs)
21. Peacekeeping Fact Sheet (as of 31 July 2019): [Electronic resource] / United Nations Peacekeeping. – August 23, 2019. URL: https://peacekeeping.un.org/sites/default/files/pk_factsheet_07_19_eng_1.pdf
22. Protocol Relating to The Establishment of The Peace and Security Council of The African Union: [Electronic resource] / African Union, – July 9, 2002. URL: https://au.int/sites/default/files/treaties/37293-treaty-0024_protocol_relating_to_the_establishment_of_the_peace_and_security_council_of_the_african_union_e.pdf

23. Report of the High-level Independent Panel on Peace Operations on uniting our strengths for peace: politics, partnership and people: [Electronic resource] // Adopted in 17 June 2015. – New York: – United Nations A/70/95–S/2015/446 (Reissued for technical reasons on 13 July 2015). – 2015. – 104 p.
URL: https://www.un.org/en/ga/search/view_doc.asp?symbol=S/2015/446
24. Ritchey, T. Modelling complex socio-technical systems using morphological analysis: [Electronic resource] / Adapted from an address to the Swedish Parliamentary IT Commission, – Stockholm: – 2012.
URL: http://www.swemorph.com/pdf/it-webart.pdf
25. Ritchey, T. On the Formal Properties of Morphological Models: [Electronic resource] / Acta Morphologica Generalis 1, 2. – 2012.
URL: http://www.amg.swemorph.com/pdf/amg-1-2-2012.pdf
26. Ritchey, T. Principles of Cross-Consistency Assessment in General Morphological Modelling: [Electronic resource] / Acta Morphologica Generalis 4, 2. – 2012.
URL: http://www.amg.swemorph.com/pdf/amg-4-2-2015.pdf
27. Ritchey, T. Wicked Problems - Social Messes - Decision support modelling with morphological analysis / T. Ritchey. Berlin: – Springer, – 2011. – s. 103.
28. Rüstəmov, Y. Fəlsəfənin əsasları (mühazirə kursu) / Y.Rüstəmov. – Bakı: “NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 504 s.
29. Sadıqov, İ. İnformatika terminlərinin izahlı lüğəti / İ. Sadıqov. – Bakı: – Bakı Nəşriyyatı, – 2017. – 996 s.
30. SIPRI Multilateral Peace Operations Database: [Electronic resource] / Stockholm International Peace Research Institute (SIPRI). – December 23, 2018. URL: https://www.sipri.org/databases/pko
31. Treaty of European Union, Article 43: [Electronic resource] / Official Journal of the European Union. – October 26, 2012.
URL: https://eur-lex.europa.eu/resource.html?uri=cellar:2bf140bf-a3f8-4ab2-b506-fd71826e6da6.0023.02/DOC_1&format=PDF
32. Troop Contributing Ranking by Country as of 31 July 2019: [Electronic resource] / United Nations Peacekeeping. – August 10, 2019.
URL: https://peacekeeping.un.org/en/troop-and-police-contributors
33. United Nations Peacekeeping Operations: Principles and Guidelines (Capstone Doctrine) // Approved on 18 January 2008. – New York: United Nations Department of Peacekeeping Operations, – 2008. – 100 p.
34. Vietnam War Protests: [Electronic resource] / History Portal. – February 12, 2010.
URL: https://www.history.com/topics/vietnam-war/vietnam-war-protests
35. Zhengyu, W. & Taylor, I. From refusal to engagement: Chinese contributions to peacekeeping in Africa // Journal of Contemporary African Studies, – 2011, 29 (2) – p. 137-154.

***Açar sözlər:*** *sülhməramlı əməliyyatlar, motivlər, qərar qəbuletmə dəstək modeli, Ümumi Morfoloji Təhlil metodu*

**Ramil Shukurov**
*National Military Representative Armed forces of the Republic of Azerbaijan in both NATO Strategic Commands*

**Ahmed Huseynov**
*Head of Experience Department of Defense Planning and Military Strategy Ministry of Defense of the Republic of Azerbaijan*

**Hazim Hodzich**
*National Military Representative of Bosnia and Herzegovina in both NATO Strategic Commands*

# STATE PARTICIPATION IN PEACEFUL OPERATIONS: A DETAILED DECISION SUPPORT MODEL (methodological support for the adoption of decisions and staff planning)

## SUMMARY

Nowadays, peace operations have become one of the most important tools for peace and stability around the world. The demand for peacekeepers is growing both quantitatively and qualitatively in terms of the composition of the mission involving the military, police, civilians and the tasks they perform. Amid this increase, the UN and regional organizations are urging countries to contribute to such peace operations. Various reasons are analyzed that determine the factors that motivate each country to participate in peace operations, as well as a number of factors that influence the decision to participate.

In addition, the "Decision Support Model for Peace Operations" is presented, developed using the General Morphological Analysis method, which can be applied by all countries. The model is intended for a comprehensive and structured study of the phenomenon of peace operations, as well a means to accelerate and improve the decision-making process. The model is tested based on various realistic scenarios.

***Key words:*** *peace operations, motives, decision support model, General Morphological Analysis methodology*

**Рамиль Шюкюров**
*Национальный Военный Представитель*
*Вооруженных Сил Азербайджанской Республики*
*в обоих Стратегических Командованиях НАТО*

**Ахмед Гусейнов**
*Начальник отдела Изучения опыта*
*Управления Оборонного Планирования и Военной Стратегии*
*Министерства Обороны Азербайджанской Республики*

**Хазим Ходзич**
*Национальный Военный Представитель Боснии и Герцеговины*
*в обоих Стратегических Командованиях НАТО*

# УЧАСТИЕ ГОСУДАРСТВА В МИРОТВОРЧЕСКИХ ОПЕРАЦИЯХ: ПОДРОБНАЯ МОДЕЛЬ ПОДДЕРЖКИ РЕШЕНИЙ

**(методическая поддержка принятия решений и планирования персонала)**

## РЕЗЮМЕ

В современный период миротворческие операции стали одним из важнейших инструментов мира и стабильности в мире. Спрос на миротворцев растет как количественно, так и качественно с точки зрения состава миссии с привлечением военных, полиции, гражданских лиц и задач, которые они выполняют. На фоне этих изменений ООН и региональные организации призывают страны участвовать в таких миротворческих операциях. Анализируются различные причины, обусловливающие факторы, которые мотивируют каждую страну участвовать в миротворческих операциях, а также ряд факторов, влияющих на решение об этом участии. Наряду с этим, представлена “Модель поддержки принятия решений для миротворческих операциях“, разработанная с использованием метода общего морфологического анализа, которая может применяться всеми странами. Эта модель предназначена для подробного и структурированного изучения феномена миротворческих операций, а также для ускорения и совершенствования процесса принятия решений. Модель тестируется на основе различных реалистичных сценариев.

***Ключевые слова:*** *миротворческие операции, мотивы, модель поддержки принятия решений, методология общего морфологического анализа*

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327(091)

**XƏYYAM İSMAYILZADƏ**
**Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosent əvəzi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: ekonika22@yahoo.com*

# AZƏRBAYCAN-FİNLANDİYA: QARŞILIQLI FAYDALI ƏMƏKDAŞLIQDA SİYASİ-İQTİSADİ ASPEKTLƏR

Məlum olduğu kimi, Avropa ilə Asiyanın qovuşuğunda çox əlverişli geosiyasi və geostrateji mövqedə yerləşən müstəqil Azərbaycan Respublikası özünün tarixi və milli özünəməxsusluqlarını qoruyub saxlamaqla yanaşı, təkcə Şərqin deyil, həm də Qərbin mütərəqqi dövlətçilik ənənələrindən və dəyərlərindən yaradıcılıqla bəhrələnməklə, dünya birliyinə qovuşmaq məqsədilə fəal surətdə dövlətlərarası əlaqələrə daxil olmaqdadır. Bu qəbildən olan strateji vəzifələri reallaşdırarkən, ölkəmiz öz xarici siyasətində hər hansı bir qütbə aludə olmaqdan çəkinir, balanslı və tarazlaşdırıcı istiqamətlərə üstünlük verir.

Müstəqil Azərbaycan dövlətinin dünya birliyi ölkələri ilə hərtərəfli beynəlxalq əlaqələr yaratmaq tarixi zərurətini həyata keçirməsinin çox mühüm bir istiqamətini inkişaf etmiş Avropa ölkələri sırasında özünə layiqli yer tutan Skandinaviya dövlətləri, xüsusilə, Finlandiya ilə çoxtərəfli əlaqələrin yaradılması və möhkəmləndirilməsi təşkil edir. Bu istiqamətdə Finlandiya ilə aparılan iqtisadi, siyasi, humanitar, mədəni əlaqələr son illərdə nəzərəçarpacaq dərəcədə intensivləşmiş və özünün yüksək dinamikliyi ilə seçilmişdir.

Öz müstəqilliyini elan etməsindən cəmi 6 ay keçdikdən sonra Azərbaycanın BMT-yə, az sonra isə ATƏT-ə üzv seçilməsi onun bütünlükdə Avropada, o cümlədən də Şimal yarımadası ölkələri arasında siyasi nüfuzunun əsasını qoydu.

Təsadüfi deyildir ki, Azərbaycan ATƏT-in Zirvə görüşlərində özünün ilk siyasi addımlarını da 1992-ci ildə məhz Skandinaviya ölkəsi olan Finlandiyadan başlamışdır. Həmin görüşdə ölkəmizin nümayəndə heyəti Avropada sülh və əməkdaşlığa dair Helsinki Bəyannaməsinin Yekun aktını imzaladı. Bununla da faktiki olaraq müstəqil Azərbaycanın Skandinaviya ölkələri ilə çoxtərəfli əlaqələrinin əsası qoyulmuş oldu. Helsinki Sammitində iştirak edən nümayəndə heyəti öz çıxışlarında dönə-dönə qeyd etmişdi ki, "Finlandiya ilə möhkəm əlaqələr yaradılacağına böyük ümidlər bəsləyir. Finlandiya sülhsevər dövlətdir və sülhsevər dövlətlərin görüş və ünsiyyət yeridir. Azərbaycan bu gün özünün çətin vəziyyətini yaşasa da, biz ümid edirik ki, Helsinki görüşü sabitliyin və sülhün inkişafına kömək edəcəkdir" (3, s.11).

Bu sözlərdə müstəqilliyə yenicə qədəm qoymuş, bu yolda ilk kövrək addımlarını atan Azərbaycan dövlətinin və xalqının digər ölkələrlə hansı siyasi münasibətlər sistemi yaratmaq arzusu və ümidləri ifadə olunmuşdur. Həmin görüşlərdə, öz növbəsində, Finlandiya hökumətinin yüksək səviyyəli rəhbərliyi də bu istəyə rəğbətli münasibət bildirmişdir. Finlandiyanın Prezidenti Maimo Koyvisto ölkələrimiz arasında ikitərəfli münasibətlərlə bağlı məsələlər barəsində səmərəli fikir mübadiləsi aparmış və özünün azərbaycanlı həmkarını əmin etmişdir ki, "bazar iqtisadiyyatına keçid

ərəfəsində olan gənc, demokratik ölkəyə əlindən gələn köməkliyi əsirgəməyəcəkdir" (3, s.13).

Müstəqillik elan edildikdən 1993-cü ilin avqust ayınadək Avropanın 18 ölkəsi Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və bəziləri onunla diplomatik münasibətlər qurdu. Onların sırasında Böyük Britaniya, Fransa, Almaniya və İtaliya ilə yanaşı, Skandinaviya ölkəsi - Finlandiya da var idi (2, s.47).

Qeyd edək ki, Finlandiya Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci ildə tanısa da, ölkələr arasında münasibətlər sonrakı illərdə inkişaf edib. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra iki dövlət arasında rəsmi münasibətlərə start verilmişdir. Rəsmi əlaqələr isə hər iki ölkədə diplomatik missiyaların fəaliyyətə başlamasına qədər əsasən bir sıra toplantılar çərçivəsində və səfərlərlə reallaşıb. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon sammiti çərçivəsində Ulu öndər Heydər Əliyev Finlandiyanın Prezidenti M.Ahtisaari ilə görüşüb. 1998-ci ilin may ayında Finlandiyanın xarici ticarət və Avropa İttifaqı məsələləri naziri O.Norbak Azərbaycana səfər edib. Həmin ilin avqustunda Finlandiya Parlamentinin Xarici siyasət məsələləri üzrə Komitəsinin nümayəndə heyəti Azərbaycanda olub.

Finlandiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsi ilə həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupunun tərkibinə daxildir. Hətta, Minsk prosesinin həmsədrlik institutu təsis olunarkən, ona Rusiya ilə birlikdə başçılıq etmişdir. Hələ 1997-ci ilin oktyabrın 9-da Fransanın Strasburq şəhərinin Avropa sarayındakı görüşlərdə Finlandiyanın Xarici İşlər Naziri xanım Tarya Halonen Azərbaycan ilə siyasi əlaqələrin genişləndirilməsi zərurətini vurğulayaraq demişdir: "Ölkələrimiz arasında əməkdaşlığın geniş- ləndirilməsi sahəsində imkanlar var və mənim hökumətim qarşılıqlı əlaqələrin inkişafına maraq göstərir. Ermənistan - Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasını arzuladığımı vurğulayaraq bildirirəm ki, mənim ölkəm bu problemin Lissabon prinsipləri əsasında həllinə tərəfdardır" (1, s.286).

Azərbaycan Prezidenti Heydər Əliyev onunla həmrəy olduğunu bildirərək qeyd etmişdir ki, "ATƏT-in Minsk qrupuna üç həmsədr təyin edildikdən sonra bu qrup öz fəallığını artırmışdır. Onlar münaqişənin həllinə dair öz təkliflərini vermişlər və Azərbaycan tərəfi sülh danışıqlarını intensivləşdirmək üçün həmin təklifləri əsas kimi qəbul etmişdir. Mən habelə vurğulayıram ki, Minsk qrupunun üzvü kimi Finlandiyanın da bu münaqişənin həllində daha fəal iştirak etməsini arzu edirəm" (1, s.287).

2000-ci ilin noyabrında Finlandiyanın Bakıda konsulluğu açıldıqdan sonra bu ölkə ilə siyasi əlaqələr daha intensiv xarakter aldı (6, s.2). Bu işdə ilk Konsul Karl Ekbsom mühüm rol oynamışdır. 2000-ci ilin oktyabr ayının sonunda Bakı Dövlət Universitetində Helsinki Vətəndaş Assambleyasının (HVA) "Mədəniyyətlərin və sivilizasiyaların dialoquna Bakı çağırışı" V Beynəlxalq Konfransı keçirildi. Burada Qafqaz və Yaxın Şərq ilə yanaşı, Avropanın 23 ölkəsindən 500 qeyri-hökumət təşkilatının nümayəndələri iştirak etmişdi. Üç gün davam etmiş tədbirdə vətəndaş təhlükəsizliyi, yerli cəmiyyətlərin inkişafı, regional inteqrasiya və gənclərin fəaliyyəti barədə mövzular müzakirə olunmuşdur (5, s.5). İlk nəzərdə mədəniyyət sferasına aid olan bu tədbir öz mahiyyətinə görə həm də mühüm siyasi xarakter daşıyırdı.

2005-ci ilin sentyabrın 29-da Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin Azərbaycana rəsmi səfərində bir daha vurğulandı ki, Azərbaycan-Finlandiya münasibətlərinin sürətli inkişafı üçün böyük imkanlar vardır. Onunla keçirilən görüşdə Prezident İlham Əliyev bu rəsmi səfəri yüksək qiymətləndirərək demişdir ki, o, "ikitərəfli münasibətlərimizdə çox mühüm hadisədir". Sonra, Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin tarixinə nəzər salaraq qeyd etmişdi ki, "Azərbaycan ilə Finlandiya arasında keçmişdə də yaxşı əlaqələr olmuşdur. Finlandiyanın rəhbərləri müxtəlif vaxtlarda Azərbay-

cana səfər etmişlər. "Mən Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın bütün sahələrdə genişlənməsi və dərinləşməsinin tərəfdarıyam. Bizim bugünkü söhbətimiz xarici siyasətlərimizin başlıca istiqamətlərinin üst-üstə düşdüyünü təsdiq edir, ölkələrimizin ikitərəfli dialoqu inkişaf etdirmək üçün siyasi iradəsinin olmasını göstərir" (8, s. 1).

Həmin ilin sentyabrın 30-da Bakıda Azərbaycan ilə Finlandiyanın birgə təşkil etdiyi Biznes Forumdakı nitqində Prezident İlham Əliyev bildirdi ki, Finlandiya ölkəsinin Prezidenti ilə ikitərəfli münasibətlər, regional təhlükəsizlik məsələləri müzakirə olunmuşdur və bütün hallarda vəziyyətlə bağlı ölkələrin mövqeyi eynidir. "Ölkələrimiz arasında siyasi münasibətlərə gəldikdə, onu deyə bilərəm ki, bizim xarici siyasətimizin əsas prioritetlərindən biri Avropaya inteqrasiya ilə bağlıdır. Ölkələrimiz arasında həm siyasi, həm regional, həm təhlükəsizlik məsələlərində, həm də iqtisadi sahədə çox yaxşı anlaşma mövcuddur" (9, s.2).

*Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Haqları və Hüquq İnstitutunun doktorantı, siyasi elmlər üzrə fəlsəfə doktoru*

## ABŞ-DA VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA PREZİDENTLİK İNSTİTUTUNUN XÜSUSİYYƏTLƏRİ

### XÜLASƏ

Məqalədə dünyada ilk dəfə olaraq XVIII əsrin sonunda təsis edilmiş, mürəkkəb inkişaf yolu keçmiş, dünya ölkələrinin nümunə kimi qəbul etdiyi ABŞ prezidentlik institutunun yaranması və inkişafı təhlil edilir, onun konstitusiya əsasları və xüsusiyyətləri, prezidentin dövlət başçısı və icra hakimiyyətinin başçısı kimi səlahiyyətləri nəzərdən keçirilir, ABŞ-da prezident hakimiyyətinin müasir modeli səciyyələndirilir, onun inkişafında bəzi disfunksiya təzahürləri qeyd edilir. Burada Azərbaycan Respublikasında prezidentlik institutunun təşəkkülünün müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğu vurğulanır, müqayisəli aspektdən Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəalarına istinad edilərək, prezidentin konstitusyon statusu, prezidentlik institutunun digər səciyyəvi cəhətləri təhlil edilir, onun müasir modelinin formalaşması və inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu açılıb göstərilir, eləcə də hər iki ölkədə vitse-prezidentlik institutunun yaranması və funksional təyinatı da nəzərdən keçirilir.

***Açar sözlər:*** *prezidentlik institutu, təşəkkülü, xüsusiyyətləri, konstitusiya əsasları, müasir model, vitse-prezidentlik*

**Nuraddin Ibragimov**
*Institute of Human Rights and Law of ANAS,*
*PhD in Political Science*

## FEATURES OF THE INSTITUTION OF THE PRESIDENCY IN THE USA AND THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

The paper analyzes the establishment of the US presidential institution, which happened for the first time in the world at the end of the XVIII century and still exemplifies worldwide the presidential form of state governance, describes its constitutional foundation and particularities, the complex path of development it has gone through, and reviews the capacities that the president encumberes as a head of state and the head of government. The article also provides an assessment of the current model of presidential power, drawing attention to some manifestations of dysfunction in its development. The paper emphasizes that the establishment of the presidential institution in the Republic of Azerbaijan is inseparable from the name of the national leader Heydar Aliyev, who is the founder of the independent state of Azerbaijan. The constitutional status of the President and other inherent features of the Presidency institute are analysed from the comparative aspect and standpoint of relevant provisions of the Constitution of the Republic of Azerbaijan. The role of the President of the Republic of Azerbaijan Ilham Aliyev in the formation and development of its modern model, as well as the functional purpose of the institute of vice presidency in both countries, are also considered.

***Keywords:*** *institution of the presidency, formation, features, constitutional foundations, modern model, vice presidency*

**DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ**
**THEORY AND HISTORY OF STATE AND LAW**

UOT 321(091)(4/9); 34(091)(4/9)

**RAHİB ƏKBƏROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**
*e-mail: rahibekberli@gmail.com*

# AZƏRBAYCANDA PUBLİK HÜQUQİ ŞƏXS İNSTİTUTUNUN İNKİŞAF TARİXİNƏ DAİR (SON ORTA ƏSRLƏR)

Son illərdə Azərbaycan Respublikasının hüquq sistemində ictimai və dövlət mənafelərinin təmin edilməsində xüsusi rolu olan publik hüquqi şəxs institutu geniş tətbiq edilir. Bu baxımdan publik hüquqi şəxs institutu adlanan hüquqi konstruksiyasının formalaşması və inkişafının öyrənilməsi öz aktuallığı ilə fərqlənir. Müasir dövrün publik hüquqi şəxs institutu ictimai və dövlət mənafelərinin təmin edilməsinin yeni, daha təkmilləşdirilmiş formasıdır. Digər hüquq sistemlərində olduğu kimi, Azərbaycan hüquq tarixinə, "hüquqi şəxs" institutu çoxdan məlum olsa da, onun elmi cəhətdən təqdim edilməsinə cəhdlərə demək olar ki, rast gəlinmir. Belə ki, tarixən Azərbaycan ərazisində əsnaf və sex birliklərinin təcrübədə publik hüquqi şəxs kimi fəaliyyət göstərmələrinə baxmayaraq, onların hüquqi statusunun əsas xüsusiyyətləri ətraflı araşdırılmamışdır.

Məhz, müasir hüquq münasibətlərində daha çox burjua-kapitalist cəmiyyətinin məhsulu olan "publik hüquq şəxs" institutu, əslində bir çox hüquqi əlamətlərinə görə heç də onlardan geri qalmayan və Azərbaycanın son orta əsrlər mərhələsinin təsərrüfatla məşğul olan əsnaf və sənətkar sexlərinin fəaliyyətində praktiki aprobasiyadan keçmiş ictimai əsaslı təşkilat kimi mövcud olmuşdur. Əsnaf birliklərinin mülkiyyətə sahiblik hüququnda ümumi əmlaka malik olması və fəaliyyətlərindəki spesifik əlamətlərin məzmunu, bu korporasiyaların publik hüquqi şəxs statusuna malik olduqlarını səciyyələndirmək üçün geniş elmi-metodoloji baza yaradır. Bu baxımdan, hüquqi şəxs institutunun əsas funksiyaları əsasında publik hüquqi münasibətlərin tənzimlənməsi qaydalarının araşdırılması, öz dovrü üçün kifayət qədər inkişaf etmiş hüquq münasibətlərin olduğunu aşkar edir. Publik hüququn formalaşması, tənzimlədiyi ictimai münasibətlərin inkişaf səviyyəsi, publik hüquqi şəxs institutunun subyektləri, onların hüquqi statusu, funksiyaları, səlahiyyətləri, hüquq və öhdəlikləri, dövlət və ictimai maraqların təmin edilməsində rolu və s. kimi məsələlər aktual və maraqlı cəhətləri ortaya çıxarır. Bununla belə, bəhs olunan dövrdə nəyin ki, Azərbaycan hüququnda, hətta inkişaf etmiş hüquq sistemlərində, hüququn sahələrə bölgüsünün dəqiq hədləri olmadığı kimi, onun ayrı-ayrı institutlarının hüquqi konstruksiyası və statusu barədə konkret fikir yüyürdülməsi olduqca çətinliklər yaradır. Məsələn, Napoleon məcəlləsi kimi tanınan Fransanın 1804-cü il Mülki Məcəlləsində hüquq şəxslər haqqında demək olar ki, qismən bəhs edilır və kapitalist münasibətlərinin zəif inkişafı əsas səbəb kimi göstərilir. Gəldiyimiz tarixi-hüquqi təhlil nəticəsində, müasir hüquqda publik hüquqi şəxs institutunun formalaşması prinsiplərinə və fəaliyyətlərinin tənzimlənməsinin əsas cəhətlərinə istinad edərək,

müqayisəli şəkildə Azərbaycan hüquq tarixinin son orta əsrlərində kifayət qədər inkişaf etmiş hüquqi şəxs institutun təşəkkülünün elmi əsaslarını müəyyən etmək mümükün olmuşdur.

Müasir hüquqda hüquqi şəxs və publik hüquqi şəxs institutlarının oxşar və fərqli cəhətləri müqayisə edərkən belə bir cəhətə diqqət yetirmək lazımdır ki, hüquqi şəxs institutu, şəxsi (təsisçinin) və ictimai maraqları (məhz, təsis edilmiş əsnaf birliklərinin, sex quruluşu üzvlərinin və s.) təmin edən və korporativ mənafelərə əsaslanan təsərrüfat cəmiyyətləri, publik hüquqi şəxs isə ümumdövlət və ictimai əhəmiyyət daşıyan, dövlət və özünüidarəetmə orqanı adından yaradılan (əslində təsis olunan), lakin bu orqanları təmsil etməyən ümumdövlət və ictimai əhəmiyyət kəsb edən təşkilatdır. Bununla yanaşı publik hüquq şəxs də, öz adından publik hüquqi şəxs (təsərrüfat cəmiyyətləri) yarada bilər. Nəticə etibarı ilə bu qaydaya əsasən publik hüquqi şəxs adından yaradılan publik hüquqi şəxs institutu, törəmə hüququdur. Çünki, dövlət və bələdiyyə tərəfindən yaradılan publik hüquqi şəxs, ümumdövlət və ictimai əhəmiyyətə malik olsa da, dövlət və bələdiyyə orqanı olmayan təşkilat hesab edilirlər. Beləliklə, publik hüquqi şəxs adından yaradılan törəmə publik hüquqi şəxs, bilavasitə publik ictimai təşkilatdır və artıq publik hüquqi şəxs tərəfindən yaradıldığına görə, dövlət və bələdiyyə orqanı ilə heç bir əlaqəsi olmayan ictimai əhəmiyyət kəsb edən təşkilatdır.

Hüquqi şəxs institutu ilə dövlət və bələdiyyələr tərəfindən yaradılan publik hüquq şəxs institutlarının əsas oxşar cəhətləri isə, hər iki institutun ictimai və ümumdövlət əhəmiyyət kəsb etməsidir. Məhz, yuxarıda qeyd edilən əsas prinsiplər əsasında Azərbaycanın son orta əsrlər mərhələsinin təsərrüfatla məşğul olan əsnaf və sənətkar sexlərinin fəaliyyətində hüquq şəxs institutunun tənzimlənməsi qaydalarının araşdırılması, tarixi təcrübənin öyrənilməsi və öz dovrü üçün kifayət qədər inkişaf etmiş hüquq münasibətlərin olduğunu təsdiq edir.

Bəhs olunan dövrün mənbələri əsasında Azərbaycan şəhərlərində fəaliyyət göstərən müxtəlif təyinatlı sexlərdə, bir peşədən olan sənətkarlar, ümumi təsərrüfat məqsədləri üçün əsnaflar adlanan təşkilatların geniş şəbəkəsi mövcud olmuşdur. Qeyd etmək lazımdır ki, Qafqazın digər şəhərlərində, o cümlədən Tiflisdə fəaliyyət göstərən sex təşkilatlarında da əsnaflar yaradılmışdır. Maraqlıdır ki, bu təşkilatlar da eyni adla – "amkar", "amkarstva" (həmkar) birlikləri adlanmaqla fəaliyyət göstərmişdilər (3, s.68). Əsnaf (ərəbcə sinif sözünün cəmidir) eyni peşə ilə məşğul olan sənət yoldaşı mənasındadır. Əsnafların ümumi əmlaka malik olması və fəaliyyətlərindəki spesifik xüsusiyyətlər, bu birlikləri müasir hüquqda mövcud olan hüquqi şəxs statusuna yaxın fəaliyyət göstərdiyini qəti şəkildə əsaslandırır. Bəhs olunan dövrün sosial-iqtisadi, təsərrüfat-idarəçilik sistemi və hüquqi tənzimləmə mexnanizmləri mövcud ictimai münasibətlərin inkişaf səviyyəsinə uyğun idi. Azərbaycanın mərkəzləşdirilmiş Səfəvilərin hakimiyyəti dövründə sənətkarlıq daha da inkişaf etmiş, Elxanilər dövründə sənətkarlıqda tətbiq edilən təhkimçi əməyi aradan qalxmış, azad sənətkarların rolu daha da artmışdır (7, s.74). Ayrı-ayrı sənət növləri sahəsində müəyyən texniki inkişaf az da olsa müşahidə edilmişdir. Bir sıra yeni sənət növləri meydana gəlmiş, istehsalat sahəsində texnologiya təkmilləşmişdir. Fərdi işləyən ustalarla yanaşı emalatxanalarda kollektiv işləyən sənətkarların sayı artmışdır. Sənətkarlıq məhsullarının keyfiyyətində də müsbət dəyişiklik əmələ gəlmişdi.

Məlumdur ki, hüquqi şəxslər ümumi və ya xüsusi funksiyanı həyata keçirmələrindən asılı olaraq fərqləndirilirlər. Məhz, əsnaflar hüquqi şəxs kimi öz fəaliyyətini xüsusi-hüquqi əsaslar üzərində qurmaqla şəxsi məqsəd və mənafelər, yəni öz üzvlərinin mənafelərini təmin edirlər. Hüquqi şəxslərin üzvləri birliyin tam hüquqlu nümayəndələridir və onların iradəsi tam mənada hüquqi şəxsin iradəsidir. Ayrı-ayrı sənətkar birliklərinin publik hüquqi şəxs statusunda,

öz sənət və peşəsinə uyğun ayrıca təşkilatları mövcud olmuşdur. Onlar öz aralarından inanılmış və mötəbər şəxsləri müəyyən edib bu təşkilata rəhbər təyin edirdilər. Ümumilikdə isə, hər hansı bir sənət sahəsi üzrə şah tərəfindən təyin olunmuş xüsusi rəis başçılıq etməsi, öz növbəsində, təcrübə olaraq dövlət adından publik hüququ şəxsin fəaliyyəti üçün şərait yaradırdı. Sənətkar təşkilatlarının başçısı dövlət və ya şəhər inzibati və mülki işçiləri ilə sənətkarlar arasında vasitəçi rolu oynayırdı. Saray sənətkarları birləşmələrinin başçıları isə bilavasitə şah tərəfindən təyin olunub, məvacibi dövlətdən alırdılar. Azad sənətkarlar təşkilatlarının başçıları, təyin olunduğu sənət peşəsi ilə məşğul olanların mənafeyini müdafiə etməyə cəhd göstərdiyi halda əksinə, saray sənətkar birləşmələrinin başçıları tabeçiliyindəki sənətkarlara münasibətdə əks mövqe tutaraq dövlət mənafeylərini təmin etməyə çalışırdılar.

Sənətkarlar sənət növü və ərazi prinsipinə uyğun olaraq birləşirdilər. Bu birliklər öz hüquq və mənafeyləri uğrunda mübarizə aparmaqda sənətkarlara şərait yaradırdı. Digər tərəfdən isə, dövlət üçün də əlverişli şərait yaranırdı. Belə ki, dövlət təcili xəbərləri carçıları vasitəsilə sənətkarlara vaxtında çatdıra bilir, hər ilin ilk üç ayı ərzində ayrı-ayrı sənətkarlar üzərində qoyulacaq verginin miqdarının müəyyənləşdirilməsini və həmin vergilərin vaxtında toplanmasını sürətləndirir, sənətkarlıq məhsullarına dövlət tərəfindən qiymət qoyulması və onun müəyyən edilmiş qiymət əsasında satılmasına nəzarəti gücləndirir, bayram günlərində, şənliklər zamanı və digər mühüm dövlət tədbirlərində sənətkar-ların bir yerə toplanmasını asanlaşdırırdı.

Sənətkarlıq təşkilatlarının yazılı Nizamnaməsində (əslində, sənətkar təşkilatlarına məxsus dini risalələr nizamnamə funksiyasını yerinə yetirirdi) hər bir sənətkar təşkilatına üzv olmaq üçün baş usta ilə yeni şagirdliyə qəbul edilənin valideyni arasında şifah (verbal) müqavilə əsasında, çox ciddi tələb və şərtlər müəyyən edilirdi (5, s.138). Bu təşkilatlar işlərini, o cümlədən müqavilə şərtlərini müxtəlif dini adətlər və şəriət əsasında tənzimləyirdilər. Sənətkar təşkilatlarına məxsus məşvərətçi şura, mediasiya statusunda sənətkarlıq qurumunun daxili işlərinin həllində mühüm rol oynayırdılar. Vergini təyin etmək, onu vaxtında toplamaq, usta ilə şagird və ya ayrı-ayrı sənətkarlar arasında baş verən ixtilafları həll etmək və s. sənətkarlıq təşkilatı Şurasının səlahiyyətinə daxil idi. Sənətkarlıq təşkilatı rəhbəri şeyx və ya məlik adlanmaqla fərqləndirilirdilər. Peşələr üzrə də kiçik təşkilatlar mövcud idi. Məsələn, musiqi aləti hazırlayan sənətkarların, çörəkçilərin və s. peşə sahiblərinin təşkilatları da olmuşdur.

Mənbələrdə müqavilə öhdəliklərinin təmin edilməsinin ciddi hüquqi rejiminə də rast gəlinir. Müəyyən sənəti öyrənmək məqsədilə usta yanına şagird qoyduqda ilk günlərdə ona müəyyən qədər muzd verilirdi. Belə ki, usta ilə şagird arasında razılaşmaya əsasən gündəlik işin həcmi, şagirdin yaşı, onun sənətə yiyələnmək dərəcəsi, qabiliyyəti və s. nəzərə alınaraq ona müəyyən məbləğdə pul ödənilirdi. Lakin bu razılığın (konsensual müqavilə) müddəti göstərilmirdi. Usta istədiyi vaxt şagirdi qova bilər, şagird də istədiyi vaxt ustanın yanından gedə bilərdi. Usta sənətin incəliklərini şagirdə öyrətməklə yanaşı, onu daha artıq istismar etməyə, işlətməyə cəhd göstərirdi. Bəhs olunan dövrdə sənətkarlar özləri də dörd kateqoriyaya bölünürdü. Hər kateqoriyadan olan sənətkarlar iqtisadi və ictimai vəziyyətlərinə görə bir-birindən xeyli fərqlənirdilər. Birinci kateqoriyaya daxil olan sənətkarlar tək və ya bir nəfər şagirdi ilə işləyən, emalatxana, yaxud dükan açmağa imkanı olmayanlar aid edilir və əksəriyyət təşkil edirdilər. Bu kimi azad sənətkarlar çox vaxt öz oğlanlarından və ya yaxın qohumlarından birini şagird işlətməklə dolandırırdılar. Onların çoxu səyyar sənətkar kateqoriyasına daxil idi. İkinci kateqoriyaya daxil sənətkarlar xırda dükanları və emalatxanaları olanlar idilər. Bunlar əsnaf adlanan sənətkarlıq təşkilatına daxil idilər. Üçüncü kateqoriya daxil olanlar iri emalatxanalara (xüsusilə şah və ya iri

feodalların emalatxanası) malik olub, özü işləmədiyi halda bir neçə usta və şagirdi işlədən sənətkarlardan təşkil edilmişdilər. Dördüncü kateqoriyaya qeyri-azad sənətkarlar aid etmək olar. Onlar dövlət karxanalarında işləyir və istehsal etdikləri malları şah və ya onun məmurlarına təhvil verirdilər.

Beləliklə, sex təşkilatlarının quruluşunun əsasını müəyyən edən əsnaf birliklərinin fəaliyyətlərinin tarixi-hüquqi təhlili, onun bir sıra spesifik xüsusiyyətlərini aşkar edir. Əvvəla, əsnaflar hüququn xüsusi subyekti olan hüquqi səxs kimi davranır, öz ümumi yığıncağını keçirir, idarəedici şuranı formalaşdırır, üzvlüklə bağlı qərar çıxarır, öz əsnaf məhkəmələrini yaradaraq onun səlahiyyətlərini və fəaliyyət istiqamətini müəyyən edirdi. İkincisi, əsnaf üzvlərinə cərimə sanksiyası təyin edir, işə şagird qəbul edir, onlara hüquq və vəzifələrini izah edir, əmək haqlarını təyin edir və hər üç ildən bir onun artırılması barədə öhdəlik götürür, kargərləri (yarımustaları) ustalığa keçirir, təşkilatın rəhbəri (ustabaşı) öz həmkarları ilə müqavilə bağlayır, üzvlər arasında pay bölgüsü aparır, məhsulun keyfiyyətinin artırılmasına və nəticə etibarı ilə bütövlükdə əsnafın statusunun möhkəmlənməsinə çalışırdı. Üçüncüsü, sex təşkilatlarının quruluşundan göründüyü kimi, hüquq və vəzifələrin heç də hamısı bu iqtisadi birliyin başçısından və ya ayrı-ayrı fiziki səxslərdən asılı olmamışdır. Bu münasibətlər bütün əsnafa məxsus idi. Dördüncüsü, əsnafların quruluşu hüquqa zidd olmayan, ümumi rifaha əsaslanan və ümumi təsərrüfat məqsədinə nail olmaq üçün yaradılan birlik xarakteri daşımışdır. Əsnaf üzvlərinin təşkilatın gəlirləri və zərərlərində iştirak payları iyerarxiya prinsipi üzrə qurulmuş və korreal öhdəliklər kateqoriyasına aid olmuşdur. Bu prinsipə görə yalnız yuxarı təbəqənin nümayəndələri əsnafın tam hüquqlu üzvləri hesab olunurdular. Əsnaf üzvlərinin gəlir və zərərin bölgüsündə iştirak payı da bu prinsipə əsaslanırdı. Təşkilatın hər bir üzvünün fəaliyyətindəki "hüquqa" zidd hərəkətlərin olması həmin şəxsin əsnafdakı səlahiyyətlərinə xitam verilməsi ilə nəticələnirdi. Beşincisi, əsnafın özünün hansı müddətə yaradılması və ya xitam edilməsi praktikası məlum deyildir. Lakin iqtisad-təsərrüfat və s. tələbatlarından yaranan zərurət əsnafların yaradılmasında əsas yer tutması isə, heç şübhəsizdir. Altıncısı, əsnaf birliklərinin fərqli xüsusiyyəti kimi onların ümumi şəhər idarəsindən asılı olmasıdır. Müstəqil "publik hüquq şəxs" olmalarına baxmayaraq, şəhərlərin iqtisadi həyatında mühüm rol oynamış sənətkar birlikləri və onların təşkilatlarının fəaliyyəti şəhər orqanlarının daim diqqətində olmuşdur. Dövlət başçıları xarici qonaqların qarşılanmasına belə sənətkar təşkilatlarının üzvlərini cəlb edir, onlar isə öz bayraqları, sənət nişanlarını bildirən emblemləri ilə bu təntənəli müsafir qarşılama mərasimlərinə qatılırdılar. Sənətkarların özlərinə məxsus mediasiya statusu analogiyasında ixtisaslaşdırılmış məhkəmələri – əsnaf məhkəmələri fəaliyyət göstərirdi. Əsnaf ağsaqqalı–ustabaşı, eyni zamanda məhkəmə hakimi səlahiyyətlərinə malik idi. Bütün şəhər məhkəmələri üçün ali apellyasiya instansiyası mərhələsini məhkəmeyi-ali və ya divan məhkəməsi icra edirdi. Məhkəmə istintaqı və prosesi adətən 1 günə başa çatdırılır, sübutlar olduqda isə heç bir məhkəmə prosesi keçirilmir və dərhal sərt cəza verilirdi.

Əsnaf birliklərinin digər fərqli xüsusiyyətinə gəldikdə isə onların bələdiyyə özünüidarəetmə funksiyasına oxşar vəzifələri yerinə yetirməsi olmuşdur. Reallıqda mübahisə doğuran daha bir cəhət isə, hüquqi cəhətdən əsnaf sənətkarlıq təşkilatlarının dövlət idarəçilik orqanlarının tabeçiliyindən kənar olan müstəqil ictimai birliklər olması idi. Məhz, bu iqtisadi-sosial birliklər müxtəlif sənət və peşələr üzrə birləşərək, adətən bir və ya bir neçə küçəboyu yerləşən emalatxanalara malik olmuş, əsnaf gəlirinə daxil olan vəsaitin idarə olunması və büdcə təminatı, qurumun seçkili idarə heyətinə (Şura) həvalə edilmişdir. Sənətkar təşkilatları nəinki sex quruluşu daxilində, həmçinin yerləşdikləri məhəllədə təmizlik, səliqə-sahman

(bələdiyyə əlaməti), qayda-qanun və digər bu kimi işlərə məsuliyyət daşıyırdılar.

Yuxarıda da, qeyd etdiyimiz kimi, əsnaf təşkilatları bəhs edilən dövrdə şəhər idarə sistemi ilə sıx əlaqədə fəaliyyət göstərirdilər. Xüsusilə dövlət xəzinəsinin doldurulmasında, inzibati-təsərrüfat idarəçiliyinin icrasında onların fəaliyyəti genişləndirilmişdir. Digər bir cəhət isə əsnaf təşkilatlarının daxili quruluşuna müvafiq olaraq hər bir fərdin şəxsi həyatı belə hüquqi cəhətdən çox ciddi reqlamentləşdirilirdi. Belə ki, usta-şagird münasibətləri əlahiddə subordinasiyaya əsaslanırdı. Sex təşkilatının vəfat etmiş üzvünün ailəsinin maddi təminatı, uşaqları yeniyetmə çağına çatana qədər əsnaf üzərinə düşürdü. Lakin vəfat etmiş əsnaf üzvünün dul qalmış arvadı kənar yerdən ailə həyatı qurduqda, "nizamnamə"yə daxil olan güzəştlər hüququndan məhrum edilirdilər. Doğrudur ki, bu "nizamnamələr"in tam mətni bizə gəlib çatmamışdır. Lakin, o dövrə aid mənbələr, həmçinin çoxsaylı sənətkar "risalələr"indəki çox ciddi subordinasiya qaydaları bu mülahizənin sənətkar ailəsinin münasibətlərinə aid olduğunu ehtimal etməyə imkan verir. Bu dövrdə şəhər bazarları əsas informasiya mənbəyi olmuşdur. Adətən dövlət carçıları da mühüm məlumatları şəhər bazarlarında və digər meydanlarda elan edirdilər.

Publik hüquqi şəxs institutunun məzmununda, əsasən əmlak münasibətləri və birlik üzvləri arasında münasibətləri tənzimləyən mülki-hüquqi münasibətlər dayanmışdır. Ona görə də, "publik hüquqi şəxs", ilk növbədə əmlak münasibətlərinin, mülki-hüquqi münasibətlərin subyektidir. Tarixən publik hüquqi şəxslərin fəaliyyəti əmtəə-bazar münasibətlərinin ümumi prinsiplərinə əsaslanmış, iqtisadi-təsərrüfat və hüquqi münasibətlər onun qaydalarına uyğunlaşdırılmışdır. Maraqlıdır ki, hələ inkişaf etmiş orta əsrlərdən başlayaraq şəhərlərdə heç bir maneə olmadan və mövcud qaydalara əməl etməklə sərbəst olaraq istənilən peşələr üzrə digər oxşar "hüquqi birliklər" yaradılması mümkün olmuşdur. Bir çox hallarda isə dövlət özü ölkənin iqtisadi və hərbi qüdrətini artırmaq məqsədilə peşələrin inkişafı üçün əlverişli şərait yaratmışdır.

**Ədəbiyyat:**


1. Dəmirli M.Ə., Ələsgərli Ə.R. Azərbaycan hüquq tarixi (qədim zamanlardan 1920-ci ilədək). Bakı: 1999. 204 s.
2. Əkbərov R.A. Azərbaycanda şəhər idarəçiliyinin təşkili prinsipləri. "Hüquqi dövlət və qanun" jurnalı. Bakı, 2007. №6.
3. Əliyev F.M. Şimali Azərbaycan şəhərləri. Bakı, 1960. 180 s.
4. Fərzəlibəyli Ş.F. XV əsrdə Azərbaycanın dövlət quruluşu. Bakı, 2003.118 s.
5. Heydərov M.X. XIII-XVII əsrlərdə Azərbaycan şəhərlərində sosial-iqtisadi münasibətlər və sənətkarlıq təşkilatları. Bakı, 1987.
6. Quliyev A.İ. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunvericilik problemləri. Bakı, 2005, 376s.
7. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982.
8. Publik hüquqi şəxslər haqqında Azərbaycan Respublikasının 4 fevral 2016-ci il Qanunu.
9. Seyidov M.N. IX-XV əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunveriliyinin inkişafı. Bakı, 2013, 336 s.
10. Seyidov M.N. XV yüzillikdə Azərbaycanın dövlət və hüququ. Bakı:2004. 152 s.


***Açar sözlər:*** *hüququ şəxs, publik hüquq, publik hüququ şəxs institutu, sex quruluşu, əsnaf təşkilatları, təsərrüfat-idarəçilik sistemi, hüquqi tənzimləmə, şifahi təlimat, ixtisaslaşdırılmış əsnaf məhkəmələri, dövlət tədbirləri, ictimai maraqlar*

**Rahib Akbarov**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of "Law",
Associate Professor, PhD in History*

# ON THE HISTORICAL DEVELOPMENT OF PUBLIC JUDICIAL PERSONAL INSTITUTION IN AZERBAIJAN (LATE MIDDLE AGES)

## SUMMARY

The paper deals with the activity of trade organizations as "a legal entity" in Azerbaijan. The economic and economic associations created during the specified period and their practical activities, by all indications, combine the main features of the modern institution of a legal entity of public law. Thus, trade associations of various professions in their activities were based on the established Statutes ("religious treatises"). On the other hand, the internal management structure of trade organizations was also strictly regulated. These organizational issues, including the terms of the contract, were regulated by various professional customs and on the basis of Sharia.

The council, which was characteristic of trade organizations, played an important role in resolving the internal issues. The benefits in the charter of a trade association, established by law, regulated material support not only for the family of a member of the trade association, but also support for the children of a deceased member until they reach the age of adolescence. The activity of trade associations in the performance of administrative and economic management was wide enough. Not all rights and obligations of trade organizations depended on the head of this economic association. As it can be seen, with the beginning of the development of the Middle Ages in cities, it became possible to freely create "legal associations" of any desired profession in compliance with the existing rules. Sometimes the state itself created favorable conditions in order to increase the economic and military might of the country, for the development of professions. Trade associations, carrying out legitimate activities based on the common good and created with the aim of achieving a common economic goal, had the character of a social and economic association. Thus, trade associations, closely participating in the social and economic life of the state, in many ways, functioned as legal entities of public law, not created on behalf of the state.

***Key words:*** *legal person, public law, public institution of legal entity, workshop structure, trade organizations, economic-administrative system, legal regulation, verbal instruction, specialized trade courts, government activities, social interests*

**Рахиб Акберов**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории*

# ИСТОРИЯ РАЗВИТИЯ ИНСТИТУТА ЮРИДИЧЕСКОГО ЛИЦА ПУБЛИЧНОГО ПРАВА В АЗЕРБАЙДЖАНЕ (ПОЗДНЕЕ СРЕДНЕВЕКОВЬЕ)

## РЕЗЮМЕ

В статье изучена деятельность ремесленных организаций, действующих в городах Азербайджана, рассматриваемая как деятельность «юридического лица». Созданные за указанный период хозяйственно-экономические объединения и их практическая деятельность по всем признакам сочетают в себе основные черты современного института юридического лица публичного права. Таким образом, ремесленные объединения различных профессий в своей деятельности основывались на установленных Уставах («религиозных трактатах»). С другой стороны, внутренняя структура управления ремесленными организациями также была строго регламентирована. Эти вопросы организации, в том числе условия договора регулировались различными профессиональными обычаями и на основе шариата. Совет, характерный ремесленным организациям, играл важную роль в решении внутренних вопросов ремесленных структур. Деятельность ремесленных объединений при исполнении административно-хозяйственного управления была достаточно широкой. Не все права и обязанности цеховых организаций зависят от главы этого экономического объединения или отдельных физических лиц и принадлежат всему ремесленному объединению. Как видно, с началом развития средневековья в городах стало возможным беспрепятственно, с соблюдением существующих правил, свободно создавать "правовые объединения" любой желаемой профессии. Иногда государство само создавало благоприятные условия с целью увеличения экономической и военной мощи страны, для развития профессий. Ремесленные объединения, осуществляющие правомерную деятельность, основанные на общем благе и созданные с целью достижения общей хозяйственной цели, носили характер общественно-экономического объединения. Таким образом, ремесленные объединения, тесно участвуя в общественно-экономической жизни государства, по многим признакам функционировали как юридические лица публичного права, не созданные от имени государства.

***Ключевые слова:*** *юридическое лицо, публичное право, ремесленные организации, хозяйственно-управленческая система, правовое регулирование, устная инструкция, специализированные ремесленные суды, государственные мероприятия, общественные интересы*

# KONSTİTUSİYA HÜQUQU
# CONSTITUTIONAL LAW

UOT 342; UOT 342.7

**GÜLŞƏN CƏBİ**
**Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Konstitusiya hüququ" kafedrasının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müəllimi, hüquq elmləri üzrə fəlsəfə doktoru**
*e-mail: gulshan.jabi@gmail.com*

## ƏDALƏT ANLAYIŞI HÜQUQİ MÜSTƏVİDƏ

Hüququn fundamental kateqoriyalarından biri ədalət anlayışıdır.

Ədalət yalnız hüquq elmində, hüquq praktikasında deyil, bütövlükdə bəşəriyyətin həyatında ən vacib dəyərlərdən biridir.

Ədalət mənəvi, fəlsəfi, sosioloji, ədəbi-bədii və bir çox başqa aspektlərdən təsvir edilən, əhəmiyyəti mübahisələndirilməyən anlayış olsa da, xüsusilə hüquqi müstəvidə məzmununun aydınlaşdırılması, ədaləti müəyyən etmə və qiymətləndirmə meyarlarının, bərqərar və mühafizə etmə mexanizmlərinin dəqiqləşdirilməsi zəruridir.

İstər maddi, istərsə də prosessual hüquq sahəsi olmasından asılı olmayaraq, hüququn hər bir kateqoriyasının, hər bir mexanizminin əsasında ədalət anlayışının və dəyərinin mövcudluğu durur.

Hüquq və ədalət həm təcrübədə, həm də nəzəriyyədə bir-birini tənzimləyir və bunların ayrı-ayrılıqda mövcudluğu qeyri-mümkündür [2, s.98-99].

Fərdi olaraq insanlar, toplum olaraq cəmiyyət, daha geniş mənada bütövlükdə bəşəriyyət varlığının, ən xırda məişət davranışlardan ən böyük ictimai-siyasi hadisələrə qədər bütün fəaliyyətinin ədalətin bərqərar edilməsi, ədalətli cəmiyyətin qurulmasına hədəfləndiyini bəyan edir.

Həm mənəvi-bioloji varlıq olaraq, həm də hüququn subyekti olaraq, istər fərdi, istərsə də kollektiv şəkildə insanlar ədalət istəyir, ədalət axtarır.

12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasının Preambulasında göstərilmişdir ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə niyyətlərini bəyan edir. Bu niyyətlərə – Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi niyyətlər daxildir [11].

Həmçinin 10 dekabr 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin Preambulasında qeyd olunmuşdur ki, "Bəşər nəslinin bütün üzvlərinə məxsus olan ləyaqətin və onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və

ümumi sülhün əsası olduğunu nəzərə alaraq; ... BMT-nin Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini elə bir vəzifə kimi bəyan edir ki, onun yerinə yetirilməsinə bütün xalqlar və dövlətlər səy göstərir ki, hər bir insan, cəmiyyətin hər bir orqanı bu Bəyannaməni daim nəzərdə tutaraq maarif və təhsil yolu ilə həmin hüquq və azadlıqlara hörmət edilməsinə milli və beynəlxalq mütərəqqi tədbirlər, onların istər təşkilatın üzv-dövlətlərinin xalqları arasında, istərsə də onların yurisdiksiyasındakı ərazilərin xalqları arasında hamılıqla səmərəli tanınması və həyata keçirilməsi yolu ilə çalışsınlar." [12].

Göründüyü kimi, dünyəvi dövlətin qurulmasının, vətəndaş cəmiyyətinin bərqərar edilməsinin, müxtəlif idarəetmə sistemlərinin, normaların formalaşdırılmasının, insan hüquq və azadlıqlarının tanınmasının əsas məqsədlərindən biri məhz ədalətin bərqərar edilməsidir.

Ədalət ümumməcburi qüvvəyə malik hüquq normaların yaradılması, realizəsi və hüquqpozma hallarında cəzalandırmada mövcud olmalıdır. Bu isə hüquq elmində həm normativ yaradıcılıq, həm də idaretmə mexanizmlərinin formalaşdırılmasında ədaləti gözləmək vəzifəsinin mövcudluğu deməkdir.

Ədalət anlayışı tarixən hüquqşünaslar, iqtisadçılar, siyasətçilər, filosoflar, sosioloqlar və başqa sahə mütəxəssisləri üçün əsas diqqətçəkən mövzulardan biri olmuşdur. Sosial institutların formalaşmasında əhəmiyyəti baxımından ədalət bütün dövrlərdə mütəmadi olaraq müəyyənləşdirilməli, məzmunu dəqiqləşdirilməli olan anlayışdır [10].

Bəşər tarixinin ilk dövrlərində hesab olunmuşdu ki, ədalət insan və cəmiyyətdən asılı olmayaraq mövcuddur. Bu baxımdan ədalət səmavi (ilahi) dünya ilə yerdəki dünya arasında körpüdür. Lakin sonradan bu anlayış dəyişikliyə uğramış, "ədalət" sözü insan fəaliyyətinin nəticəsi olaraq yaranmış və insanların, vətəndaşların yaşayışı üçün ən yaxşı imkanları müəyyən edən ictimai quruluşun ifadəsi üçün istifadə edilməyə başlanılmışdı. Xüsusilə 1960-cı illərdən başlayaraq ədalətin sosial-psixoloji əsasları müasir məzmunda formalaşmağa başlamışdı [4, s.9-10].

Fəlsəfi anlayışlara görə, ədalət- insanın mahiyyəti və onun toxunulmaz hüquqları haqqında müəyyən təsəvvürlərə müvafiq olan, özündə müxtəlif fərdlərin, ictimai qrupların, cəmiyyətin həyatında rolu ilə onların ictimai vəziyyəti arasında, hüquqları ilə vəzifələri arasında, cinayətlə cəza arasında, insanların işi ilə onların ictimai mövqeyi arasında uyğunluq tələbini ifadə edən anlayışdır [1, s.20].

Milli hüquq ədəbiyyatına aid "Hüquq Ensiklopedik Lüğəti"nə baxdıqda, təəssüf ki, ədalət anlayışının nəzərdə tutulduğu müşahidə olunmur. Lüğətdə ədalət mühakiməsi anlayışı nəzərdə tutulmuşdur ki, bu anlayışa görə ədalət mühakiməsi – dövlət fəaliyyət forması, məhkəmələrin öz səlahiyyətləri daxilində mülki işlərə, cinayət işlərinə, mülki mübahisələrə baxması və onları həll etməsidir [3, s.148].

AR Konstitusiyasında "Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz" norması (maddə 63.IV) təsbit edilsə də, nədənsə doktrinal və praktik müzakirələr zamanı bu normanın cinayət hüququna aid norma kimi nəzərdə tutulduğunu düşünənlər olur. Fikrimizcə, qeyd olunan maddənin "Təqsirslik Prezumpsiyası" adlanması və məzmununda daha çox cinayət hüququna aid müddəaların nəzərdə tutulması ədalət mühakiməsinin yalnız cinayət hüququna aid anlayış olması kimi yanlış təsəvvürlərin formalaşdıra bilir. Halbuki AR Konstitusiyasının 125-ci maddəsinin 1-ci bəndinə ("Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər."), 127-ci maddəsinin IV bəndinə ("Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.") diqqət yetirdikdə ədalət mühakiməsi anlayışının geniş mənada, yalnız cinayət işlərinə münasibətdə deyil, məhkəmələrin fəaliyyətinə aid olan işlər üzrə həyata keçirilməsinin nəzərdə tutulduğunu müşahidə etmək olar.

Maddi və prosessual hüquqda mövcud normaların təhlilindən belə nəticəyə gəlmək olar ki, ədalət bütün orqanların, şəxslərin fəaliyyətinə aid əsas tələblərdən biri kimi müəyyən edilirsə, ədalət mühakiməsi xüsusi, ixtisaslaşdırılmış məsələ olmaqla məhkəmələrin fəaliyyətinə aid edilmişdir. Bu isə geniş mənada, inzibati, cinayət, mülki işlər üzrə ədalətli məhkəmə qərarlarının qəbul edilməsi deməkdir.

Məhkəmə insan hüquq və azadlıqlarının müdafiəsinin əsas mexanizmlərindən olduğundan ədalət mühakiməsi həyata keçirilərkən prosesin iştirakçıları da vətəndaşlıq mənsubiyyətindən, digər meyarlardan asılı olmayaraq, bütün insanlar olur.

Bu baxımdan AR Konstitusiyasında nəzərdə tutulmuş "Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir." normasında (maddə 127.IV) dəyişiklik edilərək "Ədalət mühakiməsi hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir." normasının müəyyənləşdirilməsini təklif edirik.

Həmçinin AR Konstitusiyasında təsbit edilmişdir ki, ədalət məhkəməsi təqsirsizlik prezumpsiyasına əsaslanır (maddə 127.IX). Konstitusiyanın digər müddəalarında "ədalət mühakiməsi" termini istifadə edildiyi halda, yalnız bir normada "ədalət məhkəməsi" ifadəsi istifadə edilmişdir. Bu isə "ədalət mühakiməsi" və "ədalət məhkəməsi" anlayışlarının fərqli məzmunlar nəzərdə tutub-tutmadığına aid suallar yarada bilir. Fikrimizcə, terminoloji baxımdan bu anlayışların leqal statusda dəqiqləşdirilməsi faydalıdır.

Düşünürük ki, hüquqda ədalət anlayışı vahid sistem elementləri şəklində baxdıqda 3 mərhələdə özünü göstərir: norma yaradıcılığı, realizə, müdafiə və bərpa.

21 dekabr 2010-cu il tarixli "Normativ hüquqi aktlar haqqında" AR Konstitusiya Qanunun 13.1. maddəsinə əsasən, konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilər. Həmçinin qeyd olunan Konstitusiya Qanunun 13.4. maddəsinə əsasən, hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır [6].

Qanunvericilik aktlarına nəzər yetirdikdə "ədalətlilik prinsipi"nin təsbit edildiyini görmək olar ki, ayrı-ayrı hüquq sahələrində ədalət tələbləri qismində də bu prinsipdən irəli gələn meyarların formalaşdığını düşünmək mümkündür. Məsələn, AR İnzibati Xətalar Məcəlləsinin "Ədalətlilik prinsipi" adlanan 9-cu maddəsinə əsasən, "9.1. İnzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olmalıdır. 9.2. Bir inzibati xətaya görə heç kim iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz. Davam edən inzibati xətaya görə şəxs inzibati məsuliyyətə cəlb olunduqdan sonra da bu xətanı törətməkdə davam edirsə, inzibati məsuliyyətə cəlb olunur." [7].

Ümumiyyətlə ədalətlilik prinsipi o ictimai münasibətlərin xarakteri ilə müəyyən edilir ki, bu münasibətləri tənzimləyən hüquq normaları sosial tələblərin təsiri altına düşür [9].

İnzibati hüquqda analogiyaya yol verilmədiyindən qanunvericilikdə təsbit edilmiş normalar vahid məzmunda tətbiq edilir. Bu isə bəzən inzibati məsuliyyətə cəlb etmə anlayışına münasibətdə ədalətlilik barəsində sual yaratsa da, bununla bağlı yalnız gələcəyə yönəlmiş təkliflərin verilməsi, inzibati qanunvericiliyə müvafiq əlavə və dəyişikliklərin edilməsinə dair fikir bildirmək mümkündür.

Misal olaraq inzibati məsuliyyət və ədalət anlayışı baxımından, AR İnzibati Xətalar Məcəlləsinin bir sıra müddəalarının təhlili faydalıdır.

AR İXM-in 26.3. maddəsinə əsasən, "Əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri müsadirə edilə bilməz." Məlum olduğu kimi, inzibati xəta törətmiş şəxsin xüsusi mülkiyyətində olan, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi qanunvericilikdə nəzərdə tutulmuş hallarda həmin predmetin məcburi

qaydada və ödənişsiz dövlətin mülkiyyətinə keçməsindən ibarətdir. Qeyd olunan normaya diqqət etdikdə, istisna halı formalaşdıran fundamental meyar kimi əsas dolanacaq mənbəyi olması faktı çıxış edir. Fikrimizcə, bu normaya hazırki real ictimai münasibətlər aspektindən yanaşmaq faydalıdır. Belə ki, sovet dövründə mövcud olmuş əmək münasibətlərindən fərqli olaraq, 12 noyabr 1995-ci il tarixli AR Konstitusiyasında sahibkarlıq fəaliyyəti, mülkiyyətin çoxnövlülüyünə aid normalar təsbit edildikdən sonra insanların əsas dolanacaq mənbəyi qismində müxtəlif fəaliyyət növləri çıxış etməyə başlamışdır. Bu baxımdan ovla məşğul olan şəxslərin digər şəxslərdən fərqləndirilməsi bərabərlik hüququna münasibətdə ciddi suallar yarada bilir. Məsələn, əsas dolanacaq mənbəyi taksi fəaliyyəti olan şəxslər tərəfindən hüquqpozmalara yol verildikdə nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması əsas dolanacaq mənbəyinin aradan qaldırılması hesab edilə bilərmi?

AR İXM-də digər sual yaradan bir məsələ VI Bölmədə nəzərdə tutulmuş, inzibati xətaların təsnifləşdirilməsi barəsindədir. Belə ki, "Siyasi, sosial və əmək hüquqları əleyhinə olan inzibati xətalar" adlanan 21-ci Fəsildə həm məzmun, həm subyektlər, həm realizə mexanizmləri baxımından bir-birindən kəskin fərqlənən siyasi hüquqlar və sosial, əmək hüquqlarına dair hüquqpozmalar vahid kateqoriya şəklində təsnifləşdirilmişdir. Bu isə istər maddi hüquq sahələri baxımından, istər insan hüquq və azadlıqlarının təsnifatı baxımından, istərsə də subyektlər baxımından suallar yaradır. Məlum olduğu kimi, siyasi hüquqlar bilavasitə vətəndaşlara aid hüquqlardır, sosial və əmək hüquqları isə hər kəsə münasibətdə mövcuddur. Onların hüquqi mahiyyətləri, realizə mexanizmləri, subyektləri, həmçinin bu sahədə hüquqpozmalar və hüquqpozmalara görə məsuliyyətə cəlb etmənin şərtləri fərqlidir. Hüququn fərqli sahələrinə aid məsələlərdir. Belə bir halda siyasi hüquqlar əleyhinə və sosial, əmək hüquqları olan inzibati xətaları bir təsnifata daxil etmək ədalətlilik anlayışı ilə ziddiyyət yarada bilir.

Fikrimizcə, hüquqda ədalət anlayışı araşdırılarkən ədalət mühakiməsinin həyata keçirilməsi, insan və vətəndaşlara peşəkar hüquq xidmətinin göstərilməsində mühüm kateqoriyalardan olan vəkillik institutunun da nəzərdən keçirilməsi, elmin və alimin bu institutda yerinin aydınlaşdırılması, kompleks yanaşma zəruridir.

Başqa bir misal olaraq AR Mülki Prosessual Məcəlləsinin 66-cı maddəsinə nəzər yetirmək olar. Qeyd olunan maddə ilə müəyyən edilir ki, Azərbaycan Respublikasının ərazisində mülki prosesdə vəkil kimi Azərbaycan Respublikasında müəyyən olunmuş qaydada səlahiyyəti təsdiq olunmuş vəkillər iştirak edirlər. AR MPM-dən fərqli olaraq AR İnzibati-Prosessual Məcəlləsində vəkilin iştirakı nəzərdə tutulsa da, kimlərin vəkil olmasına dair müddəa nəzərdə tutulmamışdır.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanununun 4-cü maddəsinin I bəndinə əsasən, "Vəkillər Kollegiyası üzvlüyünə müəyyən olunmuş qaydada qəbul edilmiş və vəkil andı içmiş şəxs vəkillik fəaliyyətini həyata keçirə bilər." Həmçinin Qanunun 8-ci maddəsində şəxslərin vəkil ola bilməsinə dair peşə və təcrübə tələbləri müəyyən edilmişdir.

Hesab edirik ki, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş "Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər,... yazılı testi vermədən, şifahi müsahibədən keçmədən və icbari təlimə cəlb olunmadan vəkil ola bilərlər." normativinə konstitusion hüquq və azadlıqlar aspektindən, elm və təhsil qanunvericiliyi ilə müqayisədə diqqət etmək, həm də ədalətli yanaşma baxımından faydalıdır.

Belə ki, qüvvədə olan "Təhsil haqqında" AR Qanuna əsasən, elmlər doktoru – elm sahələri üzrə doktoranturada verilən ən yüksək elmi dərəcə, fəlsəfə doktoru – elm sahələri üzrə doktoranturada verilən yüksək elmi dərəcədir. Həmçinin Qanuna əsasən, Azərbaycan Respublikasında fəlsəfə doktoru (elm sahələri göstərilməklə) və elmlər doktoru (elm sahələri göstərilməklə) elmi dərəcələr müəyyən edilir [8].

Qüvvədə olan "Elm haqqında" AR Qanun müəyyən edir ki, alim- elmi dərəcəsi və elmi əsərləri olan tədqiqatçıdır Həmçinin yüksəkixtisaslı elmi kadr- fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinə malik olan şəxsdir. Eləcə də qanunda müəyyən edilmişdir ki, elmi dərəcə – elm sahələri üzrə fəlsəfə doktoru və elmlər doktorudur [5].

Göründüyü kimi, "Elm haqqında" AR Qanunu və "Təhsil haqqında" AR Qanununun normativlərindən aşkar görünür ki, istər hüquq elmləri doktoru, istərsə də, hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər yüksəkixtisaslı elmi kadrlar sayılmaqla bu aspektdə bərabərhüquqludur.

AR Konstitusiyası təsbit etmişdir ki, "Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır." (maddə 25.III.).

Həmçinin AR Konstitusiyaya əsasən, "Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır." (maddə 35.II.).

Fikrimizcə, qeyd olunan normativləri nəzərə aldıqda "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanununun 8-ci maddəsində təsbit olunmuş "hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər,... yazılı testi vermədən, şifahi müsahibədən keçmədən və icbari təlimə cəlb olunmadan vəkil ola bilərlər" normativi alim anlayışına daxil olan hüquq üzrə fəlsəfə doktorunu istisna etməklə bu subyektlərin konstitusion bərabərlik hüququna, əmək hüququna münasibətdə pozuntu halını formalaşdırır, həmçinin elmin və alimin nüfuzunun zədələnməsinə təsir göstərir.

Bu baxımdan "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanununun 8-ci maddəsində təsbit olunmuş "hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər" kateqoriyası ilə bərabər "hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər" kateqoriyasının da əlavə edilməsi və ya heç bir istisna olmadan, elmi dərəcəsindən asılı olmayaraq, hər kəsin ümumi əsaslarla imtahan verməsi, müsabiqədə iştirakının nəzərdə tutulması təklif edilir.

Düşünürük ki, ədalət mühakiməsinin həyata keçirilməsi, ümumiyyətlə ədalətin bərqərar edilməsi məqsədilə həyata keçirilən hüquqi nümayəndəliklə bağlı mövcud olan ziddiyyətlər və boşluqların müqayisəli təhlili bu sahədə ədalət anlayışının müəyyənləşdirilməsi, müxtəlif elmi institutların inkişafı, insan və vətəndaş hüquq və azadlıqlarının reallaşdırılması mexanizmlərinin çoxnövlüyü baxımından faydalıdır.

Müxtəlif nəzəri və ya normativ müddəaları təhlil etməklə, müqayisəli yanaşmaqla ədalət anlayışına dair fərqli nəticələr əldə etmək mümkündür.

İstər elmi-nəzəri mənbələrə, istərsə də müxtəlif qanunvericilik aktlarına diqqət etdikdə görünür ki, ədalət anlayışı ən prinsipial, ilkin xarakterli tələblərdən biridir.

Hüquq realist sahə olduğundan hər bir anlayışı, hər bir norma real, ölçülə bilən olmalıdır ki, ədalətin bərqərar edilməsi mümkün olsun. Bu baxımdan ədalət anlayışının hüquqi müstəvidə müəyyənləşdirilməsinə dair vahid müasir konsepsiya, elmi əsaslara ehtiyac var.

Fikrimizcə, bəşər tarixi ərzində geniş mənada hər nəslin ədalət konsepsiyasının formalaşdığını nəzərə alaraq bu sahədə müasir hüquqi yanaşmaların aydınlaşdırılması zəruri və faydalıdır.

**Ədəbiyyat:**


1. [1] Məmmədov C.H “Fəlsəfi anlayışlar lüğəti“, Bakı, 1994.
2. [2] Paşayeva Ə.N. “Hüququn fəlsəfəsində “ədalət” məfhumunun fəlsəfi və hüquqi təhlili“, Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, №3, 2015.
3. [3] Hüquq Ensiklopedik Lüğəti, Bakı, 1991.
4. [4] Гулевич О.А. “Социальная психология справедливости“. – М.: Изд-во «Институт психологии РАН», Учреждение Российской Академии Наук Институт психологии РАН, 2011. – 288 с.
5. [5] http://www.e-qanun.az/framework/33489 “Elm haqqında” AR Qanunu
6. [6] http://e-qanun.az/framework/21300 (“Normativ hüquqi aktlar haqqında” AR Konstitusiya Qanunu)
7. [7] http://e-qanun.az/code/24 (AR İnzibati Xətalar Məcəlləsi)
8. [8] http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm “Təhsil haqqında” AR Qanunu
9. [9] https://cyberleninka.ru/article/n/o-spravedlivosti-v-administrativnom-prave (Панов А.Б. “О справедливости в административном праве“)
10. [10] http://www.ritsumei.ac.jp/ir/isaru/assets/file/raris/raris-13-01_Bhandari.pdf (Surendra Bhandari “The Ancient and Modern Thinking about Justice: An Appraisal of the Positive Paradigm and the Influence of International Law“)
11. [11] https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvNXdmMDZvdmx2Yl9Lb25zdGl0dXNpeWFfQVpFLnBkZiJdXQ?sha=d654e4f6cd152b25 (AR Konstitusiyası)
12. [12] https://www.un.org/en/universal-declaration-human-rights/ (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi)


***Açar sözlər:*** *Azərbaycan Respublikasının Konstitusiyası, insan hüquqları, ədalət, ədalət mühakiməsi, hüquqi məsuliyyət, elm, alim*

**Gulshan Jabi**
*Lecturer, Baku State University, Faculty of Law, Department of Constitutional Law,
Academy of Public Administration under the President of the Republic of Azerbaijan,
Department of Law, PhD in Law*

## CONCEPT OF JUSTICE IN THE LAW PLATE

## SUMMARY

The paper analyzes the concept of justice as one of the main categories of law. Justice as a universal concept is among the most researched topics in law, economics, sociology, philosophy, and other fields. In the history of mankind, the concepts of justice have been formed in accordance with the times of different generations, the scientific and theoretical bases have been studied, and the scientific and theoretical concepts on this subject have been improved and they have acquired a modern content. Justice is not only a philosophical category or a moral value, but also one of the most important requirements and principles of jurisprudence and legal practice. The declaration of intentions for the establishment of justice in the preamble of national and international acts, requires that the established norms and systems be appropriate for this purpose. If we look at the Romano-Germanic, Anglo-Saxon, religious-traditional law systems and the different areas of law, and compare them, it is possible to see that the establishment of justice in each one of them is the main requirement. Man, as a biological being, by nature and as a subject of law, demands justice on a normative basis. Justice is a concept that applies to the activities of all individuals and legal entities, and justice is the concept of the courts. The establishment of justice in the theory of law, legislation, and legal practice, means the formation of a free and just society. When the concept of justice in law is considered in the form of elements of a single system, it manifests itself in three stages: the creation of norms, realization, defense and restoration

***Keywords:*** *Constitution of the Republic of Azerbaijan, human rights, justice, fair trial, juridical responsibility, science, academic degree*

**Гюльшан Джаби**
*Преподаватель кафедры "Конституционного права" Юридического факультета Бакинского Государственного Университета и кафедры «Права» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по юридическим наукам*

## ПОНЯТИЕ СПРАВЕДЛИВОСТИ В ПРАВОВОЙ ПЛОСКОСТИ

### РЕЗЮМЕ

В статье анализируется сущность понятия справедливости как одной из основных категорий права. Справедливость, как общечеловеческое понятие, является одной из постоянных тем исследований в области права, экономики, социологии, философии и других. В истории человечества сформировались концепции справедливости всех поколений для своего времени, исследованы научно-теоретические основы, научно-теоретические концепции по данной теме, усовершенствуясь, приобрели современное содержание. Справедливость - это не только философская категория, нравственная ценность, но и главное из важнейших требований и принципов юриспруденции и юридической практики. Заявление о намерениях по установлению справедливости в преамбулах национальных и международных актов требует соответствия установленных норм и систем этой цели. При сравнении романо-германских, англосаксонских, религиозно-традиционных правовых систем, разных областей права можно увидеть, что установление справедливости является основным требованием в каждой из них. Человек как биологическое существо по своей природе и как субъект права требует справедливости на нормативной основе, хочет справедливости. Справедливость - это понятие, относящееся к деятельности всех физических и юридических лиц, а правосудие – к деятельности судов. Утверждение справедливости и в теории права, и в законодательных актах, и в юридической практике означает формирование свободного и справедливого общества. Понятие справедливости в праве, если рассмотреть в виде элементов единой системы, проявляется в трех этапах: нормотворчество, реализация, защита и восстановление.

***Ключевые слова:*** *Конституция Азербайджанской Республики, права человека, правосудие, справедливое судебное разбирательство, юридическая ответственность, наука, ученый*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

K O N S T İ T U S İ Y A H Ü Q U Q U
C O N S T I T U T I O N A L L A W

UOT 342.5

**ELŞAD HƏSƏNOV**
**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Hüquq və insan haqları institutunun dissertantı**
*e-mail: elshad.hasanov@globally.az*

# QANUNVERİCİLİK HAKİMİYYƏTİ İLƏ BAĞLI İDEYALARIN FORMALAŞMASI VƏ İNKİŞAFI

Feodal monarxların mütləq və qeyri-məhdud hakimiyyətinə qarşı tarixi mübarizə gedişində xalq suverenliyini dövlət hakimiyyəti ilə birləşdirən nümayəndəli seçkili orqanın aliliyini nəzərdə tutan və bütün idarəetmə sisteminə demokratik xarakter verən parlamentarizm ideyası meydana gəldi. Parlamentarizmin çiçəklənməsi prosesi burjua dövlətinin yaranması və inkişafı dövründə baş vermişdir. Parlamentin səlahiyyətlərinin əsas dairəsi məhz o zaman formalaşmışdır: qanunların qəbul edilməsi, büdcənin təsdiqi, hökumətin fəaliyyətinə nəzarət (onun fəaliyyətinin müzakirə edilməsi, etimadsızlıq göstərilməsi və s. yolu ilə) və s. Bütün bunlar ümumiləşdirilmiş şəkildə parlamentarizm prinsipində öz əksini tapmışdır [11, s.14].

İ.Maçulskaya qeyd edir ki, bir qayda olaraq, parlamentarizmin vətəni Böyük Britaniya hesab olunur. Lakin biz Qədim Romanın tarixinə nəzər salsaq görərik ki, xalq nümayəndəliyinin ilk rüşeymləri və təmsilçi orqanlarının ilk nümunələri məhz orada meydana çıxmışdır. Roma Senatının mövcudluğu dünya sivilizasiyasına nümayəndəli orqanlarının quruluşunun bir sıra elementlərini, o cümlədən də parlamentlərin yuxarı palatalarını bəxş etmişdir [18]. Əslində, real gerçəklikdə, xalq nümayəndəliyi institutunun tarixi kökləri Qədim Roma dövlətindən də əvvəlki dövrlərə gedib çıxır.

Parlamentarizm tarixinə qısa ekskurs etsək görərik ki, onun ilkin formaları nümayəndəli demokratiya institutları kimi hələ qədim dövrlərdən etibarən mövcud olmuşdur. Xalqın nümayəndəli orqanları kimi xalq məclisləri, ağsaqqallar şurası, Senat (Qədim Roma), Roma forumu, Komissiyalar, Veçe (Qədim Rus, şəhər yığıncağı), Qurultay (türk-monqol dövlətləri) və s. çıxış edirdi. Qədim tarix göstərir ki, bu və ya digər formada siyasi təmsilçilik (Qədim Yunanıstanda xalq məclisi, Romada Senat, şəhər veçeləri, qurultaylar və s.) mahiyyətcə hakimiyyətin həyata keçirilməsinin müxtəlif sosial maraqları ümumi iradəyə tabe edən universal üsullarından birinə çevrilmişdir [12, s. 44; 15, s. 90]. Göründüyü kimi, müasir qanunverici orqanın ilk nümunələri qədim dövlətlərdə fəaliyyət göstərmişdir.

Qədim Misirin yazılı mənbələrində qanunların əsasında ilahi ədalətin dayandığı göstərilir. Bu ədaləti isə fironların təmsil etdiyinə inanılırdı. Ona görə də qanunvericilik hakimiyyətini də fironlar həyata keçirirdi.

Qədim Çində də imperator ilahiləşdirilir və "səmanın oğlu" kimi xarakterizə edilirdi. Ali qanunvericilik hakimiyyəti onun son dərəcə geniş səlahiyyətlərinin yalnız bir hissəsini təşkil edirdi.

Qədim Çinin etik-siyasi fikir tarixində əsas istiqamətlərdən biri kimi qanunçular-legistlər məktəbi çıxış edirdi. Bu məktəbin ən məşhur

nümayəndələri kimi Quan Çjun (e.ə. VIII-VII əsrlər), Çzı-çan (e.ə. VI əsr), Şen Buxay (e.ə. IV əsr), Xan Fey (e.ə. III əsr) göstərilir. Legistlər Konfutsinin daha çox "jen" (humanizm) və "li" (əxlaq) prinsiplərinə əsaslanan dövlət idarəetməsi haqqında təlimini tənqid edərək, qanunlara əsaslanan dövlət idarəetməsi nəzəriyyəsini irəli sürürdülər. Qanunçuların əsas tezisi belə idi: "qanunlar və göstərişlər xalqın həyatı və idarəetmənin əsasıdır". Xan Fey qeyd edirdi ki, qanunlar dövlət idarələri tərəfindən qəbul edilir, lakin qanun qarşısında qorxu hissi insanların ürəyində olmalıdır. Qanuna riayət edənlər mükafatlandırılmalı, onu pozanlar isə cəzalandırılmalıdır – bu təbəələr üçün təlimatdır. Qanunlar fayda və zərər münasibətlərini tənzim etməlidir. Qanunlar dəyişirsə fayda və zərər münasibətləri, nəticədə insanların fəaliyyət istiqamətləri dəyişir. Cəmiyyətdə qanunların mövcud olmaması insanların yalnız öz faydalarına fikir verməsinə gətirib çıxarır ki, bu da cəmiyyətin əsasları sarsıdır. Yalnız tamahkarlığın aradan qaldırıldığı, dövlət qanunlarının icra edildiyi təqdirdə xalq üçün sakitlik, ölkə üçün isə qayda təmin edilə bilər. Qanunun yaradıcısı yalnız ədalətli hökmdar ola bilər. Yalnız o, vəziyyətdən və cəmiyyətin tələbatlarından asılı olaraq qanunları dəyişə bilər [23, s. 68]. Legistlərə görə hər kəs qanun qarşısında bərabər və qanun hər kəs üçün məcburi olmalı idi.

Qədim Hindistanda çarlar qeyri-məhdud qanunvericilik səlahiyyətinə malik deyildi. Çünki burada ölkənin siyasi kollegial dövlət hakimiyyəti orqanları xüsusi yer tuturdu və böyük ölçüdə qanunvericilik funksiyası da (çarla birlikdə) belə orqanlar tərəfindən həyata keçirilirdi. Qədim Hindistanda din çarın qanunvericilik funksiyasını istisna edirdi. Çünki dini göstərişlərə görə hüquq normaları möhkəm və dəyişməz hesab olunurdu. Bu normalar vedlərdə öz əksini tapırdı. Vedləri isə yalnız brahmanlar təfsir edə bilərdi.

Antik yunan-roma mədəniyyəti qanunların əhəmiyyəti və qanunvericilik hakimiyyəti ilə ağlı ideyaların inkişafına mühüm töhfə və güclü təkan vermişdir.

Platon göstərirdi ki, qanunların olmadığı və ya kiminsə iradəsindən asılı olduğu yerdə dövlət gec-tez məhvə məhkumdur: "qanun qüvvəyə minmədiyi və kiminsə hakimiyyəti altında olduğu yerdə dövlətin tezliklə məhv olacağını hiss edirəm. Qanunun hökmdarlar üzərində hakim olduğu, onların qanunun köləsinə çevrildiyi yerdə isə dövlətin xilas olmasını və bütün xoşbəxtliyi görürəm. Bunu yalnız Allah dövlətə bəxş edə bilər [9, s. 87]. Bu fikirlə razılaşan Aristotel qeyd edirdi ki, qanun hamının üzərində hökmranlıq etməlidir, vəzifəli şəxslər və xalq yığıncağı isə yalnız xüsusi məsələlərin həlli ilə məşğul olmalıdır [1, s. 113; 6, s. 100]. Aristotel siyasi quruluşu qanunvericilik, inzibati və məhkəmə hakimiyyətləri kimi hissələrə ayırır. Aristotel göstərirdi ki, hər bir dövlət üç hissədən ibarətdir: birinci - qanun tərtib edən orqan; ikincisi - vəzifələr; üçüncüsü - məhkəmə orqanları. Qanun tərtib edən orqan qanunlar, müharibə və sülh, ittifaq bağlamaq və ləğv etmək, ölüm cəzası, vətəndən qovulmaq, mülkiyyətin müsadirəsi, vəzifəli şəxslərin seçilməsi və onların hesabatı haqqında məsələlərə baxır [10, s. 126].

E.ə. V əsrdə Afinada əsas dövlət orqanları kimi xalq məclisi, beşyüzlər şurası və gelieya çıxış edirdi. Xalq məclisi, qanunlar qəbul edirdi, xüsusi məsələlər üzrə qərarlar verirdi, vəzifəli şəxsləri seçirdi, onların fəaliyyətinə nəzarət həyata keçirirdi, müharibə və sülh məsələlərini həll edirdi, ölkənin ərzaq vəziyyətini müzakirə edirdi və s. Göründüyü kimi, onun funksiyaları müasir parlamentin funksiyalarını xatırladır. Hər məclisin gündəliyi əvvəlcədən müəyyən edilirdi. Hər ay üzrə məclislərdən biri əsas hesab olunurdu. Burada vəzifəli şəxslərin fəaliyyəti yoxlanılır, ölkənin ərzaq vəziyyəti müzakirə olunurdu. Formal olaraq hər kəs xalq məclisində iştirak edə və yeni qanun layihələri təqdim edə bilərdi. Praktiki olaraq isə peşəkar oratorlar – ayrı-ayrı azad vətəndaşlar qrupunun maraqlarını müdafiə edən demoqoqlar müəyyən nitqlərlə çıxış edirdilər. Qanun layihələri əvvəlcədən tanışlıq üçün cəmiyyətə elan olunurdu və beşyüzlər şurasında baxılıb rəy verildikdən sonra xalq

məclisinin müzakirəsinə təqdim edildi. Xalq məclisinin qəbul etdiyi qanun layihəsi yalnız gelieya tərəfindən rədd edilmədiyi təqdirdə qanuni qüvvə kəsb edirdi [13, s. 67].

Qədim Afinada hər il püşk ilə sadə vətəndaşlar sırasından seçilən və həmişə bütün Afina əhalisinin altıda birini əhatə edən andlı hakimlərdən ibarət "Dikasteriya" adlı məhkəmə qurumu fəaliyyət göstərirdi. E.ə. IV əsrdə qanunvericilik təkliflərini yoxlamaq və onların "hüquqauyğunluğuna" dair qərar vermək məqsədilə Dikasteriyaya əlavə vəzifələr verilmişdi.

Periklin dövründə Afinada formalaşan dövlət quruluşu, ilk növbədə, onunla xarakterizə olunurdu ki, burada bütün ali qanunvericilik hakimiyyəti xalq məclisi (ekklisiya) şəklində təşkilatlanmış tamhüquqlu vətəndaşlara məxsus idi. Hər 10 gündən bir toplanan Afina vətəndaşlarının məclisi dövlətdə ali hakimiyyətə malik idi. Buna görə də, o, dövlətin əsas qanunlarını ləğv etmək səlahiyyətinə də malik idi. Qanunların sabitliyini təmin edən xüsusi mexanizmlər mövcud idi. Onlardan ən mühümü "paranomon qrafı" – qanunazidlik şikayəti idi. Özünün bu hüququndan istifadə etmək istəyən istənilən vətəndaş bu barədə xalq məclisinə məlumat verməli idi. Bundan sonra həmin vətəndaşa təklif edilirdi ki, ona təqdim edilmiş hüquqdan Afina xalqının zərərinə istifadə etməyəcəyi ilə bağlı and içsin. Bundan sonra, o, xalq məclisi tərəfindən artıq qəbul edilən, lakin mövcud qanunlara zidd olan qanun barədə şikayət verirdi. Bu qaydada verilmiş şikayət mübahisələndirilən qanunun qüvvəsini dayandırırdı və iş xalq məhkəməsinə – Gelieyaya göndərilirdi. Burada şikayətçi öz protestinin əsaslı olmasını çəkişmə prosesi qaydasında andlı iclasçılar qarşısında sübut etməli idi. Mübahisələndirilən qanunun müəllifi kimi onu xalq məclisinə təqdim edən vətəndaş çıxış edirdi. Məhkəmə hər iki tərəfi dinlədikdən sonra qərar qəbul edirdi. Əgər şikayət əsaslı hesab edilirdisə, mübahisələndirilən qanun ləğv edilirdi. Onu vaxtı ilə xalq məclisinə təqdim edən vətəndaş (müəllif) isə əhalini yanıltdığı üçün məhkəmə məsuliyyətinə cəlb olunurdu. Məhkəmə ona yüksək məbləğdə pul cəriməsi tətbiq edə və ya sürgün və ölüm cəzası da daxil olmaqla, sərt şəkildə cəzalandıra bilərdi. Göründüyü kimi, hər bir Afina vətəndaşına geniş qanunvericilik təşəbbüsü azadlığı verilsə də, qarşılığında ciddi məsuliyyət də nəzərdə tutulurdu [21, s. 236].

Qədim Yunanıstanda dövlət quruluşu və dövlət hakimiyyəti ilə bağlı formalaşmış ideyalar Qədim Romada bir qədər də təkmilləşdirilmişdi.

Polibiy hakimiyyətin konsul, senat və xalq məclisi arasında bölünməsinin zəruriliyini ifadə etmiş ilk mütəfəkkirlərdən olmuşdur. Burada konsul monarxiyanı, senat aristokratiyanı, xalq məclisi isə demokratiyanı simvolizə edir. Onun fikrincə, bu hakimiyyət təsisatları həm bir-birinə dəstək verməli, həm də biri o birini çəkindirməlidir.

Respublika dövründə Roma siyasi həyatının başlıca hadisələrindən biri ali magistratların seçilməsi deyil, hər kəs üçün məcburi olan siyasi mübarizə qaydaları müəyyən edən, vəzifəli şəxslərin fəaliyyətini tənzim edən və bir sıra hallarda hətta onların şəxsi heyətini təsbit edən qanunların qəbul olunması idi. Buna görə də, ali magistratların seçilməsi ilə bağlı olan senturiat komissiyaları ilə müqayisədə xalq məclisinin ən demokratik növü kimi çıxış edən və əsas funksiyası qanunlar qəbul etməkdən ibarət olan tribut komissiyaları daha böyük siyasi əhəmiyyət daşıyırdı. Siyasi həyatda mərkəzi yeri Roma forumu tuturdu. Burada dövlət həyatının mühüm məsələləri açıq və şəffaf surətdə nəzərdən keçirilir və həll edilirdi. Qanun layihələrinin müzakirə olunduğu siyasi iclasların (contiones) və qanunları qəbul edən tribut komissiyalarının işində iştirak etmək üçün Foruma toplaşan sadə vətəndaşlar real qanunvericilik təşəbbüsü hüququna malik idilər [26, s. 94]. Qanunların köməyi ilə xalq ictimai həyatın bütün aspektlərini və magistratların fəaliyyətini tənzim edən qaydalar müəyyən edirdi. Lakin e.ə. III əsrdə Komissiyanın ölçüsünə görə iclasda (contio) qanun layihəsinin müzakirəsində yalnız 100 vətəndaşdan, komissiyada səsvermədə 30 və-

təndaşdan və yalnız müstəsna hallarda 12 və ya 15 vətəndaşdan biri iştirak edə bilərdi. Qanun layihələri onların təşəbbüskarları olan magistratlar tərəfindən və yalnız senatda müzakirə edilib bəyənildikdən sonra xalqın təsdiqinə təqdim edilirdi. Əks halda xalq tribunları formalaşmış adətə görə veto hüququndan istifadə edərək onun qəbulunu əngəlləməli idilər. Qrakx qardaşlarına qədər çoxsaylı qanunlardan yalnız altısı Senatın ilkin təsdiqi olmadan qəbul edillmişdi. Həmçinin Senatın ilkin təsdiqini almış, demək olar ki, heç bir qanun layihəsi komissiyalar tərəfindən ləğv edilməmişdi. Əlbəttə, zənn etmək olar ki, Senat və komissiyaların belə vəhdəti elita ilə sadə vətəndaşların maraqlarının vəhdətini ifadə edirdi. Lakin, hətta, bu halda belə, xalqın üstünlüyü barədə deyil, onun Senatla bərabərhüquqlu tərəfdaşlığı barədə nəticə hasil olur [24, s. 46]. Lakin sonralar oratorların təsiri ilə xalq dəbdəbəli həyat tərzi keçirən senatorlara şübhə ilə yanaşmağa başlayır. Bu isə xalqın dövlət idarəetmə işlərində daha fəal iştirakına səbəb olur. Xüsusən də, xalq özünün qanunvericilik səlahiyyətindən daha geniş istifadə etməyə və demək olar ki, dövlət həyatının bütün aspektlərini əhatə edən qanunlar qəbul etməyə başlayır.

Dövlət hakimiyyətini xalqın hakimiyyəti kimi qəbul edən düşüncə tərzi qədim yunanların və Romalıların "ictimai həyat yaradıcılığının" nəticəsidir. Afinada və Romada qanunların xalq yığıncağı tərəfindən qəbul edilməsi tarixdə ilk dəfə ictimai münasibətlərin vətəndaşların iradəsilə yaradılan qanunlarla tənzimlənməsini təmin edən təkmil bir sistemin formalaşmasına gətirib çıxarmışdır. Bu sistem istisnasız olaraq hər bir kəsin, həmçinin dövlətin də qanunlara tabe olmasını tələb edirdi. Adətlərin yox, məhz xalqın ixtiyarında olan qanunvericiliyin hüquq yaradıcılığının əsas formasına çevrilməsi həmin dövlətlərdə hüquqi dövlətin müəyyən elementlərinin yaranmasına səbəb olmuşdur [7, s. 116].

F.Hayekə görə qədim dövrün "qanunverici"si qanunu güman edilən pozuntulardan təmizləmək və ya onun ilkin saflığını bərpa etmək üçün çalışa bilərdi, lakin onun yeni bir qanun yaratmasından söz gedə bilməzdi. Ur-Nammu və Hammurapidən Solona, Likurqa və Romada XII Cədvəl Qanununun müəlliflərinə qədər bütün məşhur ilk "qanunvericilər» yeni qanun yaratmaq yox, qanunun həmişə necə və nə olduğunu göstərmək niyyətində olublar. Lakin heç kəsdə qanunu dəyişmək səlahiyyətinin və niyyətinin olmaması və ya yalnız köhnə hüququn yaxşı hesab edilməsi o demək deyil ki, həmin dövrdə hüquq inkişaf etməmişdir. Bu, sadəcə, o deməkdir ki, baş vermiş dəyişikliklər "qanunvericinin» öz niyyətinin və düşüncəsinin nəticəsi kimi qəbul edilmirdi [3, s. 116].

İ.Məmmədov qeyd edir ki, qədim dövlətlərdə, ən əsası da şərq dövlətlərində hakimiyyətin ilahi mənşəli olması ilə bağlı mifik və teoloji təsəvvürlərin, həmçinin insanların birgəyaşayışını tənzimləyən qayda və qanunların kosmik nizamın tərkib hissəsi və ya ilahi mənşəli olması düşüncəsinin siyasi-hüquqi münasibətlərə yaxından təsir göstərməsi nəticəsində hökmdarın şəxsiyyəti ilahiləşdirilmiş və hüququn müəyyənləşdirilməsi sahəsində o xüsusi səlahiyyətlərə malik olmuşdur. Hökmdarın həyata keçirdiyi qanunyaradıcılığı insan iradəsinin əsas götürülməsi düşüncəsinə əsaslanmırdı. Hüquq isə öz-özlüyündə mühüm dəyər hesab olunmurdu. Qanunlar insan şüurunun deyil, ilahi şüurun məhsulu və ya bir təzahürü kimi qiymətləndirildiyindən belə hesab edilirdi ki, qanunlar insanlara "yuxarıdan" və lap qədimlərdən verilmişdir. Hökmdar və kahinlər isə onları insanlara çatdırmaq, izah etmək və təmin etmək səlahiyyətinə malikdir. Bu cür təsəvvürlər hökmdarın səlahiyyətlərinin məhdudlaşdırılmasını istisna edirdi. Belə hesab edilirdi ki, əgər o, ədaləti təmsil edirsə, demək, ədalətli olmalı, insanları öz hakimiyyətinə tabe edərkən isə tabe etmənin üsul və vasitələrini özü müəyyənləşdirməlidir. Bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, həmin təsəvvürə görə, hökmdarın hakimiyyəti və səlahiyyətləri, onun ümumi qanunvericilik işində ifadə etdiyi iradə təbəələrin maraq və mənafeləri, hüquqları ilə deyil, ilahi ədalətin

müəyyənləşdirdiyi ədalət düşüncəsi və duyğusu ilə məhdudlaşmalıdır [7, s. 116].

Antik dünyada (Yunanıstanda və Romada) hüquq yaradıcılığının əsas forması kimi adətlərin deyil, qanunların tanınması və onların hüququn vacib mənbələrindən biri hesab olunması sonrakı dövrlərdə məcəlləşdirmə üçün əlverişli zəmin yaratmışdı.

Orta əsrlərdə dini-ilahi qanunların üstünlüyü ilə bağlı təlimlər geniş yayılmışdı. Foma Akvinski hesab edirdi ki, bütün qanunların ümumi subordinasiya daxilində bir-birilə əlaqəsi var. Onların üzərində isə kainatı idarə edən ilahi şüurun ümumi prinsipləri, universal normaları durur və digər qanunlar, ilk növbədə, əbədi qanunun insan şüurunda inikası kimi təzahür olunan təbii qanun ilahi şüurun həmin universal normalarından yaranır. Təbii qanun yer üzərində insan həyatının qorunmasına və insan nəslinin artırılmasına, həqiqət axtarışına, insan ləyaqətinə hörmət edilməsinə xidmət edir. Bu qanunun ictimai həyatda konkretləşməsi (pozitiv) qanunlar vasitəsilə həyata keçir. F.Akvinski xristian dininin ehkamlarından çıxış edərək göstərirdi ki, ilahi qanunlar insanlara İncil vasitəsilə verilmişdir, ilahi qanunun bu cür aşkarlanması onunla bağlıdır ki, insan şüurunun məhdudluğu onlara həqiqət barəsində düzgün təsəvvür yaratmağa mane olur. Bu, həm də onunla bağlıdır ki, insanların yaratdığı (pozitiv) qanun şəri məhv etmək gücündə deyil [7, s. 133].

Orta əsrlərdə bir çox feodal dövlətlərdə qanunlar qəbul etmək kralın müstəsna səlahiyyəti kimi çıxış etmirdi. Bunu orta əsrlər Gürcüstanın dövlət və hüquq tarixinə nəzər salmaqla görmək olar. Feodalizm dövründə Gürcüstanda ali hakimiyyət çara məxsus olmuşdur. Dövlətə başçılıq edən çar "çarlar çarı" titulunu qəbul etmişdi. XII əsrin sonlarında gürcü çarı David "şahənşah" (Sasanilər titulu) və qısa müddət ərzində Şirvanı tabe etdiklərinə (1116-cı ildə) görə şirvanşah titulunu qəbul etmişdi. Gürcüstanda çar hakimiyyəti irsi xarakter daşıyırdı. Qanunla ali hakimiyyət bütövlükdə çara məxsus olsa da, əslində o, yalnız öz domenini (mülkünü, malikanəsini) idarə edirdi. Ümumdövlət əhəmiyyətli məsələləri həll edərkən çarın hakimiyyəti iri dünyəvi və kilsə feodalları tərəfindən məhdudlaşdırılırdı. Belə ki, çar qanunvericilik fəaliyyətində Dövlət Şurası, xarici siyasət məsələlərində isə Vəzirlər Şurası ilə hesablaşmalı olurdu [2, s. 40].

Orta əsrlərdə məhkəmə presedenti ilə yanaşı ingilis feodal hüququnun mənbəyi kimi həm də qanunvericilik çıxış edirdi. Öncə bu, müxtəlif cür adlanan (assizalar, kral xartiyaları, qərarlar, ordonanslar) kral hakimiyyəti aktları idi. Kral I Eduardın dövründə (1272-1307) qanunvericilik fəaliyyəti xeyli fəallaşdı. XIV əsrdən statutların verilməsində parlamentin iştirak etməsi adi hal aldı, XV əsrdən isə icmalar palatası krala petisiya ilə müraciət etməyə başladı. Bu cür petisiyalarda palata kraldan verilməsi xahiş edilən statutun hazır mətnini əks etdirirdi. Bununla da parlament qanunvericiliyinin əsası qoyulurdu [8, s. 34].

İngiltərədə parlament XIII-XIV əsrlərdə, kral hakimiyyətinin məhdudlaşdırılmasına istiqamətlənmiş siyasi proseslərin gedişində yaranmışdır. Lakin kral hakimiyyəti həddindən atıq gücləndikdən sonra silki-nümayəndəli orqan kimi meydana gəlmiş həmin parlament uzun müddət öz işləkliyini itirmişdir. XVII əsrdə İngiltərədə baş verən burjua inqilabından sonra parlament silki- nümayəndəli orqandan seçkili orqana çevrilmişdir. Ümumiyyətlə isə, müasir parlamentin formalaşması son iki əsrdə Qərb ölkələrində nümayəndəli demokratiyanın inkişaf etməsi ilə bağlı olmuşdur [7, s. 412].

T.Hobbs göstərirdi ki, ümumi hakimiyyət olmayan yerdə qanun yoxdur, qanun olmayan yerdə isə ədalət ola bilməz. O, belə vəziyyəti "hamının hamıya müharibəsi" kimi xarakterizə edir. Belə vəziyyətdə həmişə qorxu və ölüm təhlükəsi mövcuddur. Bu vəziyyətdən çıxmağın yeganə optimal yolu ictimai müqavilə əsasında ümumi hakimiyyəti təmsil edən və xalqın adından və onun mənafeyi, təhlükəsizliyi və rifahı üçün məcburi qanunlar qəbul etmək səlahiyyətinə malik olan dövlətin yaradılmasıdır.

T.Hobbsa görə yalnız dövlətdə müsbət və qüsurlu davranışları ölçmək üçün universal

miqyas mövcud olur. Belə miqyas kimi isə hər bir dövlətin qanunları çıxış edir. Belə ki, dövlət quruluşu bərqərar olduqdan sonra hətta təbii qanunlar da dövlətin qanunlarının tərkib hissəsinə çevrilir. Bu qanunların xaraktercə necə olmasından asılı olmayaraq, həmişə və hər yerdə göstərilən qanunlara riayət etmək vətəndaşların müsbət davranışı, onların pozulması isə qüsurlu davranışı kimi qiymətləndirilir.

C.Lokk hesab edirdi ki, qanunvericilik hakimiyyətinin əsas vəzifəsi və təyinatı insanların rifahı və xoşbəxtliyi üçün zəruri şərtləri təmin edən mülki qanunlar sistemi işləyib hazırlamaqdan ibarətdir. Hər şey qanunvericilik hakimiyyətinə tabedir, çünki qanunları yaza bilənlər daha yüksək mövqedə dayanırlar [17, s. 46]. Qanunverici hakimiyyət başqa hakimiyyət qollarından ayrılaraq, xalqın iradəsini ifadə edən seçkili-nümayəndəli orqana kimi parlamentə məxsus olmalıdır. İnsanlar qanunverici hakimiyyət kollektiv orqanın əlinə keçməyənə qədər vətəndaş cəmiyyətində yaşadıqlarını zənn edə bilməzlər. Vətəndaş cəmiyyətinin qanunlarında həmin cəmiyyətdə yaşayan heç bir insan üçün hər hansı istisna nəzərdə tutula bilməz. İnsanlar cəmiyyət halında birləşdiyi andan, əksəriyyət cəmiyyətin bütün hakimiyyətinə malik olduğu üçün, bu səlahiyyətdən cəmiyyət üçün zaman-zaman qanunlar yaradılması və həmin qanunları həyata keçirən vəzifəli şəxslərin təyin edilməsi üçün istifadə edə bilər; bu vəziyyətdə idarəetmə forması mükəmməl demokratiya olacaqdır. Və ya qanunverici hakimiyyət bir neçə seçilmiş şəxsin və ya onların varislərinə verilə bilər, bu oliqarxiya olacaq. Ya da hakimiyyət bir şəxsin əlində cəmləşə bilər, bu zaman monarxiya mövcud olacaq [20, s. 149]. İdarəetmənin mövcud olduğu bütün hallarda qanunvericilik hakimiyyəti ali hakimiyyətdir. Mütəfəkkirin fikrincə, dövlət idarəetmə forması həmin dövlətdə ali hakimiyyətin, yəni qanunvericilik hakimiyyətinin kimə mənsub olmasından asılıdır.

C.Lokk göstərir ki, insanların cəmiyyət və dövlət halında birləşməsinin əsas məqsədi öz mülkiyyətlərindən dinc və təhlükəsiz istifadə etmək istəmələridir. Bunun əsas aləti və vasitəsi kimi isə qəbul edilmiş qanunlar çıxış edir. Bütün dövlətlər üçün ilk və əsas pozitiv qanun qanunvericilik hakimiyyətinin müəyyən edilməsidir. Eyni zamanda, qanunvericilik hakimiyyətinin özünün tabe olmalı olduğu ilk və əsas təbii qanun cəmiyyətin və hər bir cəmiyyət üzvünün qorunmasıdır. Qanunvericilik hakimiyyəti yalnız dövlətin ali hakimiyyəti deyil, həm də cəmiyyətin etibar etdiyi şəxslərin əlində müqəddəs və sadiqlik tələb edən hakimiyyətdir. Qanunvericilik hakimiyyəti elə hakimiyyətdir ki, o, cəmiyyətin və onun üzvlərinin qorunması üçün dövlətin sahib olduğu qüvvələrdən necə istifadə edilməsi yollarını göstərmək səlahiyyətinə malikdir. Lakin bir dəfə və qısa müddətdə yaradılan qanunlar daimi və sabit qüvvəyə malikdir və fasiləsiz icra və ya bu icraya nəzarət tələb edir. Ona görə də yaradılan və qüvvədə olan qanunların icrasına nəzarət etməli olan daimi hakimiyyətin mövcud olması zəruri şərtdir [20, s. 149]. Qanunverici orqan yaratdığı qanunların icrası səlahiyyətini başqa orqana həvalə etdiyi zaman, həmin səlahiyyəti ondan geri almaq, habelə qanunla müəyyən edilmiş qaydaları pozan idarəetməyə görə cəza təyin etmək hakimiyyətini istənilən halda özündə saxlayır.

C.Lokkun baxışlarının orijinallığı ondadır ki, o, İngiltərədə 1688-ci ildəki inqilabdan sonra ictimai şüurda əsas yer tutan parlamentin hakimliyi doktrinası şəraitində hakimiyyətlərin hüquqlarını müəyyən etməyə səy göstərir. C.Lokka görə: birincisi, qanunverici orqan öz hakimiyyətini heç kəsə verməz; ikincisi, vergilərin artırılması, mülkiyyətdən məhrum etmək məsələləri yalnız bütün xalqın və maraqlı tərəflərin razılığı ilə baş verə bilər; üçüncüsü, ən əsası, parlament hakimliyi kral hakimiyyətini məhdudlaşdırmaq zərurəti ilə şərtlənir [10, s. 126].

Monteskyeyə görə hər bir hakimiyyət qolunun öz mənbəyi vardır. İcra hakimiyyətinə münasibətdə bu monarx olduğu halda, qanunvericilik hakimiyyətinə münasibətdə "əsilzadələr" və "xalqın təmsilçiləri"dir [19, s. 158]. Ədalətli münasibətlərin mümkünlüyü insanlar tərəfindən yaradılan qanunlardan əvvəl mövcud olmalıdır. Etiraf etmək lazımdır ki, ədalətli

münasibətlər onları müəyyən edən pozitiv qanunlardan əvvəl gəlir. Məsələn, insanların birliyi varsa, onların həmin birliyin qanunlarına tabe olması ədalətlidir. Cəmiyyətdə yaşayan və qorunmağa ehtiyacı olan varlıqlar kimi insanların qanunları vardır. Həmin qanunlar idarə edənlərlə idarə olunanlar arasında münasibətləri müəyyən edir: bu siyasi hüquqdur. Həmçinin bəzi qanunlar da vardır ki, bütün vətəndaşlar arasında münasibətləri müəyyən edir: bu mülki hüquqdur. Ümumi anlamda qanun insan zəkasıdır, çünki yer kürəsinin bütün xalqlarını idarə edir; hər bir xalqın siyasi və mülki qanunları isə bu zəkanın tətbiqinin xüsusi halları olmalıdır. Bu qanunlar şamil olunduğu xalqın xüsusiyyətləri sıx bağlı olmalıdır. Yalnız son dərəcə nadir hallarda bir xalqın qanunları digər xalqlar üçün də yararlı ola bilər. Qanunlar müəyyən edilən idarəetmənin təbiətinə və prinsiplərinə, ölkənin fiziki xüsusiyyətlərinə və iqliminə, xalqın həyat tərzinə, azadlıq dərəcəsinə, əhalinin dininə, adətlərinə uyğun olmalıdır [20, s. 153]. Qanunlar bir-biri ilə bağlı olmaqla, onların qəbulunu zəruri edən hallarla və qanunvericinin məqsədləri ilə şərtlənirlər.

Monteskyenin fikrincə, qanunverici hakimiyyət qanunlar yaratmalı, icra hakimiyyəti ümumdövlət xarakterli qərarların icrasını təmin etməli, məhkəmə hakimiyyəti cinayət tərkibli və mülki iddialara baxmalıdır. Qanunverici və icra hakimiyyətlərinin bir əldə cəmləşməsi qanunların aliliyini pozar, əgər hakimlər mühakimə etməklə yanaşı qanunvericiliklə məşğul olsalar məhkəmə özbaşınalığı yaranar. Hakimiyyət orqanları bir-birindən asılı olmamalı, qarşılıqlı təsirlərini uzlaşdırmalı, bir-birini çəkindirə bilməlidirlər. Bu formada ifadə olunan dövlət quruluşu, heç bir kəsin qanunun icazə vermədiyinə məcbur edilməsinin mümkünsüzlüyünü təmin edir. Üç hakimiyyətin bir-birinə qarşılıqlı təsiri – mürəkkəb və məsuliyyətli prosesdir. O, öz ifadəsini müxtəlif məsələlərin uzlaşmasında, hakimiyyət qollarının bir-birinə təsirində tapır. Hakimiyyətdən sui-istifadə imkanları olmasın deyə Ş.Monteskye hər bir hakimiyyət qolunun digərini çəkindirə bilmək və tarazlaşdırmaq ideyasını irəli sürür. Onun fikrincə, monarxın icra hakimiyyətinin başçısı kimi parlamenti çəkindirmək üçün "veto" hüququ olmalı, hökumət qanunvericilik prosesinə qatılmamalı, parlamentin isə, icra hakimiyyətinin fəaliyyətini dayandırmaq hüququ olmalıdır [10, s. 126; 19, s. 290].

J.J.Russo xalq suverenliyinin ayrılmazlığı, vahidliyi və bölünməzliyi ideyalarının tərəfdarı kimi Monteskyenin hakimiyyətlər bölgüsü ideyasını tənqid edirdi. Russo dövlət funksiyalarının bölünməsini zəruri hesab edirdi. Russonun fikrincə, qanunvericilik hakimiyyəti bütün suveren xalqın iradəsidir və buna görə də hamıya aid olan ümumi xarakterli məsələləri tənzim etməlidir. O, hesab edirdi ki, bütün dövlət orqanlarının tarazlı fəaliyyəti xalq suverenliyini ifadə edən ali qanunvericilik hakimiyyətinin yenidən təşkil olunması yolu ilə təmin edilə bilər [22, s. 168].

J.J.Russo hesab edirdi ki, suverenlik ayrılmaz olduğu üçün verilə də bilməz. O, müstəsna olaraq ümumi iradəyə əsaslanır. İradə isə verilə bilməz. Xalq deputatları xalqın təmsilçisi deyildirlər və ola bilməzlər. Onlar xalqın yalnız komissarlarıdır. Onlar heç nə barəsində qəti qərar verə bilməzlər. Xalqın bilavasitə təsdiq etmədiyi bütün qanunlar etibarsızdır, hətta qanun deyil. Qanun ümumi iradənin ifadəsi olduğu üçün, aydındır ki, xalq özünün qanunvericilik hakimiyyətinə münasibətdə təmsil oluna bilməz. Lakin xalq özünün icraedici hakimiyyətinə münasibətdə təmsil edilə bilər və təmsil edilməlidir [20, s. 168]. İcraedici hakimiyyət yalnız qanuna əsasən tətbiq edilən gücə malikdir.

Russoya görə qanunverici hakimiyyət bilavasitə seçkili nümayəndəli məclislərdə həyata keçirilməlidir, hər bir vətəndaş qanunların müzakirəsi və qəbul edilməsində iştirak etməlidir. Qəbul olunmuş qanunlar yalnız ümumxalq referendumunda təsdiq olunduqdan sonra qanuni qüvvəyə minir. Mütəfəkkir qanunvericilik hakimiyyətinə və onun qəbul etdiyi qanunlara xüsusi önəm verərək, qanunlarla idarə olunan bütün dövlətləri (idarəetmə for-

masından asılı olmayaraq) respublika adlandırırdı və hesab edirdi ki, yalnız bu halda ictimai maraqlar təmin olunur və ictimai iş müəyyən əhəmiyyət kəsb edir. Onun fikrincə, qanuna əsaslanan hər bir idarəetmə məhz respublika idarəetməsidir. Burada fəaliyyət göstərən qanunvericilik sistemi iki əsas nemətin təmin edilməsini özünün başlıca məqsədi elan etməlidir. Bu nemətlər azadlıq və bərabərlikdir.

Utopiklərin də qanunlar və qanunvericilik hakimiyyəti ilə bağlı ideyaları maraq doğurur. Utopiklərin təsvir etdiyi ideal cəmiyyətdə insanlar dostluq şəraitində yaşayır. Belə ki, heç bir məmur təkəbbür göstərmir və qorxutmur. Onlar özlərini ləyaqətlə aparırlar. Utopiklər onlara lazımi hörməti könüllü olaraq nümayiş etdirirlər və bunu güclə tələb etməyə ehtiyac qalmır. Bu cəmiyyətdə qanunlar çox az olur. Saysız-hesabsız qanunları və onların təfsirçilərini utopiklər lüzumsuz hesab edirlər. Utopiklər insanları onların oxuyub dərk etmə imkanlarını üstələyəcək sayda və mürəkkəblikdə qanunlarla əhatə etməyi ədalətsiz sayırdılar. Utopik cəmiyyətdə qanunverici hər kəs ola bilər. Onlar təfsiri daha sadə olan qanunları daha ədalətli hesab edirlər. Bütün qanunlar yalnız hər kəsə onların məcburiliyini xatırlatmaq üçün qəbul edilir. Qanunların daha incə təfsirini az adam bildiyi halda, onların daha sadə və anlaşıqlı mənası hər kəs üçün aydın olur [20, s. 74].

Didro qanunlarla adətlər arasında üzvi bağlılığa diqqət çəkirdi. O göstərirdi ki, əgər qanunlar yaxşıdırsa adətlər də yaxşıdır, əgər qanunlar pisdirsə deməli adətlər də pisdir. Yaxşı qanun ayrı-ayrı fərdlərin rifahını ümumi rifahla əlaqələndirə bilən qanunlardır.

Spinoza hesab edirdi ki, insanlar qanunlara hakimiyyətdə olanların rifahı üçün deyil, cəmiyyətin və son nəticədə özlərinin rifahı üçün tabe olmalıdırlar. Təbəələr normal şəraitdə hakimiyyətə etiraz etmək hüququna malik deyil. Lakin əgər hakimiyyət qanunlara zidd hərəkətlər etməyə başlayarsa, bu, dövlətin məhvinə və hüquqi müstəvinin itməsinə gətirib çıxaracaq və artıq belə halda hakimiyyətə qarşı etiraz haqlıdır [25, s. 513]. Spinozaya görə yalnız azad xalq tərəfindən müəyyən edilən qanunvericilik hakimiyyəti legitim ola bilər.

Kant dövləti, hüquqi qanunlara tabe olan insan çoxluğu hesab edir. Onun fikrincə dövlətin rifahı mükəmməl hüquqdadır. Bu baxımdan İ.Kant "hüquqi dövlət" ideyasının banilərindən biri hesab olunur. Kantın fikrincə, hüquq qanunlarına əməl etməyən dövlət öz etimadını itirə bilər. Bu zaman insanlar şüurlu surətdə həmin dövlətdən özgələşməyə başlayırlar [14, s. 287]. Kanta görə xalqın özü barədə həll edə bilmədiyi məsələləri qanunvericilik hakimiyyəti də xalq barəsində həll edə bilməz. Kant müxtəlif hakimiyyət qollarının tarazlığı ideyasını inkar edərək, xalq iradəsinin ifadəçisi kimi qanunvericilik hakimiyyətinin aliliyini irəli sürürdü.

Fransanın 1792-ci il Konstitusiyası insan hüquq və azadlıqlarını özündə ehtiva etməklə yanaşı, həm də aşağıdakı mühüm bir müddəanı təsbit edirdi: "Qanunvericilik hakimiyyəti bu bölmədə sadalanan və Konstitusiya ilə təmin edilən təbii hüquqlara və vətəndaş hüquqlarına mane olan qanunlar verə bilməz. Qanunvericilik hakimiyyətinin qanunları insanın təbii hüquqlarını pozmamalıdır". Göründüyü kimi, yuxarıda göstərilən konstitusiya normasında qanunvericinin hakimiyyəti dəqiq müəyyən edilmişdir. Belə ki, insan vətəndaş hüquq və azadlıqları ilə fərdlərin hüquqi vəziyyətinin tənzim edilməsi üzrə dövlətin hüquqları öz prinsipial ifadəsini tapmışdır [5].

Sürətlə inkişaf edən Avropa ölkələrində qanunvericilik fəaliyyətinin genişlənməsi və təkmilləşməsi, vətəndaş cəmiyyəti daxilində münasibətlərin sabit inkişafının qanunvericiliyə əsaslanması dövlət və hüquq hadisələrinin siyasi-hüquqi reallıqdan ayrılmadan öyrənilməsi tələbini doğurmuşdur. Bu tendensiya Almaniyada xüsusilə güclü idi. Məhz buna görə də, XIX əsrdən etibarən hüququ yalnız dövlət tərəfindən müəyyənləşdirilən hüquqdan, yəni pozitiv hüquqdan ibarət olan sistem

kimi qiymətləndirən hüquqi pozitivizm hüquqşünaslıqda aparıcı təlimə çevrilmişdir [7, s.40].

Müasir dövlətin qanunvericilik fəaliyyəti, xalqın nümayəndəli orqanlarının işi siyasi partiyaların, ictimai təşkilatların fəaliyyəti ilə sıx qarşılıqlı əlaqədədir. Belə nəticəyə gəlmək olar ki, dövlət mexanizminin, cəmiyyətin siyasi hakimiyyətinin bütün təşkilatlarının normal və səmərəli işi, şəxsiyyətlə dövlət arasındakı mühüm həlqə, özünəməxsus şəkildə vasitəçi olan vətəndaş cəmiyyətinin inkişafı olmadan mümkün deyil [4].

N.İ.Lazarevskiy qeyd edir ki, müasir şəraitdə ümumi seçki hüququ xalq nümayəndəliyi institutunu xalqın müəyyən qrupunun maraqlarının təmsilçiliyi institutundan bütün xalqın maraqlarının təmsilçiliyi institutuna çevirmişdir. Müəyyən mənada əks proses mövcuddur: xalq təmsilçiliyi xalq üzərində hakimiyyət orqanından bütün xalqın hakimiyyət orqanına çevrilir və bu, müxtəlif növ məhdudiyyətlərdən (senzlərdən) azad olan ümumi bərabər birbaşa seçki hüququ əsasında baş verir [16, s. 331].

Beləliklə, bu məqalədə qeyd edilən bütün fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar.

1. İlkin dövrlərdə insanlar hakimiyyətin və qanunların ilahi mənşəli olduğuna inanırdılar. Ona görə də, xalqın qanun yaratmaq kimi səlahiyyətinin olması qəbul edilmirdi. Bu baxımdan, adət normalarının sanksiyalaşdırılması daha məqbul hesab olunurdu. Lakin sonralar təsəvvürlər dəyişdikcə, hakimiyyətin və qanunların bilavasitə xalqın iradəsinə əsaslanması düşüncəsi hakim olmağa başladı. Bundan sonra isə artıq qədim polis-dövlətlərdə (xüsusən də qərbdə) qanunlar xalq yığıncaqlarında əhali (azad vətəndaşlar) tərəfindən qəbul edilməyə və nəticədə qanunvericilik fəaliyyəti hüquq yaradıcılığının əsas formasına çevrilməyə başladı.

2. Qədim dövrlərdə Qərblə müqayisədə Şərqdə əhalinin hakimiyyətin həyata keçirilməsində iştirakı olduqca zəif olduğundan, xalqın iştirakı ilə qanunyaradıcılığının həyata keçirilməsi, yeni qanunların qəbul edilməsi mexanizmi də tam şəkildə formalaşmamışdı.

3. Orta əsrlərdə ilahi qanunların pozitiv (insanların yaratdığı) qanunlardan üstünlüyü (onun mənşəyini təşkil etməsi) ilə bağlı ideyalar hakim olmuşdur.

4. Hazırkı inkişaf mərhələsində parlament institutu demokratik hüquqi dövlətlərin konstitusiya quruluşunun fundamental əsaslarından biri kimi çıxış edir. Müasir qanunverici orqanın sosial-siyasi rolu və dəyəri xalqın adından onun iradəsinin və hakimiyyətinin çevik, səmərəli və dolğun surətdə həyata keçirilməsi dərəcəsi, sadə vətəndaşların problemlərinə daha məsuliyyətli, operativ və qayğıkeş yanaşma tərzi və habelə vətəndaş-dövlət həmrəylinin yüksəldilməsinə verdiyi töhfə ilə müəyyən olunur.

**Ədəbiyyat:**


1. Aristotel. Politika. Bakı: BDU, 1997, 280 s.
2. Əkbərov R.A., Nəzirov C.Q. Xarici ölkələrin dövlət və hüquq tarixi. Azərbaycan dilində. Bakı: Qanun, 2005, 516 s.
3. Hayek F.A. Hüquq, qanunvericilik və azadlıq. Cild 1. Qaydalar və nizam. Bakı: Qanun, 2002, 260 s.
4. Hüquq sisteminin konstitusiya əsasları. http://unec.edu.az/application/uploads/2015/07/H-QUQ-S-STEM-N-N-KONSTTUS-YA-SASLARI.pdf
5. Məmmədli M. İnsan hüquqları anlayışı, inkişaf tarixi və Konstitusiya təminatı. http://cemiyyet.org/insan-huquqlari-anlayisi-inkisaf-tarixi-v%C9%99-konstitusiya-t%C9%99minati/
6. Məmmədov H.Q. Hüquqi dövlətin yaranmasında hüquqi qnoseologiya, təcrübə və adət-ənənələr // Bakı Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2013, № 2, s. 100-110
7. Məmmədov İ. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Çıraq, 2005, 624 s.
8. Nəbiyev E.Q. Anqlosakson (ingilis) hüquq sistemində presedent hüququnun inkişaf tarixi və xüsusiyyətləri // Bakı Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2008, № 1, s. 28-44
9. Platon. Dövlət. Bakı: Təbib, 1999, 358 s.
10. Rzayev Ə.H. Hakimiyyətlərin bölgüsü: genezisi və onun dövlət qulluğunun təşkilində rolu // Dövlət idarəçiliyi, 2010, № 1, s. 126-131
11. Şükürov N.H. Dövlət hakimiyyəti mexanizminin bəzi məsələləri. Bakı: Qanun, 2012, 256 s.
12. Бейбитов М. Парламентаризм: к проблеме истории возникновения и развития // Әділ Сот, 2010, № 2, с. 44-46
13. История государства и права зарубежных стран. Учебник для вузов. Часть 1 / Под ред. проф. Крашенинниковой Н.А и проф. Жидкова О.А. М.: Издательство НОРМА, 1996, 480 с.
14. Кант И. Критика практического разума. Сочинения в 6-и тт. Т.6. М.: Мысль, 1966, 743 с.
15. Котов А.К. Конституционализм в Казахстане: опыт становления и эффективности механизма власти. Алматы: Изд-во КазГЮА, 2000, 288 с.
16. Лазаревский Н.И. Лекции по русскому государственному праву. Том I. Конституционное право. СПб.: Слово, 1908, 519 с.
17. Локк Дж. О государстве. СПб.: П.П.Сойкин, 1902, 55 с.
18. Мачульская И. Парламентаризм «и опыт, сын ошибок трудных…» (к 100-летию Государственной Думы). http://www.senator.senat.org/senat.html
19. Монтескье Ш.Л. О духе законов. М.: Политическая литература, 1955, 769 с.
20. Морщихина Л.А. История философии Античность – Средние века – Новое время. Учебно-методические рекомендации. Архангельск: Поморский университет, 2006, 214 с.
21. Паневин К.В. История древней Греции. СПб.: Полигон, 1999, 640 с.
22. Руссо Ж.Ж. Трактаты. М.: Наука, 1969, 703 с.
23. Рязанов И.В. История философии: от философии Древнего Востока до Немецкой классической философии. Учебное пособие. Пермь: ИПЦ «Прокростъ», 2014, 292 с.
24. Смышляев А.Л. Народ, власть, закон в позднереспубликанском риме (по поводу концепции Ф. Миллара) // Вестник древней истории, № 3, 2003, с. 46-60
25. Спиноза Б. Об усовершенствовании разума. Сочинения. М.: ЭКСМО, 1998, 864 с.
26. Millar F. The Roman Republic in political thought. London: University Press of New England, 2002, 220 p.

***Açar sözlər:*** *qanun, qanunverici, qanunvericilik hakimiyəti, xalq yığıncağı, senat, hakimiyyətlər bölgüsü, parlamentarizm*

**Elshad Hasanov**
*PhD candidate, the Institute of Law and Human Rights of the National Academy of Sciences of Azerbaijan*

## FORMATION AND DEVELOPMENT OF IDEAS RELATING TO THE LEGISLATIVE POWER

### SUMMARY

The flourishment of parliamentarism took place during the establishment and development of the bourgeois state. The main scope of the parliament's powers was formed at that time: the adoption of laws, approval of the budget, control over the activities of the government (by discussing its activities, expressing no confidence, etc.), and so on. All of these are reflected in the generalized principle of parliamentarism. This paper examines issues related to the formation and development of ideas related to the legislature. The author points out that in the early days, people believed that power and laws were of divine origin. But later, as perceptions changed, the idea that government and law were based on the will of the people, prevailed. However, in the Middle Ages, ideas about the superiority of divine law over man-made law prevailed. At the current stage of development, the parliamentary institution is one of the fundamental foundations of the constitutional structure of democratic states governed by the rule of law.

***Keywords:*** *law, legislature, legislature, people's assembly, senate, separation of powers, parliamentarism*

**Эльшад Гасанов**
*Диссертант Института права и прав человека*
*Национальной Академии Наук Азербайджана*

## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ИДЕЙ О ЗАКОНОДАТЕЛЬНОЙ ВЛАСТИ

### РЕЗЮМЕ

Процесс расцвета парламентаризма происходил в период становления и развития буржуазного государства. В то время сформировался основной круг полномочий парламента: принятие законов, утверждение бюджета, контроль за деятельностью правительства (через обсуждение его деятельности, выражение недоверия и т.д.). Все это нашло свое отражение в обобщенном виде в принципе парламентаризма.

В статье исследуются вопросы, связанные с формированием и развитием идей, связанных с законодательной властью. Автор указывает, что на начальных этапах люди верили, что власть и законы имеют божественное происхождение. Но позже, по мере представлений изменения, начала возобладать идея о том, что власть и законы непосредственно основаны на воле народа. В средние века господствовали идеи о превосходстве божественных законов над закономи, созданными человеком. На современном этапе развития парламентский институт выступает одной из фундаментальных основ конституционного устройства демократических государств.

***Ключевые слова:*** *закон, законодательная власть, законодательная власть, народное собрание, сенат, разделение властей, парламентаризм*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## D A V A M L I  İ N K İ Ş A F I N  İ D A R Ə  E D İ L M Ə S İ
## S U S T A I N A B L E  D E V E L O P M E N T  M A N A G E M E N T

UOT 354; UOT 338.24

**GÜNAY MƏMMƏDLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının doktorantı**
*e-mail: gunay_memmedli@mail.ru*

# XƏZƏR HÖVZƏSİNİN ENERJİ RESURSLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

İstehsal həcmindəki artımın əhəmiyyətli hissəsi ilk növbədə Şimali Xəzər ölkələri - Qazaxıstan və Azərbaycanın payına düşür. Xəzər neft ehtiyatlarının işlənməsi üç əsas layihə - dünyada son dövrlərdə kəşf edilmiş ən iri neft yatağı olan Qazaxıstanın "Tengiz" yatağı, "Qaraçağanaq" yatağı, Xəzərin Azərbaycan sektorunda ən iri neft yatağı olan "Azəri-Çıraq-Günəşli" yatağı çərçivəsində həyata keçirilir. Qazaxıstan sektorunda neft hasilatında gözlənilən artım, "Qaşağan" yatağının işlənməsi hesabına baş verəcəkdir. Xəzər nefti bölgə və dünya neft bazarları üçün geniş imkanlar açır.

Yeni istehsal mənbələrinin meydana çıxması qlobal neft tədarükünün şaxələndirilməsinə müsbət təsir göstərəcəkdir. Böyük həcmdə Xəzər nefti İran körfəzinin istehsal güclərinə təzyiqi azaldacaq və əlavə qorunmanı təmin edəcəkdir. Belə ki, Xəzər neftinin dünya bazarında özünə daha çox yer tutması qlobal və regional istehsalçıların marağındadır. Çünki bu zaman İran körfəzi ölkələrinin bazardakı dominant və diqtəedici mövqeyi zəifləyəcəkdir. Bu da öz növbəsində həm də beynəlxalq siyasi sabitliyə də müsbət təsir göstərə biləcək amillər kateqoriyasına daxildir.

Bunu müasir dünyada gedən proseslər fonunda aşağıdakı kimi izah etmək olar. Dünyanın müasir sənaye sivilizasiyasının tələbləri sırasında neft və neft məhsulları – yanacaq-sürtgü materialları, istilik, elektrik enerjisi, plastmas, asfalt, neft emalı məhsulları və s. birinci yerdə dayanır. Odur ki, yer kürəsinin neft ehtiyatları və bu ehtiyatların məkanı (ərazi mənsubiyyəti) müasir dünyada transmilli mahiyyət kəsb edərək həm planetin inkişaf etmiş sənaye dövlətləri, həm də neftin sahibi olan ölkələrin milli-dövlət maraqları baxımından strateji əhəmiyyət kəsb edir (1, s.544).

Neft ixracından əldə olunan gəlirlər iqtisadi artıma təkan verərək enerji istehsalçıları olan Xəzəryanı ölkələrin əhalisinin həyat səviyyəsini yaxşılaşdıra bilər. Eyni zamanda Xəzərin enerji resurslarının dünya bazarlarına tədarükü həm qlobal iqtisadi artım perspektivlərini genişləndirir, həm də Xəzəryanı bölgələrin dünyanın əsas aktorlarının nəzərində rolunu gücləndirir. Bunun nəticələrini biz artıq regionun qlobal təhlükəsizlik şəbəkəsində artmaqda olan rolunda görürük.

Bununla belə, Xəzərin enerji ehtiyatlarının qlobal enerji təchizatı və enerji təhlükəsizliyi baxımından əhəmiyyətini düzgün müəyyən etmək lazımdır. İndi isə Xəzər hövzəsi ölkələrinin hər birinin enerji resurs imkanlarının dəyərləndirilməsini həyata keçirək.

Türkmənistan sübut edilmiş təbii qaz ehtiyatlarına görə dünyada dördüncü yeri tutur. Aşqabadın beynəlxalq mövqeyi ölkənin ən böyük enerji layihəsi və dünyada ikinci ən böyük qaz yatağı olan "Qalkınış" sayəsində möhkəmlənmişdir. Qaz Türkmənistan iqtisadiyyatının əsas elementlərindən biri və ölkənin əsas ixrac məhsulu olduğundan, ölkənin rifahı "Qalkınış" neft yatağının inkişaf etdirilməsinin müsbət təcrübəsindən asılı idi.

Türkmənistan təbii qazın perspektivli tədarükçülərindən biridir. Yerli geoloqlar tərəfindən müəyyən edilmişdir ki, ölkənin şərqində, təkcə "Qalkınış" yatağında qaz ehtiyatı 26 trilyon kubmetrdən çoxdur. (15)

Caspian Barrelin Türkmənistanın neft-qaz kompleksinin elektron məcmuəsinə istinadən verdiyi məlumata görə "Türkmənqaz" Dövlət Konserni 2019-cu ilin mart ayında "Qalkınış" yatağının işlənməsi zamanı 301 saylı quyudan gündəlik olaraq 1,868 milyon kubmetr təbii qaz axını almağa nail olmuşdur. (2)

Azərbaycanın milli iqtisadiyyatının, ölkənin infrastrukturunun inkişafında, demokratik mühitin formalaşmasında və bu istiqamətdə yeni konsepsiyaların işlənməsində Azərbaycanın neft strategiyasının yaradılması misilsiz siyasi əhəmiyyət kəsb edir. İran körfəzi və Sibirdən sonra dünyanın üçüncü böyük neft hövzəsi olan Xəzər dənizi strateji və geosiyasi mövqeyinə görə seçilən, Avropa və Asiyaya giriş qapıları olan, dünyanın siyasi və iqtisadi cəhətdən diqqət mərkəzində dayanan Azərbaycanın neft strategiyası onun, həm də daxili və xarici siyasətini tənzimləyən, milli təhlükəsizliyini formalaşdıran əsas faktorlardan biridir. Neft sərvətlərinin törədə biləcəyi çox böyük fəsadları mərhum Ümummilli lider Heydər Əliyev gözəl bilirdi. Hələ 1995-ci il yanvar ayının 13-də Davosda keçirilən Beynəlxalq İqtisadi Forumda Heydər Əliyev "Transmilli neft və qaz kəmərlərinin etibarlılığı və təhlükəsizliyi" haqqında maraqlı bir çıxış etmişdir. O demişdir. "...Yanacaq borularının sürgüləri siyasi şantaj və iqtisadi təzyiq vasitəsinə çevrilməməlidir..." [1, s.26]. Dünyada həmişə neft uğrunda mübarizənin, neftlə bağlı aparılan iqtisadi və siyasi rəqabətin mərkəzində müəyyən strateji məsələlər durur: a) ticarət uğrunda bazar müharibəsi; b) neft regionuna başçılıq uğrunda müharibə; c) dünyadakı yanacaq resurslarına (əsasən neft) hökmranlıq uğrunda müharibə; ç) neft diplomatiyasının təhlükəsizliyi [16, s.806-809].

Bu baxımdan təhlükəsizlik – mümkün zərərlərdən müdafiə olunma imkanları, ziyanlı təsirlərin qarşısının alınması, həmçinin kompensasiya olunması imkanlarının məcmusudur [25, s.91]. Dövlətin milli təhlükəsizlik istiqamətləri arasında hərbi təhlükəsizliyin mərkəzi yeri vardır. Təbii ki, özünün səciyyəvi xüsusiyyətlərinə görə hərbi təhlükəsizlik digər təhlükəsizlik istiqamətlərindən ciddi şəkildə fərqlənir. Hərbi təhlükəsizliyin xüsusiyyətləri və mahiyyətinə dair müxtəlif yanaşmalar mövcuddur. Kifayət qədər çoxsaylı və fərqli yanaşmaların olmasına baxmayaraq, ümumi məqam ondan ibarətdir ki, hərbi təhlükəsizlik dedikdə, dövlətin həyati vacib maraqlarının təhlükəsizliyi səviyyəsi nəzərdə tutulur. Burada nəzərdə tutulan əsas məqamlar dövlətin konstitusiya quruluşu, müstəqilliyi, suverenliyi, və ərazi bütövlüyündən ibarətdir. Təbii ki, qeyd etdiyimiz istiqamətdə təhlükəsizliyin təmin edilməsində əsas güc dövlətin hərbi strukturlarının üzərinə düşür. Dövlətin hərbi təhlükəsizlik probleminin siyasi nöqteyi-nəzərdən təhlil etdikdə, hər şeydən öncə qeyd etmək lazımdır ki, hərbi təhlükə daxili və xarici amillərlə bağlı ola bilər. Xüsusi olaraq qeyd etmək lazımdır ki, hazırkı məqamda dövlətin hərbi təhlükəsizliyinin vacib şərtlərindən birini mümkün müharibənin qarşısının alınması təşkil edir. Belə ki, dövlətin dinc, demokratik inkişafı yalnız silahlı münaqişənin olmadığı sülh şəraitində mümkündür. Müharibə bütün

dəyərlərin qorunmasını təhlükə altına almaqla, həm də dövlətin özünün bütövlükdə mövcudluğunu ciddi sual altına alır. Təhlükəsizlik termini Birinci Dünya müharibəsindən sonra geniş şəkildə istifadə edilmişdir. O zaman ilk dəfə olaraq, müharibələrin son dərəcə dağıdıcı olması səbəbindən beynəlxalq səylərin müharibələrin qarşısının alınmasına, yəni onlara qarşı təhlükəsizliyin təmin edilməsinə xidmət edən məsələlərə dair geniş beynəlxalq konsensus formalaşmışdı. Bu termindən Millətlər Liqasının sənədlərində, məsələn Avropada kollektiv təhlükəsizlik konsepsiyasının işlənib hazırlanması ilə əlaqədar istifadə olunmağa başlanılmışdır [20, s.3]. Daha dağıdıcı olan İkinci Dünya müharibəsindən sonra bu məsələ daha da aktual oldu. Ən ümumi şəkildə beynəlxalq təhlükəsizliyin müasir izahı BMT-nin yaradılması zamanı, təşkilatın Nizamnaməsinin birinci fəslində tərtib edilmişdi. Onun başlıca məqsədi belə müəyyənləşdirilir:

- Beynəlxalq sülh və təhlükəsizliyi qorumaq və bu məqsədlə sülhün təmin edilməsi işində yaranan təhlükənin qarşısını almaq və onu ləğv etmək, təcavüz aktlarını yatırtmaq üçün səmərəli kollektiv tədbirlər keçirtmək. Ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq sülh vasitələrilə beynəlxalq münaqişələrin və sülhün pozulmasına gətirib çıxara bilən halların həll edilməsi və ya yoluna qoyulması [29]. Dövlətlərin hərbi təhlükəsizlik probleminin siyasi təhlilini apararkən vurğulamaq lazımdır ki, XXI əsrin əvvəlində hərbi sahədə təhlükəsizlik üçün yeni təhlükələr formalaşır. Hərbi cəhətdən qüdrətli olan dövlətlər arasında rəqabətdən doğan köhnə təhlükələr arxa plana çəkilməyə başladı. “Yeni” təhlükələr beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, onların çatdırılması vasitələri və daxili hərbi münaqişələrdən ibarət üçlük aid edilir [9, s.290]. “Beynəlxalq hərbi müdaxilə” fenomeni də onlara yaxındır və yaranmış beynəlxalq təhlükənin neytrallaşdırılması kimi çıxış edir, digər hallarda isə özü də ciddi təhlükə yaradır [15, s.76]. Digər təhlükəsizlik növlərindən hərbi təhlükəsizlik bir sıra səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Bu da onun olduqca mürəkkəb struktura malik olması ilə bağlıdır. Hərbi təhlükəsizliyin strukturu aşağıdakı formada nəzərdən keçirilə bilər: - hərbi təhlükəsizliyin obyekti: Şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları. Bildiyimiz kimi, bu maraqlar müxtəlif hərbi təhdidlərə və təhlükələrə məruz qala bilərlər; - Hərbi təhlükəsizliyin təmin olunması subyektləri. Burada hərbi təhlükəsizlik sistemində fəaliyyət göstərən konkret şəxslər, rəsmi və qeyri-rəsmi institutlar, orqanlar və təşkilatlar nəzərdə tutulur; - Hərbi təhlükəsizliyin təmin olunması predmeti. Burada hərbi təhlükəsizliyin şəxsiyyətin, cəmiyyətin və dövlətin mövcudluğuna təhdid yaradan istənilən hərbi təhlükənin müəyyən edilməsi və neytrallaşdırılması istiqamətində məqsəd, vəzifə və funksiyalar nəzərdə tutulur; -hərbi təhlükəsizliyin təmin edilmənin metod və vasitələri hərbi təhlükəsizliyin təmin olunması subyektləri tərəfindən hərbi təhlükəsizlik sisteminin fəaliyyəti prosesində istifadə edilir. Hüquqi nöqteyi-nəzərdən hərbi təhlükəsizlik, dövlətin özünün fəaliyyət göstərməsini şərtləndirən başlıca hüquqi materialı rolunda çıxış edir [24, s.83]. Dövlətin hərbi təhlükəsizliyi dedikdə dövlətlərarası münasibətlərin və müdafiə qabiliyyətinin elə vəziyyəti başa düşülür ki, bu zaman müharibə ehtimalı minimuma enmiş olur. Müasir dövrdə enerji resurslarına malik olan dövlətlər üçün bu məhsulların təhlükəsiz şəkildə nəql edilməsi onun hasilatı və emalı qədər əhəmiyyət daşıyır.

Dünyada Neft uğrunda müharibələrin tərkib hissələrindən birini məhz Azərbaycan nefti təşkil edir və bugünkü dövrdə sivil qaydada aparılır. Bugünkü neft müharibəsi (informasiya, iqtisadi, mənəvi, siyasi, hərbi məsələlərdə) bütövlükdə Azərbaycan uğrunda gedir. Qərb və Amerika müəlliflərindən Erqin D., Səyyat R., Vruks M., Bjezinski Z., Kissenger H. və başqaları Azərbaycanın neft ehtiyatlarının dünya siyasətində və beynəlxalq münasibətlərdə rolu və əhəmiyyəti, onun böyük dövlətlərin xüsusi maraq dairəsində olması haqqında bu və ya digər şəkildə fikirlər söyləmişlər. Z.Bjezinski Azərbaycanın geostrateji

əhəmiyyətini təhlil edərək qeyd edir ki, məhdud əraziyə və o qədər də çox olmayan əhaliyə malik Azərbaycan təbii ehtiyatlarına və yerləşdiyi geostrateji mövqeyinə görə bu regionda mühüm mövqeyə malikdir. Xəzəryanı ölkələrin, o cümlədən qonşu dövlətlər olan Gürcüstan və Türkiyənin üzləşdiyi əsas problem Xəzər dənizindən hasil edilən neftin və qazın daşınması marşrutu olmuşdur. Siyasətçi öz fikrini davam etdirərək qeyd edir ki, Qərbin neft bazarları ilə birbaşa, Rusiyanın nəzarəti olmadan əlaqəli olan Azərbaycan Mərkəzi Asiyada enerji cəhətdən zəngin dövlət olmaqla neft və neft məhsullarının daşınmasında magistral rol oynayır. Bunlarla yanaşı, Azərbaycanın geostrateji əhəmiyyəti həm də onunla izah olunur ki, "Əgər Azərbaycan tam şəkildə Moskvanın himayəsinə keçmiş olsa, Orta Asiya ölkələrinin müstəqilliyinə baxmaq mənasızdır" [2, s.293-294]. Xəzər regionunun dünya enerji məkanındakı yeri və rolu günügündən artır. Odur ki, ABŞ bu bölgəni özünün milli maraq zonası elan etmiş, Avropa İttifaqı ölkələri, Çin, Yaponiya kimi dövlətlər isə regionda təmsil olunmaq üçün ciddi səylər göstərirlər. Dünyanın müasir geosiyasi oriyentirlərinə təsir edən mühüm faktorlardan biri də enerji məhsullarının təhlükəsiz yollarla dünya bazarlarına və əsas istehlakçılara çatdırılması məsələsidir. Bu mənada Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının – neft və qazın ixrac marşrutları, hansı ölkələrin ərazilərindən keçməsi məsələsi də müasir geosiyasi və geoiqtisadi problemlərin mərkəzində durur. Bu məsələdə həm region dövlətləri – Rusiya, İran, Türkiyə, Azərbaycan, Gürcüstan, Ukrayna, həm dünya dövlətləri – ABŞ, Avropa İttifaqı ölkələri, Çin, Yaponiya, həm də neft istehsal edən əsas ölkələr – İran körfəzi ölkələri, Norveç, Venesuela və başqalarının maraqları mütləq qaydada təmsil olunur. Biri nefti öz ərazisindən keçirməklə tranzit maraqlarını, digəri onun hansı marşrutla – hansı bazara axacağı ilə özünün satış bazarında yaranacaq rəqabət maraqlarını, üçüncülər özləri üçün daha ucuz, təhlükəsiz və sabit enerji qaynaqları təmin etmək maraqlarını, dördüncülər sərvətlərini dünya bazarlarına sərbəst çıxarmaqla öz milli dövlətçilik və maddi problemlərinin həlli məsələlərini təmin etməyə çalışırlar [7, s.546].

Bu gün üçün əsas neftin böyük hissəsi Fars körfəzi ölkələrindən, Şimali Afrikadan, Meksika, Venesuela, Şimal dənizi (Norveç) və Rusiyadan ixrac edilir. Ərəb nefti dünya bazarlarına Fars körfəzi ilə dünya Okeanını birləşdirən Hörmuz boğazından keçərək ixrac edilir ki, bu boğazın bir tərəfi İrana məxsusdur. Digər marşrut isə Suriyadan və Türkiyədən keçən neft kəmərləri vasitəsilə Aralıq dənizinə çıxır ki, bu da qeyri-sabit mövqeyi ilə fərqlənən Suriya hakim dairələrinin təsiri altındadır. Odur ki, Qərb dairələri tərəfindən ərəb neftinə və qeyri-sabit Fars körfəzi marşrutuna növbəti yaxın on ildə daha sabit əvəzedici mənbə, əlbəttə, Xəzər nefti, sabit marşrut isə Bakı-Tbilisi-Ceyhan hesab olunur. Tədqiqatçıların fikrinə görə, Xəzər inkişaf etmiş ölkələr üçün əlavə enerji mənbəyi rolunu oynamağa qadirdir [7, s.547]. Neftin geoiqtisadi hərəkəti, bir qayda olaraq, beş əsas mərhələdən ibarətdir: hasilat – nəql – emal – yenə də nəql – satış. İnkişaf etmiş dövlətlər xam nefti hasilat yerindəcə (bəzən elə özləri də şərikli hasil edir) alır, qalan bütün mərhələləri özləri icra edirlər. Azərbaycan əlbəttə, bəzi texnoloji və investisiya məhdudiyyətləri üzündən, əsasən xam neft satır. Xəzər dənizindəki ehtiyatlarının isə hasilatını da bəzən təkbaşına deyil, xarici şirkətlərlə şərikli həyata keçirir. Azərbaycan yaxşı halda xam neft ixrac edir, yaxud da zəngin neft yataqlarını xarici şirkətlərlə birgə istifadə edir. Dünya enerji resursları sırasında neftdən sonra ən önəmli yeri təbii qaz tutur. Bu yanacaq neftdən həm ucuzdur, həm də onun ehtiyatları yer kürəsində daha çoxdur (təxminən 120-150 trilyon ton). Buna görə qaz əslində "ehtiyat yanacaq" növü kimi dəyərləndirilir. Mütəxəssislərin fikrinə görə yer kürəsindəki neft ehtiyatları 50-100 il, qaz ehtiyatları isə 100-150 il insanların ehtiyacını tam ödəmək iqtidarındadır. Xəzər hövzəsinin zəngin qaz ehtiyatlarının (Türkmənistan, Qazaxıstan və Azərbaycan qazı nəzərdə tutulur) Bakı-Tbilisi-Ərzurum marşrutu ilə Türkiyəyə,

oradan da Avropa bazarlarına çıxarılması üçün Azərbaycanın, ABŞ və Qərb dövlətlərinin reallaşdırdığı layihə Rusiyanın bu bazarda tam hegemonluğuna bir qədər son qoya bilər. Odur ki, Rusiya uzun müddət bu layihənin perspektivsizliyi haqqında ciddi təbliğat apararaq, Qərb şirkətlərini onun maliyyələşdirilməsindən çəkindirməyə, Türkmənistan və Qazaxıstanın bu layihəyə qoşulmasının qarşısını almağa çalışır. Lakin buna nail olmağın qeyri-mümkün olduğunu hiss edəndən sonra Türkiyə ilə "Mavi axın" qaz kəmərini çəkmək və rus qazını Türkiyə vasitəsilə bəhs olunan bazarlara çıxarmaq razılığına gəldi. Lakin Avropa ölkələri alternativ qaz və qaz kəmərləri layihəsinə üstünlük verərək Bakı-Tbilisi-Ərzurum kəmərini, Xəzərin Azərbaycan, Türkmənistan və Qazaxıstan ərazisindəki perspektivli qaz yataqlarının istismarını bir qədər də sürətləndirdi. Hazırda nəhəng qaz ehtiyatı proqnozlaşdırılan bu üç Xəzəryanı ölkədə ciddi işlər həyata keçirilir ki, bu da Avropanı müəyyən qədər Rusiyanın qaz asılılığından xilas etməyə yönəlib. Əsası 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" adlanan neft müqaviləsinin bağlanması ilə qoyulan bu strategiya Azərbaycanın müstəqil dövlət kimi digər dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə, Avropa Birliyinə inteqrasiya olunmasına, əsas dünya ölkələri, ilk növbədə, böyük dövlətlərlə dostluq və strateji əməkdaşlıq münasibətlərinin yaranmasına və inkişafına əlverişli imkan və müsbət zəmin yaratmışdır [7, s.549]. "Əsrin müqaviləsi"ndə ən çox pay aparıcı Qərb dövlətlərinə ayrılıb. Bu dövlətlər içərisində ən mühüm pay isə ABŞ şirkətlərinə ayrılmışdır. Aparıcı Qərb dövlətləri ilə yanaşı, Azərbaycan hökuməti tarazlaşdırılmış xarici siyasət prinsiplərindən çıxış edərək bölgədə böyük təsiri olan Rusiya Federasiyasına məxsus olan "LUKOYL" şirkətinə də "Əsrin müqaviləsi" layihəsində 10 faizlik pay ayırmışdır. Bu da təsadüfi deyildi. Baxmayaraq ki, Rusiya 1994-cü ildə özü dərin iqtisadi böhran keçirirdi və xarici neft layihələrinə ciddi investisiya qoymağa qadir deyildi. Lakin bu ölkə İranla birlikdə Azərbaycanın Xəzər dənizindəki istənilən təşəbbüsünə, xüsusən Qərb ölkələri ilə birgə iş qurmaq istəklərinə çox qısqanclıqla yanaşır və ciddi maneçilik törədirdi [7, s.554]. Həmin dövrdə Prezident Heydər Əliyev yaxşı başa düşürdü ki, o dövrdə respublikanın real müstəqilliyi, eləcə də onun bir çox dövlətçilik problemlərinin həlli, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi əsasən aparıcı Qərb dövlətlərinin səyi ilə reallaşa bilər. Lakin Rusiya və İran kimi böyük region dövlətlərini də narazı salmaq yolverilməz idi. Məsələni kəskinləşdirmədən bu işləri addım-addım həyata keçirmək lazım idi. Əsas məsələ indiki halda Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoyulması, onun inkişafının təmin edilməsi iqtisadi böhrandan çıxarılması və ictimai-siyasi sabitliyin təmin edilməsi idi. Xəzər bölgəsindəki proseslər heç də karbohidrogen yataqlarının istismarı və sektor problemi ilə məhdudlaşmır. Burada, hər şeydən əvvəl bölgəyə strateji təsir məsələləri, neft kəməri və onun təhlükəsizliyi, xarici aləmin iqtisadi və geosiyasi maraqları toqquşur. Neft mütəxəssislərinin birgə rəyinə görə, dünyanın heç bir yerində bu qədər xalqın, dövlətin və şirkətin yarışa girdiyi başqa bir bölgə tapmaq mümkün deyil. Xəzər bölgəsinə siyasi və iqtisadi maraq göstərən dövlətlər sırasında ən fəalı Qərb dövlətləri və Amerika Birləşmiş Ştatlarıdır. ABŞ-ın Xəzər bölgəsinə siyasi marağı Azərbaycana münasibətdə daha qabarıq hiss olunur. ABŞ Cənubi Qafqaz və Orta Asiyada həyata keçirilən strateji əhəmiyyətli layihələrin və proseslərin başlıca iştirakçısı və müdafiəçisidir. Dövlət Departamenti "Xəzər hövzəsinin Enerji İnkişafı" adlı hesabatında (1997) ABŞ-ın bu bölgədəki siyasətinin əsas dörd istiqamətinin "Xəzər hövzəsi ölkələrinin müstəqilliyi və suverenliyi" adlandırdığı III bəndində göstərmişdir ki, burada əsas problem Rusiya ərazisindən keçən neft kəmərindən asılılığın aradan qaldırılmasıdır. Siyasi problemlərdən başqa, bu asılılıq Rusiyaya kəmərlərdən istifadə haqqını fövqəladə dərəcədə yüksəltmək imkanı verir. Məsələnin həlli üçün fərqli və

alternativ enerji-ixrac yollarının olması zəruridir. Bu məntiqə uyğun olaraq İrandan keçəcək neft kəmərinə etibar məsələsi ortaya çıxdığından həmin dövrdə Bakı-Tbilisi-Ceyhan ideyası dəstəklənmişdir.

Hesabatın müəllifləri bu məqsədə nail olmağın ən yaxşı yolunu Xəzərdə enerji istismarı sahəsində İranın hər hansı iştirakının qarşısını almaqda görürlər. 1995-ci ildən başlayaraq, ABŞ hökuməti bölgəyə yönəlik siyasətində aktivlik və ardıcıllıq nümayiş etdirir. ABŞ Prezidenti anti-terror əməliyyatından danışarkən, Yaxın Şərqin neft istehsal edən ölkələrinin beynəlxalq terrorizmlə mübarizədə bitərəf qaldıqlarından narazı olduğunu açıq bildirib. Eyni zamanda, ABŞ onu da nəzərə alır ki, bu gün Qərb enerji daşıyıcılarına olan tələbatını məhz bu ölkələrdən ixrac edilən neftin hesabına ödəyir [7, s.558]. Bundan başqa, Rusiya Xəzər nefti məsələsində mövqeləri üst-üstə düşən İranla strateji əlaqələrini genişləndirərək, bu ölkənin ifrat silahlanmasına və Azərbaycana əsassız təzyiq göstərməsinə hər cür yardım edirdi. Rusiya eyni zamanda, Qərb şirkətlərinin Xəzər neftinə marağını azaltmaq və diqqəti bu bölgədən yayındırmaq üçün Xəzərdə neft ehtiyatlarının rəsmən bəyan edilmiş miqdardan xeyli az olması, regionu ciddi etnik və siyasi sarsıntıların gözlədiyini iddia edir və Bakı-Ceyhana qarşı geniş təbliğat aparırdı. Neftin qiymətinin aşağı düşməsi və Xəzər neftinin istismarı perspektivinin gündəliyə çıxdığı bir vaxtda Rusiya həmçinin bir sıra ölkələrin çağırışlarının əksinə olaraq dünya bazarına böyük miqdarda ucuz neft çıxarır, Xəzərin demilitarizasiyası ilə bağlı müraciətləri qulaqardına vuraraq, Xəzərin sahilində yeni hərbi-dəniz bazası yaratmaqla məşğul olurdu. Hələ müqavilənin imzalanmasına qədər "21 iyul 1994-cü ildə Rusiya Federasiyasının keçmiş prezidenti Yeltsin 396 nömrəli "Xəzər dənizində Rusiya Federasiyasının maraqlarının təmin edilməsi" barəd gizli sənəd imzalamışdır. Burada Rusiya Federasiyasının bütün orqanlarına Azərbaycana qarşı faktiki iqtisadi və siyasi blokadanın yaradılması əmri verilmişdir" [2, s.310]. Müqavilə imzalandıqdan sonra Azərbaycan Respublikasında törədilən bir çox pozuculuq hadisələri də bilavasitə xaricdən qaynaqlanırdı. Lakin Azərbaycan Respublikası ölkə rəhbərinin iradəsi və məqsədyönlü addımları ilə bütün bu sınaqlardan, çətinliklərdən çıxdı, təzyiqləri aradan qaldıra bildi və müqavimətlərə sinə gərdi. Eyni zamanda, məhz dünyanın aparıcı dövlətlərinin, onların neft şirkətlərinin müstəqil Azərbaycan dövlətinə göstərdiyi etimad nəticəsində "Əsrin müqaviləsi" uğurla həyata keçirildi. Hazırda Rusiya və İranın Azərbaycana ciddi təzyiqləri də artıq geridə qalıb. Moskvanın Xəzər nefti və Azərbaycan-Qərb əlaqələrinin əleyhinə yönəlmiş destruktiv siyasətini əks etdirən faktların sayını artırmaq da olar. "Moskovskiye novosti" qəzeti Rusiyanın bu bölgədə yürütdüyü siyasəti səciyyələndirərək göstərirdi ki, "Bu illərdə Moskva hərbi və diplomatik yollarla postsovet məkanının Cənub-Şərqində özünün əvvəlki nüfuzunu bərpa etməyə səy göstərirdi [7, s.560]. Xəzər regionu ilə, onun geosiyasi durumu və strateji mövqeyilə bağlı NATO ölkələrinin hər birinin özlərinin həm daxili, həm də xarici strateji planları var.

Azərbaycanın Avropa ölkələri ilə həyata keçirdiyi enerji siyasəti, yeni qlobal layihə olan – "Cənub qaz dəhlizi"nin icrası respublikamızın enerji strategiyasında mühüm mərhələdir. Bütün bu qeyd olunanlar isə Azərbaycanın enerji siyasətinin, enerji diplomatiyasının istiqamətləri olaraq, ölkənin nəinki regionda həm də Avropanın enerji təhlükəsizliyində mühüm rolu olduğunun göstəricisidir. 2017-ci il sentyabrın 14-də Bakıda ölkəmiz üçün daha bir tarixi əhəmiyyətli hadisə baş verdi. Belə ki, Azərbaycan 6 ölkənin 11 şirkəti ilə 2050-ci ilə qədər "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni saziş imzaladı ki, bu da ölkəmizin enerji siyasətində vacib yer alan hadisə olaraq qiymətləndirilir.

Son illər ölkəmizin nəqliyyat infrastrukturunda həyata keçirilən yenidənqurma işləri, beynəlxalq layihələr, qəbul olunan dövlət proqramları bu sahənin inkişafına təkan verib,

Asiya ilə Avropanın qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırıb. Beləliklə, Avrasiya məkanının mühüm logistik mərkəzlərdən birinə çevrilən Azərbaycan həm də öz tranzit imkanlarını artırmağa yol açan təşəbbüslərin müəllifidir [33].

Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi siyasəti, qeyd etdiyim kimi, dövlətin 1993-cü ildən xarici iqtisadi və geosiyasi əlaqələr sahəsində həyata keçirdiyi iki əsas strateji xətdən biri olmuşdur. Mütəxəssislər bu prosesdə Azərbaycanın fəaliyyətində müşahidə olunan bir neçə mühüm istiqaməti xüsusi qeyd edirlər.

Bunlar:

- Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi, ticari, nəqliyyat və logistika əlaqələrinin inkişafından;
- Çin və Avropa İttifaqı arasında ən qısa quru yolu üzərində qurulan multimodal dəhlizin inkişafından;
- "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qurulmasından;
- Böyük İpək Yolu çərçivəsində tranzit yüklərin cəlb edilməsindən;
- Logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə Azərbaycanın daha cəlbedici qovşaq olmasından;
- Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və TASİM layihələri vasitəsilə Böyük İpək Yolunun rəqəmsallaşdırılmasından;
- müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiya edilməsindən;
- yük və sərnişin daşımaları üzrə beynəlxalq və daxili tariflər sahəsində uyğunlaşdırılmış siyasətdən;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəaliyyət proqramının işlənib hazırlanmasından və s. ibarətdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 17 ildə neftdən gələn gəlirlərin də bir qismini cəlb etməklə, ilk növbədə, ölkəni xarici aləmlə bağlayan əksər avtomobil və dəmir yolları, hava və su nəqliyyatı infrastrukturları, quru, hava və su nəqliyyatına aid kommunikasiyalar, rabitə-informasiya texnologiyaları modernləşdirilmiş, yenidən qurulmuş, yaxud hazırda qurulur.

XX əsrin son onilliyində Avropa İttifaqının maliyyə yardımı, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi səyi ilə reallaşdırılan "İpək Yolu" (TRASEKA) layihəsinə əlavə dəstək olaraq, Azərbaycanın təşəbbüsü-liderliyi ilə inşa olunan və 2017-ci il oktyabrın 30-da istismara buraxılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Trans-Avropa-Asiya dəmir yolları şəbəkələrini birləşdirmiş, bununla da qədim İpək Yolunun polad magistrallar üzərində bərpası işi başa çatdırılmışdır [32].

2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. BTQ layihəsinin ölkəmiz üçün digər geosiyasi üstünlüklərindən biri də ondan ibarətdir ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu da müvafiq surətdə qardaş dövlətlər arasındakı münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Digər məsələ bu layihənin yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikasına qədər uzadılmasıdır. Layihə çərçivəsində Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da Muxtar Respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə şərait yaradacaqdır. TRASEKA layihəsində olduğu kimi, Azərbaycan Respublikasının "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulması təşəbbüsü də Ümummilli lider Heydər Əliyevə məxsusdur. Məhz onun razılığı əsasında 2001-ci ildən başlayaraq Azərbaycan Respublikasını təmsil edən nümayəndələr Rusiya və İranın müvafiq qurumları ilə bu istiqamətdə müzakirələrə qoşulmuşlar.

2004-cü il mayın 19-21-də Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyəti Moskva şəhərində keçirilən Rusiya və İran dəmir yolu rəhbərlərinin müşavirəsinə qatılmış və üçtərəfli razılığa müvafiq olaraq "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə Beynəlxalq Konsorsiumun yaradılmasında iştirak etmişdir. Sonrakı dövrdə hər üç ölkənin dəmir yollarına tranzit yük axınının cəlb edilməsi, birgə layihə-axtarış işlərinin görülməsi, ümumi məsələlərin və birgə işlərin əlaqələndirilməsi istiqamətindəki fəaliyyəti təmin olunmuşdur. Məlum olduğu kimi, Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək "Şimal-Cənub" nəqliyyat dəhlizi haqqında ilk razılaşma aktı Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmışdır. Azərbaycan, qeyd edildiyi kimi, bu sazişə beş il sonra - 2005-ci ildə qoşulmuşdur. Sonrakı illərdə, ümumilikdə, 13 dövlət bu sazişə imza atmış və müvafiq olaraq ratifikasiya etmişdir. Dəhliz bir neçə əsas istiqamət: Hindistan-Rusiya-Qafqaz-Körfəz ölkələri; Mərkəzi Asiya-Körfəz ölkələri; Xəzər dənizi-İran İslam Respublikası-Körfəz ölkələri və s. üzrə yükdaşıma fəaliyyətini nəzərdə tutur. Bu layihələr içərisində Azərbaycan üçün ən maraqlı istiqamət yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirilməsi, sonra qatar və avtomobillərlə İranın mövcud dəmir və avtomobil yolları ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir və avtomobil yollarına ötürülməsi və buradan da Azərbaycan vasitəsilə Rusiyaya, Şimali Avropa ölkələrinə və s. çatdırılmasıdır. Hazırkı marşrut üzrə (Süveyş kanalı) malların çatdırılma vaxtı 45-60 gündür, "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə isə bu müddətin 14-20 gün olması gözlənilir. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır [32].

Qeyd etmək lazımdır ki, regionda enerji və nəqliyyat layihələri fonunda bütün qonşuları ilə xoş iqtisadi və siyasi əlaqələri olan Azərbaycan ona qarşı Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində onu bu layihələrdən kənarda saxlamışdır. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışında ətraflı qeyd etmişdir: "Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır. Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik [34]. Məhz bu şəraitdə Azərbaycanın NATO ilə əlaqələrində nəqliyyat və enerji layihələrinin infrastrukturunun hərbi təhlükəsizliyi məsələlərində əlaqələndirmə və qarşılıqlı əməkdaşlıq məsələləri mühüm yer tutur.

1949-cu ildə Qərb dövlətlərinin hərbi-siyasi bloku kimi meydana gəlmiş Şimali Atlantika Müqaviləsi Təşkilatı – NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi təsir göstərir. Hərbi-siyasi təşkilat kimi NATO bütün dünyada o, cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasında, demokratik islahatlar keçirilməsində zəruri kömək göstərməyə çalışır [8, s.265]. Azərbaycanın 1994-cü ildən sülh naminə tərəfdaşlıq proqramına qoşulması, elə həmin ildə "Əsrin

Müqaviləsi" adını almış neft müqavilələrinin bağlanması, ABŞ və NATO-nun Azərbaycana olan maraqlarının yeni mərhələsinin başlanmasına təkan verdi. Bu da öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahədə birgə hərəkət etmək imkanı verməkdədir. Bundan başqa NATO ilə əməkdaşlıq çərçivəsində respublikamız Qafqaz regionunda strateji balans və təhlükəsizlik sistemi yaratmaq, münaqişəli məsələləri beynəlxalq hüquq normalarına uyğun həll etmək, Azərbaycanın müstəqillik və təhlükəsizlik məsələlərinin həllində NATO-nun geniş nüfuzundan və təsir mexanizmlərindən istifadə etmək imkanı da əldə etmişdir [8, s.268].

Azərbaycanın NATO ilə neft strategiyası və onun təhlükəsizliyi istiqamətində "Strateji əməkdaşlıq" proqramı aşağıdakı plan əsasında həyata keçirilir [28, s.2].

NATO-Azərbaycan hərbi (bütün strukturlarda) əlaqələrin qurulması və Azərbaycan neftinin hərbi yolla təhlükəsizliyinin təmin edilməsi, bu sahədə maliyyə məsələlərinin həlli.

NATO-nun "səlahiyyətli nümayəndəsi" kimi Türkiyənin Azərbaycanda BTC istiqamətində strateji və kəşfiyyat fəaliyyətinin proqramlaşdırılması.

Türkiyə-İsrail münasibətlərinin Azərbaycan istiqamətində yenidən qurulması və bunun neft təhlükəsizliyinə yönəldilməsi.

Bu planlar çoxşaxəli istiqamətdə yerinə yetirilir: a) Xəzər regionunda "hərəkətdə olan" bütün strateji nöqtələrə nəzarətin gücləndirilməsi; b) Azərbaycanın Müdafiə Nazirliyinin strukturları ilə əlaqələrin yaradılması; c) Bakı müxalifətinin İran və Rusiyaya zidd radikal qurumları ilə münasibətlərin yaradılması; ç) Bakıdakı İran və Rusiya neft şirkətlərinin durumunun iqtisadi gücünün araşdırılması: d) NATO-nun Xəzər hərbi dəniz qüvvələri tərkibində Strateji Araşdırmalar Mərkəzinin yaradılması; c) Xəzərin neft yataqlarına nəzarətin artması və onun daşınmasının coğrafi xətti; ə) Bakının təhlükəsizlik məsələlərini nəzarətə götürmək. Neft tədqiqatı ilə bağlı elmi tədqiqat institutları ilə, araşdırma mərkəzləri ilə, laboratoriya və təhlil mərkəzləri ilə əlaqələrin yaradılması; f) Bakıda NATO qüvvələrinə xidmət edə biləcək işçi qrupun yaradılması; g) Bakıd leqal şəkildə neft tədqiqatı ilə məşğul olan Araşdırmalar İnstitutunun təşkil edilməsi və.s məsələləri yer tutur [22, s.93].

Rusiya NATO faktorundan ehtiyat etdiyindən var gücü ilə mövcud enerji mənbələrini və kanallarını itirməməyə çalışır. ABŞ, Qərb və Rusiyadan fərqli olaraq Azərbaycan neft siyasətində özünün milli təhlükəsizlik məsələsini hər şeydən üstün tutur.

Azərbaycanın müstəqil olaraq neft strategiyasının yürütməsi xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ərsəyə gəlməsi İranın siyasi dairələrində mənfi qarşılanmışdır. İranın eks-prezidenti Seyid Məhəmməd Hatəminin bu məqsədlə dediyi sözləri nəzərinizə çatdırırıq. " İran bu hadisələrə təsir edəcək öz dəyərlərindən və prinsiplərindən əl çəkən deyil" [27, s.200]. İranın bu mövqeyi Qərb siyasətçiləri tərəfindən də qeyd olunur. Azərbaycanın neft strategiyasından danışan ingilis icmalçısı Robert Korzeni deyib "Bakı unutmasın ki, İran öz geosiyasi vəziyyətindən, durumundan həmişə istifadə edib, yenə edəcək. Bu onun regionda prinsipial mövqelərindəndir" [19, s.216].

Azərbaycanda neft strategiyasında milli təhlükəsizlik problemlərində hər zaman təhdid problemləri var. Problemin daim mövcud olması və həllini çətinləşdirən amillərin əsasını Rusiya və İran dövlətlərinin Azərbaycana qarşı siyasi və iqtisadi maraqlarının üst-üstə düşməsidir. İran İslam Respublikasının və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş qərargahlarının yaxınlaşması, Xəzər regionunda siyasi, iqtisadi və hərbi imkanlarını qurmağa çalışan NATO-ya üzv ölkələrin kəşfiyyat və hərbi planlarının genişlənməsi birgə strateji sərhədlərin, məxfi sövdələşmələrin qurulması Azərbaycan üçün təhlükə mənbəyi olaraq qalır [23, s.4].

Əsrlər boyu torpaqlarımızda yaşayan, erməni separatçılarının, bütün dünyada dəhşətli

kütləvi terror aktları ilə məşhur olan "Haydad" və ASALA" erməni terror təşkilatlarının Azərbaycan Respublikasının neft strategiyasına, ümumən yanacaq resurslarına qarşı hazırladıqları pozuculuq strateji hərbi planları mövcuddur.

Amerikalı Alim Esat Uras "Erməni tarixi haqqında sual" kitabında "ASALA" ilə bağlı aşağıdakı məlumatı verir. "ASALA erməni terror təşkilatıdır, qeyri-qanuni yaradılmış qoşun birləşməsidir. 1994-cü ildə bu terror təşkilatı "türk dünyasına (xüsusən, Azərbaycana qarşı) xəbərdarlıq" proqramını yaymışdır. Bu proqramın da əsasını iki xətt təşkil edirdi:

Azərbaycanın strateji nöqtələrinin, enerji daşıyıcılarının nəzarətə götürülməsi, Aparıcı xarici siyasi prinsiplərini pozaraq, onu ləngitmək; Azərbaycanın neft strategiyasının "şah damarı" sayılan BTC-yə qarşı strateji tədbirlər planlarının icrası [29]. Asala və Haydad terror proqramlarında Azərbaycanda bağlanmış xarici neft kontraktlarına əngəllər törətmək üçün ciddi məqamlar var. Bu təxribat proqramlarında neft strategiyasına qarşı, təhlükəsizliyimizə qarşı bütövlükdə regional enerji layihələrinə qarşı hər an baş verə biləcək hadisələrin planları cızılır. Terrorçuluq Ermənistanın dövlət siyasətidir. Avstriyanın Milli müdafiə Akademiyasının professoru Martin Malek yazırdı ki, "Ermənistanın Rusiyadan alınmış (1993-1996-cı illərdə) "SCVD-B" ballistik raketlər Azərbaycanın neft yataqlarına, neft şirkətlərinə doğru yönəldilib" [21, s.12]. ASALA erməni terror təşkilatının Livandakı araşdırma mərkəzində Azərbaycanın neft strategiyasına qarşı tədbirlər planına nəzər yetirək:

-müstəqil neft siyasəti yürüdən Azərbaycanın dünya neft bazarına çıxış yollarını nəzarətə götürmək;

-yanacaq-enerji mənbələrinin keçid nöqtələrini müəyyənləşdirmək;

-neft yataqlarının xəritəsinin hazırlanması;

-xarici neft şirkətlərinin ərazi dairəsi, təhlükəsizlik planlarının araşdırılması;

-neft kəmərlərinin keçid məntəqələrinin öyrənilməsi və həmin keçid məntəqələrinə yaxın ərazilərdə (məsələn Gürcüstan ərazisindəki Axalkalaki yaşayış məntəqəsində) qapalı təlim düşərgələrinin yaradılması:

-ölkənin xarici siyasətini və iqtisadi strategiyasını, əsasən Azərbaycan neft strategiyasını müəyyənləşdirən kadr potensialını iflic etmək [6, s.2].

Cənubi Qafqaz ABŞ başda olmaqla NATO-nun Rusiya ətrafında yaratdığı hərbi-siyasi "təhlükəsizlik qurşağı" ərazisinin əsas zonalarından biridir [9, s.229]. Məhz bu kimi faktorlar da Azərbaycanın dövlət olaraq özünün enerji resurslarının hərbi təhlükəsizliyi məsələsinin vacibliyinin gündəmə gətirilməsinə rəvac vermişdir.

Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli 692 nömrəli sərəncamına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı və müdafiə sahəsində apardığı qarşılıqlı əlaqələr və digər tədbirlər dövlətin təhlükəsizlik məsələlərinə necə önəm verməsinin bariz göstəricilərindəndir [5, s.1]. NATO üzvü və tərəfdaş dövlətlərin iştirakı ilə "Kooperativ Determineyşn-2001" çoxmillətli, sülhməramlı kompüter komanda qərargah təlimləri keçirilməsi [10], daha sonra Azərbaycan "NATO-nun elmi proqramı çərçivəsində Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri üçün həyata keçirilən "Virtual İpək yolu" layihəsinin açılış mərasimi Bakıda geniş tərkibdə keçirilməsi [11], Azərbaycan antiterror mübarizəsinin ən fəal üzvlərindən biridir mövzusunda NATO baş katibi Corc Robertsonun mətbuat konfransında söylədikləri, [3]. NATO dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıması və Prezident İlham Əliyev İstanbul zirvə toplantısındakı çıxışında ölkəmizin alyansla əməkdaşlığını bundan sonra daha da genişləndirmək niyyətini açıq bəyan etməsi [12, s.6] və alyansla bir çox sonrakı tədbirlər və seminarları [13], NATO Azərbaycan qarşılıqlı hərbi-strateji əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsinin göstəricisidir.

Azərbaycan dövlətinin bu istiqamətdə hazırladığı təhlükəsizlik məsələlərini müəyyənləşdirən konsepsiya və qanunları, xüsusən "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (18 iyun, 1999-cu il), "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu (3avqust 2004-cü il) sənədləri hesab olunur [25, s.3].

Nəzərə almaq lazımdır ki, Qərb investorlarının tədricən OPEK-dən kənarlaşaraq Azərbaycana yaxınlaşması, ərəb dünyasının bu istiqamətdə dünyanın neft bazarında nüfuzlu mövqe tutan Bakı neftinin taleyinə qısqanclığını və Azərbaycanın dünyanın neft bazarlarındakı mövqeyi OPEK-ə üzv olan ölkələrin iqtisadi-strateji planlarını da pozmuşdur. Süni olaraq yaradılmış və Qafqazda da öz təsir dairəsini yaymağa çalışan islam faktorunun neft strategiyasına olan təhlükələri ABŞ-ı narahat etmişdir. 06 noyabr 2004-cü ildə Ağ evdə keçirilən brifinqdən sonra regionda güclü təhlükəsizlik və kəşfiyyat sisteminin yaradılması təkliflərindən dolayı geosiyasi vəziyyəti araşdırmaq məqsədilə Mərkəzi Kəşfiyyat İdarəsinin analitikləri və yüksək rütbəli zabitləri regiona səfərlər etmişlər [17, s.48].

Regionda öz üstün geostrateji mövqelərindən səmərəli istifadə edən Azərbaycan Respublikası beynəlxalq enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində həm vasitəçi, həm də müəllif kimi iştirak etməkdə aparıcı rol oynamaqda davam edir. Bu transmilli enerji və nəqliyyat layihələrinin infrastrukturunun ilkin olaraq milli təhlükəsizlik, daha sonra isə regional təhlükəsizlik baxımından qorunması Azərbaycan dövlətinin hərbi strateji maraqlarındadır.

Cənubi Qafqazın təhlükəsizliyinə qlobal təhlükəsizlik sistemi prizmasından nəzər salsaq, digər parametrlərlə yanaşı, enerji faktoruna da çox ciddi diqqət yetirməliyik. Məhz bu məsələdə enerji məsələsi milli təhlükəsizliyin əsas elementlərindən birinə çevrilir. Buraya ekologiyanı, ehtiyatları, silahsızlaşma məsələsini, münaqişələrin həllini də əlavə etdikdə, bütövlükdə təhlükəsizlik sisteminin əsas elementlərinin kompleksi yaranır. Bu faktorları "təhlükə" və "təhdid" qruplarına ayırdıqda, maraqlı mənzərə alınır. Burada "təhlükə" olaraq Ermənistanın region sularını nüvə tullantıları ilə çirkləndirməsini, onun daim silahlanmasını, "Metsamor" AES-dən istifadəsini, Azərbaycan ərazilərində hərbi hissələrini saxlamasını göstərmək olar. Həmin faktorlara qarşılıq təhlükəsizliyi təmin edən Azərbaycanın neft-qaz ehtiyatları və ondan dövlətlərin yararlanması, ölkənin enerji ehtiyatlarının yalnız əməkdaşlıq üçün istifadə edilməsi, münaqişənin ədalətli həllinə sadiq qalması amilləri dayanır. Region üçün ən böyük təhdid isə Ermənistanın təcavüzkar siyasəti, erməni terroru və Dağlıq Qarabağda silahlı qrupların fəaliyyətini davam etdirməsidir. Bu fikirlər əsasında Cənubi Qafqazın təhlükəsizliyinin qlobal təhlükəsizlik kontekstində əsas məqamlarını müəyyənləşdirə bilərik. Məsələ Cənubi Qafqazın bir geosiyasi sistem olaraq özünütənzimləməyə nail olmasından ibarətdir. Bunun üçün isə yuxarıda vurğuladığımız təhlükə və təhdidlərin mənfi təsirlərini neytrallaşdırıb, regionda sabitliyi təmin edən mexanizmlərin səmərəliliyini artırmaq lazım gəlir [30].

Bu mənada Azərbaycan Respublikasının Milli Məclisinin 8 iyun 2010-cu ildə Azərbaycan Respublikasının "Hərbi doktrina" sını təsdiq etməsi tarixi zərurətdən irəli gələn addım idi. Hərbi doktrina Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici, hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konsteptual əsasını müəyyənləşdirən sənəddir. Eyni zamanda bu doktrina hərbi təhlükəsizliyə təhdidlərin vaxtında aşkarlanması, təhlil edilməsi, qiymətləndirilməsi, qarşısının alınması, onlara yetərli müqavimətin göstərilməsi, dövlətin, əhalinin və ərazinin müdafiəyə hazırlanması, səmərəli hərbi təhlükəsizlik sisteminin yaradılması, müharibə və silahlı münaqişələrin qarşısının alınması, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycan Respublika-

sının mövqeyini əks etdirir. Azərbaycan Respublikasının "Hərbi doktrina" sının ümumi müddəalarının 14-cü bəndində göstərilir "Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalı, Ermənistanın vaxtilə azərbaycanlılar yaşamış bölgələrində və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində etnik təmizləmə siyasətinin aparılması, iqtisadi və sosial infrastrukturun dağıdılması ilə nəticələnmiş təcavüz aktının davam etdirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amildir [4].

Hərbi doktrinada Azərbaycan Respublikasının təhlükəsizlik mühiti adlanan II başlığında göstərilən müddəalara diqqət yetirək:

- Azərbaycan Respublikasının Avropa və Asiya arasındakı beynəlxalq ticarət və nəqliyyat-kommunikasiya xətləri qovşağındakı geosiyasi mövqeyi, zəngin neft və qaz resursları dövlətlərarası ziddiyyətlərin kəskinləşməsinə, regiondakı sabitliyin pozulmasına və milli təhlükəsizlik üçün hərbi təhdidlərin yaranmasına səbəb ola bilər;

- Xəzər dənizinin Azərbaycan Respublikasına aid hissəsində karbohidrogen yataqlarının istisması və dünya bazarlarına çıxarılması, habelə Azərbaycan Respublikasının Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı üzrə beynəlxalq enerji və nəqliyyat-kommunikasiya layihələrində, beynəlxalq birliyin sülhün dəstəklənməsi üzrə əməliyyatlarında, habelə koalisiya üzrə tərəfdaşların beynəlxalq terrorçuluqla mübarizə üzrə əməliyyatlarında Azərbaycan Respublikasının fəal iştirakı onun təhlükəsizlik mühitinə ciddi təsir edən amilə çevrilmiş və ölkənin terrorçu təşkilatların hədəfində olma ehtimalını əhəmiyyətli dərəcədə artırmışdır [4].

Göründüyü kimi Hərbi doktrina hələ qəbul olunmamışdan neçə il əvvəl əsas ixrac neft-qaz kəmərlərinin qorunması ilə bağlı təhlükəsizlik məsələsi qarşıya çıxmışdır. Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri keçən üç dövlət öz seqmentlərində bu kəmərin mühafizəsi ilə əlaqədar üzərlərinə öhdəlik götürmüşlər.

Bununla bağlı "İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi haqqında" "Azərbaycan Respublikası Prezidentinin Ümummilli liderimiz Heydər Əliyevin hələ 2002-ci il 15 aprel tarixli Fərmanı ilə Azərbaycanda bu işə məsuliyyət daşıyan Komissiya yaradılmışdır. Fərmanının imzalanmasından sonra yaradılmış Komissiya qısa müddətdə tədbirlər planı hazırlamış və onun yerinə yetirilməsinə başlamışdır. Komissiyanın hazırladığı tədbirlər planı əlaqədar nazirlik və dövlət komitələri, BP və BTC şirkətləri ilə razılaşdırılmışdır və həyata keçirilmişdir. Bundan əlavə, əlaqədar dövlət strukturlarında bilavasitə kəmərin mühafizəsi üçün məsuliyyət daşıyan xüsusi qurumlar yaradılmışdır. Ərazisindən Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft kəmərləri keçən bölgələrdə daxili işlər və milli təhlükəsizlik nazirliklərinin yerli şöbələrinə boruların təhlükəsizliyinin təmin olunması ilə əlaqədar əlavə ştatlar verilmişdir.

İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsinin və onun 8 regional şöbəsinin yaradılması həmin tədbirlərdəndir. Prezidentin 31 may 2003-cü il tarixli Fərmanına əsasən, idarənin əsasnaməsi, strukturu və ştat cədvəli təsdiq edilmişdir. Səngəçal regional şöbəsi fəaliyyətə - Səngəçal terminalının perimetri boyunca müdafiə və mühafizə tədbirlərini həyata keçirməyə başlayır. Bu terminal dünyanın ən iri terminallarından biridir. Perimetr boyunca uzunluğu 7 kilometrdən artıqdır.

2004-cü ilin mayın 1-də Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsinin Səngəçal regional şöbəsinin fəaliyyətə başlamasına həsr olunmuş mərasim keçirilmişdir [26]. Daha sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları" haqqında qərar verilmişdir. Azərbaycan Respublikasının Prezidentinin 08 iyun 2004-cü il tarixili

fərmanı ilə "Fövqəladə vəziyyət haqqında qanun" qüvvəyə minmişdir. Azərbaycan Respublikasının Prezidentinin 2005 ci ilin 16 dekabr Fərmanı ilə Fövqəladə Hallar Nazirliyinin yaradılması, 2017-ci ilin fevralın 14-də qəbul edilmiş Hərbi vəziyyət haqqında 530 saylı Azərbaycan Respublikasının daha təkmilləşdirilmiş yeni qanunu, Hərbi vəziyyət haqqında 779 saylı 06 yanvar 1994-cü il qanununu əvəzləməsi, qəbul edilmiş digər normativ hüquqi aktlar Azərbaycan dövlətinin bu tədbirlərə nə qədər əhəmiyyət verməsinin göstəricisidir.

Əlavə olaraq Hərbi doktrinada öz əksini tapmış müddəalar sadalanan faktorların fonunda dövlət qarşısında Azərbaycanın hərbi strategiyasının qarşısında duran digər təhlükəsizlik məsələlərini də müəyyən edir. Bu baxımdan Hərbi Doktrinanın Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin hərbi-strateji əsasları əks olunan V bəndində qeyd olunan bəzi məqamlara nəzər yetirək:

- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, o cümlədən ölkə ərazisindən və qonşu dövlətlərdən keçən enerji, nəqliyyat infrastrukturuna və digər kommunikasiya qurğularına qarşı terror aktlarının həyata keçirilməsi ehtimalı artmışdır [13].

46. Hərbi-strateji amillər Azərbaycan Respublikasının müdafiə qabiliyyəti üçün mühüm meyardır. Hərbi-strateji qiymətləndirməyə əsasən Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin səmərəli təminatı üçün aşağıdakı qabiliyyətlər inkişaf etdiriləcəkdir:

- ərazinin müdafiəsi, o cümlədən dövlət sərhədlərinin və mühüm dövlət obyektləri və kommunikasiya qurğularının səmərəli mühafizəsi;

Azərbaycan Respublikası Cənubi Qafqazda yeganə dövlətidir ki, İranla, Rusiya ilə həmsərhəd olub, Xəzər dənizinə və Mərkəzi Asiya regionuna çıxışları var. Azərbaycandan ənənəvi və yeni kommunikasiya, nəqliyyat, enerji dəhlizləri keçir ki, onlar Avrasiya regionunda Şərqi və Qərbi, Şimalı və Cənubu bir-birilə bağlayır. Strateji cəhətdən mühüm enerji layihələrinin reallaşdırılması nəticəsində bu ölkə Avropanın enerji təhlükəsizliyi arxitekturasında əsaslı yer tutur. Xəzər regionu yaxın və uzaq qonşu ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında həlledici amilə çevrilmiş və Xəzərin beynəlxalq əhəmiyyəti çox artmışdır. Belə ki, bu gün də Xəzər hövzəsində geostrateji məqsəd güdən dünyanın böyük gücləri geoiqtisadi maraqlar uğrunda mübarizə aparırlar. Xəzərin neft-qaz ehtiyatlarının əhəmiyyəti ondadır ki, bu resurslar XXI əsrdə qlobal iqtisadiyyatın tələbatlarının öyrənilməsində mühüm rol oynayır və oynayacaqdır. Azərbaycan Respublikasının Hərbi Doktrinasının Azərbaycan Respublikasının müdafiə siyasəti adlanan IV bəndində: "təhlükəsizliyin bölünməzliyi prinsipini nəzərə alaraq, Azərbaycan Respublikasının yerləşdiyi regionun da daxil olduğu Avroatlantik məkanda təhlükəsizlik sisteminin yaradılması üzrə səylərin dəstəklənməsi, NATO ilə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın davam etdirilməsi" müddəası bu siyasətin həyata keçirilməsi məqsədilə öz əksini tapmışdır.

Bu baxımdan Azərbaycanda enerji infrastrukturu təkcə ölkənin özü üçün deyil, həm də Avropa Birliyi və NATO üçün eyni dərəcədə vacibdir [31]. 2020-ci il 12 iyuldan etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədlərinin artilleriyalardan atəşə tutulması qarşı tərəfin məkrli siyasətinin bariz nümunəsidir. Ordumuzun əks hücum tədbirləri nəticəsində düşmən tərəf xeyli sayda canlı qüvvə və hərbi texnika itirərək geri çəkilib. Lakin atəşkəsin qoşunların təmas xəttində deyil, iki ölkə sərhədində pozulması haqlı olaraq Azərbaycan ictimaiyyətində sual doğurmuşdur. Ehtimal olunan variantlardan biri odur ki, Avropa ilə Azərbaycanı birləşdirən iri kommunikasiya xətləri məhz bu bölgədən keçməsi ilə bağlıdır. Dövlət sərhədinin Tovuz istiqamətində gərginlik yaranacağı halda Rusiya bura yaxınlaşma şansı qazanacaq və eyni zamanda Avropa Birliyi və Türkiyə üçün təhlükəsizlik problemi yaradır [35].

Öz üstün geostrateji mövqelərindən səmərəli istifadə etməklə, "Şimal–Cənub", "Şərq-Qərb" nəqliyyat və beynəlxalq transmilli enerji lahiyələrinin həyata keçirilməsində ev sahib-

"Elektron Hökumət" portalı vətəndaşların müraciətlərinə daha operativ cavab verilməsini təmin etməklə bərabər, məmur-vətəndaş əlaqəsini bir növ aradan qaldırırdı ki, bu da bir sıra neqativ halların baş verməsi ehtimalını sıfıra endirirdi. Bu səbəbdən portalın və mövcud elektron idarəçilik infrastrukturunun təkmilləşdirilməsi daima diqqət mərkəzində olmuşdur. Elektron idarəçilik sahəsində aparılan işlərdən digəri isə, "Elektron Hökumətin İnkişafı Mərkəzi" nin yaradılması ilə bağlıdır. "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmışdır [13]. Mərkəz müasir informasiya texnologiyalarından istifadə etməklə, dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsini təmin edir. Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət

xidmətləri, e-viza verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir. "Elektron Hökumətin İnkişafı Mərkəzi" Elektron Hökumət Portalı, ASAN Viza, ASAN Ödəniş, ASAN Finans, ASAN Wifi, e-Agro və quruculuq işləri davam edən digər layihələrin fəaliyyətini təmin edir [18].

Elektron xidmətlərin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətinə uyğun olaraq Azərbaycanda elektron idarəçilik və rəqəmsallaşdırma üzrə beynəlxalq təcrübə öyrənilir, xarici ölkələrlə təcrübə mübadilələri aparılır. "Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən Azərbaycanda "mobil hökumət "sistemi formalaşdırılır. 2018-ci ildən etibarən Azərbaycan vətəndaşlarına verilmiş yeni nəsil şəxsiyyət vəsiqələri mobil hökumətin və mobil imzanın geniş tətbiqini zəruri hala gətirmişdir. Ölkəmizdə hər iki elektron hökumət komponentinin – mobil hökumət və mobil imzanın tətbiqinin Avstriya ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində hazırlanacaqdır [20]. Ölkədə elektron idarəçiliyin təkmilləşdirilməsi sahəsində görülən işlər nəticəsində Azərbaycan Respublikası 2018-ci ildə dünyanın 193 ölkəsi arasından elektron hökumətin inkişafına görə 70-ci yerdə qərarlaşmışdır, 2012-ci ildə isə Azərbaycan dünya ölkələri sırasında 96-cı yerdə olmuşdur [5].

Azərbaycan Respublikası dövlət idarəçiliyində operativliyin və səmərəliliyin artırılması məqsədilə informasiya sistemləri və ehtiyatlarından, onlar əsasında yaradılan elektron xidmətlərdən geniş istifadə edir. Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Artıq Dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, saxlanılması, aparılması və inteqrasiyasının effektiv təşkili yolu ilə dövlət idarəçiliyində xərclərin azaldılması və dövlət qurumları arasında koordinasiyanın yüksəldilməsi məqsədilə Prezident İlham Əliyev 2019-cu il iyunun 3-də "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamışdır. Bu Fərmanla "Hökumət buludu" (G-cloud) Konsepsiyası" təsdiq edilmişdir [19].

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi, funksiyalarının optimallaşdırılması istiqamətində ölkə başçısının fərman və sərəcamları xüsusi əhəmiyyət kəsb edir. Belə sərəncamlardan biri kimi Prezidentin 10 yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Sərəncamını göstərmək olar. Bu sənəd Azərbaycanın İnnovativ İnkişaf Strategiyasının hazırlanmasını təmin edir, həmçinin ölkədə innovativ inkişaf ilə bağlı proseslərin sürətləndirilməsinə və optimallaşdırılmasına yönəlib [11]. Artıq Azərbaycan ərazisində innovasiyaların həyata keçirilməsi üçün bir çox platformalar yaradılıb, bunların sırasında Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkını xüsusilə qeyd etmək olar. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Sərəncam 8 noyabr 2016-cı ildə imzalanmışdır. Agentliyin məqsədi dinamik bir innovasiya sistemi yaratmaq, elmi-tədqiqat işlərinin innovativ məhsullara çevrilməsinə, onlarn rəqabət üstünlüyünü daha da artıraraq dünya bazarına çıxmasına şərait yaratmaqdır. Bu baxımdan 6 noyabr 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "İnnovasiyalar Agentliyinin" yaradılması haqqında Sərəncamın imzalanması da əhəmiyyətli olmuşdur. Sərəncamda Agentliyin publik hüquqi şəxs olduğu müəyyənləşdirilib. İnnovasiyalar Agentliyi yerli sahibkarlara müasir texnologiya və texnoloji avadanlıqların əldə olunmasında yardım göstərən, onların transferini təşkil edən, innovasiyaya əsaslanan elmi tədqiqatları dəstəkləyən, innovativ layihələri, o cümlədən startapları stimullaşdıran, onları qrant, güzəştli kredit və vençur vasitəsilə maliyyələşdirən agentlikdir. İnnovasiyalar Agentliyinin ilkin nizamnamə fondu 500 min manatdır və bu məbləğ dövlət büdcəsindən maliyyələşir [17].

Aparılan islahatların məntiqi nəticəsidir ki, "2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq 4,9 faizə çatıb. Məhz bunun bariz nümunəsidir ki, ölkəmiz iki dəfə "Doing Business 2019" və "Doing Business 2020" hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb. Davos İqtisadi Forumunun açıqladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın mövqeyi 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə yüksəlmişdir. 2019-cu ildə "Əcnəbi işçilərin işə qəbulunun asanlığı" üzrə 3-cü yerdə, "Hökumətin dəyişməyə cavabdehliyi" üzrə 5-ci yerdə, "Biznesə başlama üçün tələb olunan günlərin sayı" üzrə 8-ci yerdə, "Hökumətin uzunmüddətli strategiyası" üzrə isə 10-cu yerdə qərarlaşıb"[16].

"Doing Business 2020" hesabatı üzrə Azərbaycan dünyada 191 ölkə arasında 34-cü yerdə qərarlaşmaqla, "Kreditin əlçatanlığı" üzrə 1-ci yeri, "Biznesə başlama" üzrə 9-cu yeri, "Müqavilələrin icrası" üzrə isə 28-ci yeri tutub"[16].

Qeyd etmək lazımdr ki, Dünya İqtisadi Forumu Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlverişli məkan olmaqla yanaşı, bu Forum dünyada baş verən iqtisadi proseslər haqqında ətraflı məlumat əldə etməyə imkan verir. Bu da islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə şərait yaradır. Azərbaycan dördüncü sənaye inqilabı istiqamətində qətiyyətli addımlar atır, məhz bunun nəticəsidir ki, Azərbaycan hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlığın əsası qoyulmuşdur. 2019-cu ildə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında Əməkdaşlıq Razılaşması imzalanıb. Belə ki, bu Razılaşma dünyada baş verən müsbət trendlərin və qabaqcıl təcrübənin Azərbaycanın sosial-iqtisadi həyatına transformasiyasına imkan yaradacaq. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Neft və qaz gələcək üçün deyil, çünki bu resurslar bir gün tükənə bilər. Gələcək innovasiya, səmərəlilik, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlığa dövlət dəstəyidir" [9].

Beləliklə, aparılan tədqiqatlarlar göstərdi ki, Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi və səmərəliliyin artırılması istiqamətində innovativ inkişafın əsas hədəfləri kimi aşağıdakılar çıxış edir:

- ictimai istehsalın texnoloji inkişaf səviyyəsinin səmərəliliyinin, yüksək texnoloji məhsulların rəqabət qabiliyyətinin artırılması;
- əhalinin həyat səviyyəsini yüksəltmək və iqtisadi təhlükəsizliyi təmin etmək üçün innovativ fəaliyyətin reallaşdırılması;
- innovasiya sahəsində rəqabət mexanizminin səmərəli fəaliyyət göstərməsi üçün dövlət tərəfindən tənzimlənməsinin təmin edilməsi;
-bazar münasibətlərinin inkişafı və innovasiya prosesində qeyri-sağlam rəqabətin aradan qaldırılması üçün şəraitin yaradılması;
- innovativ fəaliyyətin həyata keçirilməsində əlverişli investisiya mühitinin təmin edilməsi;
- innovativ fəaliyyətin həyata keçirilməsi nəticəsində dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyin təmin edilməsi.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Fərmanı, 05 fevral 2013-cü il keçid : https://president.az/articles/7211
2. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəsmi internet səhifəsi keçid: https://president.az/azerbaijan/contract
3. Azərbaycan Respublikası Prezidentinin İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib //: https://president.az/articles/26709
4. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı dövlət siyasətidir// SƏS qəzəti 2017 keçid: http://sesqazeti.az/news/analytics/548177.html
5. Birləşmiş Millətlər Təşkilatı Elektron Hökumət haqqında Məlumat Bazası//: https://publicadministration.un.org/egovkb/en-us/Data/Country-Information/id/11-Azerbaijan/dataYear/2018
6. Ələkbərov U. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı №1(61). Bakı, Dövlət İdarəçilik Akademiyası, 2018, səh. 133-144
7. Musayev M. Özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb məqaləsi, AzərTac,Bak, 2019. keçid: http://ask.org.az/2019/04/19/m-mm-d-musayev-oz-l-sektorun-inkisafinda-keyfiyy-tc-yeni-m-rh-l-baslanib/
8. Coşkun Can Aktan " Sinerjik Yönetim: Organizasyonlarda Sinerji Etkisi" , Organizasyon ve Yönetim Bilimleri dergisi . İzmir 2012. 260 s.
9. Выступление Президента Ильхама Алиева на форуме в Давосе.2018//: http://www.bakuinform.az/novosti/3255-ilham-aliev-objavil-a-mirovye-analitiki-za-krepili-posle-davosa
10. Индекс ООН: Азербайджан вошел в группу стран с высоким уровнем развития//: https://1news.az/news/indeks-oon-azerbaydzhan-voshel-v-gruppu-stran-s-vysokim-urovnem-razvitiya-foto-video
11. Распоряжение Президента Азербайджанской Республики об обеспечении координации в области инновационного развития в Азербайджанской Республике https://ru.president.az/articles/31491
12. Information Security Indicators //www.etsi.org/technologies-clusters/indicators
13. http://digital.gov.az/az/page/haqqimizda
14. http://files.preslib.az/projects/azereco/az/eco_m4_1.pdf
15. http://www.azerbaijan.az/_Economy/_Oil-Strategy/oilStrategy_04_a.html#top
16. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Azerbaycanin_vahid_ve_dayaniqli_dunyada_rolu-1390632
17. https://mincom.gov.az/az/view/organization/16/
18. https://president.az/articles/27423
19. https://president.az/articles/33423
20. https://www.e-gov.az/ru/news/read/571


***Açar sözlər:*** *dövlət idarəçiliyi,innovativ inkişaf, innovativ idarəetmə texnologiyaları, "Elektron Hökumət"*

**Farida Alirzaeva**
*PhD student at the Department of Political Science and Political Administration*
*Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*

## THE MAIN GOALS OF INNOVATIVE DEVELOPMENT IN THE STATE ADMINISTRATION OF THE REPUBLIC OF AZERBAIJAN AND MEANS OF THEIR IMPLEMENTATION

### SUMMARY

The paper deals with the issue of innovative management technologies that are used in ensuring the innovative development of public administration in the Republic of Azerbaijan. The increasing international prestige of Azerbaijan, as well as the social and economic progress achieved as a result of the application of innovative management technology, are also analyzed. As a result of innovative development of public administration, e-government and mobile government, as its main form, have been improved. The basic principles and goals of innovative management are also reviewed.

***Keywords:*** *public administration, innovation development, technology innovation management, "electronic government"*

**Фарида Алирзаева**
*Докторант кафедры Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ОСНОВНЫЕ ЦЕЛИ ИННОВАЦИОННОГО РАЗВИТИЯ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И СРЕДСТВА ИХ РЕАЛИЗАЦИИ

### РЕЗЮМЕ

В статье, посвященной изучению целей и средств инновационного государственного управления, рассматриваются вопросы технологии инновационного управления, обеспечения инновационного развития в государственном управлении Азербайджанской Республики. Анализируются повышение международного авторитета Азербайджана, занявшего достойное место в системе современных международных отношений, социально-экономический прогресс, достигнутый в результате применения технологии инновационного управления. Как результат инновационного развития государственного управления было усовершенствовано электронное правительство и мобильное правительство, как его основная форма. Рассматриваются также основные принципы, концептуальные основы инновационного управления в Азербайджанской Республике, конкретно выделяются определенные в данной сфере цели, анализируются средства их осуществления в современных условиях успешного инновационного развития страны.

***Ключевые слова:*** *государственное управление, инновационное развитие, технологии инновационного управления, «электронное правительство»*

G Ə N C   T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G   R E S E A R C H E R S

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R   T A R İ X İ
H I S T O R Y   O F   I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT 327(091)

**VÜSALƏ ŞƏRİFOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının doktorantı**
*e-mail: vusala.asif@gmail.com*

# MƏDƏNİ ƏLAQƏLƏRİN QURULMASI VƏ İNKİŞAFINDA AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIĞI

Beynəlxalq təşkilatların rolunun və nüfuzunun artması İkinci Dünya müharibəsindən sonrakı beynəlxalq münasibətlər sistemində özünü açıq şəkildə göstərməyə başladı. Onları bəzən "Görünməyən kontinent", və ya "İkinci dünya" da adlandırırlar. 1970-ci illərin əvvəllərində dünyada 220 təşkilat var idisə, həmin ilin ortalarında bu rəqəm 260-a, hazırda isə 400-ə çatmışdır. Dünya arenasında əməkdaşlığını genişləndirən Azərbaycan bir sıra beynəlxalq təşkilatların üzvüdür və istər iqtisadi-siyasi, istərsə də mədəni əlaqələrin qurulmasında bu təşkilatlarla işbirliyinə böyük önəm verir. Azərbaycanda beynəlxalq mədəni əlaqələrin inkişaf tarixində çoxtərəfli əməkdaşlığa yalnız müstəqillik illərində nail olunmuşdur. Müstəqillik bərpa olunduqdan sonra Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatın üzvü olmuşdur ki, onların da bir çoxu məhz mədəni əlaqələrin qurulması sayəsində baş vermişdir.

Azərbaycanın mədəniyyət siyasətinin qiymətləndirilməsinə Avropa Şurasına üzv olan kimi (2001-ci il, 17 yanvar), o vaxtkı Mədəniyyət Nazirliyinin sorğusundan sonra başlanılmışdır. Bu proses Avropa Şurasının Mədəniyyət Siyasəti və Fəaliyyəti Departamentinin təşəbbüsü ilə üç Qafqaz ölkəsi-Azərbaycan, Ermənistan və Gürcüstan üçün hazırlanan STEYC layihəsinin tərkib hissəsidir. Avropa Şurası ilə mədəni əlaqələr beynəlxalq əlaqələrin ümumi həcmində əsas yerlərdən birini tutur. Azərbaycanın bu təşkilata 2001-ci ildən tamhüquqlu üzvlüyünə baxmayaraq, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi Avropa Şurasının Mədəniyyət Komitəsi ilə fəal əməkdaşlığa hələ 1999-cu ildən, ölkə mədəniyyət sahəsində Avropa Konvensiyasını imzaladıqdan (1997-ci il) dərhal sonra başlamışdır. 2000-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi "Avropada mədəniyyət siyasəti: əsas fakt və tendensiyaların kompendiumu" layihəsində iştirak etmişdir. 2001-ci ildən isə ölkəmiz Avropa Şurasının Mədəniyyət Siyasəti departamenti tərəfindən irəli sürülən regional "STEYC" layihəsinin iştirakçısı olmuşdur. Üç ilə hesablanan bu layihənin əsas məqsədi Cənubi Qafqaz ölkələrində yeni mədəniyyət siyasətini dəstəkləmək idi. Layihənin əsas mərhələlərindən biri yerli ekspertlərin öz avropalı həmkarları ilə birlikdə Azərbaycan Respublikasının "Mədəniyyət siyasəti haqqında milli məruzəni" yazıb hazırlamaq olmuşdur. Layihənin son mərhələsi kimi Mədəniyyət və Turizm Nazirliyi ilə Avropa Şurası tərəfindən 23-24 iyun 2003-cü il tarixində Bakıda Milli

Debatlar keçirilmişdir. İki gün davam edən tədbirin sonunda Azərbaycanın mədəniyyət siyasəti üzrə Bəyannamə qəbul olunmuşdur. Eləcə də Avropa Şurasının STEYC layihəsi çərçivəsində bir sıra digər tədbirlər də həyata keçirilmişdir ki, bunlardan biri də "Şəhərlər üçün mədəniyyət siyasəti" proqramı olmuşdur. 16-22 iyun 2003-cü il tarixində Bakıda həyata keçirilən bu layihələrdə İsveçrə və Türkiyədən olan mütəxəssislər, həmçinin Avropa Şurasının Mədəniyyət siyasəti və fəaliyyəti departamentinin nümayəndələri iştirak etmişlər. 2004-cü il sentyabrın 18-dən 20-dək Türkiyənin Antalya şəhərində Türkiyə hakimiyyət orqanlarının dəvətilə STEYC Layihəsinin III Nazirlər Kollokviumu keçirilmişdir. STEYC Layihəsinin üçillik nəticəsi kimi "Azərbaycanda mədəniyyət siyasəti" adlı kitab yazılmış, Azərbaycan, ingilis və rus dillərində çapdan çıxmışdır. Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət siyasəti şöbəsi Avropa Şurası və Almaniyanın Bonn şəhərində yerləşən "ERİKarts" Elmi-tədqiqat İnstitutu tərəfindən həyata keçirilən "Avropada mədəniyyət siyasəti: əsas təmayüllər və faktların Kompendiumu" birgə beynəlxalq layihəsində iştirakını davam etdirmişdir. Azərbaycan Respublikasına aid olan son faktlar və sənədlər təhlil edilib işlənilmiş və Avropa Şurasına təqdim olunmuşdur (1, s.195).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 noyabr 2008-ci il tarixində "Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransının Bakı şəhərində keçirilməsi haqqında" sərəncamına uyğun olaraq, 2008-ci il dekabrın 2-3-də paytaxt Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Prezident İlham Əliyevin çıxışı zamanı irəli sürdüyü təklif və tövsiyələr tədbirin beynəlxalq əhəmiyyətini daha da artırmışdır. Konfransda Prezident İlham Əliyev tərəfindən sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuş və bu, təşəbbüsün qlobal bir prosesə çevrilməsinə səbəb olmuşdur. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdiyi bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyulmuşdur. Konfransın keçirilməsində əsas məqsəd Azərbaycanın həm Avropa Şurasına, həm də İSESKO-ya üzv olan dövlət kimi imkanlarından bəhrələnib Avropa ilə İslam dünyası arasında mədəniyyət körpüsü rolunu oynamaq və fərqli mədəniyyətlər arasında dialoqun inkişafına xidmət edən "Bakı prosesi"nin əsasını qoymaq, bu fəaliyyətlərin mərkəzində duran Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirmək olmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Avropa Şurasının ən uğurlu layihələrindən hesab olunan, o cümlədən YUNESKO-nun müvafiq konvensiyalarının monitorinqini aparan "Avropada mədəniyyət siyasəti və təmayülləri Kompendiumu" adlı beynəlxalq layihənin həyata keçirilməsində də fəal iştirak edir. Avropanın 42 ölkəsinin iştirak etdiyi Kompendium layihəsi çərçivəsində milli məruzələr bu istiqamətlər üzrə hazırlanır: Tarixi perspektivlər, mədəniyyət siyasəti və onun alətləri; Mədəniyyət siyasətinin ümumi məqsəd və prinsipləri; Mədəniyyət siyasətinin cari məsələləri, inkişaf və müzakirələr və s. Bu beynəlxalq layihə 1998-ci ildən keçirilir. Hətta 2008-ci il 4-5 dekabr tarixlərində Bakı şəhərində "Avropada Mədəniyyət Siyasəti və Təmayülləri Kompendiumu" layihəsinin 10 illik yubileyinə həsr olunmuş Avropa Şurasına üzv dövlətlərin milli müəlliflərinin iclası təşkil edilmişdir. Beynəlxalq layihənin nəticələri "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nda nəzərə alınmış və nazirlik tərəfindən həyata keçirilən innovativ proqram və layihələrin hazırlanmasında və həyata keçirilməsində geniş istifadə olunur. Azərbaycan Respublikası bu gün də dünya ölkələri ilə

mədəni əlaqələrin tənzimlənməsində Avropa Şurasının tələb və prinsiplərinə üstünlük verir.

Azərbaycan mədəni əlaqələrin qurulmasında BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı – YUNESKO ilə yaxından əməkdaşlıq edir. Azərbaycan Respublikası 1992-ci il, iyulun 3-dən bu təşkilatın müstəqil üzvünə çevrilmişdir. Həmin dövrdən etibarən Azərbaycan YUNESKO-nun müxtəlif komitələri ilə əməkdaşlıq sayəsində dünya ölkələri ilə mədəni əlaqələr qurur, təcrübə mübadiləsi həyata keçirir. Xalqların elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən YUNESKO ilə Azərbaycan əlaqələri öz tarixinə görə ölkənin BMT-yə qəbul olunduğu dövrdən əvvələ təsadüf edir. Azərbaycan-YUNESKO əlaqələrinin genişlənməsi 1993-cü ilin II yarısından sonra başlanmışdır. Belə ki, bu əlaqələrin inkişafında ən mühüm addım Azərbaycan Prezidenti Heydər Əliyevin 1993-cü ilin dekabr ayında Fransa Respublikasına rəsmi səfəri çərçivəsində YUNESKO-nun baş direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır. Görüş zamanı ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələləri və inkişaf perspektivləri müzakirə olunmuşdur. YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması istiqamətində mühüm işlər görülmüş, o cümlədən 1994-cü il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bununla əlaqədar sərəncam imzalamışdır. 1994-cü il noyabr ayının 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və YUNESKO-nun baş direktoru Federiko Mayor tərəfindən Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Memorandumda Azərbaycana təhsil, mədəniyyət və digər sahələrdə yardımların göstərilməsi nəzərdə tutulurdu. Burada Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdır. 1994-cü ilin iyun ayında Budapeştdə YUNESKO-nun Avropa Regionu Komitəsinin VII sessiyasında Azərbaycan bu komitəyə üzv seçilmişdir. Heydər Əliyevin qurumun baş direktoru Federiko Mayorla keçirdiyi görüşlərdə Azərbaycanın elm, təhsil və mədəniyyət sahəsindəki məsələlər müzakirə edilmişdir. YUNESKO-nun baş qərargahında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş mərasimin keçirilməsi, həmin tədbirdə Federiko Mayorun şəxsən iştirakı, nəhayət, onun 1996-cı ilin noyabrında Bakıya gəlişi və yubiley mərasimlərində iştirakı əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanla YUNESKO arasında əməkdaşlığın yüksək səviyyədə qurulmasını göstərən amillərdəndir. Səfər zamanı mədəniyyət sahəsində ikitərəfli əməkdaşlıq haqqında saziş imzalanmışdır (9).

"Mədəni sərvətlərin qanunsuz olaraq ölkədən aparılması, gətirilməsi və onların barəsində mülkiyyət hüququnun başqasına verilməsini qadağan etmək yolları" haqqında beynəlxalq konvensiyanın müddəalarını əsas götürməklə, Azərbaycanın işğal olunmuş ərazilərindəki maddi-mədəniyyət abidələrinin qaytarılması, mühafizəsi və bərpası istiqamətində YUNESKO ilə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-YUNESKO əməkdaşlığına dair 1996-cı ilin noyabrında imzalanmış saziş təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələsinin başlanğıcı oldu. Təsadüfi deyil ki, məhz bundan sonra Azərbaycanda ali təhsilin TASİS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başlamış, 2000-ci il isə YUNESKO tərəfindən "Böyük İpək yolu" - TRASEKA ili" elan olunmuşdur.

Azərbaycan, YUNESKO ilə əlaqələri möhkəmləndirmək və ölkədə elm, təhsil və mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə YUNESKO çərçivəsində qəbul edilmiş bir sıra

konvensiyalara qoşulmuşdur. Bu konvensiyalardan – “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 14 may 1954-cü il tarixli Konvensiyanı, “Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında” 16 noyabr 1972-ci il tarixli Konvensiyanı, “Asiya və Sakit Okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında” 16 dekabr 1983-cü il tarixli Regional Konvensiyanı, “Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 14 noyabr 1970-ci il tarixli Konvensiyanı qeyd etmək olar.

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində qurduğu geniş əməkdaşlıq əlaqələri milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaratmışdır. Bundan sonra respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır. 2005-ci il sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, “YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalamışdır. Sərəncama əsasən, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilmişdir. Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. Azərbaycan – YUNESKO əməkdaşlığı ilə bağlı gündəlik operativ iş Bakıda Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın Daimi Katibliyi və Parisdə Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyi tərəfindən həyata keçirilir.

Azərbaycan-YUNESKO arasında əlaqələrin yeni mərhələsində tərəflər arasında imzalanan rəsmi sənədlər xüsusi rol oynayır. 18 iyun 2007-ci il tarixində YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında Azərbaycanda peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair saziş, 19 mart 2009-cu ildə isə Heydər Əliyev Fondu və YUNESKO arasında qeyri-maddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq məqsədilə əməkdaşlıq sazişi imzalanmışdır. Bu sıradan 2013-cü il iyulun 18-də Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəz Qarayev və YUNESKO-nun baş direktoru İrina Bokova tərəfindən “Azərbaycan hökuməti ilə YUNESKO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi“nin imzalanması ayrıca vurğulanmalıdır. Sazişdə Azərbaycanın təşkilat üçün 5 milyon ABŞ dolları məbləğində maliyyə töhfəsi ayırması qeyd olunurdu. Bu vəsait qeyri-maddi mədəni irs, qızların təhsili, elm və innovasiya texnologiyalarının inkişafı sahəsində YUNESKO-nun işini möhkəmləndirməyə və azərbaycanlı mütəxəssislərin təşkilatda daimi işlə təmin olunmasına sərf olunmuşdur. Daha mühüm hadisələrdən biri bu saziş əsasında “Etimad Fondu“nun yaradılması olmuşdur.

Azərbaycanın mədəni və təbii irsinin qorunması məsələsi YUNESKO ilə əməkdaşlığın əsas istiqamətlərindən biridir. Bu baxımdan Bakı şəhərinin tarixi mərkəzi olan “İçərişəhər” memarlıq kompleksi 2000-ci ilin dekabr ayında Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Lakin Azərbaycanda baş vermiş zəlzələ nəticəsində İçərişəhər ərazisində yerləşən memarlıq abidələrinə dəymiş zərər və bununla bağlı bir sıra problemlərə görə, 2003-cü il iyulun 4-də Ümumdünya İrs Komitəsinin 27-ci sessiyasında İçərişəhər kompleksi YUNESKO-nun Təhlükədə olan Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq, İçərişəhərə dövlət qayğısı artırılmışdır. YUNESKO-nun Ümumdünya İrs Komitəsinin ekspertlərinin hesabatlarında Azərbaycan hökuməti tərəfindən İçərişəhər Qoruğunun mühafizəsi istiqamətində görülən işlər təqdir edilmişdir. Nəticədə 2009-cu il iyun ayının

22-dən 30-dək İspaniyanın Sevilya şəhərində keçirilən Ümumdünya Mədəni İrs Komitəsinin 33-cü sessiyasının qərarına əsasən, İçərişəhər kompleksi YUNESKO-nun təhlükə altında olan abidələr siyahısından çıxarılmışdır. 2003-cü il noyabrın 7-də Azərbaycan muğamı YUNESKO-da "Bəşəriyyətin Qeyri-maddi İrsinin Şah əsəri" elan olunmuşdur. Orta əsrlərdə yaşamış alimlərin Azərbaycanda saxlanılan əlyazmalarından xüsusi əhəmiyyət daşıyan üç əlyazma Mehriban Əliyevanın səyilə 2005-ci ildə YUNESKO tərəfindən Dünya Yaddaşı Proqramının beynəlxalq registrinə daxil edilmişdir. YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 2007-ci ildə Yeni Zelandiyada keçirilmiş 31-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu Ümumdünya İrs Siyahısına daxil edilmişdir. YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2009-cu il sentyabrın 28-dən oktyabrın 2-dək Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilən 4-cü sessiyasında komitənin yekun qərarına əsasən, Azərbaycan aşıq sənəti və beynəlmiləl qeyri-maddi mədəni irs nümunəsi kimi Novruz Bayramı YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir ki, bu da Azərbaycan mədəniyyəti üçün mühüm hadisə hesab edilməlidir. Azərbaycanın qədim və zəngin mədəniyyəti isə milli çərçivədən beynəlxalq səviyyəyə qalxmış, ümumdünya mədəniyyətinin bir parçası olmuşdur. (9) Bu istiqamətdə atılan addımlarla bağlı siyahını davam etdirə bilərik: Azərbaycanın muğam ifaçılıq sənəti (2008), Azərbaycan xalçası (2010), tar ifaçılıq sənəti (2012), çövkən-Qarabağ atüstü oyun ənənəsi (2013), Azərbaycan kəlağayısı (2014), Lahıc misgərlik sənəti (2015), lavaş çörəkbişirmə ənənəsi (2016-cı ildə İran, Qazaxıstan, Qırğızıstan və Türkiyə ilə birgə), dolma milli yeməyi (2017), kamança simli musiqi alətinin hazırlanması və ifaçılığı sənəti (2017) YUNESKO-nun Azərbaycanın milli dəyərləri kimi tanıdığı nümunələrdir və təşkilatın Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınmışdır.

Azərbaycan -YUNESKO münasibətlərinin inkişafında və onun genişlənməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rolu böyükdür. 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə görə YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində "Xoşməramlı səfiri" adına layiq görülmüşdür. Ötən illər ərzində YUNESKO çərçivəsində Nəsrəddin Tusinin anadan olmasının 800 illik yubileyi (2001), Azərbaycan alimi, şərqşünas Mirzə Kazımbəyin 200 illik yubileyi (2002), akademik Yusif Məmmədəliyevin (2005, 13 sentyabr), görkəmli yazıçı Mir Cəlal Paşayevin (2008, 10 noyabr) və digər görkəmli şəxsiyyətlərin yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. Ümumiyyətlə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyilə Azərbaycan-YUNESKO münasibətləri ən yüksək inkişaf səviyyəsinə qalxmışdır. Hələ 2005-ci ilin oktyabrında YUNESKO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində Parisdə keçirilmiş "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovşağında" adlı tədbirdə çıxış edən Mehriban Əliyeva, Şərqlə Qərbin qovuşduğu bir məkan olaraq Azərbaycanın qlobal mədəni dialoqa öz töhfəsini verməyə hazır olduğunu vurğulamış, sonrakı illərdə bu yöndə əməli addımlar, konkret təşəbbüslərin irəli sürülməsi və Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bunu bir daha təsdiqləmişdir.

2007-ci il fevralın 19-da YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd olunması proqramı çərçivəsində Parisdə, YUNESKO-nun Baş qərargahında xalça ustası, xalq rəssamı Lətif Kərimovun 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan xalça sənəti" mövzusunda IV Beynəlxalq simpozium keçirilmiş, "Azərbaycan xalçası" sərgisi təşkil edilmişdir. 2009-cu il noyabrın 17-də isə YUNESKO-da "Azərbaycan günü" çərçivəsində YUNESKO-nun mənzil qərargahında Azərbaycan Respublikasının YUNESKO

yanında Daimi Nümayəndəliyi və Azərbaycan Respublikasının digər hökumət orqanları tərəfindən bir sıra tədbirlər təşkil edilmişdir. Belə ki, YUNESKO-nun Baş qərargahında "Azərbaycan qadını: dünən, bu gün və sabah" mövzusunda konfrans, Akademik Musa Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-simpozium və məşhur Azərbaycan rəssamı Səttar Bəhlulzadənin 100 illiyinə həsr edilmiş sərginin açılış mərasimi keçirilmişdir. Bütün bu fəaliyyətin nəticəsi olaraq, 2010-cu il iyulun 30-da YUNESKO-nun Baş direktoru İrina Bokova tərəfindən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşkilatın "Qızıl Motsart" medalı təqdim olunmuşdur.

Azərbaycan-YUNESKO əlaqələri ildən-ilə daha da genişlənərək ən yüksək səviyyəyə qalxmışdır. Bu əməkdaşlığın nəticəsi kimi 2011-ci ilin oktyabr ayında YUNESKO-nun Parisdəki mənzil-qərargahında, təşkilatın 36-cı sessiyasında Azərbaycan YUNESKO Baş Konfransının vitse-prezidenti seçilmişdir. Azərbaycanın çoxtərəfli beynəlxalq mədəni əlaqələrinin inkişafına nəzər saldıqda aydın olur ki, müasir geosiyasi şəraitdə nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən YUNESKO tərəfindən dəstəklənən tədbirlər Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da möhkəmləndirmiş, tolerantlıq və dialoq məkanı kimi indiyədək oynadığı tarixi missiyaya təkan vermiş və nəticə olaraq mədəniyyətlərarası dialoq üzrə qlobal platformanın əsası qoyulmuşdur.

2011-ci ildə YUNESKO-nun xarici əlaqələr sektorunun nümayəndələri ilə keçirilmiş görüşlər nəticəsində YUNESKO-nun 2012-2013-cü illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileylərinin qeyd edilməsi siyahısına Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının 100 illiyi, Məhsəti Gəncəvinin 900 illiyi və Seyid Yəhya Bakuvinin vəfatının 550 illiyi ilə bağlı yubileylər daxil edilmişdir. 2013-cü il oktyabrın 22-də YUNESKO-nun Baş qərargahında, Heydər Əliyev Fondunun təşəbbüsü və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr edilmiş Beynəlxalq simpozium keçirilmişdir. 2014-cü ildə orta əsrlərin tanınmış alimi və mütəfəkkiri Əhməd Əl-Bərdəçinin vəfatının 1100 illik, yazıçı və dramaturq İlyas Əfəndiyevin 100 illik yubileyi, İran və Türkiyə ilə birgə Əbdülqadir Marağayinin "Ma-qasid əl-Əlhan" əsərinin 600 illik yubileyi, 2017-ci il mayın 18-də isə Azərbaycanın YUNESKO-ya üzv olmasının 25 illik yubileyinin qeyd edilməsi çərçivəsində böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü YUNESKO səviyyəsində qeyd edilmişdir (16).

2018-ci ildə "Bakı prosesi"nin 10 illiyi ilə bağlı YUNESKO ilə birgə tədbirlər təşkil edilmişdir. Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illik yubileyi YUNESKO-nun baş qərargahında və Almaniyada qeyd olunmuşdur. İtaliyada, Türkiyədə və Almaniyada Azərbaycan muğamının YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə silsilə tədbirlər keçirilmişdir. 2018-ci ilin 26 noyabr – 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Elə həmin sessiyada qəbul edilmiş qərarla Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə səyləri sayəsində "Dədə Qorqud/ Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" türk mədəni abidəsi kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir (17).

2019-cu ilin iyununda YUNESKO-nun baş qərargahında Bakı Dövlət Universitetinin 100 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Tədbirdə BDU-nun 100 illik tarixini dolğun əks etdirən video çarx göstərilmiş, YUNESKO binasının foyesində BDU-nun 100 illik fəaliyyətini əks etdirən tarixi və müasir şəkillərdən ibarət sərgi nümayiş etdirilmiş, sənət adamlarının çıxışı böyük maraqla qarşılanmışdır. Elə həmin ay paytaxt Bakı mötəbər bir tədbirə ev sahibliyi etmişdir.

2019-cu ilin iyununda Bakıda YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası öz işinə başlamışdır. 10 gün davam edən tədbirlərdə Azərbaycanın mədəni zənginliyini nümayiş etdirən sərgi, həmçinin müxtəlif mövzularda təqdimatlar və mədəni proqramlar nümayiş olunmuşdur. 2019-cu il oktyabrın 16-da isə YUNESKO-nun Parisdə yerləşən baş qərargahında Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir. Ötən ilin sonlarına doğru yaddaqalan daha bir mədəniyyət hadisəsi Bakının YUNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"-nə daxil edilməsi olmuşdur. Mədəniyyət və Xarici İşlər nazirliklərinin və Azərbaycan Respublikasının YUNESKO yanındakı Daimi Nümayəndəliyinin səyləri nəticəsində Bakı şəhəri şəbəkənin "dizayn" tematikası üzrə siyahıya salınmışdır. YUNESKO-nun yaradıcı şəhərləri, mədəniyyəti inkişaf strategiyalarının əsas qayəsi kimi götürərək ən yaxşı təcrübələrini bölüşürlər. 2004-cü ildən şəbəkə üzvlərinin yaradıcı potensialı 7 tematika üzrə müəyyən olunur: incəsənət və sənətkarlıq, xalq sənəti, dizayn, kinematoqrafiya, qastronomiya, ədəbiyyat, media və musiqi. Hazırda şəbəkəyə 246 şəhər daxildir. Qeyd edək ki, Şəki şəhəri "sənət və sənətkarlıq" tematikası üzrə 2017-ci ildən şəbəkənin üzvüdür.

YUNESKO çoxtərəfli beynəlxalq təşkilat olduğu üçün onun vasitəsilə müxtəlif ölkələrin qarşılıqlı əməkdaşlığına şərait yaranmışdır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası təhsil, elm və mədəniyyət sahələrində YUNESKO vasitəsilə müxtəlif ölkələrlə və eləcə də təşkilatın özü ilə geniş əlaqələr qurur və əməkdaşlığını genişləndirir.

Azərbaycanın çoxtərəfli mədəni əlaqələrində İƏT-ə daxil olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təkilatı – İSESKO ilə əməkdaşlıq xüsusi yer tutur. Azərbaycan Respublikası 1991-ci ildən bu təşkilata üzv olsa da, 2003-cü ilədək əməkdaşlığın səviyyəsi o qədər də yüksək olmamışdır. Geniş əməkdaşlıq əsasən, 2003-cü ildə İSESKO-nun Tehranda regional ofisi açıldıqdan sonra başlanmışdır. 1997-ci il dekabr ayının əvvəllərində Tehranda keçirilən İKT-nin VIII zirvə toplantısında "İslam tarixi, incəsənəti və mədəniyyəti araşdırmaları mərkəzinə dair" (IRCICA) qətnamə qəbul olunmuşdur. Qətnamənin 7-ci maddəsinə əsasən, mərkəz 1998-ci ilin payızında Bakı şəhərində, Prezident Heydər Əliyevin himayəsi altında, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Elmlər Akademiyası ilə birlikdə "Qafqazda islam sivilizasiyasına dair" beynəlxalq simpoziumun geniş tərkibdə keçirilməsinə nail olmuşdur. İKT-nin xəttilə keçirilən bu mötəbər tədbirdə Qafqaz sivilizasiyasının formalaşmasında islam amilinin rolu, müsəlman Qafqaz dövlətlərinin elmi-mədəni həyatında islam mədəniyyəti və mənəviyyatının yüksək mövqeyi xüsusilə vurğulanmışdır.

İSESKO ilə əlaqələrin əsas istiqamətlərindən biri həmin təşkilat tərəfindən təşkil edilən beynəlxalq simpozium, konfrans və seminarlarda iştirakdır. 2004-cü ilin noyabrında İSESKO-nun Tehrandakı Regional ofisi tərəfindən Bakı şəhərində "Qloballaşma və onun müsəlman ölkələrində iqtisadi və mədəni sahələrə təsiri" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. İSESKO-nun keçmiş baş direktoru Ə.O.Əl-Tuveycri ölkəmizlə əməkdaşlığın səviyyəsindən razılığını və bu əməkdaşlığın genişləndirilməsinə marağını dəfələrlə vurğulamış, 2006-cı ildən Azərbaycanda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans (1-2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, YUNESKO və İSESKO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum (10-11 iyun 2008-ci il), İslam ölkələri Elm, təhsil nazirlərinin VI Konfransı (6-7 oktyabr 2008-ci il), "Bakı - İslam mədəniyyətinin paytaxtı- 2009" açılış mərasimi (18 fevral 2009-cu il), İslam ölkələri Mədəniyyət nazirlərinin VI Konfransı (13-15 oktyabr 2009-cu il), Dünya dini liderlərinin Bakı sammiti (26-27 aprel 2010) və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları (7-9 aprel 2011-ci

ildən I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan 2-3 may 2019-cu il tarixlərində Bakı şəhərində keçirilmiş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna qədər) xüsusilə qeyd edilməlidir. İSESKO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsində İSESKO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək diqqətə layıqdir. (10)

İSESKO-nun fəaliyyət istiqamətlərindən biri təhsil sahəsidir. Bu sahədə təşkilat Azərbaycanla sıx əməkdaşlıq edir. İSESKO 1988-ci ildə Omanda keçirilmiş III Baş konfransda İslam ölkələrində təhsilin inkişaf strategiyasını qəbul etmişdir. Bu nüfuzlu beynəlxalq təşkilatda ölkəmizi təmsil edən səlahiyyətli tərəfdaş orqan kimi Təhsil Nazirliyi tərəfindən müəyyən edilmişdir. Məhz buna görə də, İSESKO ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələri daha çox təhsil sahəsi ilə bağlıdır.

İSESKO ilə əməkdaşlığın istiqamətlərindən biri də Azərbaycanda ərəb dilinin tədrisi ənənələrini qorumaq, ərəb dili müəllimləri və mütəxəssislərinin hazırlıq səviyyəsinin yüksəldilməsinə yardım göstərməkdir. Bu məqsədlə 2005-ci ilin mayında Azərbaycanda İSESKO həftəsi çərçivəsində tədbirlər keçirilmişdir. 23-28 may 2005-ci il tarixlərində keçirilmiş bu həftədə Azərbaycanın ali və orta məktəblərində dərs deyən ərəb dili müəllimləri üçün təlim seminarları təşkil olunmuşdur. Beynəlxalq İslam Xeyriyyə Təşkilatının tərəfdaşı olduğu bu seminarların keçirilməsi üçün İSESKO-nun Təhsil Departamentinin rəhbəri doktor Mustafa Əl-Zebah Bakıda olmuşdur. Təlim seminarlarını uğurla başa vuran 35 ərəb dili müəlliminə xüsusi şəhadətnamələr verilmişdir. İSESKO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir (6).

İSESKO ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi (Bakı, 2006, sentyabr), Təhsil Nazirliyi (Bakı, 2007, aprel) və Heydər Əliyev Fondu (Bakı, 2007, may) arasında qarşılıqlı əməkdaşlıq haqqında protokolların imzalanması əlaqələrin inkişafına daha böyük təkan vermişdir. Heydər Əliyev Fondu ilə İSESKO arasında əməkdaşlıq 2005-ci ildən başlasa da, əməkdaşlıq haqqında protokol 2007-ci ildə imzalanmış və 5 il müddətinə əməkdaşlığın əsas prinsiplərini tənzimləyən protokol, hər iki qurum arasında sosial, mədəniyyət və təhsil sahələrində əlaqələrin inkişafını, birgə layihələrin işlənib həyata keçirilməsini, fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və İSESKO arasında imzalanmış əməkdaşlıq protokoluna (11 sentyabr 2006, Bakı) əsasən, qloballaşma proseslərində islam mədəni dəyərlərinin mühafizəsi, həmçinin İSESKO-nun üzv dövlətləri üçün mədəniyyət sahəsinin inkişaf məqsədlərini nəzərə alaraq, Şərqlə Qərbin kəsişməsində formalaşmış Azərbaycan mədəniyyətində islam komponentinin əhəmiyyətli olduğunu hesab edərək 7 maddədə əks olunmuş məlumat, sənədlər, tədqiqatlar və statistik məlumatların əldə olunması və istifadəsi üçün geniş imkanların yaradılmasında bir-birinə yardım etməyi, tərəflərin mütəxəssis və informasiya mübadiləsinin aparılması, İSESKO-nun baş qərargahında Azərbaycan mədəniyyət günlərinin, Azərbaycanda isə İSESKO həftəsinin keçirilməsi, teatr və konsert qastrollarının, incəsənət sərgilərinin təşkilini, turizmin, kinematoqrafiyanın qarşılıqlı surətdə inkişaf etdirilməsi və digər məsələlər barədə razılığa gəlinmişdir. Bu əməkdaşlıq protokolu 11 sentyabr 2006-cı ildə İKT-yə üzv olan ölkələrin turizm nazirlərinin Bakıda keçirilən V sessiyası zamanı imzalanmışdır. Konfransda Azərbaycanın işğal altında olan ərazilərindəki maddi və mənəvi mədəniyyət nümunələrinin dağıdılması, o cümlədən onlarca məscid, türbə, məktəb, mədəniyyət ocaqları, kitabxanalar, klublar və s. tikililərin erməni terroruna məruz qalması faktı müsəlman ölkələrinin turizm nazirlərinin yekun sənədinə daxil edilmiş və təcavüzkar ermənilərin tarixi Azərbaycan torpaqlarını tezliklə tərk etməsinə dair qətnamə də qəbul olunmuşdur.

2007-ci ilin 1-3 noyabr tarixində İKT-nin Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumunun təşəbbüsü, BMT İnkişaf Proqramı, Avropa Şurası və İSESCO-nun Heydər Əliyev Fondu ilə birgə həyata keçirdiyi "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans baş tutmuşdur. Məqsəd Azərbaycan gəncləri ilə müsəlman ölkələrinin gəncliyi arasında körpü yaratmaq və ümumislam gəncliyinin dünya siyasətinə inteqrasiyası baxımından beynəlxalq təşkilatlarla səmərəli işbirliyi məsələlərini gündəmə gətirmək idi. 2007-ci ilin payızında Liviyanın Tripoli şəhərində keçirilmiş İslam ölkələri mədəniyyət nazirlərinin V konfransında qəbul olunan qətnaməyə əsasən, Bakı şəhəri 2009-cu il üçün Asiya regionunda "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdir. İSESKO-nun dəstəyi ilə Bakı "İslam mədəniyyətinin paytaxtı" elan edildikdən sonra il boyu 100-dən artıq milli və beynəlxalq miqyaslı tədbir keçirilmişdir. Tədbirlər sırasında Azərbaycan Prezidenti İlham Əliyevin və İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycrinin iştirakı ilə keçirilən Mədəniyyət ilinin açılış mərasimi, Beynəlxalq muğam festivalı, Azərbaycanda Mərakeş Krallığının, Qətər dövlətinin, İordaniyanın Mədəniyyət günləri, Şərq-Qərb Beynəlxalq kino festivalı, Şərq-Qərb Beynəlxalq rəqs festivalı, Milli Kitabxana direktorlarının II konfransı, İslam Mətbəxi I Beynəlxalq kulinariya festivalı, I Bakı Beynəlxalq kitab sərgi-yarmarkası, "Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" mövzusunda Beynəlxalq İbn-Ərəbi simpoziumunu və başqa tədbirləri sadalamaq olar (8). Ümumiyyətlə, İKT ilə Azərbaycan Respublikası arasındakı əlaqələrin bütün tarixi boyu 2006-2007-ci illər tədbirlərin sayına və əlaqələrin səviyyəsində görə ən zəngin illər olmuşdur və KİV-lər bu dövrü "Azərbaycanda İKT ili" kimi qeyd etmişdir. 2006-ci ildə beynəlxalq konfranslar keçirilmiş, Azərbaycanın təşəbbüsü ilə İslam Konfransı Təşkilatının Gənclər Forumu yaradılmışdır.

İslam ölkələri mədəniyyət nazirlərinin V konfransında qəbul olunan qətnamədə əksini tapan digər bir məsələ İslam ölkələri mədəniyyət nazirlərinin növbəti VI toplantısının Bakıda keçirilməsi olmuşdur. Qarşılıqlı razılaşma əsasında 2009-cu il oktyabrın 13-də "Gülüstan" sarayında İslam Konfransı Təşkilatına üzv Dövlətlərin Mədəniyyət Nazirlərinin VI konfransı keçirilmişdir. Dünyanın 45-dən çox ölkəsindən, eləcə də İSESKO, İPSİKA, Avropa Şurası, TÜRKSOY və digər beynəlxalq təşkilatlardan konfransa 200-dən çox iştirakçı qatılmışdı. Konfransda Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam mədəniyyətinin paytaxtı" elan olunmasına dair qərar qəbul edilmişdir.

2008-ci il martın 3-4-də İSESKO-nun baş qərargahında (Rabat) Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. İslam dünyasının nüfuzlu təşkilatlarından birində ilk dəfə keçirilmiş bu tədbirdə təxminən 70 nəfərlik nümayəndə heyəti iştirak etmişdir. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin hazırladığı dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgi və zəngin konsert proqramı ilə Azərbaycan incəsənəti layiqincə təmsil edilmişdir. Keçirilən görüşlər zamanı Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında turizm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında 2 saziş imzalanmışdır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları – İSESKO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə sıx əməkdaşlıq edir. 2015-ci ilin noyabrında Bakıda İSESKO Baş Konfransının 12-ci sessiyası və İcraiyyə Şurasının 36-cı iclası keçirilmişdir. Sessiyada Azərbaycan növbəti 3 il müddətinə Baş Konfransın sədri seçilmişdir. Quruma sədrliyin uğurla həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, təşkilat ilə əməkdaşlığı səmərəli şəkildə əlaqələndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il yanvarın 14-də İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması haqqında sərəncam imzalamışdır (18).

Ötən il Mərakeş Krallığının paytaxtı ər-Rabatda keçirilmiş İslam Dünyası İrs Komitə-

sinin növbədənkənar iclasının yekun sənədinə əsasən, İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri İSESKO-nun İslam İrsi Siyahısına salınmışdır. İSESKO-nun irs və mədəniyyətlə bağlı yeni strategiyası İslam dünyasında mədəni və tarixi irsin qeydə alınması və qorunması sahəsində fəaliyyətin gücləndirilməsini hədəfləyir. Azərbaycanın milli mədəniyyətində İslam dəyərlərinin önəmli yer tutması, milli mədəniyyətimizin formalaşmasında və inkişafında İslam mədəniyyətinin əvəzsiz rol oynaması bu əməkdaşlığa bu gün də güclü stimul verir.

Sovet İttifaqının dağılması nəticəsində yaranan 5 türkdilli dövlətin ortaq tarixi və mədəniyyətini, onlar arasındakı əlaqələri inkişaf etdirmək üçün vahid bir təşkilatın yaradılması labüd idi. 1993-cü il 12 iyul tarixində Almatıda 6 türk dövlətinin mədəniyyət nazirləri tərəfindən imzalanmış protokol əsasında yaradılan Türk Mədəniyyəti və İncəsənətinin İnkişafı üzrə Beynəlxalq Təşkilat-TÜRKSOY türkdilli ölkələrin dövlət başçıları arasındakı əməkdaşlığın ilk praktiki nəticəsidir. (4, səh.9) 1994-cü ilin əvvəllərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "TÜRKSOY-un fəaliyyət strukturu və prinsipləri barədə müqavilə" layihəsi hazırlanaraq respublika hökumətinin təsdiqinə təqdim edilmişdir. Müqavilə layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 may 1994-cü il tarixli 216 saylı qərarı ilə təsdiq olunmuş və onun həyata keçirilməsi üçün müvafiq sərəncamlar verilmişdir. Elə həmin il dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubiley şənliklərinə məhz Türkiyədə başlanılması türk dünyası mədəniyyət və incəsənət xadimləri arasında ədəbi-mədəni əlaqələrin genişlənməsinə təkan vermişdir.

1993-cü ilin II yarısından sonra Azərbaycan dövləti tərəfindən TÜRKSOY-un fəaliyyətinə diqqətin artması tezliklə bu təşkilatın işində Azərbaycan Respublikasının rolunu xeyli gücləndirmişdir. TÜRKSOY-un V toplantısında (1994, 28 may-3 iyun, Bişkek, Çolpan-Ata) Polad Bülbüloğlu təşkilatın baş direktoru seçilmişdir. Əgər TÜRKSOY-un yarandığı ilk vaxtlarda təşkilatın fəaliyyətində əsas ağırlıq mərkəzi Türkiyənin üzərinə düşürdüsə, 1994-1995-ci illərdən başlayaraq ağırlıq mərkəzi həm də digər türk respublikalarının, xüsusən də Azərbaycanın üzərinə düşmüşdür. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə bağlı üç mühüm tədbirin (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin yekun tədbirləri) keçirilməsi artıq onu sübut edirdi ki, Azərbaycan türk dünyasının lider ölkələrindən birinə çevrilməkdədir. (11)

TÜRKSOY-un fəaliyyəti dövründə müxtəlif ənənələrin, mədəniyyət tədbirlərinin əsası qoyulmuşdur. 1994-cü il mart ayının 21-23-də TÜRKSOY-un TİKA (Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi) ilə birlikdə keçirdiyi Novruz bayramı Türkiyədə böyük maraqla qarşılanmış və hər ilin martında müntəzəm olaraq keçirilməkdədir. 1999-cu ildə TURKSOY-un təklifi ilə "Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi və YUNESKO-nun baş fəaliyyət proqramına daxil edilməsi, "Dədə Qorqud" ensiklopediyasının nəşr olunması mədəni əlaqələrin inkişafı yolunda atılan addımlardan idi.

TÜRKSOY İslam aləmi ilə əlaqədar Bakıda təşkil olunan qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların iştirakçısı olmuşdur. 2009-cu ildə Bakı "İslam mədəniyyəti paytaxtı" ilinin açılış tədbirlərində TÜRKSOY heyəti iştirak etmişdir.

TÜRKSOY yarandığı dövrdən üzv ölkələrin mədəniyyət və incəsənət xadimlərinin yaxınlaşmasına yardımçı olmuşdur. 2010-cu ildən başlayaraq hər il türk dünyasının bir dahi şəxsiyyətinin adına elan edilir, onunla bağlı silsilə tədbirlər keçirilir, kitablar çap olunur. 2012-ci il "Mirzə Fətəli Axundzadə ili", 2017-ci il "Molla Pənah Vaqif ili", 2019-cu il anadan olmasının 650-ci ildönümü ilə əlaqədar "Nəsimi" ili elan olunmuşdur. 2012-ci ildən etibarən türk dünyasının önəmli tarixi və mədəni şəhərləri türk dünyasının mədəniyyət paytaxtı

elan edilir. 2016-cı ildə Şəki şəhəri bu ada layiq görülmüş və il boyu TÜRKSOY-un tədbirlərinin bir çoxu məhz Şəkidə keçirilmişdir. 2013-cü ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyi ilə əlaqədar TÜRKSOY və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə əməkdaşlığı nəticəsində operettanın konsert versiyası YUNESKO səhnəsində göstərilmişdir. Bu layihədə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə opera sənətçiləri yer almışlar. Dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operası ilə bağlı həyata keçirilən layihə xüsusilə diqqətəlayiq olmuşdur. Bu layihədə üzv ölkələrin 6 opera teatrının 250 sənətçisi iştirak etmiş və 4 ölkənin 5 şəhərində (Bişkek, Almatı, Ankara, Bakı və İstanbul) tamaşalar böyük uğurla göstərilmişdir. 2017-ci ildə isə "İslam Həmrəyliyi ili"ndə Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə aprelin 12-də Bakıda keçirilmiş "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" mövzusunda beynəlxalq konfransda TÜRKSOY nümayəndə heyəti və qurumun baş katibi Düsen Kaseinov çıxış edərək, Azərbaycanın həm türk, həm də İslam mədəniyyətinə əvəzsiz töhfələr verdiyini vurğulamışdır.

Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təklifi ilə 2018-ci il azərbaycanlı bəstəkar, xalq artisti Qara Qarayev, qazax xalq şairi Mağjan Jumabayev və qırğız yazıçısı Çingiz Aytmatovun xatirəsinə "Anım ili" elan edilmişdir. 2018-ci ilin iyununda "Naxçıvan İslam mədəniyyətinin paytaxtı-2018" tədbirlərində TÜRKSOY-un nümayəndə heyəti də iştirak etmişdir.

Azərbaycan muzeyləri də beynəlxalq əməkdaşlığa maraq göstərən mədəniyyət qurumlarından biridir. Bu gün bir sıra Avropa ölkələri ilə Azərbaycan muzeyləri arasında müştərək layihələr həyata keçirilir, bu tədbirlər nəticəsində həm Azərbaycanın muzey irsi təbliğ olunur, həm də ölkə muzeyləri qabaqcıl dünya təcrübəsindən bəhrələnir. Azərbaycan muzey işi ilə bağlı bir sıra beynəlxalq qurumlarda təmsil olunur və 1992-ci ildən Beynəlxalq Muzeylər Şurasının (ICOM) üzvüdür. 1993-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsi təsis edilmişdir. Milli Komitə Azərbaycan muzeyləri ilə beynəlxalq muzeylər arasında Azərbaycanın mədəni irsinin tanıdılması məqsədilə sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Ötən illər ərzində YUNESKO-ICOM tərifindən Azərbaycanda 7 beynəlxalq miqyaslı konfrans, dəyirmi masa, seminar keçirilmişdir.

2012-ci il 24-26 sentyabr tarixlərində Bakıda "Muzey icmaları və dövlət qurumları arasında qeyri-maddi mədəni irsin mühafizəsi və inkişafı üzrə əməkdaşlıq" adlı beynəlxalq forum keçirilmişdir. Mədəniyyət və Turizm Nazirliyi, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Muzeylər Şurasının (ICOM) Azərbaycan Milli Komitəsi, "Azərbaycan Xalçaçıları" İctimai Birliyi və L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilmiş forumda Azərbaycan, Rusiya, Gürcüstan, Ukrayna ICOM Milli Komitələrinin nümayəndələri, həmçinin YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə ekspertləri iştirak etmişlər (7).

10-12 oktyabr 2018-ci il tarixlərində Bakıda Beynəlxalq Muzeylər Şurasının (ICOM) iki beynəlxalq komitəsinin – Dekorativ sənət, dizayn muzeyləri və kolleksiyaları (ICDAD), Tarixi ev muzeyləri üzrə komitələrinin (DEMHIST) "Dekorativ sənət və interyer" adlı konfransı baş tutmuşdur. Konfransa Azərbaycan, Avstriya, İtaliya, Portuqaliya, Almaniya, Livan, Niderland, Yaponiya, ABŞ, Hindistan, Misir, Çexiya, Gürcüstan və Türkiyədən olan nümayəndələr qatılmışdır. Tədbirdə Azərbaycana ilk dəfə səfər edən Beynəlxalq Muzeylər Şurasının (ICOM) prezidenti Suay Aksoy da iştirak etmişdir. Konfrans zamanı 23 yerli və xarici iştirakçının məruzələri dinlənilmiş, "Azərbaycan Xalça Muzeyinin kolleksiyasından bədii tikmələr" kitabının təqdimatı keçirilmişdir. Bu kitab YUNESCO-

nun "Üzv Dövlətlərin 2016-2017-ci illər üzrə İştirak Proqramı" çərçivəsində nəşr olunmuşdur.

Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar ölkənin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə də şərait yaratmışdır. BMT-nin Ümumdünya Turizm Təşkilatı ilə Azərbaycanın əlaqələri 2001-ci ildən, ölkənin quruma üzv olmasından sonra başlamışdır. Azərbaycan təşkilatın "Turizm naminə qlobal liderlər" kompaniyasına və "Bir milyard imkan, bir milyard turist" təşəbbüsünə qoşulmuşdur. Qurum öz növbəsində "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin tərtib edilməsində texniki yardım göstərmişdir. 2011-ci ilin 8-14 oktyabr tarixlərində Azərbaycan nümayəndəsi Cənubi Koreyanın Qyeonqcu şəhərində keçirilmiş Ümumdünya Turizm Təşkilatının 19-cu sessiyasının vitse-prezidenti vəzifəsinə seçilmişdir. 2012-ci ilin aprelində ilk dəfə olaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Ümumdünya Turizm Təşkilatı arasında "İpək yolu"nun dadı" adlı birgə layihənin gerçəkləşdirilməsi haqqında saziş imzalanmışdır. Bu ilk əməkdaşlıq sazişi XI Azərbaycan beynəlxalq "Turizm və səyahətlər" ("AITF-2012") sərgisi çərçivəsində reallaşmışdır. "İpək yolu"nun dadı" birgə layihəsinə əsasən, elə həmin ilin sentyabrında Bakıda "Qastronomiya, mədəniyyət və turizm" beynəlxalq konfransı keçirilmişdir. 2013-cü ildə təşkilatın Baş Assambleyasının 20-ci iclasında Azərbaycan Təşkilatın İcraiyyə Şurasına 2013-2017-ci illər üçün üzv seçilmişdir. İcraiyyə Şurasının 104-cü sessiyası zamanı Azərbaycan 2017-ci il üçün Təşkilatın İcraiyyə Şurasının sədri vəzifəsinə seçilmişdir. Baş Assambleyanın 22-ci sessiyası zamanı Azərbaycan 2018-ci il üçün yenidən İcraiyyə Şurasına üzv seçilmişdir. Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyası isə ötən il 6-18 iyun tarixlərində Bakıda keçirilmişdir. Tədbirdə dünyanın 37 ölkəsindən və bir sıra beynəlxalq təşkilatdan turizm sahəsi üzrə yüksək səviyyəli nümayəndələr iştirak etmişlər (19).

Müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edən Azərbaycan, bütün təşəbbüslərdə öz milli maraqlarını gerçəkləşdirir və bu təşkilatlarda ölkənin nüfuzu günü-gündən artır. Bunun nəticəsidir ki, ötən dövr ərzində Azərbaycan bir sıra regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilmiş, əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olmuşdur. Eyni zamanda ölkə 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edir. Bunu Azərbaycanın çox mühüm diplomatik uğuru kimi qiymətləndirmək lazımdır. Bütün ölkələrlə dostluğa və beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verən Azərbaycan, xarici siyasət kursunda bu münasibətlərin qurulmasını və inkişaf etdirilməsini prioritet istiqamətlərdən biri hesab edir.

**Ədəbiyyat:**


1. Abbasov N. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərinin inkişaf amilləri. Bakı, 2008, 239 s.
2. Azərbaycan-YUNESKO: insan hüquqlarına əsaslanan tərəfdaşlıq / BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman); red.heyəti: Süleymanova E.T. tərt. Rumzadə R.F. Bakı:, 2014, 287 s.
3. Əhədova S.A. Mədəniyyətlərin qarşılıqlı əlaqəsində YUNESKO-nun rolu. Bakı, 2014, 80 s.
4. Hüseynova F. TÜRKSOY – Türk xalqlarının mədəni inteqrasiyasının təzahürü kimi // "Mədəni-Maarif", 2006, №4, s.7-10.
5. Milli mədəniyyət siyasətlərinin icmalları üzrə Avropa proqramı. Azərbaycan Respublikasında mədəniyyət siyasəti: Avropa Şurasının "Stage" layihəsi: [məruzələr] Bakı, 2002, 142s.
6. "Azərbaycan müəllimi" qəzeti, 2010, 21 may, səh.3.
7. "Azərbaycan" qəzeti, 2012, 25 sentyabr, səh. 7.
8. "Azərbaycan" qəzeti, 2009, 20 oktyabr, səh.10.
9. "Xalq" qəzeti, 2012, 5 fevral.
10. "Xalq" qəzeti, 2019, 26 sentyabr, səh.3.
11. "Önər" jurnalı, Bakı 2002, fevral, №1.
12. TÜRKSOY-Azerbaycan. Azerbaycan Cumhuriyetinin bağımsızlığı yenidən kazanmasının 25 yıl dönümüne ithafen : TÜRKSOY un 2008-2016 yılları arasındakı Azerbaycan ilə ilgili faaliyetləri / yayına haz. E. Gafarlı ; türkçe edt. T. Koparan ; foto. G. Fedai, TÜRKSOY arşivi, 2016.
13. Аббасбейли А. Азербайджан в системе международных и региональных организаций. Баку, 1999, 256 с.
14. Грушевицкая Т.Г., Попков В.Д., Садохин А.П. Основы межкультурной коммуникации. М.:ЮНИТИ-ДАНА, 2003, 352 с.
15. https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2017/05/09/
16. http://unesco.preslib.az/az/page/HOThDqW7KJ
17. http://newtimes.az/az/relations/5953/27 dekabr/2018
18. https://president.az/articles/17466
19. https://tourism.gov.az/news/


***Açar sözlər:*** *beynəlxalq təşkilat, mədəni əməkdaşlıq, konfrans, layihə, komitə*

**Vusala Sharifova**
*PhD candidate, Department of International Relations and Foreign Affairs, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## COOPERATION OF THE REPUBLIC OF AZERBAIJAN WITH INTERNATIONAL ORGANIZATIONS IN THE ESTABLISHMENT AND DEVELOPMENT OF CULTURAL RELATIONS

### SUMMARY

The increase in the number of international organizations witnessed in the world today, shows that the interdependence of states is growing. The increase in the number of international organizations raises the issue of developing and strengthening multilateral cooperation between states.

Most importantly, international organizations provide an opportunity to influence the behavior of states in various fields. Taking into account these factors, Azerbaijan is always active within international organizations and pursues a policy aimed at ensuring national interests. After gaining independence, the Republic of Azerbaijan has become a member of a number of international organizations, most of which are due to the establishment of cultural ties. The article touches on the role of international organizations with which Azerbaijan closely cooperates in establishing these relations - the Council of Europe, UNESCO, ISESCO, TURKSOY and others, emphasizing the importance of relations with these international organizations in close integration into the world community

***Keywords:*** *Azerbaijan, UNESCO, ISESCO, international organizations, cultural cooperation, conference, project, committee*

**Вюсаля Шарифова**
*Докторант Международных отношений и внешней политики*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С МЕЖДУНАРОДНЫМИ ОРГАНИЗАЦИЯМИ В УСТАНОВЛЕНИИ И РАЗВИТИИ КУЛЬТУРНЫХ СВЯЗЕЙ

### РЕЗЮМЕ

В настоящее время в мире увеличивается количество международных организаций и этот факт показывает, что растет и взаимозависимость государств. Увеличение числа международных организаций актуализирует вопрос о развитии и укреплении многостороннего сотрудничества между государствами. Самое главное, международные организации дают возможность влиять на поведение государств в различных сферах. Учитывая эти факторы, Азербайджан постоянно осуществляет активную деятельность в международных организациях и проводит политику, направленную на обеспечение национальных интересов. После обретения независимости Азербайджанская Республика стала членом ряда международных организаций, большинство из которых было связано с установлением культурных связей. В статье затрагивается роль международных организаций, в частности Совета Европы, ЮНЕСКО, ИСЕСКО, ТЮРКСОЙ и др, с которыми Азербайджан тесно сотрудничает в установлении этих отношений, особо подчеркивается важность связей с этими международными организациями в тесной интеграции страны в мировое сообщество.

***Ключевые слова:*** *Азербайджан, ЮНЕСКО, ИСЕСКО, международная организация, культурное сотрудничество, конференция, проект, комитет*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *"Azərbaycanın siyasi təlimlər tarixi" adlı dərslik nəşr olunmuşdur*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Fəlsəfə və sosial psixologiya" kafedrasının müəllimləri dosent Sakit Əliyev və dosent Cahangir Cahangirlinin həmmüəllif olduqları "Azərbaycanın siyasi təlimlər tarixi" adlı dərslik nəşr olunmuşdur.

Dərslik iki bölmədən ibarətdir:

"Azərbaycanın qədim və orta əsrlər dövründə siyasi ideyalar" adlanan birinci bölməyə doqquz mövzu daxildir. Bu bölmə Azərbaycanın ən qədim dövrlərindən başlayaraq XIX əsrə qədər olan dövrünü əhatə edir. Birinci bölmədə Azərbaycanda siyasi ideyaların meydana gəlməsi, təşəkkülü və inkişafı ilə bağlı məsələlər öz əksini tapmışdır. Əsasən, Azərbaycanın şifahi xalq ədəbiyyatında, müxtəlif dini dünyagörüşlərində, xüsusilə də zərdüştlüyün müqəddəs kitabı "Avesta"da, İslamın müqəddəs kitabı "Quran"da, müxtəlif ictimai-siyasi cərəyanlarda, ayrı-ayrı dövrlərdə yaşamış görkəmli mütəfəkkirlərin baxışlarında olan ictimai-siyasi ideyaların şərhinə geniş yer verilmişdir.

Dərsliyin ikinci bölməsi "Azərbaycanın yeni və ən yeni dövrlərində siyasi təlimlərin formalaşması" adlanır. Səkkiz mövzudan ibarət olan ikinci bölmə XIX əsrin əvvəllərindən bugünümüzədək olan dövrü əhatə edir.

Dərslikdə Azərbaycan xalqının ən qədim dövrlərdən başlayaraq indiyədək siyasi ideyaları, təlimləri və baxışlarının əsas inkişaf mərhələlərinin qısa təhlili və şərhi verilmişdir. Azərbaycanda müxtəlif dövrlərdə yaşayıb-yaratmış ayrı-ayrı mütəfəkkirlərin, filosofların, tarixçilərin və dövlət xadimlərinin ictimai-siyasi baxışları, onların ideya və təlimlərinin özünəməxsus xüsusiyyətləri göstərilmişdir. Dərslik hazırlanarkən Azərbaycanın ictimai-siyasi fikir tarixi ilə bağlı sovet dövründə buraxılmış nöqsanların və qəsdən edilmiş təhriflərin aradan qaldırılmasına, hadisə və proseslərə obyektiv yanaşılmasına cəhd edilmişdir.

Dərslik ali təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan bakalavrlar üçün nəzərdə tutulmuşdur.

## *Dövlət İdarəçilik Akademiyası Beynəlxalq Konfransda təmsil olunub*

İnzibati İdatəetmə fakültəsinin dekanı prof. Xatirə Huseynova 20-22 avqust 2020-ci il tarixində virtual olaraq "Nyu-York Şəhər Universiteti"nin və "İqtisadi Araşdırma və Biznes Mərkəzi "nin birgə təşkilatçılığı ilə keçirilmiş "İqtisadiyyat və biznesin inkişafı " IX Beynəlxalq Konfrasında əsas məruzəçi kimi iştirak etmişdir.

## *DİA-nın dosenti Rəcəb Rəhimlinin məqaləsi "Web of Science" kolleksiyasında*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Elmi Təşkilat və beynəlxalq münasibətlər" şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimlinin "Performance appraisal of civil servants for human capacity development in Azerbaijan (Azərbaycanda insan potensialının inkişafı naminə dövlət qulluqçularının qiymətləndirilməsi)" məqaləsi Kubada nəşr olunan "Universidad y Sociedad/ Realidades comparadas en América Latina y Eurasia/ Vol. 12 Núm. 2. 2020." (https://rus.ucf.edu.cu/index.php/rus/article/view/1546/1556) nüfuzlu elmi jurnalında işıq üzü görüb. Web of Science Core kolleksiyasında indekslənmiş elmi məqalədə fərqli zaman və məkanlarda aktuallıq kəsb edən prioritet məsələ sayılan dövlət qulluğu sisteminin təkmilləşdirilməsi, siyasi və praktiki cəhətdən əhəmiyyətli olan xidməti fəaliyyətin qiymətləndirilməsi, səmərəli idarəetmənin elementi kimi kadr potensialının qiymətləndirilməsi və bunun əsasında

insan potensialının gücləndiriməsi məsələlərindən bəhs olunub, innovativ yanaşmaların tətbiqinin səmərəliliyə təsiri dəyərləndirilib və müvafiq tövsiyələr müəyyənləşdirilib. Maraqlı müqayisələrin yer aldığı və müasir, keyfiyyətli araşdırma metodlarından istifadə olunan elmi məqalədəki tezislər dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin artırılması baxımından olduqca faydalıdır.

***"Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları akademik Urxan Ələkbərovla görüşüblər***

Gənclər və İdman Nazirliyi və Heydər Əliyev Mərkəzinin 2019-cu ildən həyata keçirdiyi "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları bu dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərovla görüşdülər.

Açılış nitqi ilə çıxış edən Gənclər və İdman nazirinin müavini İntiqam Babayev Heydər Əliyev Mərkəzinin Gənclər və İdman Nazirliyi ilə birlikdə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramını 2019-cu ildən başlayaraq həyata keçirilməsinə başladığını, 2020-ci il üzrə proqramda iştirak etmək üçün 40 rayon və şəhərdən 350-dən artıq gəncin müraciət etdiyini bildirib.

Nazir müavini qeyd edib ki, rəhbər şəxslərlə görüşlərin məqsədi gənclərin dünya görüşünün formalaşması, müxtəlif sahələr üzrə həyata keçirilən dövlət siyasəti və gələcəyə baxış barədə daha ətraflı məlumatlandırılmasıdır.

Sonra U.Əlkəbərov barədə məlumat verən İ.Babayev, rektorun 320-dən artıq əsərinin, o cümlədən, 34 kitab və dərsliklərin müəllifi olduğunu bildirib. Vurğulanıb ki, Urxan Ələkbərov ətraf mühitin təbii, iqtisadi, sosial və siyasi komponentlərdən ibarət vahid sistem kimi idarə edilməsi, elm və inkişafın planlaşdırılması və idarə edilməsi sahəsində dünyada tanınmış alim və inkişaf üzrə ekspert, "Yaşıl" təfəkkür (demoqrafiya və istehlak mədəniyyəti) və "yaşıl" iiqtisadiyyata əsaslanan ekoloji sivilizasiya konsepsiyasının (1998) müəllifidirdir.

Görüşdə akademik Urxan Ələkbərov "Qlobal çağrışlar şəraitində yeni idarəçilik texnologiyaları: Azərbaycan Respublikasının uğurlu təcrübəsi" mövzusunda beynəlxalq qurumların hesabatlarına əsasən geniş və təhlil olunmuş təqdimatla çıxış edib. Təqdimatda Ümummilli lider Heydər Əliyevin dövlət idarəçilyində rolu və vaxtında verilmiş əhəmiyyətli qərarlar, prezident İlham Əliyevin həyata keçiridiyi uğurlar siyasətin rəqəmlərdə ifadəsi iştirakçılara təqdim edildi.

Təqdimatda uğurlu inkişafa təsir edən amillər, təbii sərvətlərin zənginliyinin inkişafa təsiri, qlobal inkişafa neqativ tendensiyalar: BMT təsnifatı, Azərbaycandan və dünyada davamlı insan potensialına əsaslanan inkişafın tədrisi xronologiyası, inklüziv inkişafın idarəedilməsi sahəsində Azərbaycanın liderliyi, Azərbaycanda ÜDM-in artımı, ÜDM-in inkişafına sərf edilən erenji, Gini indeksi və Azərbaycan, Kvintil nisbəti, yeni idarəetmə texnologiyalarının (sinergetik, komplementar, kompensasion) tətbiqində Azərbaycanın uğurlu tərcübəsi, Heydər Əliyev Fondu və UNESKO-nun sənədlərində Azərbaycanın qeyri-maddi mədəni irisi, iqtisadi inkişaf və sosial siyasət və s. istqiamətlər üzrə faktlar və rəqəmlər təqdi edilib.

Sonda U.Ələkbərov görüş içtirakçılarını maraqandıran sulları cavablandırmşdır.

Qeyd: Proqramın həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının Tədbirlər Planının 5.1.1-ci yarımbəndinin (ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ olunması) icrasını əhatə edir.

***Bu gun əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, 1999-2010 cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektou olmuş Seyfəddin Qəndilovun 90 yaşı tamam olur.***

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, 1999-2010 cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru olmuş Seyfəddin Qəndilovun 26 sentyabr 1930- ci ilde anadan olmuşdur.

Seyfəddin Mirtağı oğlu Qəndilov 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, 1953-1956-cı illərdə aspiranturada təhsilini davam etdirmiş, 1958-ci ildə namizədlik və 1967-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1969-cu ildə professor, sonrakı illərdə "Respublikanın Əməkdar Təbliğatçısı" və "Respublikanın Əməkdar Elm Xadimi" fəxri adlarına layiq görülmüşdür.

Professor Seyfəddin Qəndilov uzun illər tarixçi-politoloq kimi dərin siyasi biliyi, elmi-pedaqoji səriştəsi, təşkilatçılıq qabiliyyəti ilə tanınan mütəxəssis olmuşdur. O, müxtəlif illərdə ali məktəblərdə kafedra müdiri vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə prof. S.Qəndilov 1999-cu il fevralın 19-da Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, 2001-ci il oktyabrın 1-də isə Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü təyin edilmişdir. O, dəfələrlə mötəbər beynəlxalq konfrans və elmi simpoziumlarda Azərbaycanı təmsil etmiş, müxtəlif elmi-metodiki və siyasi problemlərə dair məruzə və mühazirələrlə çıxış etmişdir. S.Qəndilov tanınmış ziyalı və ictimaiyyətçi alim kimi də ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

Professor S.Qəndilovun təşkilatçılığı və rəhbərliyi altında kadr hazırlığı istiqamətində mühüm işlər görülmüşdür.

Allah rəhmət eləsin!

**MÜNDƏRİCAT**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................33

Qobustan, İsmayıllı, Balakən, Şəki və Qəbələ rayonlarına səfər .........................33
Sumqayıt şəhərinə səfər ........................................................................................46

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**..........................................................................................49

Təhlükəsizlik Şurasının iclasında İlham Əliyevin nitqi ..............................................49

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin giriş nitqi...................................50

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi ...............................57

Şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində İlham Əliyevin nitqi ..........................................................................................58

Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə İlham Əliyevin giriş nitqi.....................63

Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə İlham Əliyevin yekun nitqi .................65

Koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı müşavirədə İlham Əliyevin giriş nitqi ..........................................................................66

Koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı müşavirədə İlham Əliyevin yekun nitqi ........................................................................68

Koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli növbəti hospitalın açılışında İlham Əliyevin nitqi .................................................................................................71

"Rossiya-24" və "Rossiya-1" televiziya kanallarının reportajlarında İlham Əliyevin müsahibəsi təqdim edilib ...........................................................................74

MT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında İlham Əliyevin nitqi ......................75

Balaxanı sakinləri ilə görüşdə İlham Əliyevin nitqi ...................................................................77

BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında İlham Əliyevin nitqi ..........78
Təhlükəsizlik Şurasının iclasında İlham Əliyevin nitqi ..............................................................82

"COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında İlham Əliyevin nitqi ...............................................................................83

İlham Əliyev “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında sualları cavablandırıb .........84

Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşdə İlham Əliyevin nitqi ........................................................................................86

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Elman Nəsirov.** Mehriban Əliyeva: adı imzası olan şəxsiyyət ..................................................89

**KONSTİTUSİYA HÜQUQU**

**Ceyhun Qaracayev.** Məhkəmə prosesində konstitusiya prinsipləri və dəyərləri ......................101

**SOSİAL FƏLSƏFƏ**

**İlham Məmmədzadə, Zemfira Məmmədzadə.** Tarixi yaddaşın tədqiqinin bəzi fəlsəfi problemləri.......................................................................................................113

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Elchin Ahmadov.** Indicators of Azerbaijan’s dynamic development: successes and achievements ..........................................................................................121

**VƏTƏN TARİXİ**

**Nuru Məmmədov.** Böyük ictimai-siyasi və dövlət xadimi Nəriman Nərimanov......................129

**Emin Şıxaliyev.** Ermənistan dövlətinin yaradılması və Azərbaycana təsiri: tarix, müasir dövr, qlobal maraqlar və yeni geosiyasi reallıq ....................................................137

**Rəna Bayramova.** Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınması – 100 ..149

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Ramil Şükürov, Əhməd Hüseynov, Hazim Hodziç.** Dövlətin sülhməramlı əməliyyatlarda iştirakı: Müfəssəl qərar dəstək modeli ..........................................................................159

**Xəyyam İsmayılzadə.** Azərbaycan-Finlandiya: qarşılıqlı faydalı əməkdaşlıqda siyasi-iqtisadi aspektlər .................................................................................................187

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Адиль Султанов.** К вопросу трактовок категории устойчивое развитие..........................197

**SOSİAL FƏLSƏFƏ**

**Лейли Гулиева.** Этно-национальное разнообразие в Азербайджане и проблемы мультикультурализма...........................................................................207

**CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA; CƏZA-İCRA HÜQUQU**

**Qəhrəman Cəfərov.** Cinayət-prosessual hüququn publiklik və dispozitivlik prinsiplərinə həsr edilmiş müasir tədqiqatların analitik icmalı ....................215

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Нураддин Ибрагимов.** Особенности института президентства в США и Азербайджанской Республике ....................225

**DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ**

**Rahib Əkbərov.** Azərbaycanda publik hüquqi şəxs institutunun inkişaf tarixinə dair (son orta əsrlər) ....................235

**KONSTİTUSİYA HÜQUQU**

**Gülşən Cəbi.** Ədalət anlayışı hüquqi müstəvidə ....................243

**GƏNC TƏDQİQATÇILAR**

**KONSTİTUSİYA HÜQUQU**

**Elşad Həsənov.** Qanunvericilik hakimiyyəti ilə bağlı ideyaların formalaşması və inkişafı.......251

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Günay Məmmədli.** Xəzər hövzəsinin enerji resurslarının qiymətləndirilməsi....................263

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Лала Талыбова.** Теоретические вопросы национальной безопасности США в американо-российских отношениях....................271

**Ramil Allahverdiyev.** Enerji və nəqliyyat lahiyələrinin təhlükəsizliyi NATO və Azərbaycanın hərbi strategiyasında ....................281

**Ульвия Бабазаде.** Возможности современных СМИ в сфере информационной войны...297

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Fəridə Əlirzayeva.** Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın əsas hədəfləri və onun həyata keçirilməsi vasitələri ....................305

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Vüsalə Şərifova.** Mədəni əlaqələrin qurulması və inkişafında Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı ....................313

**Dövlət İdarəçilik Akademiyasında** ....................327

**“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2020, №3(71)**


Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.


Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

“Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Sifariş ... Tiraj 1000.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2020, №3(71)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
«Tahsil Publishing-Polygraphy»
Order ........ Number of copies printed 1000.